# HEYDƏR ƏLİYEV VƏ ÇİN

# 盖达尔·阿利耶夫和中国

**Bakı**
**MÜTƏRCİM**
**2021**

**Tərtibçi:**

**Rafiq ABBASOV**
*Azərbaycan Dillər Universiteti nəzdində*
*Konfutsi İnstitutunun direktoru*
责任编辑
阿塞拜疆语言大学孔子学院主任 拉菲克。阿巴所夫

**Heydər Əliyev və Çin** *(çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər).* **盖达尔·阿利耶夫和中国**
– Bakı: Mütərcim, 2021. – 224 səh.

*Kitabda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-2003-cu illər ərzində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ikitərəfli siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafı sahəsində çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər əks olunmuşdur.*

ISBN: 978-9952-37-215-1

© R.I.Abbasov, 2021

# ÖN SÖZ

1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Bu dövrdən başlayaraq həyata keçirilən xarici siyasətimiz məhz Ümummilli Liderin adı və fəaliyyəti ilə bağlıdır. Özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq dövlətimizin yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirən Prezident Heydər Əliyevin bu yeniləşmiş xarici siyasət xəttində, ilk növbədə, bir sıra ən mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdu. Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq, xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq, respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Ona görə də yeni xarici siyasət xətti üçün hər şeydən əvvəl müharibə dayandırılmalı və dinc şərait təmin edilməli idi. Bu məqsədlə 1994-cü ilin mayında Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaradılması yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı. Müstəqilliyini bərpa etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin müvəffəqiyyətlə həll olunması ölkəmizin beynəlxalq aləmdəki mövqeyi və ayrı-ayrı ölkələrlə milli dövlət maraqlarına cavab

verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlı idi. Bu mənada Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan Avropa və Şərq dövlətləri və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edirdi. Məhz buna görə də dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmağa çalışan və müstəqilliyinin ilk addımlarını atan, eləcə də Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiya, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən beynəlxalq və regional təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi ümummilli lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil edib. Ümummilli lider Heydər Əliyev xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə çox böyük diqqət yetirirdi. Azərbaycanın beynəlxalq təşkilatlara üzv olması ilə yanaşı, onların işlərində fəal surətdə iştirak etməsi və səmərəli əməkdaşlıq ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb edirdi. 1993-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəmizdə siyasi hakimiyyətə qayıdışı ilə xarici siyasətdə yeni bir mərhələ başlanmışdır. Bu mərhələ dünyanın geosiyasi güclərinin strateji və iqtisadi maraqlarının kəsişdiyi regionda yerləşən Azərbaycanın xilası mərhələsi idi. Ulu öndər Heydər Əliyev dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı faydalı əlaqələrin qurulmasını prioritet istiqamət kimi irəli sürərək regionda yerləşən iri güc mərkəzləri ilə münasibətləri yaxşılaşdırmış, eyni zamanda Azərbaycanın Qərb dövlətləri (ABŞ və Avropa dövlətləri) ilə inkişaf edən əlaqələrinin daha praqmatik xarakter almasını təmin etmişdir. Hələ 1993-cü il oktyabr ayının

10-da Prezident seçilməsi ilə bağlı keçirilən andiçmə mərasimində ümummilli lider Heydər Əliyev xarici siyasətin məhz bu prinsiplərə əsaslanacağına işarə etmişdi. Xalqımızın böyük oğlu Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk illərdən başlayaraq xarici dövlətlərlə əlaqələr tərəflərin mənafelərinin tarazlığı, qarşılıqlı təminatı üzərində qurulmuşdur. Sovet İttifaqının dağılmasından sonra Qafqaz uğrunda yenidən nüfuz mübarizəsinə qoşulmuş Avropa ölkələri və ABŞ-la, postsovet ölkələri ilə, o cümlədən tezliklə keçmiş nüfuzunu özünə qaytarmaq niyyətində olan Rusiya, Qərblə açıq qarşıdurma şəraitində olan İran, müsəlman dünyası, türkdilli dövlətlər və Türkiyə, yeni dünya liderliyinə iddialı olan Çin, Yaponiya kimi ölkələrlə əlaqələrin normal məcraya yönəldilməsi məqsədilə xarici əlaqələrin prioritetləri müəyyənləşdirilmişdir. Balanslaşdırılmış xarici siyasət xəttinin yürüdülməsi yeni qurulmaqda olan Azərbaycan dövlətinin güclənməsi, siyasi, iqtisadi və hərbi gücünü bərpa etməsi üçün ən ideal yol idi. Məlumdur ki, iqtisadi müstəqilliyi təmin etmədən, hərbi qüdrətə sahib olmadan siyasi müstəqilliyin uzunmüddətli qorunub saxlanılması qeyri-mümkündür. Heydər Əliyevin xarici siyasət xətti: müstəqil Azərbaycanın beynəlxalq aləmdə tanınması, beynəlxalq aləmdə mövqelərinin möhkəmlən-məsinə, ikitərəfli və çoxtərəfli münasibətlərin gücləndirilməsinə, mövcud problemlərin həllinə yönəlir. Dövlətçiliyin, müstəqilliyin qorunması, milli təhlükəsizliyin təmin olunması xarici siyasətdə mühüm istiqamətlər kimi nəzərdən keçirilir. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ölkəmizin yaşadığı tarixə nəzər salsaq, çoxlu sayda uğurların qazanılmasının şahidi olarıq. Respublikamızın əldə etdiyi nailiyyətlər onun beynəlxalq aləmdəki nüfuzunu getdikcə yüksəltmiş və dünyanın qüdrətli dövlətləri cərgəsinə qoşmuşdur. Xarici siyasət sahəsində əldə olunan uğurlar Azərbaycanın Avropaya və dünya birliyinə inteq-

rasiyasını daha da sürətləndirmişdir. Bu gün ölkəmiz beynəlxalq təşkilatların fəal üzvüdür. Azərbaycanla daha da sıx münasibətlər qurmaq istəyən ölkələrin sayı ildən-ilə artır. Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məntiqli xarici siyasət dövlətimizi beynəlxalq aləmdə söz sahibi etmişdir. Bugünkü qüdrətli Azərbaycan Respublikasının milli və dövlətçilik baxımından maraqlarına yüksək səviyyədə cavab verən xarici siyasət strategiyasının əsas istiqamətlərini Ulu Öndər Heydər Əliyev müəyyənləşdirmişdir. Bu kursun əsas vəzifəsi dövlət müstəqilliyimizi qorumaq və möhkəmləndirmək, ölkənin təhlükəsizliyini, milli dövlətçilik hüquqlarını təmin etmək və beynəlxalq təhlükəsizlik sistemi ilə bağlamaqdan ibarətdir. Bu prioritetlər bu gün də Azərbaycanın xarici siyasət kursunun əsas vəzifələrindən birini təşkil edir. Daha bir əhəmiyyətli məqam isə budur ki, ölkəmizin xarici siyasət prioritetlərinin uğurlu yön alması üçün məhz daxili siyasətin formalaşdırılması xüsusi kontekst kimi nəzərdə tutulur. Daha dəqiq desək, dövlətin daxili siyasəti xalqın ümumi rəyi əsasında yaradılmış Konstitusiya əsasında onun müstəqil bir varlıq kimi yaşaması, fəaliyyətinə, ictimai-siyasi, iqtisadi və mənəvi həyatın bütün sahələrində təmsil etdiyi vətəndaşların maddi və mənəvi tələbatının fasiləsiz təmin edilməsinə yönəldilir. Xarici siyasət isə bu vəzifələrin yerinə yetirilməsi, habelə öz ərazisində qanunverici, icraedici və məhkəmə hakimiyyətinin kənar müdaxilə olmadan həyata keçirilməsi məqsədilə təhlükəsiz və əlverişli beynəlxalq şəraitin təmin edilməsinə; ayrı-ayrı dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığa, iqtisadi, siyasi, sosial və mədəni həyatın bütün sahələrində əldə edilmiş beynəlxalq təcrübələrin mənimsənilməsinə, qarşıya çıxan problemlərin aradan qaldırılması dövlətlərin səylərinin birləşdirilməsinə və s. xidmət edir. Beləliklə, ölkə daxilində cərəyan edən proseslərdən, habelə qarşıya qoyulan məqsəd və vəzifələrdən irəli

gələn ümumi siyasi xətt dövlətin beynəlxalq münasibətlər sistemindəki mövqeyinin və xarici siyasətin istiqamətlərinin anlayışını şərtləndirir. Bu baxımdan, xarici siyasət faktorunu dövlətin daxili inkişafının əsas vəzifələrindən irəli gələn uzlaşdırılmış münasibətlər sistemi yaratmağa xidmət edən məqsədyönlü və mühüm faktor kimi xarakterizə etmək mümkündür. Bu gün müstəqil Azərbaycan dövlətində bu kimi amillər nəzərə alınaraq, uğurlu xarici siyasət aparılmaqdadır. Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətinin xarici siyasətində rəhbər tutduğu monolit əsaslar 1993-cü il oktyabr ayının 10-da keçirilmiş andiçmə mərasimində Ulu Öndər Heydər Əliyev geniş nitq söyləyərək ölkəmizin bütün sahələrdə, o cümlədən, xarici siyasət sahəsində qarşıda duran vəzifələrdən danışmış və qeyd etmişdir ki: "Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir". Tarixən Azərbaycanın əlverişli geostrateji və coğrafi mövqeyi ona həm Şərq-Qərb, həm də Şimal-Cənub əlaqələrində əsas körpü kimi çıxış etməyə imkan verib. Lakin müstəqil dövlətin olmaması və müstəqil siyasətin yürüdülməməsi səbəbindən bu əlverişli mövqedən Azərbaycanın maraqlarına uyğun şəkildə istifadə etmək mümkün olmamışdı. Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişindən sonra Azərbaycan bu imkandan yararlanmağa başlamışdır. Bu gün ölkənin istər regionda, istərsə də ümumilikdə dünyada tutduğu mövqe və rola nəzər salanda tam əminliklə söyləmək olar ki, Heydər Əliyevin

uzaqgörən siyasəti nəticəsində Azərbaycan öz tarixi missiyasını yerinə yetirmək imkanı əldə edib. Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra respublikanın beynəlxalq əhəmiyyətli qlobal nəqliyyat-kommunikasiya xəttlərinin kəsişdiyi əlverişli coğrafi məkanda yerləşməsini nəzərə alaraq, Azərbaycanda bu sahənin yenidən qurulması və modernləşdirilməsini iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindən biri kimi müəyyənləşdirdi. Vaxtilə regionda və ümumilikdə dünyada gedən qlobal prosesləri nəzərə alan Heydər Əliyev Azərbaycanın beynəlxalq inteqrasiya prosesində iştirakı baxımından olduqca vacib olan transmilli yükdaşımaya, nəqliyyat-kommunikasiya dəhlizlərinin yaradılması prosesinə xüsusi önəm verirdi və Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrini birmənalı şəkildə dəstəkləyirdi. Məlum olduğu kimi, nəqliyyat dəhlizlərini və kommunikasiyalarını bəzən həyat arteriyası adlandırırlar. Çünki bunlar olmadan, zəngin təbii resurslara malik dövlətlər belə iqtisadiyyatının dirçəlişi və inkişafını təmin edə, dünya ölkələri ilə sərbəst ticarət əlaqələri qura bilməz. Odur ki, nəqliyyat-yükdaşıma sisteminə nəzarət etmək xarici ticarətə təsir imkanlarını əlində saxlamaq dünyada bu günün əsas geostrateji tələblərindəndir. Təsadüfi deyil ki, müxtəlif geosiyasi güc mərkəzləri arasında gedən beynəlxalq rəqabət yalnız təbii ehtiyatlar deyil, həm də bu ehtiyatları dünya bazarlarına çıxaracaq vasitələr – nəqliyyat dəhlizləri və kommunikasiyalar uğrunda aparılır. SSRİ-nin dağılması və vaxtilə Sovet İttifaqının tərkibinə daxil olan respublikaların müstəqillik qazanmasından sonra Şərq-Qərb nəqliyyat-kommunikasiya və enerji dəhlizləri məsələsi daha aktual xarakter aldı. Regionu nəzarətində saxlamağa və alternativ enerji dəhlizlərinin yaranmasına mane olmağa çalışan Rusiyanın müqavimətinə baxmayaraq, Amerika Birləşmiş Ştatları və Avropa İttifaqı bu istiqamətdə səylərini aktivləşdirdilər. Onlar

TRASEKA adlanan layihə çərçivəsində Avropanı Asiya ilə birləşdirən nəqliyyat-kommunikasiya sisteminin qurulmasına, şərti olaraq "Böyük İpək yolu" adlandırılan transmilli layihənin həyata keçirilməsinə başladılar. Azərbaycanın əlverişli coğrafi mövqeyi, bu nəqliyyat dəhlizinin əsas məntəqələrindən biri kimi çıxış etməsi və Prezident Heydər Əliyevin Şərq-Qərb nəqliyyat-kommunikasiya və enerji dəhlizləri məsələsində tutduğu prinsipial mövqe və yürütdüyü uzaqgörən xarici iqtisadi siyasət, TRASEKA layihəsinin reallaşmasına mühüm töhfə verdi. TRASEKA layihəsi üzrə ən mühüm tədbir – beynəlxalq konfrans da məhz Heydər Əliyevin diplomatik səyləri ilə 1998-ci ilin sentyabrında Bakıda keçirilib. Həmin konfransda 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndələri layihənin reallaşdırılmasının texniki və iqtisadi tərəflərini özündə əks etdirən "Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas saziş" (Əsas Saziş) adlanan mühüm sənədi imzalayıblar. Bu sənədin ərsəyə gəlməsində də Heydər Əliyevin əvəzsiz xidmətləri olub. Təsadüfi deyil ki, TRASEKA hökumətlərarası komissiyasının daimi katibliyinin mənzil-qərargahı da Bakı şəhərində yerləşir. 21 fevral 2001-ci ildən Bakıda fəaliyyətə başlayan TRASEKA hökumətlərarası komissiyası daimi katibliyinin ofisi "Böyük İpək Yolu" boyunca hərəkət edən beynəlxalq yüklərin daşınma və hərəkətini tənzimləmək, Əsas Sazişə qoşulan ölkələrdə qanunvericilik və maliyyə-iqtisadi mühitlə bağlı məsələlərin həll edilməsinə kömək məqsədilə yaradılıb. Avropa-Qafqaz-Asiya ölkələri arasında yüklərin daşınmasını təmin edən bu layihə keçən illərdə Azərbaycan iqtisadiyyatının inkişafında, nəqliyyat infrastrukturunun formalaşmasında ciddi rol oynayıb. Şərqlə Qərb arasında körpü rolunu oynayan Azərbaycanın Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsində aparıcı yer tut-

ması respublikanın dünya ölkələri ilə inteqrasiyasının daha da dərinləşməsinə xidmət edir. Bu isə nəinki iqtisadi, həm də siyasi sabitlik və təhlükəsizlik baxımından böyük əhəmiyyətə malikdir. Bundan başqa, TRASEKA layihəsi Avropa ilə Asiya arasında nəqliyyat yolunu qısaltmaqla, külli miqdarda vəsaitə qənaət etmək imkanı yaradır. Bu gün Azərbaycanın Avropanın nəqliyyat-kommunikasiya, yükdaşımaları və enerji təhlükəsizliyində mühüm rol oynadığı hamı tərəfindən birmənalı etiraf olunur. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev ilk günlərdən Azərbaycanın xarici siyasətini yeniləşdirdi və ölkənin strateji maraqları əsasında yenidən qurdu. Ulu öndər, ilk növbədə keçmiş hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Hələ Milli Məclisin sədri seçilərkən Heydər Əliyev xarici siyasətin başlıca vəzifələrini və istiqamətlərini müəyyənləşdirdi: "Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır". Heydər Əliyev son illərdə Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğuladı. O, özünütəcrid xəttinin acı nəti-

cəsi kimi dünyanın Azərbaycanı tanımamasını, problemlərimizi bilməməsini, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti "özümüzün özümüzə vurduğumuz zərbə" adlandırırdı. Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının vacibliyini vurğulayan Heydər Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi. Xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Azərbaycanın xarici siyasətində fəal istiqamətlərdən biri Şərqdir. XXI əsrdə Asiya-Sakit okean bölgəsinin dünya siyasətində rolu xeyli artmalıdır. Azərbaycanı Mərkəzi Asiya ilə həm də etnik və mədəni yaxınlıq birləşdirir. Ölkəmiz tarixdə İpək Yolunun əsas məntəqələrindən biri kimi də geosiyasi və mədəni imic qazanıb. Bu faktorlar kompleks halda Azərbaycanın xarici siyasətində Asiya-Sakit okean istiqamətinin də mühüm yer tutmasını şərtləndirir. Bu prosesdə, şübhəsiz ki, Mərkəzi Asiya regionunun xüsusi yeri vardır. Azərbaycan həmin dövlətlərlə aktiv əməkdaşlıq siyasətini yeridir ki, bu da Uzaq Şərq istiqamətində əməkdaşlığı gücləndirmək üçün meydan rolunu oynaya bilər. Azərbaycan beynəlxalq əlaqələr sisteminə cəlb olunan bütün dövlətlərə münasibətdə onların ərazi böyüklüyü, hərbi gücü və iqtisadi potensialından asılı olmayaraq, dövlətlərin suveren bərabərliyi prinsipinə əsaslanan praqmatik xarici siyasət həyata keçirir. Şəffaflıq və öncədən müəyyənləşdirmə Azərbaycanın xarici siyasətini səciyyələndirən əsas xüsusiyyətlərdir. Azərbaycan bütün ölkələrlə dostluq və qarşılıqlı səmərəli ikitərəfli və çoxtərəfli əlaqələrini inkişaf etdirməklə öz regionunda və onun sərhədlərindən kənarda sülh içində birgə

yaşama və mehriban qonşuluğu təşviq edir. Balanslı, çevik və çoxşaxəli diplomatiya ötən əsrin sonlarına yaxın milli dövlətçiliyini bərpa etmiş Azərbaycan Respublikasının məhz bu fundamental prinsiplər əsasında xarici siyasət yeritməsi – balanslı diplomatiya ilə dünyanın fövqəlgüc mərkəzlərinin regionda toqquşan maraqlarını optimal şəkildə uzlaşdırması, ayrı-ayrı dövlətlərlə münasibətlərdə bərabərhüquqlu tərəfdaşa çevrilməsi, beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurması, ən başlıcası, milli mənafeyini lazımi səviyyədə müdafiə etməsi məhz ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın istəyi, təkidli tələbi ilə hakimiyyətə gəlişindən sonra mümkün olmuşdur. Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik ümummilli lider ölkəyə rəhbərliyinin ilk günlərindən qətiyyətli addımlar ataraq xarici siyasətdə yol verilmiş kobud səhvlərin aradan qaldırılmasına başlamışdır. Azərbaycan siyasətinin patriarxı ilk növbədə qonşu dövlətlərlə münasibətləri sahmana salmağa çalışmış, balanslaşdırılmış xarici siyasət yeritməklə respublikamızın geosiyasi rəqabət meydanına çevrilməsinə yol verməmişdir. Azərbaycana qarşı "ikili standart" yanaşmaları beynəlxalq aləmlə münasibətlərini beynəlxalq hüquq normaları və ölkənin maraqlarını nəzərdə tutan prinsiplər əsasında qurur. Azərbaycanın müstəqillik illəri ərzində yeritdiyi xarici siyasət ümumən bu prinsiplərə əsaslanmış, respublikanın dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün bərpası, beynəlxalq münasibətlər sistemində layiqli mövqeyinin təmin olunması, ikitərəfli əlaqələrdə bərabərhüquqlu tərəfdaş kimi çıxış etməsi milli diplomatiyanın əsas məqsədlərinə çevrilmişdir. Demokratikləşmə, insan hüquq və azadlıqlarının etibarlı təminat mexanizmlərinin formalaşdırılması, liberal dəyərlərin mənimsənilməsi Azərbaycanın xarici siyasət doktrinasının mühüm vektorlarından biri olsa da, rəsmi Bakı müəyyən dairələrin

bu bəşəri dəyərlərdən geosiyasi təzyiq aləti kimi istifadə etməsi cəhdlərinə qarşı çıxır, “demokratiyanın müdafiəsi bayrağı” altında "ikili standart" yanaşmaları, yeni müstəqillik qazanmış dövlətlərin suveren hüquqlarına müdaxiləni yolverilməz hesab edir. Silah gücünə və ya müxtəlif rəngli inqilablarla demokratiya toxumu əkmək prinsipi, bütövlükdə, demokratiya ideallarını şübhə altına alır, xalqlarda demokratiyaya inamsızlıq yaradır, ümumbəşəri dəyərləri vasitəyə çevirərək müəyyən məqsədlərə nail olmaq istəyənlərin səmimiliyini sual altında qoyur. Heydər Əliyevin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilmişdir. Heydər Əliyevin müasir beynəlxalq münasibətlərdə mövcud çağırış və təhdidlərə adekvat reaksiya nümayiş etdirərək özünü doğruldan, ölkənin milli və dövlətçilik maraqlarının təmin olunmasına uğurla xidmət edən çoxvektorlu müstəqil xarici siyasəti özünün konseptual bazisinə malikdir. Təməl ideyalar əsasında formalaşdırılmış həmin bazis ulu öndər Heydər Əliyev tərəfindən 1993-2003-cü illərdə Prezident olduğu dövrdə yaradılmışdır. Onun zəngin həyat və siyasi təcrübəsindən irəli gələn optimal qərarlar qəbul etmək bacarığı, intuisiyası və uzaqgörənliyi – bütün bunlar xalqın strateji məqsədlərinə xidmət edən intellektual və mənəvi siyasi arsenaldır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, müəyyənləşdirilmiş, formalaşdırılmış bu daxili və xarici siyasət kursunu Prezident İlham Əliyev bu gün uğurla davam etdirir. Bu məqalədə biz ulu öndər Heydər Əliyevin xarici siyasət kursunun bəzi konseptual məqamlarına toxunmaq istərdik. İlk növbədə qeyd edək ki, Heydər Əliyev xarici siyasətinin on ili Azərbaycan tarixinə sülh yolu ilə əldə oluna biləcək maksimal mümkün nailiyyətlər dövrü

kimi daxil oldu. Heydər Əliyevin siyasi kursu real siyasət ruhu ilə səciyyələnir. O, dünya reallıqlarının qiymətləndirilməsində müxtəlif resurslarla təmin edilən milli dövlətlərin maraqları mövqeyindən çıxış edir. Dünyanı maddi maraqlar idarə edir və bu, müxtəlif ideoloji sistemlərdə özünü göstərir. Realpolitik istiqamətli bu yanaşma sayəsində Heydər Əliyev Azərbaycan dövlətinin neft strategiyasını formalaşdırdı və bu təsəvvür bu gün də xarici siyasətin əsas konseptual cəhətini təşkil edir. Heydər Əliyevin diplomatik fəaliyyəti ölkə rəhbərinin yeni tərəfdaşlar axtarışına, güclü iqtisadi və siyasi strukturlar sisteminin yaradılmasına yönəlmiş çoxşaxəli əzmkar fəaliyyət idi. Təqdim edilən məqalədə Ulu öndər axtarış və yeniliklərlə səciyyələnən diplomatik fəaliyyətinin bütün ab-havası, onun böyük beynəlxalq forumlarda və sammitlərdə, ikitərəfli danışıqlar zamanı apardığı iş barədə dolğun təsəvvür yaratmaq çətindir. Azərbaycanın xarici siyasətinin yeni strategiya və taktikasının təkmilləşdir-ilməsində xarici səfərlərin əhəmiyyətli rolunu vurğulamaqla bərabər, Heydər Əliyevin xarici ölkələrin rəhbərləri – Süleyman Dəmirəl, Fransua Mitteran, Bill Klinton, Con Meycor, Roman Hersoq, Helmut Kol, Boris Yeltsin, Jak Şirak, Tszyan Tszemin, Tansu Çillər, Bənazir Bhutto, Əli Əkbər Haşimi Rəfsəncani, Əhmədxan Leqari, Eduard Şevardnadze, İslam Kərimov, Nursultan Nazarbayev, Əsgər Akayev, Saparmurat Niyazov, Butros Qali və bir sıra başqaları ilə diplomatik təmaslarında söylənilən fikirlərin dinamizmini və dərinliyini qeyd etməmək olmaz. Onun Paris, Ankara, İstanbul, Oslo, Qahirə, London, Moskva, Brüssel, Kopenhagen, Tehran, İslamabad, Pekin, Nyu-York, Lüksemburq, Aşqabad kimi paytaxtlarda keçirdiyi görüşlər və siyasi dialoqlar Azərbaycanın informasiya və iqtisadi blokadadan çıxmasını təmin etmiş, siyasi obstruksiyanı, diplomatik təcridetməni aradan qaldırmağa və dünya siyasətini formalaşdıran döv-

lətlərlə simmetrik ittifaqa girməyə imkan vermişdir. 1993-cü ildə Azərbaycan xalqı, nəhayət, öz gələcəyinə, öz taleyinə layiqli Prezident seçəndən sonra Azərbaycanın dövlətlər arasında yeni münasibətlər sisteminə sivil şəkildə daxil olması prosesi başlanır. Azərbaycan dünyaya açılır. Ənənəvi əlaqələr bərpa edilir, yeni əlaqələr yaradılır, ziddiyyətlər kələfi səbirlə açılır. Müstəqil Azərbaycanın yeni rəhbəri tərəfindən həyata keçirilən sülhsevər xarici siyasət kursu, Azərbaycan diplomatiyasının blokların və ittifaqların çoxvariantlılığına oriyentasiyası, onun yeni və ənənəvi tərəfdaşlar arasında münasibətləri tənzimləmək səyləri beynəlxalq aləmdə geniş miqyasda tanınır, dinamik şəkildə ardıcıllıq, sistemlilik və məntiqi tamlıq kəsb edirdi. Onun "açıq" diplomatiyası sayəsində dağılmışdır. Diplomat kimi Heydər Əliyevə xas olan daha bir mühüm keyfiyyət – zəngin həyat təcrübəsi nəticəsində dövlət əhəmiyyətli minlərlə işi canına hopdurmuş, saflaşdırılmış peşəkarlıqdır, lakin bu peşəkarlığın əsasını daşlaşmış ehkamlar təşkil etmir, bu, yeni ideyalar və fikirlər üçün münbit mühit, yeni layihələrin və modellərin sınaqdan keçirildiyi "daxili laboratoriya"dır. Heydər Əliyevin diplomatiyası genişmiqyaslıdır. Bu, ötəri, konyunktur maraqlara xidmət etməyən, gələcəyə, uzunmüddətli perspektivə yönəlmiş diplomatiyadır. O, xarici siyasətin taktikasını və strategiyasını qurarkən dünyanın "çoxqütblü" və eyni zamanda, qarşılıqlı asılı olmasını əsas götürür, Onun diplomatik fəaliyyətinin çoxfunksionallığı da buradan irəli gəlir. Bu diplomatiyanın "böyük stixiyası" siyasi və iqtisadi tərəfdaşlıq, mədəni və hərbi sahələrdə əməkdaşlıq, humanitar kömək və sair problemlərin böyük dairəsini əhatə edir. O, əməkdaşlığın hüdudları çevrəsini cızarkən, qlobal məsələlərin, universal xarakteri ilə fərqlənən artım problemlərinin bütöv kompleksinin birgə həllini nəzərdə tutan cəsarətli, möhtəşəm niyyətləri ilə həmsöhbətlərini heyrətlən-

dirir və eyni zamanda, konkret layihələrin məqsədəuyğunluğu ilə tərəfdaşlarını maraqlandırır. Heydər Əliyev diplomatiyasının əsas elementlərindən biri də ən mürəkkəb, daxili dramatizmi aşkar sezilən danışıqlar zamanı onun vəziyyəti idarə etmək bacarığıdır. Danışıqların ab-havasında yaranmış gərginliyi "boşaltmaq" üçün onun istifadə etdiyi diplomatik vasitələrin arsenalı həqiqətən tükənməzdir. Bu vasitələr gərginliyi və etimadsızlığı aradan qaldırmağa, qarşılıqlı anlaşma aurası yaratmağa imkan verir, nəticədə dialoq prosesində elə məqamlar yaranır ki, ən dolaşıq problemlərin mənası qəflətən aydınlaşır, auditoriya respublikamıza, onun problemlərinə böyük maraq göstərməyə "təhrik edilir". O, xüsusi cazibə qüvvəsi ilə həmsöhbətini cəlb etmək, mövzunu gözlənilmədən dəyişərək auditoriyanın diqqət mərkəzində qalmaq bacarığı ilə fərqlənir. Nəhayət, onun özünü sərbəst aparmaq, yerində işlədilmiş şux bir zarafatla, hazırcavablıqla rəsmi qəbullara və görüşlərə xas olan soyuq rəsmiyyətçilik ab-havasını dəyişmək bacarığını da qeyd etməmək olmaz. XXI əsrin başlanğıcı risklərin və böhranların yaranması ehtimalının artması ilə xarakterizə olunur. Ümumiyyətlə, tarixə nəzər salsaq, ötən əsrlərin əvvəlləri də belə gərginliklərlə müşahidə olunub və müharibələr baş vermişdir. Buna uyğun olaraq, mümkün təhlükə və riskləri nəzərə alan çevik xarici siyasət strategiyasını daha da inkişaf etdirməyə ehtiyac yaranır. Azərbaycan Prezidenti İlham Əliyev məsələnin bu aspektinə daim ciddi diqqət yetirir və ölkəmizin son vaxtlar beynəlxalq miqyasda əldə etdiyi böyük uğurlar çevik xarici siyasət kursunun inkişaf etdiyini təsdiqləyir. Beləliklə, sistemli surətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın xarici siyasətində yüksəliş başladı. Qısa müddətdə Heydər Əliyev bu prosesin dönməzliyini təmin etdi. Nəticədə, Azərbaycanın xarici siyasəti XXI əsrə qlobal miqyasda baş verən geosiyasi proseslərə, regional vəziyyətə və dünya-

nın enerji təhlükəsizliyi sisteminin qurulması dinamikasına çevik reaksiya verən sistem kimi daxil oldu. Bu sistem daim özünü yeniləşdirir, meydana çıxan gözlənilməz situasiyalara konstruktiv reaksiya verir. Azərbaycanın xarici siyasəti müasir dövr üçün xarakterik olan risk və böhranları nəzərə alan mexanizmlər formalaşdırır. Həmin mexanizmlər böhranlı situasiyalarda müxtəlif variantlardan ölkənin maraqlarına cavab verən daha səmərəli olanı seçməyə əsaslanır. Xarici siyasətin çevikliyi Azərbaycanı keçən müddət ərzində Cənubi Qafqazın lider dövləti səviyyəsinə yüksəldib. XX əsrin sonlarında öz müstəqilliyinə qovuşmuş Azərbaycan dünyada sülhün, sabitliyin tərəqqinin tərəfdarı olduğunu elan edərək beynəlxalq birliyin bütün üzvləri ilə dinc yanaşı yaşamaq və əməkdaşlıq xəttini tutmuşdur. Məhz bu məramla Azərbaycan istər beynəlxalq təşkilatlar çərçivəsində, istərsə də ayrı-ayrılıqda bütün ölkələr ilə siyasi, iqtisadi, mədəni əlaqələr qurur və qarşılıqlı surətdə faydalı olan birgə layihələrdə fəal iştirak edir. Azərbaycan-Çin münasibətləri bu mənada səciyyəvi xarakter daşıyır. Azərbaycan dünyanın iri dövlətlərindən biri olan Çin Xalq Respublikası ilə dostluq və əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət verir. Azərbaycanın istiqlaliyyət qazanması və ölkələrimiz arasında diplomatik münasibətlər yaradılması ikitərəfli əlaqələri genişləndirmək üçün əlverişli imkanlar açmışdır və bu gün həmin əlaqələr sabit və sağlam təməl üzərində inkişaf edir. Azərbaycanın müstəqilliyini tanımış ilk dövlətlərdən biri olan Çin Xalq Respublikası dünya siyasətində öz dəst-xətti ilə seçilən ölkədir. Prezident Heydər Əliyev 1994-cü ilin martında Çinə səfəri müstəqillik əldə etmiş Azərbaycanın dövlət başçısının bu ölkəyə ilk səfəri olmaqla yanaşı ikitərəfli əlaqələrin genişləndirilməsinə və inkişaf etdirilməsinə mühüm töhfə vermişdir. Səfər zamanı Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Çin Xalq Respublikası-

nın sədri Tszyan Tszemiznə ehtiyat mənbələrin olduğu vurğulanmış, dövlətlərarası münasibətlərin beynəlxalq hüquq norma və prinsiplərinə tam uyğun şəkildə qurulması labüdlüyü təsdiq edilmişdir. Prezident Heydər Əliyevin Çinə səfəri Azərbaycan həqiqətlərinin, xalqımızın haqq səsinin dünyaya çatdırılmasında, respublikamızın əhatə olunduğu informasiya blokadasının yarılmasında əvəzsiz rol oynamışdır. Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar qanlı döyüşlərin davam etdiyi, Azərbaycan sülhpərvər mövqedən çıxış edərək cəbhədə atəşkəsə nail olmağa cəhd göstərdiyi bir dövrdə Prezident Heydər Əliyev Çinə səfəri zamanı keçirdiyi görüşlərdə və danışıqlarda Ermənistanın təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizinin işğal olunduğunu, bir milyon soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü bir daha dünyaya bəyan etmişdir. Azərbaycan Respublikasının Prezident Heydər Əliyev Çin Xalq Respublikasının Dövlət Şurasının o vaxtkı Baş naziri, hazırda isə Ümumçin Xalq Respublikası Dövlət Şurasının o vaxtkı Baş naziri, hazırda isə Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin Sədri Li Pen ilə görüşündə ölkəmizin haqlı mövqeyinin dəstəklənməsinə xidmət etmişdir. Görüş zamanı Baş nazir Li Pen demişdir: "BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Çin Azərbaycan ərazi bütövlüyünü tanıyır və onun haqq işini ardıcıl müdafiə edəcəkdir". Prezident Heydər Əliyevin səfəri iqtisadi islahatlar sahəsində böyük uğurlar qazanmış Çinin təcrübəsinin öyrənilməsi baxımından da əhəmiyyətli olmuşdur. ÇXR Dövlət Şurasınıın üzvü, İqtisadi İslahatlar üzrə Dövlət Komitəsinin sədri Li Tein ilə görüşdə son 15 ildə Çində həyata keçirilmiş islahatların mexanizmi və istiqamətləri haqqında faydalı fikir mübadiləsi aparılmışdır. Azərbaycan Prezidenti Çin Beynəlxalq Ticarət inkişafına Yardım Komitəsindəki çıxışında dediyi kimi, "Azərbaycan iqtisadiyyatının inkişaf

yollarını müəyyənləşdirərkən biz qabaqcıl, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsindən, Yer kürəsinin müxtəlif regionlarından toplanmış təcrübədən bəhrələnməyə, lakin şübhəsiz ki, ölkəmizin və xalqımızın milli xüsusiyyətlərini əsas götürməklə bəhrələnməyə çalışırıq. Bununla əlaqədar biz burda olduğumuz günlərdə son illər Çin Xalq Respublikasının həyata keçirdiyi və kifayət qədər müsbət nəticələr vermiş iqtisadi islahatların prinsipləri, xüsusən onların praktiki səmərəsi ilə tanış oluruq və daha ətraflı tanış olmaq fikrindəyik". Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Çinə səfərindən sonra ölkələrimiz arasındakı ikitərəfli münasibətlər keyfiyyətcə yeni səviyyəyə yüksəlmişdir. 1995-ci il mayın 9-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasının Sədri Tszyan Tszemin ilə Moskvada görüşü, 1996-cı ilin aprelində ÇXR Dövlət Şurası Baş nazirinin müavini, xarici işlər naziri Tsyan Tsiçenin, 1997-ci ilin avqustunda ÇXR parlament üzvlərinin Azərbaycana səfəri, 1998-ci ilin sentyabrında Böyük İpək yolunun bərpası ilə əlaqədar Bakıda keçirilmiş beynəlxalq konfransda Çin Ali Xalq Prokurorluğunun, həmin ilin dekabrında Yeni Azərbaycan Partiyasının I qurultayı ilə bağlı Çin Kommunist Partiyasının nümayəndə heyətlərinin ölkəmizə gəlişi, eləcədə Azərbaycanın müxtəlif səviyyəli nümayəndə heyətinin ÇXR-ə səfəri Azərbaycan-Çin əlaqələrinin dönmədən genişləndiyini və möhkəmləndiyini sübut edir. Azərbaycan və Çin xalqları arasında mövcud olan ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin dərin tarixi kökləri vardır. Qədim dövrlərdə bu ölkələri Böyük İpək yolu birləşdirmişdir. Bu gün TRASEKA proqramı çərçivəsində bərpa olunan tarixi Böyük İpək yolu ölkələrimizi yenidən bir-birinə qovuşdurmaqla regionumuza sülh əmin-amanlıq, sabitlik, xalqımıza rifah, tərəqqi və firavanlıq gətirir. Heydər Əliyevin xarici siyasət strategiyasında

yeni demokratik Avrasiya quruculuğu aspekti "Böyük İpək Yolu" layihəsinə verdiyi önəmdə də ifadə olunmaqdadır. Hələ keçən əsrin 90-cı illərinin ortalarında postsovet məkanında liberalizmin dəbdə olduğu bir zamanda Heydər Əliyev Çinə səfər etdi. O vaxt bu səfərin strateji əhəmiyyətini çox az adam anlaya bildi. Lakin təcrübə göstərdi ki, Ulu öndər olduqca uzaqgörən addım atıb. Belə ki, Çin coğrafi olaraq Azərbaycandan uzaq olsa da, geosiyasi olaraq çox yaxındır və yeni Avrasiyanın inşasında Pekin faktorunu nəzərə almadan heç bir iş görmək mümkün deyildir. İndi bütün dünya ağızdolusu Çinin təşəbbüskarı olduğu "Bir kəmər, Bir Yol" qlobal ayihəsinin perspektivindən danışır. Yüzlərlə ölkənin bu layihəyə qoşulmaq istəyi haqqında informasiyalar yayılır. Hətta Ermənistan belə bundan yararlanmağa çalışır. Ancaq faktdır ki, keçən əsrin 90-cı illərində bu günü görənləri barmaqla saymaq olardı. Onların önündə Azərbaycanın lideri Heydər Əliyev gedirdi. Onun əsasını qoyduğu Çin siyasəti özünün bəhrəsini yüksək səviyyədə verməkdədir. Xarici siyasətin digər prioritetləri ilə birgə Çin siyasəti Azərbaycanı Cənubi Qafqazın geosiyasi "düyün nöqtəsi" statusuna qədər yüksəldib. Hazırda ölkəmiz "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin qovuşma məkanı, "Yeni İpək Yolu" layihəsinin fəal iştirakçısı və bir neçə əhəmiyyətli enerji layihələrinin təşəbbüskarıdır. TAP, TANAP, "Cənub Qaz Dəhlizi" və başqa layihələr qlobal enerji təhlükəsizliyinin mərkəzi bəndlərini təşkil edir. Nəqliyyat layihələri isə ümumiyyətlə, geosiyasi əhəmiyyətli hadisələrdəndir. Heydər Əliyevin ÇXR-ə rəsmi səfəri dünyanın ən böyük dövlətlərindən biri olan Çin ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq qurmaq zərurətindən irəli gəlmişdi. Səfər zamanı Azərbaycan Prezidenti ÇXR-in sədri Tszyan Tszemin, ÇXR Dövlət Şurasının sədri Li Pen və Dövlət Şurasının üzvü Li Tein ilə görüşərək ikitərəfli münasibətlərin

inkişaf perspektivlərini müzakirə etdi. Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ölkəsinin mövqeyini izah etdi. İki ölkə arasında siyasi münasibətlərin əsasını ölkələrin ərazi bütövlüyünün və suverenliyinin müdafiəsi təşkil edirdi. Məlum olduğu kimi, 1949-cu ildən etibarən Çində Tayvan problemi mövcud idi. Tayvan artıq 25 dövlətlə diplomatik əlaqə qurmuşdu. Çində Tayvanın iddiaları, Ermənistanın isə Azərbaycana qarşı təcavüzü Azərbaycan respublikası ilə ÇXR-i yaxınlaşdırırdı. Çinin digər regionlarında da separatçılıq meyilləri mövcud idi. Danışıqlarda Heydər Əliyev Ermənistanın təcavüzü və nəticələri barədə danışdı. Çin tərəfi Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıdığını və münaqişənin sülh yolu ilə tezliklə həllinə tərəfdar olduğunu bəyan etdi. Heydər Əliyev Pekində Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsində və Pekin İctimai Elmlər Akademiyasında çıxışlar edərək Azərbaycanın daxili vəziyyəti, həyata keçirilən islahatlar, xarici siyasəti və Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində səylər və ölkəsinin mövqeyi haqqında danışdı. Martın 7-də Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ikitərəfli əməkdaşlığa dair 10 mühüm sənəd – dostluq münasibətlərinin əsasları haqqında birgə bəyanat, turizm, sərmayələrin təşviqi və qarşılıqlı qorunması, elmi-texniki, mədəni, hava əlaqəsi, səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında sazişlər, kinematoqrafiya, radio verlişləri və televiziya sahəsində əməkdaşlığa dair protokol imzalandı. ÇXR Azərbaycana 60 milyon yuan həcmində əmtəə krediti ayırdı. İki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulandı. Danışıqlar bir sıra məsələlərə münasibətdə tərəflərin baxışlarında uyğunluğun olduğunu göstərdi. Bununla bağlı olaraq Heydər Əliyev deyirdi: "Çin Xalq Respublikasının öz beynəlxalq siyasətində tutduğu mövqeyinin, xüsusən istiqlaliyyət qazanmış və müstəqil inkişaf

yoluna qədəm qoymuş ölkələrin müqəddəratı ilə bağlı mövqeyinin bizim üçün çox böyük əhəmiyyəti var. Biz bu məsələdə və dövlətlərin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı, suverenlik, istiqlaliyyət məsələlərində mövqe və baxışlarımızın tamamilə uyğun gəldiyini aşkara çıxardıq". Azərbaycan Prezidentinin ÇXR-ə səfərinin tarixi əhəmiyyəti var idi. Bu səfər ik iölkə arasında münasibətlərin inkişafı üçün təmas nöqtələrinin axtarılaraq müəyyən edilməsində və əlaqələrin yeni əməkdaşlıq istiqamətinə daxil olmasına şərait yaratmaqla ikitərəfli münasibətlərin inkişafında yeni mərhələ açır, gələcək perspektivlərinin müəyyənləşdirilməsinə imkan verirdi. Bununla əlaqədar olaraq Heydər Əliyev deyirdi: "Azərbaycanla Çin kimi böyük dövlət arasında yüksək səviyyədə əlaqələr yaradılmış və münasibətlərimizin daha da müvəffəqiyyətlə inkişaf etməsi üçün perspektiv açılmışdır. Biz buna böyük əhəmiyyət veririk, çünki Çin Xalq Respublikası dünya iqtisadi sistemində mühüm yer tutur, beynəlxalq həyatda və dünya siyasətində böyük nüfuza malikdir, BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür". Qeyd etmək lazımdır ki, Çin Azərbaycanın dövlət müstəqilliyini hələ 1991-ci ildə tanımasına baxmayaraq, iki dövlət arasında münasibətlər 1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çinə rəsmi səfərindən sonra formalaşmağa başladı. İlkin mərhələdə ticarət münasibətləri toxuculuq və məişət avadanlıqlarından ibarət olsa da, sonradan Çin özünün enerji təminatının diversifikasiyasına nail olmaq üçün Azərbaycanın xam neftinə və təbii qazına maraq göstərməyə başladı. Heydər Əliyevin ÇXR-ə səfərindən sonra münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoydu. Qarşılıqlı münasibətlərin maddi təməllərinin və hüquq-müqavilə bazasının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atıldı. 1994-cü il mayın 14-də Azərbaycan Respublikası hökuməti və Çin Xalq Respublikası hökuməti arasında

ÇXR-dən Azərbaycan Respublikasına mallar göndərilməsi üçün dövlət krediti ayrılması haqqında saziş imzalandı. İki ölkə arasında münasibətləri möhkəmləndirmək, mövqelərin yaxınlaşmasına nail olmaq, münasibətlərin hüquqi-siyasi əsaslarını möhkəmləndirmək məqsədi ilə 1996-cı il aprelin 17-də ÇXR baş nazirinin müavini, xarici işlər naziri Tsyan Tsiçen Azərbaycana rəsmi səfər etdi. Keçirilən danışıqlarda tərəflər separatizmə qarşı çıxdılar, beynəlxalq təşkilatlar çərçivəsində daha sıx əməkdaşlıq etmək haqqında razılaşdılar. Eyni zamanda parlamentlərarası əlaqələrin genişləndirilməsinin əhəmiyyəti vurğulandı. Səfərdən bir neçə ay keçmiş, dekabr ayında Azərbaycan Respublikası Milli Məclisi sədrinin ÇXR-ə səfəri zamanı iki ölkənin qanunverici orqanı arasında əməkdaşlıq üçün imkanlar müzakirə edildi. Tərəflər sıx əməkdaşlıq etmək barədə razılığa gəldilər. Əməkdaşlıqda növbəti addım 1997-ci il avqustun 30-da Ümumçin Xalq Nümayəndələri Məclisi sədrinin müavini Van Binsyanın rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri oldu. Danışıqlarda əsasən iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi məsələlərin müzakirə edildi. Hər iki tərəf iqtisadi əlaqələrin genişləndirilməsində maraqlı idi. 2000-ci ilin iyun ayında Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Penin Azərbaycana səfəri zamanı ÇXR- in Azərbaycandakı səfirliyinin binasının təməlqoyma mərasimi keçirildi. Li Peni iyunun 23-də Heydər Əliyev qəbul etdi. Daha sonra nümayəndə heyətləri arasında geniş tərkibli danışıqlar oldu. Çin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, sərhədlərin dəyişdirilməsinin əleyhinə çıxır, təkqütblü dünyanı qəbul etməyərək çoxqütblü dünya yaradılması üçün səylər edirdi. Çinin mövqeyinə görə, hər bir ölkə dini və milli inkişaf yolunu özü istədiyi kimi müəyyənləşdirməli idi. Danışıqlarda Çin tərəfi siyasi, iqtisadi və mədəniyyət sahələrində əmək-

daşlıq etməyə və onu genişləndirməyə hazır olduğunu bəyan etdi. Səfər qarşılıqlı münasibətlərə təkan verdi. 2002-ci ildə Azərbaycan ilə Çin arasında diplomatik münasibətlərin qurulmasının on ili tamam oldu. Ötən illər ərzində münasibətlər inkişaf etmiş və əməkdaşlıq genişlənmişdi. Bu münasibətlə Heydər Əliyev ÇXR sədri Tszyan Tszeminə göndərdiyi təbrik məktubunda ötən on il ərzində iki ölkə arasında münasibətlərdə dostluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq əlaqələrinin təşəkkül tapdığını, bu əlaqələrin dairəsinin genişləndiyini və səviyyəsinin yüksəldiyini qeyd etdi". Tszyan Tszemin isə Heydər Əliyevə göndərdiyi təbrik məktubunda Çin ilə Azərbaycanı qədim İpək yolu dövründən bəri dostluq münasibətlərinin bağladığını, diplomatik münasibətlərin qurulmasının yeni səhifə açdığını vurğulayırdı. ÇXR sədri iki ölkənin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, habelə iqtisadiyyatının inkişaf etdirilməsi naminə səylər göstərirdi. Azərbaycan Respublikasının nümayəndə heyəti ilə Ümumçin Xalq Nümayəndələri Məclisi daimi komitəsinin sədri Li Penin başçılıq etdiyi nümayəndə heyəti arasında danışıqlar aparıldı. İki ölkə arasında əməkdaşlıq məsələlərinin müzakirəsi baxımından 2003-cü il aprelin 10-11-də ÇXR xarici işlər nazirinin müavini Lyu Quçan başda olmaqla nümayəndə heyətinin Azərbaycan Respublikasına səfəri əhəmiyyətli oldu. Aprelin 10-da nümayəndə heyətini Heydər Əliyev qəbul etdi. Azərbaycan Prezidenti iki ölkə arasında münasibətlərdə fəal əməkdaşlığın və qarşılıqlı dəstəyin olduğunu, Çin işgüzar dairələrinin Azərbaycan ilə neft sahəsində əməkdaşlıq etməyə maraq göstərdiyini qeyd etdi. Lyu Quçan Azərbaycanda xeyli dəyişikliklərin olduğunu deyərək onu Heydər Əliyevin apardığı uğurlu siyasətlə əlaqələndirdi. Çin ikitərəfli əlaqələrin inkişafgından məmnun idi. Lyu Quçan daha sonar Azərbaycan tərəfinin ölkəsinin suverenliyinin, ərazi bütövlüyünün qorunması-

na yönəldilmiş səylərini, münaqişənin sülh yolu ilə həlli istiqamətində fəaliyyətini, habelə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrin daha da inkişaf etdirilməsini istəyirdi. Heydər Əliyevin fikrincə, Azərbaycan iqtisadiyyatına sərmayə qoyacaq Çin şirkətləri böyük gəlirlər götürəcəkdilər. Azərbaycan və Çin arasında əlaqələr qədim tarixi köklərə malikdir. Azərbaycan qədim İpək yolunun üzərində yerləşdiyinə görə ən qədim dövrlərdən Şərqi Asiya, o cümlədən Çinlə ticarət-iqtisadi və eyni zamanda mədəni sahədə əlaqələri mövcud olmuşdur. 1993-cü ildə isə Azərbaycanın bu ölkədəki səfirliyinin açılması bütün istiqamətlərdə qarşılıqlı əlaqələrin güclənməsinə təkan vermişdir. Ulu öndərin hakimiyyətə qayıdışından sonra isə Azərbaycanın dünya siyasətində fəallaşması sayəsində ölkəmizin Çinlə münasibətlərində də yeni, yüksəliş mərhələsi başlanır. Heydər Əliyevin 1994-cü ilin may ayında Çin Xalq Respublikasına səfərinin iki ölkə arasında bütün sahələrdə tərəfdaşlığın genişlənməsində misilsiz rolu oldu. Bu səfərdən sonra iki ölkə arasında dövlət rəsmilərinin qarşılıqlı səfərləri davam etdirilir.

Heydər Əliyevin 1994-cü ilin mart ayında Çinə səfəri zamanı Pekində təşkil olunan mətbuat konfransında verdiyi bəyanat ölkələrimiz arasında əlaqələrin hərtərəfli və müvəffəqiyyətlə inkişaf edəcəyini göstərirdi. Belə ki, bildirmişdi ki, "Çin Xalq Respublikasının müstəqil inkişaf yoluna qədəm qoymuş ölkələrin müqəddəratı ilə bağlı mövqeyi məsələsində, dövlətlərin ərazi bütövlüyü, sərhədlərin pozulmazlığı, suverenlik, istiqlaliyyət məsələlərində mövqe və baxşlarımızn tamamilə uyğun gəldiyini aşkara çıxardıq". Daha sonra, Heydər Əliyev əlavə etmişdi ki, "Biz – Çin Xalq Respublikasının sədri və mən ölkələrimiz arasında əməkdaşlığın prinsipləri haqqında bəyannamə imzaladıq. Dövlətlərarası əlaqələrə dair daha yeddi sənəd imzalandı. Bu sənədlər Çin ilə Azərbay-

can arasında münasibətlərin gələcək inkişafını müəyyənləşdirir". Bundan əlavə, mətbuat konfransında prezident Azərbaycanın başlıca problemi olan Dağlıq Qarabağ məsələsinin həllində Çin Xalq Respublikasının BMT Təhlükəsizlik Şurası çərçivəsində çox prinsipial və ədalətli mövqe tutduğunu da qeyd etmişdi. Bu səfər zamanı Heydər Əliyev ÇXR sədri Tszyan Tszemin, Baş nazir Li Pen ilə rəsmi görüşlər keçirmiş, iki dövlət arasında müxtəlif sahələrə dair səkkiz müqavilə imzalanmışdı. Bu sazişlər iki ölkə arasında hava yolunun açılması, elmi-texniki və mədəni əməkdaşlıq, təbabət, radio və televiziya, turizm sahəsində qarşılıqlı fəaliyyəti nəzərdə tuturdu. Martın 9-da Prezident Heydər Əliyev Pekində Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsində çıxış etdi. Çıxışda iki ölkə arasında tarixi əlaqələr, Azərbaycanın coğrafi şəraiti, tarixi, problemləri, Ermənistanın təcavüzü və müharibənin törətdiyi çətinliklər, eyni zamanda Azərbaycanın hərtərəfli inkişaf imkanı və perspektivlərindən bəhs etdi. Prezident bu səfərin ilk görüş və tanışlıq olduğunu, lakin Azərbaycanla əməkdaşlıq arzusunun böyüklüyünü qeyd etdi. Dövlət başçısı Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsi ilə birbaşa əlaqə, müvafiq şirkətlərin, firmaların rəhbərləri ilə ünsiyyət qurulduğunu da vurğuladı. Prezident özü bu böyük səfərin nəticələrini Bakıya qayıdarkən Almatıda jurnalistlər qarşısında çıxışı zamanı belə dəyərləndirmişdi: "Hesab edirəm ki, Çin Xalq Respublikasına səfərimiz böyük tarixi hadisədir. Çünki Çin ilə Azərbaycan arasında heç vaxt bu səviyyədə əlaqələr olmamışdır. Doğrudur, tarixən müəyyən əlaqələr, "Böyük İpək yolu" və s. olduğunu xatırlayırıq. İndi isə dövlətlərarası sıx münasibətlərin yaranması ilk növbədə Azərbaycan Respublikası üçün böyük hadisədir". Beləliklə, Heydər Əliyevin misilsiz siyasi və diplomatic bacarığı, istedadı və nüfuzu sayəsində Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında

uzunmüddətli, hərtərəfli və uğurlu əməkdaşlığın əsası qoyulmuşdur. 1998-ci il sentyabrın 8-də Bakıda Heydər Əliyevin təşəbbüsü ilə Böyük İpək Yolunun bərpası üzrə TRASEKA proqramı çərçivəsində Avropa və Asiya dövlət başçılarının zirvə görüşünə həsr olunmuş beynəlxalq konfrans da iki ölkə arasında münasibətlərin daha da inkişafını təmin edən tədbirlərdən biri idi. Çin daha da inkişafını təmin edən tədbirlərdən biri idi. Çin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə hörmət edir, dünya ictimaiyyəti ilə birlikdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsinə tərəfdardır və BMT TŞ-nin məsələyə dair qəbul etdiyi müvafiq qətnamələri dəstəkləyir. Öz növbəsində Azərbaycan Respublikasının hökuməti ÇXR-in vahid Çin siyasətinə hörmət edir və Tayvanı Çinin tərkib hissəsi kimi qəbul edir. Azərbaycan Respublikası Tayvan adlı dövlət tanımır, onunla heç bir diplomatik və ya digər münasibətlərə malik deyildir. Tayvanın beynəlxalq təşkilatlara üzvlüklə bağlı qaldırdığı məsələlərdə Azərbaycan Respublikası yalnız vahid Çin prinsipindən çıxış edir və yalnız ÇXR-I təmsil edən qurumları tanıyır.

**Rafiq Abbasov,**
*Azərbaycan Dillər Universitetinin nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun direktoru*

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çinə rəsmi səfər zamanı Pekində mətbuat konfransındakı bəyanatı – 8 mart 1994-cü il

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

Hörmətli xanımlar və cənablar! İkinci gündür ki, biz Pekindəyik. Mən buraya dövlət səviyyəsində rəsmi görüşə Çin Xalq Respublikası sədrinin dəvəti ilə gəlmişəm. Mənimlə birlikdə Azərbaycan nümayəndələrinin böyük bir qrupu da gəlmişdir. Çin rəhbərliyi ilə kifayət qədər səmərəli görüşlərimiz olmuşdur. Dünən rəsmi qarşılanma mərasimi oldu və ÇXR sədri cənab Tszyan Tszeminlə danışıqlar aparıldı. Bu danışıqlar bir sıra sənədlərin imzalanması ilə başa çatdı. İkitərəfli münasibətlərə dair məsələlər barəsində biz Çin Xalq Respublikasının sədri ilə ətraflı fikir mübadiləsi etdik. Belə bir yekdil qənaətə gəldik ki, Çin ilə Azərbaycan arasında münasibətlər hərtərəfli şəkildə və daha müvəffəqiyyətlə inkişaf etdirilməlidir. Ticarət, iqtisadiyyat, elm, mədəniyyət, turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsi imkanları əldə olunmuş razılaşma nəticəsində imzaladığımız sənədlərdə əksini tapmışdır. Biz beynəlxalq vəziyyətin aktual məsələləri barəsində də fikir mübadiləsi etdik. Çin Xalq Respublikasının öz beynəlxalq siyasətində tutduğu mövqeyinin, xüsusən istiqlaliyyət qazanmış və müstəqil inkişaf yoluna qədəm qoymuş ölkələrin müqəddəratı ilə bağlı mövqeyinin bizim üçün çox böyük əhəmiyyəti var. Biz bu məsələdə və dövlətlərin ərazi bütövlüyü, sərhədlərin pozulmazlığı, suverenlik, istiqlaliyyət məsələlərində mövqe və baxışlarımızın tamamilə

uyğun gəldiyini aşkara çıxardıq. Mən Azərbaycanın həyatı və indiki vəziyyəti haqqında ÇXR sədrinə müfəssəl məlumat vermək imkanına malik oldum.

Mən təxminən altı ildən bəri Azərbaycanla Ermənistan arasında gedən müharibə barəsində, uydurma Qarabağ münaqişəsi barəsində və hərbi əməliyyatları dayandırmaq, müharibəyə son qoymaq və məsələni danışıqlar yolu ilə, sülh və razılıq əldə olunması yolu ilə həll etmək cəhdlərimiz barədə ətraflı məlumat verdim.Bu gün Dövlət şurasının baş naziri cənab Li Penlə görüşdük. ÇXR-in sədri ilə fikir mübadiləsi etdiyimiz bütün məsələlər cənab Li Penlə söhbətimizin mövzusuna çevrildi. Biz bir daha yəqin etdik ki, beynəlxalq və ümumən daxili siyasətdə Çin Xalq Respublikası rəhbərliyinin mövqeyi yekdil, sabitdir. Söhbətlərimizdə biz Çin Xalq Respublikasında uzun illər ərzində həyata keçirilmiş iqtisadi islahatlara maraq göstərdik, bu gün bizdə buna maraq var. İstər Çin Xalq Respublikasının sədri ilə, istərsə də ÇXR-in baş naziri ilə söhbətlərimizdə həmin məsələlərə böyük diqqət yetirildi. Bu gün isə islahatlar üzrə nazirlə görüşdük. Biz onunla iqtisadi islahatların həyata keçirilməsi məsələləri barəsində ətraflı fikir mübadiləsi apardıq. Bildiyiniz kimi, səfərimiz davam edir. Hələ sabah Pekində görüşlər olacaq, sonra isə biz Şanxaya gedəcəyik. Yeri gəlmişkən deyim ki, Şanxay şəhərinə getmək təklifini dünən bizimlə görüş zamanı ÇXR sədri irəli sürmüşdür. Səfərimizin ilkin yekunları haqqında demək olar ki, biz razıyıq. Qeyd etdiyim kimi, çox faydalı, maraqlı söhbət və danışıqlarımız oldu. Biz – Çin Xalq Respublikasının sədri və mən ölkələrimiz arasında əməkdaşlığın prinsipləri haqqında bəyannamə imzaladıq. Dövlətlərarası əlaqələrə dair daha yeddi sənəd imzalandı. Bu sənədlər Çin ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişafını müəyyənləşdirir. Bu da əhəmiyyətlidir ki, biz ölkəmizdə, bütövlükdə bölgəmizdə vəziyyət barəsində res-

publikamıza qarşı erməni təcavüzü nəticəsində Ermənistanla Azərbaycan arasında gedən müharibə barəsində və bölgəmizə aid bir çox digər məsələlər barəsində Çin Xalq Respublikasının rəhbərliyinə məlumat verə bildik. Bu, mühüm yekundur ki, müstəqil Azərbaycan Respublikası prezidentinin Çin Xalq Respublikasına ilk səfəri baş tutmuş, iki ölkənin ali rəhbərliyi səviyyəsində səmimi münasibətlər bərpa edilmiş və bölgədə vəziyyət barədə Çin rəhbərliyinə məlumat vermək mümkün olmuşdur. Nəzərə almaq lazımdır ki, ÇXR-in bölgəmizdən çox uzaqda yerləşməsi informasiyanın dolğun və hərtərəfli olmasını tələb edir. Azərbaycan gənc müstəqil dövlətdir, öz tarixinin çətin mərhələsini yaşayır. Buna görə də çox vacibdir ki, Azərbaycanla Çin kimi böyük dövlət arasında yüksək səviyyədə əlaqələr yaradılmış və münasibətlərimizin daha da müvəffəqiyyətlə inkişaf etməsi üçün perspektiv açılmışdır. Biz buna böyük əhəmiyyət veririk, çünki Çin Xalq Respublikası dünya iqtisadi sistemində mühüm yer tutur, beynəlxalq həyatda və dünya siyasətində böyük nüfuza malikdir, BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. Sizə Azərbaycanda vəziyyət barəsində, ölkəmizdə görülən tədbirlər, respublikanın qarşısında duran problemlərin həlli barəsində, o cümlədən Ermənistanın Azərbaycana qarşı təcavüzü və uydurma Qarabağ problemi barəsində qısaca məlumat vermək istərdim. Azərbaycan öz istiqlaliyyətini Sovet İttifaqı dağıldıqdan sonra əldə etmişdir. Müstəqil dövlət olmaq arzusu təxminən 200 il çar Rusiyası imperiyası tərkibində, sonra da Sovet İttifaqının tərkibində olmuş, xalqımızda həmişə yaşamışdır. Hər hansı bir xalq kimi, Azərbaycan xalqı da həmişə azadlığa və istiqlaliyyətə can atmışdır. Odur ki, istiqlaliyyətin əldə edilməsi onun üçün çox mühüm tarixi hadisəyə çevrilmişdir. Bununla bərabər, müstəqil Azərbaycanın qarşısına, təbii olaraq, sosial-iqtisadi inkişafla, tam suverenliyin, müstəqilliyin, dövlətçiliyin bərqərar

edilməsi ilə, dünya birliyində bərqərar olmaqla bağlı çox mürəkkəb problemlər çıxmışdır. Bütün bu məsələlər ötən iki il ərzində Azərbaycanda mürəkkəb daxili siyasi vəziyyətdə və Ermənistan tərəfindən hərbi təcavüzlə əlaqədar, təbii olaraq, mürəkkəb şəraitdə həll edilmişdir. Azərbaycan iqtisadiyyatı dərin böhran keçirir. Əlbəttə, bu böhran xalqın həyat səviyyəsinə, rifahına çox mənfi təsir göstərir. Böhran keçmiş Sovet İttifaqında son illər ərzində getmiş, proseslərdən yaranmış və təbii olaraq, təkcə Azərbaycan üçün deyil, keçmiş Sovet İttifaqının indi müstəqil dövlətlərə çevrilən, demək olar, bütün respublikaları üçün səciyyəvidir. Dediyim kimi, bu böhran Azərbaycanda bir də ona görə dərinləşir ki, Azərbaycan Ermənistan Respublikası tərəfindən təcavüz nəticəsində müharibə vəziyyətindədir. Uydurma Dağlıq Qarabağ problemi ilə əlaqədar təxminən altı il bundan əvvəl yaranmış hərbi münaqişə çox geniş miqyas almış və ona gətirib çıxarmışdır ki, erməni silahlı birləşmələri hazırda Azərbaycan ərazisinin, demək olar, 20 faizini işğal etmişdir. İşğal edilmiş rayonların bir milyon nəfərdən çox sakini qaçqına çevrilmiş, öz ev-eşiyindən, var-dövlətindən məhrum olmuş, indi Azərbaycanın digər bölgələrində yerləşdirilmişdir. Onlar ağır vəziyyətdədirlər. Təəssüf ki, son illər Azərbaycanda daxili siyasi vəziyyət də sabit olmamışdır. Ermənistanla müharibə və müxtəlif siyasi qrupların hakimiyyət uğrunda mübarizəsi respublikada hakimiyyətin dəyişməsinə gətirib çıxarmışdır. Belə mürəkkəb vəziyyət axırıncı dəfə ötən ilin yayında yaranmış və onda Azərbaycan vətəndaş müharibəsi həddində olmuşdur. Lakin bu prosesləri, zənnimizcə, dəf etmək mümkündür. İndi ölkədə daxili siyasi və ictimai-siyasi vəziyyət sabit, normaldır. Lakin bütün bunlar Azərbaycanın sosial-iqtisadi vəziyyətinə öz mənfi təsirini göstərməyə bilməzdi və əlavə çətinliklər yaratmaya bilməzdi. Azərbaycanda daxili siyasət sahəsində hazırda demokratik hüquqi

dövlət quruculuğu prosesi gedir. Azərbaycanda bütövlükdə demokratiyanın, siyasi plüralizmin, çoxpartiyalı sistemin inkişafı üçün, insan hüquqlarının müdafiəsi, şəxsiyyətin azadlıqlarının, vicdan, dini etiqad azadlığının, sahibkarlıq, təşəbbüskarlıq azadlığının təmin edilməsi üçün əlverişli şərait yaranmışdır. Müstəqil Azərbaycan dövləti sözün tam mənasında azadlıq və demokratiya prinsipləri əsasında demokratik cəmiyyət qurur. Hazırda respublikada 40-dək siyasi partiya, – onlar sərbəst fəaliyyət göstərirlər, – 600-dən çox qəzet qeydə alınmışdır. Yeddi milyon nəfər əhalisi olan Azərbaycan kimi kiçik bir ölkə üçün bu, kifayət qədər böyük rəqəmdir. Əlbəttə, partiyalar da, mətbuat da öz fikirlərini azad ifadə etmək hüququna malikdirlər. Bəzi partiyalar və mətbuat orqanları müxalifətdədir və bu mövqelərdən çıxış edirlər. Bütün bunlar respublikamızın demokratik inkişafı üçün tam sərbəstlik və azadlıq olduğuna dəlalətdir. Azərbaycan çoxmillətli dövlətdir. Onun bütün vətəndaşları milli mənsubiyyətindən, dini etiqadından və siyasi əqidələrindən asılı olmayaraq, bərabər hüquqlara malikdirlər. Hər bir Azərbaycan vətəndaşının özünü azad və bərabərhüquqlu hiss etməsi üçün ən əlverişli şərait yaradılır. Öz xarici siyasətində Azərbaycan dünyanın bütün ölkələri ilə bərabərhüquqlu münasibətlərin inkişaf etdirilməsi prinsiplərini əsas tutur. Biz artıq bir sıra dövlətlərlə diplomatik münasibətlərə malikik. Respublika Birləşmiş Millətlər Təşkilatının üzvüdür, bir çox beynəlxalq təşkilatlara daxildir, beynəlxalq həyatda yaxından iştirak etmək və dünya birliyində layiqli yer tutmaq niyyətindədir. Bizim buraya, Çinə gəlməyimiz, ölkələrimiz arasında imzalanmış sənədlər Azərbaycanın bütün dünya ölkələri ilə əlaqələr yaratmağa çalışdığına konkret sübutdur; bu prinsip ÇXR ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişafının əsasını təşkil etmişdir. Ermənistanın respublikamıza hərbi təcavüzü ilə bağlı müharibə

Azərbaycan üçün ağır problemdir. Ermənistan bu müharibəyə Azərbaycan ərazisinin bir hissəsini – Dağlıq Qarabağı qoparmaq və onu Ermənistana birləşdirmək məqsədilə başlamışdır. Müharibə bütövlükdə bölgəmizdə vəziyyəti mürəkkəbləşdirmiş, Azərbaycan və Ermənistan xalqlarını böyük müsibətlərə düçar etmişdir. Təəssüf ki, hərbi əməliyyatlar indi də davam edir, adamlar həlak olur, qan tökülür. Bu, təkrar edirəm, Azərbaycan Respublikası üçün ən ağır amildir. Azərbaycan müharibə istəmir və hərbi əməliyyatların dayandırılmasına, məsələnin ancaq sülh yolu ilə həll edilməsinə çalışır. Azərbaycanın işğal edilmiş ərazilərindən erməni silahlı birləşmələrinin qeyd-şərtsiz çıxarılması, respublikamızın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının təmin olunması ən mühüm, daha doğrusu, labüd şərtdir. Təəssüflər olsun ki, bəzi dairələrdə, dünyanın bəzi ölkələrində bu münaqişəni Dağlıq Qarabağda yaşayan erməni əhalisinin guya muxtariyyət almaq cəhdi ilə bağlayırlar. Bu, həqiqətə uyğun deyildir və belə fikir, görünür, bəzi yerlərdə fəal erməni təbliğatı və dünya ictimaiyyətinə yalan məlumat verilməsi nəticəsində yaranmışdır. Erməni əhalisi Dağlıq Qarabağda muxtariyyətə malik idi, yəni bu bölgə Azərbaycanın tərkibində təxminən 70 il muxtar vilayət kimi mövcud olmuşdur. Orada əhalinin təqribən 70 faizini ermənilərin, 30 faizini isə azərbaycanlıların təşkil etdiklərini nəzərə alaraq, Dağlıq Qarabağa muxtar vilayət statusu verilmişdir. Bu münaqişə ona görə yaranmamışdır ki, muxtariyyət yox idi, əksinə, ona görə yaranmışdır ki, Ermənistan Respublikasında və Dağlıq Qarabağda müəyyən dairələr Dağlıq Qarabağı Ermənistana birləşdirməyə can atırdılar. Təbii ki, Azərbaycan öz ərazisinin bir hissəsinin qoparılıb digər respublikaya birləşdirilməsi ilə razılaşa bilməzdi. Münaqişənin yaranmasına səbəb də məhz bu olmuşdur. Biz onu əsas tuturuq ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü tamamilə

təmin edilməlidir. Özgə ərazisi barəsində iddiamız yoxdur, hərçənd tarixən bunun üçün əsas var. Lakin öz torpağımızı heç vaxt heç kəsə verməyəcəyik. Biz hərbi əməliyyatların dayandırılmasına və Ermənistanla Azərbaycan arasında qarşılıqlı münasibətlərin dinc yolla, danışıqlar yolu ilə nizama salınmasına çalışırıq və əlbəttə, əmin edirik ki, Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə və hüquqlarına Azərbaycan Konstitusiyası ilə və respublikanın dövlət orqanları tərəfindən təminat verilir. İşğal edilmiş ərazilərdən erməni silahlı birləşmələrinin qeyd-şərtsiz çıxarılması təklifi qəbul olunarsa, Azərbaycan tərəfi Dağlıq Qarabağın statusu məsələsinə də baxa bilər. Biz bütün məsələləri beynəlxalq təşkilatların – Birləşmiş Millətlər Təşkilatının, BMT Təhlükəsizlik Şurasının, ATƏM-in, bu problemin həlli üçün ATƏM-in tərkibində xüsusi olaraq yaradılmış Minsk qrupunun köməyi ilə həll etməyə çalışırıq. Məlumdur ki, BMT-nin Təhlükəsizlik Şurası bu məsələyə dəfələrlə baxmış və Azərbaycanın işğal olunmuş rayonlarından erməni silahlı birləşmələrinin qeyd-şərtsiz çıxarılması haqqında dörd qətnamə qəbul etmişdir. Lakin erməni tərəfi bu qətnamələrə tam etinasızlıq göstərir. ATƏM-in və xüsusən onun Minsk qrupunun bu istiqamətdə fəaliyyəti də indiyədək heç bir nəticə verməmişdir. Halbuki istər ATƏM, istərsə də Minsk qrupu dəfələrlə qərarlar qəbul etmiş, Azərbaycanın işğal olunmuş rayonlarından erməni qoşunlarının çıxarılmasına dair hətta xüsusi cədvəllər tərtib etmişdir. Lakin onlar da nəticəsiz qalmışdır. Beləliklə, Ermənistanın Azərbaycana qarşı təcavüzkar hərəkətləri və beynəlxalq təşkilatların qərarlarını yerinə yetirmək istəməməsi aşkar şəkildə sübut edir ki, erməni tərəfi öz məqsədinə nail olmağa, yəni Azərbaycanın ərazi bütövlüyünü pozmağa, respublikamızın sərhədlərini dəyişdirməyə can atmaqdadır. Biz bununla, əlbəttə, heç vaxt razılaşa bilmərik. Qeyd etmək lazımdır ki, Ermənistanın bu cür mövqeyi

əsasən bununla bağlıdır ki, o, bəzi xarici dairələrin, bəzi ölkələrin köməyindən istifadə edir və buna görə də BMT Təhlükəsizlik Şurasının, ATƏM-in və digər beynəlxalq təşkilatların qərarlarını qulaqardına vurur. Bax, bu xəritə Ermənistanın təcavüzünün miqyasını çox aydın göstərir. Bu, Azərbaycandır, bu, həmçinin Azərbaycanın tərkibinə daxil olan Naxçıvan Muxtar Respublikasıdır, bu isə Ermənistandır. Qırmızı rənglə qeyd edilmiş bu ərazi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətidir. O, indi tamamilə erməni silahlı birləşmələrinin nəzarəti altındadır. Dediyim kimi, burada əhalinin 30 faizi azərbaycanlılardır və onlar oradan çoxdan qovulmuşlar. Onlar təxminən 50 min nəfərdir. Hazırda Dağlıq Qarabağın ərazisində bir nəfər də azərbaycanlı yoxdur, erməni əhalisi isə burada qalmaqdadır. Erməni silahlı qüvvələri təcavüzün miqyasını genişləndirərək, Azərbaycanın Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarını işğal etmişlər. Bu isə, dediyim kimi, respublikanın ərazisinin təxminən 20 faizinə bərabərdir. Həmin zonanın bir milyon nəfərdən çox azərbaycanlı sakini qaçqına çevrilmişdir. Onlar respublikanın digər rayonlarında, xeyli hissəsi isə Bakıda yerləşdirilmişdir. Təhlükəsizlik Şurasının xatırlatdığım dörd qətnaməsi məhz Kəlbəcər, Ağdam, Füzuli, Zəngilan, Qubadlı rayonlarına aiddir. Bu rayonları işğal etməklə erməni silahlı birləşmələri, bir tərəfdən, birbaşa əlaqəni, həmin ərazinin Ermənistana birləşdirilməsini əslində təmin etmiş, digər tərəfdən isə, Azərbaycanın İranla təqribən 140 kilometr uzunluğunda dövlət sərhədini nəzarət altına almışlar. Baxın, bura İrandır. Zənnimcə, ayrıca sübut etməyə lüzum yoxdur ki, bu, hərbi təcavüzdür, bir ölkə tərəfindən digər ölkə ərazisi zor gücünə qəsb olunmuşdur. Görünür, dünya birliyinə sübut etməyə lüzum yoxdur ki, bu hərbi təcavüzə son qoymaq gərəkdir. Təkrar edirəm: biz bu problemin dinc yolla həll edilməsinə çalışırıq, öz sülhsevər təşəbbüslərimizi

və tədbirlərimizi davam etdirəcəyik. Amma yaranmış vəziyyətlə razılaşa bilmərik. Dinc vasitələr bir nəticə vermədiyinə görə, hazırda Azərbaycan ordusunun hissələri ərazilərimizi hərbi yolla azad etmək üçün kifayət qədər uğurlu əməliyyatlar aparırlar. Bu yaxınlarda Rusiya Federasiyası Müdafiə Nazirliyinin vasitəçiliyi ilə martın 1-dən atəşi dayandırmaq və qəsb edilmiş ərazilərdən Ermənistanın işğalçı qoşunlarının çıxarılmasına dair sülh danışıqları aparmaq haqqında razılaşma əldə olunmuşdur. Biz sazişin prinsiplərinə ciddi əməl edirdik, lakin martın 3 və 5-də erməni silahlı birləşmələri Azərbaycan hərbi hissələrinin mövqeləri üzərinə güclü hücuma keçmişlər. Hərbi hisslərimiz onları layiqincə dəf etmişlər. Bütün bunlar istər erməni tərəfindən, istərsə də biz tərəfdən yeni itkilərə, qan tökülməsinə gətirib çıxarmışdır. Hər bir ölkənin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı Birləşmiş Millətlər Təşkilatının sənədlərində təsbit edilmiş beynəlxalq hüququn sarsılmaz prinsipidir. Çin rəhbərləri – ÇXR-in sədri, Dövlət Şurasının baş naziri ilə danışıqlarımız zamanı Çin tərəfi belə bir mövqeyi bir daha təsdiqləmişdir ki, sərhədlərin zor gücünə dəyişdirilməsinə və hər hansı ölkənin ərazi bütövlüyünə qəsd edilməsinə yol vermək olmaz. Biz BMT-nin sənədlərində, beynəlxalq hüquqla təsbit olunmuş və dünyanın bütün ölkələri tərəfindən təsdiqlənmiş bu prinsiplərə əsaslanaraq, respublikamızın ərazi bütövlüyünə və sərhədlərinin pozulmazlığına nail olacağıq. Əlbəttə, burada biz dünya birliyinin, beynəlxalq təşkilatların, dünya ölkələrinin, o cümlədən də Çin Xalq Respublikasının köməyinə möhtacıq. Deməliyəm ki, ÇXR-in BMT-dəki, xüsusən, onun daimi üzv olduğu Təhlükəsizlik Şurasındakı nümayəndə heyəti Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə bağlı məsələlərə baxılarkən həmişə ədalətli mövqe tutur. Odur ki, mən burada olmağımdan istifadə edərək, bu ədalətli mövqeyə görə Çin rəhbərliyinə minnət-

darlığımızı bildirdim. Mən bu salona toplaşan jurnalistlərə Azərbaycanın daxili vəziyyəti barədə, respublikanın həll etdiyi problemlər barədə, Azərbaycanın xarici siyasəti barədə, burada, Pekində keçirdiyimiz görüşlərin yekunları barədə kifayət qədər məlumat vermişəm. Buna görə də daha vaxtınızı almayacağam. Əgər suallar varsa, mən onlara cavab verməyə hazıram.

**Sual:** Münaqişənin nizama salınmasında Rusiyanın rolu, Rusiya-Azərbaycan münasibətlərinin inkişaf etdirilməsi perspektivləri necədir?

**Cavab:** Mən sualınızın ikinci hissəsindən başlayacağam. Hazırda Azərbaycan-Rusiya münasibətləri normaldır, yaxşıdır. Bu yaxın vaxtlaradək çətinliklər olmuşdur. O da Azərbaycanın keçmiş rəhbərliyinin mövqeyi üzündən idi. Ötən ilin ikinci yarısından bəri bu münasibətlər qaydaya salınmağa başlanmışdır. Mən Moskvaya getmiş, Rusiya prezidenti Boris Nikolayeviç Yeltsinlə, baş nazir Viktor Stepanoviç Çernomırdinlə, ölkənin digər rəhbərləri ilə görüşmüşəm. Biz həmin vaxtadək Azərbaycanla Rusiya arasında qarşılıqlı münasibətlərdə mövcud olmuş maneələri aradan qaldırmaq tədbirləri barədə razılığa gəlmişik. Təkrar edirəm, indi bu münasibətlər normal xarakter, dostluq xarakteri daşıyır. O ki qaldı münaqişənin nizama salınma-sında Rusiyanın roluna, Rusiya bu prosesdə daim iştirak edir. Bildiyiniz kimi, bu münaqişə 1988-ci ilin əvvəlində yaranmışdır və onu aradan qaldırmaq üçün Sovet İttifaqı çərçivəsində cəhdlər edilirdi. Lakin münaqişəni aradan qaldıra bilmədilər. Daha doğrusu, mənə elə gəlir ki, aradan qaldırmaq istəmədilər, halbuki bunu Sovet İttifaqı çərçivəsində etmək mümkün idi. Bundan ötrü real imkanlar vardı. Bir sözlə, Rusiyanın keçmiş Sovet İttifaqının hüquqi varisi olduğunu nəzərə alsaq, Rusiya həmin vaxtdan bu prosesə qoşulmuşdur. Rusiya həm ATƏM-in, həm də Minsk qrupunun üzvüdür. Minsk qrupu isə,

dediyim kimi, bu problemlə xüsusi məşğul olur. Bundan əlavə, Rusiya öz təşəbbüsü ilə də çıxış edir. Məsələn, fevralın 18-də Moskvada Azərbaycan, Ermənistan və Rusiyanın müdafiə nazirləri protokol imzalamışlar. Protokolda Azərbaycanın işğal edilmiş ərazilərindən erməni qoşunlarının çıxarılması nəzərdə tutulur. Martın 1-dən atəşin dayandırılması haqqında razılaşma əldə edilmiş, həm də nəzərdə tutulmuşdur ki, üç gündən sonra isə qoşunların çıxarılmasına başlanacaqdır. Lakin belə şey olmadı. Nə deyə bilərəm? Rusiya bu prosesdə iştirak edir, amma nəticə hələlik yoxdur.

**Sual:** Cənab prezident, iki sualım var. Son vaxtlar Çin dəfələrlə bildirmişdir ki, o, Dağlıq Qarabağ ətrafında münaqişənin həllində çox fəal iştirak etməyə hazırdır. Ola bilsin, hətta güman ki, sizin bu məsələ barəsində danışıqlarınız olmuşdur. Soruşmaq istərdim, bu hazırlıq nəinki Təhlükəsizlik Şurasında və digər təşkilatlarda fəal mövqe, həm də hər hansı digər formalar – bilavasitə münaqişə zonasında sülhyaratma, vasitəçilik formaları deməkdirmi? Bu, mənim birinci sualımdır. **İkinci sual:** danışıqlarınız zamanı Çin tərəfindən Azərbaycan üçün iqtisadi yardımdan, konkret kreditlərdən söhbət getmişdirmi? Sağ olun.

**Cavab:** Birinci sual barəsində bayaq dedim ki, Çin BMT Təhlükəsizlik Şurası çərçivəsində çox prinsipial və ədalətli mövqe tutur. Bu münaqişənin nizama salınması üçün ATƏM çərçivəsində xüsusi proseslər həyata keçirilir. Çin isə Avropa birliyinə daxil deyildir. Burada hər hansı konkret vasitəçilik barədə məsələ qaldırılmadı. O ki qaldı Çinin Azərbaycana yardımına, inkişaf etdirdiyimiz əməkdaşlıq, şübhəsiz, qarşılıqlı fayda xarakteri daşıyacaqdır. Bununla bərabər, Çin Azərbaycana kredit formasında da yardım göstərmək imkanına malikdir.

**Sual:** Çindən hər hansı silah, hərbi yardım alınması barədə söhbət getmişdirmi? İkinci sual: bizə indicə "Erməni nasizmi" adlı kitabça payladılar. Siz burada dediniz ki, regionunuzdakı hadisələr haqqında dünya ictimaiyyətinə dolğun, hərtərəfli informasiya çatdırmaq yaxşı olardı. Belə nəşrləri siz informasiya hesab edirsiniz, yoxsa, bu, daha çox təbliğatdır?

**Cavab:** Birinci sualınızla əlaqədar bildirirəm ki, Çin tərəfindən hərbi yardım göstərilməsi barədə heç bir söhbət olmamışdır. Buna zərurət də yoxdur. Nə qədər çətin olsa da, Azərbaycan bu məsələnin öhdəsindən gəlir və zənnimcə, gələcəkdir. O ki qaldı kitabça barədə dediyinizə, əgər siz erməni tərəfinin, demək olar, bütün ölkələrdə, beynəlxalq təşkilatlarda apardığı təbliğatla yaxşı tanış olsaydınız, yəqin ki, həmin kitabçanı belə qarşılamazdınız. Erməni tərəfi beynəlxalq təşkilatlarda, dünyanın bütün ölkələrində belə kitabçaları, materialları yüz qat artıq yayır. İndiki münaqişədə Azərbaycanın və Ermənistanın qeyri-bərabər vəziyyətdə olması da məhz ondan irəli gəlir ki, erməni tərəfinin başqa ölkələrdə ictimai rəyə təsir göstərmək üçün çox böyük imkanları var. Azərbaycanın isə belə imkanları əslində yoxdur. Siz Avropada, ABŞ-da, Rusiyada, o cümlədən Moskvada necə güclü erməni diasporu olduğunu yaxşı bilirsiniz. Onun hətta Rusiya mətbuat orqanları vasitəsilə ictimai rəyi çaşdırmaq üçün necə səy göstərdiyi də sizə məlumdur. Ona görə də qoy bu kitabça sizi o qədər də karıxdırmasın. O, həqiqətən çox obyektiv yazılmışdır, təbliğat xarakteri deyil, məhz informasiya xarakteri daşıyır. Diqqətinizə görə sağ olun, görüşənədək.

# 1994 年 3 月 8 日阿塞拜疆共和国总统盖达尔.阿利耶夫在北京正式访问 中国记者招待会上的声明

尊敬的女士们，先生们！我们在北京已经是第二天了，我应中华人民共和国主席江泽民的邀请正式访问中国。陪同我一起访问的是一个庞大的阿塞拜疆代表团。我们已经对与中国领导人富有成果的会面感到十分满意。昨天中华人民共和国主席江泽民先生举行了正式的会谈，签署了一系列重要的文件。我们和中华人民共和国主席一起就双边关系进行了详尽的交流并在阿塞拜疆和中国之间必须发展全方位的更富有成果的两国关系上达成了一致。为了达成和落实签署的一系列文件，尽可能的在贸易，经济，科技，文化，技术，旅游方面发展合作关系。我们就国际现实问题交换了意见。中华人民共和国在国际政治中特殊的地位对我们而言具有十分重要的意义，涉及到仲裁国家，正在获得独立和成为走独立发展的国家之路的国家。就国家领土完整问题，不侵犯边境 ，主权，独立我们找到了完全共同的观点和主张。我有可能将详细的就今天阿塞拜疆人民的生活现状知悉中华人民共和国主席。我就阿塞拜疆与亚美尼亚之间持续了近 6 年的战争问题给出了最为详细的信息，关于被称之为卡拉巴赫冲突和关于我们对战争终止的期望，停火并通过和平谈判的方式来解决问题，争取达成和平协议。今天我们和国务院总理李鹏先生会谈。之前我们和中华人民共和国主席交换过所有问题意见，这些也成为了我们和李鹏先生会谈的议题我们再次确认中华人民共和国的领导在国际和内部政策中的一致性和坚定性。在我们的会谈中我们显现出来的利益关切今天我们关注这样的利益在中华人民共和国经过很多年实践并实现了经济改革。这些问题在我们和中华人民共和国主席和总理之间的会谈中被给予高度关注。在今天我们与部长的会谈中就经济改革问题详细的交换了意见。我们的访问，众所周知，明天在北京还有一场会面，然后我们将要去上海 。正好

在昨天我们和中华人民共和国主席会面时由主席提议所以我们要访问上海。关于我们访问的成果可以提前预知，我们是十分满意的。正如我所强调的，我们的会谈和谈判是十分有益的，有趣的，我们-中华人民共和国主席-和我签署了《我们两国之间合作原则的联合公报》，还签署了 7 项国家文件，确定了未来发展阿塞拜疆与中国关系的合作方向。十分重要的是我们向中华人民共和国领导介绍了我们国家的情况，在整体上我们的地区的情况，关于在阿塞拜疆与亚美尼亚之间持续的战争是由于亚美尼亚针对我们共和国的侵略，和在很多涉及到我们区域的问题。重要的成果是，这是阿塞拜疆共和国独立后，总统第一次访问中华人民共和国，恢复了两国高层领导友好联系和获得了向中国领导人汇报我们区域事件情况的可能性，考虑到中华人民共和国离我们地区较远，不具备完全和全方位的掌握我们地区信息的条件。阿塞拜疆年轻的独立国家，处在自己的历史上最艰难的时期。十分重要的是，在阿塞拜疆和这样的大国之间，像中国，对于未来更有成果的发展两国关系铺开了前景建立了高层联系。由此我们赋予他重要的意义 ，在世界经济体系中中华人民共和国占据着重要的地位 ，在国际政治和国际事务中具有重大的分量，是联合国安全理事会常务理事会成员。想要简短的告知你们，关于阿塞拜疆的情况，关于一些解决我们国家面临问题的措施，其中涉及到亚美尼亚对阿塞拜疆的侵略，被称之为卡拉巴赫的问题。苏联解体之后，阿塞拜疆获得了独立。在我们的人民心中始终有一个独立国家的愿望，我们的人民被沙俄帝国统治了近 200 年，之后又成为了一个苏联的加盟共和国。像任何一个人民一样，阿塞拜疆人民渴望自由独立，获得独立对她来说是十分重要的历史事件。与此同时在独立的阿塞拜疆国家面前面临着前所未有的社会经济发展方面的困难。在国际社会中确立了完整的国家主权和独立。所有的这些问题都在过去的两年时间里艰难的被解决，和针对亚美尼亚对阿塞拜疆的侵略问题。阿塞拜疆的经济处在深深的危机当中，这个危机，当然非常不利人民的生活水平和人民的生活状况。他号召在

最近几年摆脱苏联的过去，理所当然的，这个情况不仅仅在阿塞拜疆存在，差不多在所有的前苏联加盟共和国里仍然存在。这次危机影响正在加深，之后亚美尼亚共和国又对我们进行了侵略，使阿塞拜疆处于战争状态。战争是因为纳戈尔诺卡拉巴赫的问题，在 6 年之前就已经爆发了，战争规模不断扩大和延续，最终亚美尼亚军队占领了阿塞拜疆今天国土面积的百分之二十的领土。一百多万生活在被侵占领土的居民被沦为难民。他们失去了自己的家园，财产，今天，他们居住在阿塞拜疆不同地区，生活状况十分艰难。很遗憾，阿塞拜疆最近几年的内部政治也不是很稳定。来自亚美尼亚的战争和在共和国内不同政治势力，他们企图颠覆政权，他们为了权力而争斗不休。这样复杂的争斗最近一次发生在去年夏天，使阿塞拜疆陷于内战的边缘。但是所有这些过程我们都经历了，克服了所有的困难。现在 ，国家内部政治和社会政治形势基本稳定，秩序井然，然而，所有这些都不得不显示出了很多对社会经济形势不好的影响，没有制造更多的麻烦。在阿塞拜疆内部政治中实行国家民主。为推行一整套民主在阿塞拜疆创造了一些条件，政治多元化，多党制度，保障人权，保障人身自由，信仰自由，宗教信仰，企业自由，倡议自由。独立的阿塞拜疆在完全自由民主思想的原则下构建民主社会。在阿塞拜疆目前有近 40 个政党注册和自由的活动，600 多种报刊发行。对于这样一个拥有 700 多万人口的不大的国家来说，作为阿塞拜疆，这是一个令人满意的数字。政党，公章，毫无疑问，利用自由的权利，表达自己的思想。一些政党和机构公章在反对派手中，扮演着反对派的角色。所有这些都是为了在我们国家推行民主完全自由的表现。阿塞拜疆多民族的国家。他所有的公民，都独立于他民族的属性，宗教信仰和政治信仰，享有平等的权利。为了使阿塞拜疆每个公民能感受到自由和平等创造最有利的条件。阿塞拜疆在自己的外交政策上奉行平等的原则与世界所有国家发展外交关系。我们已经与世界很多国家建立了外交关系，共和国是联合国正式成员国，我们也加入了很多国际组织，试图积极的参与国

际事务并在国际事务中取得信任。阿塞拜疆期望与世界各个国家建立外交关系，就像这次我们到访北京一样，这是最好的证明，在中国基于这个原则我们签署了一系列关于阿塞拜疆与中国未来发展对外关系的文件。对于阿塞拜疆共和国来讲，最严重的问题是这场与亚美尼亚侵略阿塞拜疆的战争问题。亚美尼亚发动这场战争的目的是企图将位于阿塞拜疆领土的纳戈尔诺卡拉巴赫地区并入自己的国家版图。在我们整个区域战争的形势不断恶化，给阿塞拜疆和亚美尼亚人民都带来了难以估量的巨大损失。很遗憾，现在战争还在继续，人们在流血，人们在被杀害，战争的影响还在进一步扩大。我想要重复的是，这是对阿塞拜疆共和国最糟糕的因素，我们不想要战争，我们想要停火，用和平的方式解决问题。对于这个问题，当然毫无疑问的结果是亚美尼亚军队必须从所占领的阿塞拜疆领土上撤出，保证阿塞拜疆的领土完整，不侵犯边界，最重要的，最信任的问题，不容改变的条件很遗憾，一些人，世界上一些国家的亚美尼亚人与这个冲突有联系，他们居住在纳戈尔诺卡拉巴赫地区，企图拥有自治。很明显，这种想法不符合事实，亚美尼亚在国际社会的某个地方的宣传和虚假报道使这个问题更复杂化。亚美尼亚的人口在纳戈尔诺卡拉巴赫地区拥有自治的权利，这个地区作为阿塞拜疆的自治地区已经存在了差不多 70 年了，考虑到居住在这一地区大约百分之七十的人口是亚美尼亚族人，百分之三十是阿塞拜疆族人，所以纳戈尔诺-卡拉巴赫地区是一个自治区。冲突的发生不是因为自治权的问题，而是因为在纳戈尔诺卡拉巴赫地区亚美尼亚共和国的一些人想要把这一地区并入亚美尼亚。很自然的，阿塞拜疆是不可能同意他们抢夺自己的领土并使自己的领土并入其他的共和国的版图。这是爆发冲突的关键。阿塞拜疆的领土完整必须得到保障。我们不企图别人的领土，尽管在历史上也有这样的事情，但我们不想要获得别人的领土，也不放弃自己的领土。用和平的方式和谈判的方式来调解阿塞拜疆与亚美尼亚的冲突，达成停火，毫无疑问，我们相信居住在纳戈尔诺卡拉巴赫地区的亚美尼亚的安全和合法

权利会得到阿塞拜疆共和国宪法和其他国家机构的保障。如果亚美尼亚接受建议谈判，保证从阿塞拜疆被侵占领土上撤出亚美尼亚的军队，那么阿塞拜疆一方可以审议纳戈尔诺卡拉巴赫地区的地位问题。我们实现这些问题的解决总是要依靠国际组织的帮助，他们为了解决这个问题专门成立了相关的组织来协调冲突解决如：联合国，联合国安全理事会，欧洲安全理事会，欧洲安全理事会明斯克小组。众所周知，联合国因为这个问题不止一次的出面调解，并通过了四次联合国决议，要求亚美尼亚军队无条件的从被侵占的阿塞拜疆的领土上撤出。然而，亚美尼亚一方多次的对这些决议置之不理，是对欧洲安全理事会的决议也漠视无睹 。欧洲安全理事会明斯克小组至今也没有给出任何结果 。尽管欧洲安全理事会和欧洲安全理事会明斯克小组也曾多次通过决议，甚至还制定了要求亚美尼亚一方从被侵占的阿塞拜疆的领土上撤出的计划。就这样，亚美尼亚针对阿塞拜疆的侵略和不遵照国际组织的决议，很明确的证明，亚美尼亚想要继续采用武力的目的，侵犯阿塞拜疆的领土完整，改变我们国家的边界，当然我们在任何时候都不会同意和纵容。值得强调的是，亚美尼亚的这种企图是得意于一些国外势力的某一集团和国家的支持，然后纵然藐视联合国安全理事会，欧洲安全理事会和其他一些国际组织的决议。请看地图，很明确，这就是亚美尼亚针对阿塞拜疆的侵略和所侵占的领土。这是阿塞拜疆，这是纳希切万自治共和国是阿塞拜疆不可分割的一部分，这是亚美尼亚，用红线标出的部分是前纳戈尔诺卡拉巴赫地区的领土，现在，完全在亚美尼亚军队的控制之下。我已经告知了大家，这个地方有近百分之三十的人口是阿塞拜疆族人，他们被亚美尼亚从这里驱赶。大约是五万人，现在没有一个阿塞拜疆族人生活在纳戈尔诺卡拉巴赫地区，而亚美尼亚居民还在这里 。侵略的范围扩大到阿塞拜疆的拉钦地区，卡里巴扎尔地区，阿格达姆地区，菲租里地区，杰布那伊里地区，扎杰兰地区，库巴里地区。这些地区一共是阿塞拜疆领土面积的百分之二十。致使这一地区一百多万阿塞拜疆居民成为难民，迫使他

们生活在阿塞拜疆的其他地区，他们之中的大多数人居住在巴库地区。我已经说过，联合国的四项决议涉及卡里巴扎尔地区，阿格达姆地区，菲租里地区，杰布那伊里地区，扎杰兰地区，库巴里地区。被亚美尼亚侵占的这些领土，实质上，一方面保证了毫无障碍的联系，使阿塞拜疆的这些领土并入亚美尼亚，另一方面，他们获得了监控和伊朗约 140 多公里的边境的机会。请看这就是伊朗。我想，没有必要特别证明，这就是武力侵略，企图侵占另外一个国家领土的侵略，要知道，没有必要向国际社会再进行证明，我们必须终结这场武装侵略。我重申，我们是要通过和平方式来解决这个问题，我们将继续我们热爱和平的倡议和步伐。但是我们不能容忍目前的状况。如果和平的步伐不会有任何结果，我们勇敢的士兵也时刻准备着为解放自己国家的领土而献身并用武力的方式来解决问题。不久之前，在明斯克小组成员国俄罗斯联邦国防部的调解下 ，自 3 月 1 日达成了停火协议，并且推动了要求亚美尼亚军队从被侵占的阿塞拜疆领土上撤出的和平谈判。我们很快遵守了这个协议的原则，然而，亚美尼亚军队在 3 月 3 日和 3 月 5 日对阿塞拜疆的控制区域发起了大量的进攻，我们的军队给予了坚决的回击。所有的这一切又给双方造成了新的损失和流血。领土完整和边界不容侵犯是每一个国家不容动摇的国际法原则，被联合国文件所记录。当我们和中国领导人谈判的时候中华人民共和国主席，国务院总理，中国一再确认了坚定的立场，不容许武力侵犯边境，蚕食任何一个国家的领土完整。依靠这些被写入联合国文件，国际法，和被世界所有国家所认可的原则，我们就会实现自己的领土完整和边境不容侵犯。在这里我们当然期望国际社会，国际组织和世界各个国家对我们的支持，特别是中华人民共和国的支持。必须指出的是中国代表团是联合国安全理事会的重要组成员，在审议亚美尼亚侵略阿塞拜疆的问题立场上坚定的捍卫公平。我利用这次到访的机会，向中国领导人对这一问题采取的公平立场表达了谢意。我在这里已经充分的知悉了与会记者们关于阿塞拜疆内部情况的信息，关于阿塞拜疆

共和国正在解决的问题，关于阿塞拜疆外交政策，关于我们在北京会面的结果。因此，我不能继续耽误你们的关注。如果有什么问题，我已经准备好回答这些问题。

问题：在调解冲突中俄罗斯的角色，阿塞拜疆与俄罗斯关系的前景怎样?

回答：我从问题的第二部分开始回答您的问题，阿塞拜疆俄罗斯的关系，现在正常，很好，在这之前相当的复杂，主要是由于阿塞拜疆前领导人的立场问题。自去年的后半年这些关系有所修复。我到访了莫斯科，和俄罗斯总统鲍里斯.尼古拉耶维奇.叶利钦，总理维克托·斯捷潘诺维奇·切尔诺梅尔金和其他国家领导进行了会晤 。我们达成了一些列关于在这之前的清除障碍修复阿塞拜疆与俄罗斯两国关系的协议。现在，我重申，这些关系正朝着健康，友好的方向发展。涉及到在调解冲突中俄罗斯的角色俄罗斯是参与这一进程的永久成员角色。众所周知，这个冲突爆发于 1988 年初，在苏联的统治时期，想要解决这个问题，但没有能被解决。然而，很可能，我似乎觉察到，苏联当局没有想要在苏联的框架体系内解决这个问题，使这个问题在现实的可能下被解决。因此，如果认为，俄罗斯是苏联的合法继任国，自那个时候起，俄罗斯就包括在这一冲突进程中了。俄罗斯是欧洲安全理事会和明斯克小组成员国，而明斯克小组正如我所说的是专门解决这一问题的组织。除此之外 ，俄罗斯还提出自己特殊的倡议。其中，2 月 18 日，阿塞拜疆共和国，俄罗斯联邦和亚美尼亚共和国的国防部长们在莫斯科签署了，亚美尼亚军队从被侵占的阿塞拜疆领土上撤军的会谈纪要。达成了从 3 月 1 日起实现停火的协议。由此可见，再过三天，军队撤出。然而，所有这一切并没有如愿。我能说什么?俄罗斯参与这个过程，但是暂时还没有结果。

问题：总统先生，我有两个问题。最近，多次声明，中国准备好以最积极的方式参与解决纳戈尔诺卡拉巴赫地区冲突。可能的话，可以设想一下，你们有针对这个事情谈判的，我想问的是，这个

准备意味着这个准备不仅仅是安全理事会和其他国际组织的立场，而且是其他形式的调停人，直接和间接的冲突调解者的立场？这是我的第一个问题。第二个问题：在你们的谈判中有没有涉及关于经济的援助，对于阿塞拜疆中国有没有给阿塞拜疆具体的贷款？谢谢。

回答：就第一个问题我已经说了，中国在联合国安全理事会框架内有原则性和正义性的。在调解这一冲突专门的进程是在欧洲安全理事会的框架下实现，中国不在欧洲社会。关于涉及到任何具体的中间人在这里没有出现的问题。但是，涉及到中国给予阿塞拜疆的援助，那个是毫无疑问，我们的合作将要拥有互利的基础上发展。与此同时中国具有以贷款形式给予阿塞拜疆援助的可能性。

问题：谈判中有没有涉及到中国军队援助阿塞拜疆的谈话？第二个

问题，现在给了我们《亚美尼亚民族主义》的小册子。您在这里讲到，关于你们地区事件你们给国际社会带来了完整的，全方面的信息。这种发行，您认为这是信息还是宣传？回答：第一：没有任何关于来自中国军队的援助的谈话内容。这个更没有必要。阿塞拜疆就像没有困难一样，自己克服着困难，我认为，能战胜这些困难。涉及到你们对小册子评论：如果在宣传方面你有很好的朋友，请在国际组织和所有国家宣传亚美尼亚共和国的行经，您没有这样正确的对待这本小册子。亚美尼亚一方在国际组织和世界上所有国家分发了几百次这样的小册子和这样的材料。针对阿塞拜疆不实的情况，正好亚美尼亚在这次冲突在国际社会将会有更大的影响力，阿塞拜疆在这样的情况下差不多没有准备。您很好的知道，亚美尼亚在欧盟，美国，俄罗斯，特别是莫斯科怎样的败坏阿塞拜疆。众所周知，对于虚构社会舆论事实他们采取了什么手段，甚至经过俄罗斯政府机构的公章方式。因此，特别请您别笑这本小册子，他承载着十分客观的，真实的信息，而不是刻意的宣传。感谢关注，再见！

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çinə rəsmi səfər zamanı Çin Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsindəki çıxışı – 9 mart 1994-cü il

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

Hörmətli cənab prezident, Çin Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsinin hörmətli yüksək vəzifəli şəxsləri, xanımlar və cənablar! Sizinlə görüş üçün dəvətə və bu gün sizinlə ünsiyyətdə olmaq imkanına görə sizə hədsiz minnətdaram. Mən buna Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında ticarət-iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsinin çox mühüm vasitəsi kimi baxıram. Mən və məni müşayiət edən şəxslər buraya Çin Xalq Respublikasının sədri Tszyan Tszeminin dəvəti ilə gəlmişik. Üçüncü gündür ki, ölkənizdə, onun paytaxtı – gözəl şəhər olan Pekindəyik və bu üç gündə bir çox məsələlər barəsində fikir mübadiləsi etməyə və hətta bir sıra mühüm sənədlər imzalamağa macal tapmışıq. Bu sənədlər Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlərin, ən əvvəl ticarət sahəsində və iqtisadiyyatın digər sahələrində əlaqələrin daha da inkişaf etdirilməsinə yönəldilmişdir. Ölkənizə gəldiyimiz andan həm ali dövlət rəhbərliyi tərəfindən, həm də işlə əlaqədar bizimlə ünsiyyətdə olanların hamısı tərəfindən əhatə edildiyimiz səmimi dostluq mühitini ilk növbədə qeyd etmək istərdim. Açığını deyirəm, biz özümüzü evimizdəki kimi hiss edirik. Bu, olduqca vacibdir, çünki biz Çin Xalq Respublikası ilə dostluq münasibətləri

yaratmağa çalışırıq. Odur ki, bu səfər, Azərbaycan prezidentinin Çinə ilk səfəri məhz belə münasibətlər yaradılmasının və bu münasibətlərin inkişaf etdirilməsinin zəruriliyindən irəli gəlir. Bununla əlaqədar olaraq ticarət-iqtisadi münasibətlər birinci dərəcəli əhəmiyyətə malikdir. Belə düşünürəm ki, ölkələrimizin ali rəhbərləri arasında əldə edilmiş razılaşmaları istər Azərbaycanda, istərsə də ÇXR-də müvafiq strukturlar həyata keçirməlidirlər. Bu işdə sizin, Çin sahibkarlarının və beynəlxalq ticarətin inkişafına yardım komitəsinin rolu böyükdür. Yəqin, siz məlumat kitabçalarından, ədəbiyyat və mətbuatdan bilirsiniz ki, Azərbaycan gənc, müstəqil dövlətdir, keçmişdə Sovet İttifaqının tərkibində olmuş, SSRİ-nin parçalanması ilə əlaqədar istiqlaliyyət əldə etmiş və indi bütün dünya birliyi tərəfindən tanınmışdır. Biz qarşımıza istiqlaliyyəti möhkəmlətməyi və dünyanın bütün ölkələri ilə bərabərhüquqlu dostluq münasibətləri yaratmağı təmin etmək məqsədi və vəzifəsi qoymuşuq. Ölkələrimizi bir-birindən olduqca böyük məsafə ayırsa da, bizi belə bir cəhət birləşdirir ki, Çin də, Azərbaycan da Asiyada yerləşir. Digər tərəfdən, Çin dünyanın ən iri dövlətidir, olduqca böyük miqdarda əhalisi, geniş ərazisi, çox güclü iqtisadi potensialı var, Azərbaycan isə Qafqazda yerləşən gənc müstəqil dövlətdir, onun 7 milyon nəfər əhalisi, 86 min kvadrat kilometr ərazisi var, buna baxmayaraq, kifayət qədər sanballı potensiala malikdir. Dediyim kimi, biz də Asiya qitəsindəyik, lakin bununla bərabər, Avropa ilə Asiyanın qovuşuğunda yerləşirik, necə deyərlər, həm Avropaya, həm də Asiyaya mənsubuq. Bu, Azərbaycan iqtisadiyyatının inkişafı baxımından da böyük əhəmiyyətə malikdir. Azərbaycan bütün Asiya ölkələri ilə, o cümlədən də Çinlə çoxdan əlaqələrə malikdir. Asiya ilə Avropanı birləşdirən bir növ körpü, o cümlədən ticarət körpüsü olmuşdur. Biz burada olduğumuz günlərdə ipək yolunu da, hələ XII-XIII əsrlərdən başlayaraq Azərbaycanla

Çin arasında mövcud olmuş digər ticarət-iqtisadi əlaqələri də təsadüfi yada salmadıq. Bir sözlə, tarix və coğrafiya Azərbaycanla Çin Xalq Respublikası arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün çox əlverişli şərait yaratmışdır. Mən artıq qeyd etdim ki, Azərbaycan kifayət qədər sanballı iqtisadi potensiala malikdir. Bu potensial respublikanın ən əvvəl yeraltı və yerüstü sərvətlərindən ibarətdir. Mən zəngin neft, dəmir filizi, alüminium yataqlarını, digər ehtiyatları nəzərdə tuturam. Azərbaycan həm də kifayət qədər güclü sənaye potensialına malikdir. Bu, neft, neft kimyası, kimya, maşınqayırma sənayesidir. Maşınqayırma, demək olar, bütün sahələri – neft maşınqayırmasını, elektronikanı, cihazqayırmanı, əhatə edir. Bizdə metallurgiya sənayesi də inkişaf etmişdir. Dediyim kimi, bizdə dəmir filizi və alüminium xammalı var, buna görə də sənayemizdə həm metal prokatı, həm də alüminium istehsalı mühüm yer tutur. Bütün bunlarla yanaşı, bizdə toxuculuq, emal sənayesi, yüngül sənaye də inkişaf etmişdir, həm də özümüzün kənd təsərrüfatı xammalı əsasında. Respublikanın kənd təsərrüfatı da müxtəlifdir. Ərazimiz böyük olmasa da, təbii torpaq-iqlim şəraiti Azərbaycanda, məsələn, pambıq və subtropik bitkiləri – çay, tütün və tərəvəzi, taxıl və üzümü eyni zamanda əkib-becərməyə imkan verir. Bizdə şərabçılıq çox inkişaf etmişdir. Bir daha deyirəm, bütün bunlar bütövlükdə həm sənaye, həm də kənd təsərrüfatı potensialımızı təşkil edir və Azərbaycanın gələcək inkişafı üçün və təbii olaraq, digər ölkələrlə, o cümlədən də Çinlə ticarət-iqtisadi əlaqələrin inkişafı üçün yaxşı bazadır. Azərbaycan kifayət qədər sanballı iqtisadi potensiala malik olsa da, hazırda dərin sosial-iqtisadi böhran keçirir. Əlbəttə, bu böhran keçmiş Sovet İttifaqında getmiş proseslərlə bağlıdır. Lakin o, respublikamızda bir də onunla bağlıdır ki, Azərbaycan qonşu Ermənistan Respublikası tərəfindən hərbi təcavüzə məruz qalmışdır. Bununla bərabər biz

iqtisadiyyatı daha səmərəli şəkildə idarə etmək yolları axtarır, azad sahibkarlığa, bazar münasibətlərinə üstünlük veririk. Hazırda bizdə bir sistemdən – sosial-iqtisadi sistemdən digərinə – azad iqtisadiyyata keçid prosesi gedir. Bu, təkcə dövlətlər səviyyəsində deyil, həm də müxtəlif şirkət və müəssisələr səviyyəsində birbaşa ticarət – iqtisadi əlaqələr yaradılması üçün olduqca böyük perspektivlər açır. Yeri gəlmişkən, deməliyəm ki, müştərək müəssisələr açılması üçün Azərbaycanla Çin arasında əlaqələr yaradılması sahəsində müəyyən addımlar atılmışdır. Azərbaycan iqtisadiyyatının inkişaf yollarını müəyyənləşdirərkən biz qabaqcıl, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsindən, Yer kürəsinin müxtəlif regionlarında toplanmış təcrübədən bəhrələnməyə, lakin, şübhəsiz ki, ölkəmizin və xalqımızın milli xüsusiyyətlərini əsas götürməklə bəhrələnməyə çalışırıq. Bununla əlaqədar biz burada olduğumuz günlərdə son illər Çin Xalq Respublikasının həyata keçirdiyi və kifayət qədər müsbət nəticələr vermiş iqtisadi islahatların prinsipləri, xüsusən onların praktiki səmərəsi ilə tanış oluruq və daha ətraflı tanış olmaq fikrindəyik. Dediyim kimi, Azərbaycan qonşu Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalır. Bu təcavüz nəticəsində erməni silahlı birləşmələri respublikamızın ərazisinin 20 faizə qədərini işğal etmişdir. Azərbaycan müharibə vəziyyətindədir, lakin bununla belə, iqtisadiyyatı müvəffəqiyyətlə inkişaf etdirmək üçün imkanlarımız var. Onu da qeyd etmək istəyirəm ki, bütün bu şəraitdə də ölkənin daxilində ictimai-siyasi vəziyyət sabit, normaldır ki, bu da iqtisadiyyatı inkişaf etdirmək üçün və təbii ki, başqa ölkələrlə, firmalarla, şirkətlərlə, assosiasiyalarla birbaşa ticarət-iqtisadi əlaqələr saxlamaq üçün yaxşı zəmin yaradır. Biz Çinlə belə əlaqələrin yaradılmasına böyük əhəmiyyət veririk. Mən ölkəmiz, Azərbaycan haqqında, onun sosial-iqtisadi vəziyyəti, başqa ölkələrlə, o cümlədən Çinlə iqti-

sadi-ticarət əlaqələrini inkişaf etdirmək sahəsində respublikamızın imkanları barədə verdiyim bu qısa informasiya ilə kifayətlənirəm, çünki nəzərə alıram ki, yəqin fikir mübadiləsi olacaqdır. Bu bizim ilk görüşümüz, ilk tanışlığımızdır. Hiss edirəm ki, Azərbaycanla əməkdaşlıq etmək arzusu böyükdür. Şübhəsiz ki, hər kəs öz imkanlarını götür-qoy edir, bu da təbiidir, çünki əməkdaşlıq qarşılıqlı surətdə faydalı olmalıdır. Zənnimcə, biz bu gün belə bir əməkdaşlıq üçün yaxşı bünövrə qoyuruq. Bir daha qeyd etmək istəyirəm ki, ölkəmizdə bazar iqtisadiyyatına keçid prosesi gedir. Sizdə sosialist bazar iqtisadiyyatı, yaxud bazar sosializmi mövcuddur. Bunlar demək olar ki, eyni şeydir. Ona görə də biz bunu əsas tutacağıq ki, Çin Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsi ilə birbaşa əlaqə yaradılmışdır, müvafiq şirkətlərin, firmaların rəhbərləri ilə ünsiyyətlər yaradılır. Mən sizin hamınızı Azərbaycana dəvət edirəm ki, gəlib özünüz bizim imkanlarımızla tanış ola biləsiniz. Təbii ki, bu, qarşılıqlı surətdə faydalı əməkdaşlıq məsələlərini konkret surətdə həll etməyə imkan verəcəkdir. Bugünkü görüş üçün, diqqətiniz üçün sizə təşəkkürümü bildirmək istəyirəm. Çin iqtisadiyyatının inkişafında, islahatların həyata keçirilməsində hamınıza uğurlar arzulayıram. İnanıram ki, Çin Xalq Respublikasının gələcəyi gözəldir. Həm iqtisadiyyat, həm də sosial sahə yüksək sürətlə inkişaf edir, bu isə gələcəkdə Çinin hər bir vətəndaşı üçün daha yaxşı yaşayış şəraiti yaratmağa imkan verəcəkdir. Sizə xoşbəxtlik, firavanlıq, uğurlar diləyirəm. Dəvətinizə və xoş sözlərinizə görə sizə dərin minnətdarlığımı bildirirəm.

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çinə rəsmi səfər zamanı İctimai Elmlər Akademiyasındakı çıxışı 9 mart 1994-cü il

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

Hörmətli xanımlar və cənablar, hörmətli dostlar! Hədsiz xoşbəxtəm ki, Pekində mənə sizinlə – İctimai Elmlər Akademiyasının alimləri, mütəxəssisləri, əməkdaşları ilə görüşmək imkanı verilmişdir. Həm də şadam ki, mən belə nüfuzlu və yüksək səviyyəli auditoriya qarşısında çıxış edirəm. Mənə yaxşı məlumdur, bunu ölkəmizdə, Azərbaycanda da bilirlər ki, 1949-cu ildə Çin inqilabı həyata keçirildikdən sonrakı dövrdə Çində böyük sosial-iqtisadi dəyişikliklər baş vermiş, həmin dövrdə ictimai elmlər güclü inkişaf etmişdir. Həm də akademiya ÇXR-də ictimai elmlər mərkəzidir. Bu gün bizə buraya gəlmək xoşbəxtliyi nəsib olmuşdur. Siz Çində nəinki ictimai elmlərin inkişafına ciddi töhfə vermisiniz, həm də bəşəriyyətin inkişaf prosesləri haqqında elmi və cəmiyyəti yeni tədqiqatlarla, yeni müddəalarla zənginləşdirmisiniz. Çin alimlərinin ictimai elmlər sahəsində tədqiqatlarını, sizin ölkənizin inkişafının da və şübhəsiz, bütün dünyanın ictimai-siyasi inkişafının da müxtəlif mərhələlərində çıxarılan çox maraqlı müddəaları bu yaxınlaradək tərkibində olduğumuz keçmiş Sovet İttifaqında da həmişə böyük maraq və diqqətlə izləyirdilər. Mən sizə və ictimai elmlər sahəsində çalışan bütün mütəxəssislərə, dünya elminə olduqca böyük töhfə verən və təbii ki, ÇXR-in mövcudluğunun 45

ili ərzində edilmiş dəyişikliklərdə mühüm rol oynayan bütün Çin alimlərinə öz ehtiramımı bildirirəm. Çin xalqı böyük xalqdır, Çin - böyük ölkədir. Biz də böyük məmnunluq hissi ilə qeyd edirik ki, inqilabdan sonra ÇXR-in mövcud olduğu illər ərzində Çin xalqı dünya birliyində layiqli yer tutmuş, Çin Xalq Respublikası bütün dünyada böyük beynəlxalq nüfuz qazanmışdır və indi dünya miqyasında ictimai-siyasi inkişaf proseslərinə olduqca böyük təsir göstərir. Çin ilə Azərbaycan arasında münasibətlər bu yaxınlarda yaradılmışdır. Belə ki, bildiyiniz kimi, Azərbaycan Sovet İttifaqının tərkibinə daxil idi və öz dövlət müstəqilliyini iki il bundan əvvəl, Sovet İttifaqı dağıldıqdan sonra əldə etmişdir. Bu müddət ərzində ölkələrimiz arasında diplomatik münasibətlər yaradılmışdır, ticarət iqtisadi əlaqələr inkişaf edir. Buna görə də biz tam əsasla deyə bilərik ki, Çin Xalq Respublikası ilə müstəqil Azərbaycan Respublikası arasında dostluq münasibətləri yaranmışdır. Əslinə qalsa, mənim ÇXR-ə rəsmi səfərim və bizim burada keçirdiyimiz görüşlər və apardığımız danışıqlar da həmin münasibətlərdən irəli gəlir. Biz Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszemin, Dövlət Şurasının baş naziri cənab Li Pen ilə görüşlər və danışıqlar zamanı dövlətlərarası münasibətlərimizlə bağlı bir çox məsələləri müzakirə etmişik. Biz Çin ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişafının perspektivlərini müəyyənləşdirən mühüm sənədlər imzalamışıq. Çin Xalq Respublikasının sədri və mən ölkələrimiz arasında əməkdaşlığın prinsipləri haqqında bəyannamə imzalamışıq. Bu sənəd dostluq əlaqələrimizin gələcək inkişafının proqramıdır. İqtisadi, elmi-texniki, mədəni əməkdaşlığın müxtəlif məsələlərinə dair daha yeddi sənəd imzalanmışdır. Bütün bunlar Çin Xalq Respublikası ilə Azərbaycan arasında münasibətlərin yeni mərhələsi deməkdir. Səfərimiz başa çatır. Bu gün biz Şanxaya yola düşürük, sabah isə Vətənə qayıdacağıq. De-

mək istəyirəm ki, səfərimizin nəticələrindən, burada olmağımızdan son dərəcə məmnun qalmışıq. Biz Vətənə xoş əhval-ruhiyyə ilə qayıdırıq. Pekində, ümumən Çin Xalq Respublikasında olduğumuz zaman qarşılaşdığımız səmimiyyəti və qonaqpərvərliyi xüsusilə qeyd etmək istəyirəm. Zənnimcə, ictimai elmlər sahəsində çalışan mütəxəssislər kimi, siz keçmiş Sovet İttifaqında baş vermiş, həmin İttifaqın dağılmasına və onun ərazisində müstəqil dövlətlərin yaranmasına gətirib çıxarmış prosesləri, habelə, təbii ki, Azərbaycanda, Zaqafqaziyada, Qafqaz regionunda baş vermiş və indi də davam edən prosesləri yaxşı təsəvvür edirsiniz. Bununla belə, sizə qısaca olaraq öz ölkəmiz haqqında – Azərbaycan Respublikası barədə danışmaq istərdim. Yenidənqurma deyilən dövrdə keçmiş Sovet İttifaqında gedən proseslər, sizə məlum olduğu kimi, çox mürəkkəb, ziddiyyətli proseslər idi və o zaman gözlənilən nəticələri vermədi. Sovet İttifaqının dağılması və yeni müstəqil dövlətlərin yaranması son onilliklər ərzində keçmiş SSRİ-də və bütün dünyada baş verən ictimai-tarixi proseslərin qanunauyğun nəticəsidir. Bunun nəticəsində Azərbaycan xalqı bir çox onilliklər ərzində can atdığı dövlət istiqlaliyyətinə nail olmuşdur. İndi Azərbaycan dünya birliyi tərəfindən tanınmış müstəqil dövlət, Birləşmiş Millətlər Təşkilatının, başqa beynəlxalq təşkilatların üzvüdür. Dövlət istiqlaliyyətinin əldə edilməsi Azərbaycan xalqı üçün tarixi hadisədir və bizim vəzifəmiz, məqsədimiz istiqlaliyyətimizi, beynəlxalq mövqelərimizi hər vasitə ilə möhkəmləndirməkdən ibarətdir. Biz çalışırıq və gələcəkdə də çalışacağıq ki, Azərbaycan indən belə heç vaxt hər hansı başqa ölkənin vassalı və ya bir hissəsi olmasın. Bundan ötrü hər cür şərait və imkan var, baxmayaraq ki, yolumuz üzərində çətinliklər və maneələr də az deyildir. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan xalqı öz istiqlaliyyətinin əldən getməsinə heç vaxt yol verməyəcəkdir. Azərbaycan kifayət qədər iqtisadi po-

tensiala, zəngin yeraltı və yerüstü sərvətlərə, güclü intellektual, elmitexniki potensiala malikdir. Respublikamızın çox əlverişli coğrafi-siyasi mövqeyi var, bildiyiniz kimi, Azərbaycan Avropa və Asiyanın qovuşuğunda yerləşir, Rusiya, İran, Türkiyə və hazırda müstəqil dövlət olan Gürcüstanla və müharibə vəziyyətində olduğumuz – bu barədə sonra danışacağam – Ermənistanla həmsərhəddir. Bütün bunlar Azərbaycanın müstəqil dövlət kimi yaşaması üçün şərait yaradır. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan çox zəngin tarixi olan qədim ölkədir, Azərbaycan xalqı dünya sivilizasiyasına xeyli töhfə vermişdir. Azərbaycanın ədəbiyyatı, incəsənəti, mədəniyyəti qədim dövrlərdən başlayaraq şərqdə, həm də təkcə Şərqdə deyil, habelə Qərbdə, Avropada da məlumdur. Bütün bunlar bizim bugünümüz və gələcəyimiz üçün etibarlı bünövrə yaradır. Keçmişdə, orta əsrlərdə və sonralar Azərbaycan dünyanın bir çox ölkəsi ilə sıx ticarət-iqtisadi və mədəni əlaqələr saxlamışdır. Hələ XII-XIII əsrlərdən başlayaraq Çinlə də belə əlaqələr olmuşdur. Böyük ipək yolu Azərbaycandan keçirdi, buraya Çin tacirləri də gəlirdi. Bir sözlə, Avropa ilə Asiyanı birləşdirən yolların qovuşuğunda yerləşən Azərbaycan ta qədimdən həm Şərqlə, həm də Qərblə bağlı olmuşdur. Bir daha deyirəm ki, bütün bunlar bizim zəngin keçmişimizdən, ənənələrimizdən, imkanlarımızdan xəbər verir, göstərir ki, Azərbaycan indi də müstəqil dövlət kimi yaşaya bilər. Bu gün daxili siyasətdə fəaliyyətimizin əsas istiqaməti şəxsiyyət azadlığını, sərbəst sahibkarlığı, təşəbbüskarlığı təmin etmək əsasında, insan hüquqlarının qorunmasına möhkəm zəmanət verilməsi, siyasi plüralizmi, çoxpartiyalı sistemi təmin etmək zəminində demokratik hüquqi dövlət, demokratik cəmiyyət qurmaqdır. İqtisadiyyat sahəsində biz bazar iqtisadiyyatı yolunu tutmuşuq. Aydındır ki, bütün bunlar heç də sadə proseslər olmayıb, çoxlu çətinliklərlə qarşılaşır. Lakin biz əminik ki, Azər-

baycan özünün daxili həyatını həmin prinsiplər üzərində quracaqdır. Xarici siyasət sahəsində Azərbaycan dünyanın bütün ölkələri ilə, lakin ilk növbədə qonşu dövlətlərlə və əməkdaşlığın konkret praktiki nəticələr verə biləcəyi ölkələrlə dostluq, bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı münasibətlər yaratmaq prinsiplərini həyata keçirir. Bununla əlaqədar Azərbaycan Çin Xalq Respublikası ilə mehriban münasibətlər və ticarət-iqtisadi, elmi-texniki, mədəni əlaqələr yaratmağa, daha doğrusu, bunları inkişaf etdirməyə böyük əhəmiyyət verir. Məhz bu məqsədlə biz dəvəti qəbul edərək Çinə gəlmişik. Bizim buraya gəlməyimiz, keçirdiyimiz görüşlər və apardığımız danışıqlar bizi əmin edir ki, həm Çin, həm də Azərbaycan milli mənafeləri və təbii ki, dünya birliyini möhkəmləndirmək mənafelərini əsas tutaraq qarşılıqlı addım atır. Cəmi iki il bundan əvvəl istiqlaliyyət qazanmış Azərbaycan indi dünyanın bir çox ölkəsi ilə diplomatik münasibətlər yaratmışdır, müxtəlif beynəlxalq təşkilatların fəaliyyətində iştirak edir. Lakin bu, yalnız başlanğıcdır. Əlbəttə, biz beynəlxalq fəaliyyətimizi genişləndirməyə, başqa ölkələrlə əlaqələri inkişaf etdirməyə səy göstəririk və bundan sonra da səy göstərəcəyik. İctimai elmlər sahəsində çalışan mütəxəssislər kimi, siz qədim tarixə malik, son dərəcə çoxmillətli, özünəməxsusluğu və çoxsaylı mürəkkəb ziddiyyətləri olan Qafqazın, o cümlədən Zaqafqaziyanın nə demək olduğunu yaxşı bilirsiniz. Zaqafqaziyada keçmiş Sovet İttifaqının üç respublikası, indi müstəqil dövlətlər olan Gürcüstan, Azərbaycan və Ermənistan yerləşir. Gürcüstanla bizim normal dostluq münasibətlərimiz var. Ermənistanla isə, təəssüf ki, müharibə vəziyyətindəyik. Altıncı ildir ki, Ermənistan Azərbaycana qarşı hərbi təcavüz edir. Bu hərbi münaqişə barədə hər yerdə, o cümlədən də Çində doğru-düzgün, həqiqi təsəvvürün olması mühümdür. Həqiqət isə bundan ibarətdir ki, qonşu Ermənistan Azərbaycanın bir hissəsini – təkcə

ermənilərin deyil, həm də azərbaycanlıların yaşadıqları Dağlıq Qarabağı özünə birləşdirməyə cəhd göstərir.Altı ilə yaxındır ki, Ermənistan müharibəyə başlamışdır, bundan da məqsəd məhz Dağlıq Qarabağı Azərbaycandan qoparmaq və Ermənistana birləşdirməkdir, Azərbaycan xalqı isə, şübhəsiz, bununla heç cür razılaşa bilməz. Dağlıq Qarabağ Azərbaycan ərazisinin bir hissəsidir. Lakin oranın əhalisinin bir hissəsini ermənilər təşkil etməsi ilə əlaqədar 1923-cü ildə Azərbaycanın tərkibində muxtar vilayət yaradılmışdı. Həmin vilayət ötən illərdə Azərbaycan Respublikasının və əlbəttə ki, bütün Sovet İttifaqının tərkibində müvəffəqiyyətlə inkişaf edirdi. Dağlıq Qarabağda əhalinin 70 faizə qədəri ermənilər, 30 faizi isə azərbaycanlılar idi. Onun ərazisi çox da böyük deyildi, təxminən 4 min kvadrat kilometr idi. Ermənistanın millətçi dairələri, sonra isə Ermənistan Respublikasının rəhbərliyi də Dağlıq Qarabağda müəyyən sayda ermənilərin yaşamasını əsas tutaraq Azərbaycan ərazisinin bu hissəsini ondan qoparaq Ermənistana birləşdirməyi qarşılarına məqsəd qoymuşlar. Həmin münaqişə bu cür başladı. Əlbəttə, münaqişə hələ o zaman, vahid dövlət olan Sovet İttifaqının çərçivəsində aradan qaldırıla bilərdi. Doğrudur, hansısa qüvvələr buna mane oldular. İndi, Ermənistan və Azərbaycan müstəqillik qazandıqdan sonra həmin məsələni dövlətlərarası zəmində, beynəlxalq hüquq prinsipləri əsasında, beynəlxalq təşkilatların iştirakı ilə həll etmək lazımdır. Biz buna çalışırıq. Lakin Ermənistan tərəfi müvəqqəti hərbi üstünlüyündən istifadə edərək öz niyyətlərini zorakılıq yolu ilə, silah gücünə həyata keçirməyə cəhd göstərir və son illər ərzində Ermənistan tərəfi Azərbaycan ərazisinin 20 faizə qədərini işğal etmişdir. Azərbaycan bu məsələni sülh yolu ilə, danışıqlar vasitəsilə həll etməyə çalışır. Biz BMT Təhlükəsizlik Şurasının, ATƏM-in, onun Minsk qrupunun və başqa beynəlxalq təşkilatların imkanlarından,

münaqişənin sülh yolu ilə aradan qaldırılmasında rol oynaya biləcək böyük dövlətlərin imkanlarından istifadə edirik və bundan sonra da istifadə edəcəyik, lakin bir şərtlə – işğalçı erməni qoşunları Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmalı, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır. Əgər həmin tədbirlər bir nəticə verməsə, Azərbaycan özünün hərbi imkanlarından istifadə edərək ölkənin ərazi bütövlüyünü, dövlətin müstəqilliyini və suverenliyini, sərhədlərinin toxunulmazlığını müdafiə edə biləcəkdir. Çin rəhbərləri ilə görüşlər və söhbətlər zamanı biz bu məsələyə münasibətdə Çin Xalq Respublikasının və onun rəhbərliyinin prinsipial, ədalətli mövqeyi ilə bir daha məmnuniyyətlə tanış olduq. Bu mövqe onu əsas tutur ki, hər hansı dövlətin, o cümlədən də Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır, – bu beynəlxalq hüququn sarsılmaz prinsipidir, – bir dövlətin başqa dövlətin ərazi bütövlüyünə qəsd etməsinə yol vermək olmaz. Sərhədlərin toxunulmazlığı da sarsılmaz prinsipdir və sərhədləri silah gücünə dəyişdirmək cəhdi yolverilməzdir. Bu mövqe BMT Təhlükəsizlik Şurasının iclaslarında da bildirilmiş və burada, Pekində Çin rəhbərləri ilə görüşlər və söhbətlər zamanı bir daha təsdiq edilmişdir.Heç də az əhəmiyyəti olmayan daha bir cəhəti qeyd etmək istəyirəm. Azərbaycan çoxmillətli dövlətdir, milli mənsubiyyətindən asılı olmayaraq onun bütün vətəndaşları bərabər hüquqlara malikdirlər. Dağlıq Qarabağın erməni əhalisi barədə də mövqeyimiz eynidir, biz onların təhlükəsizliyinə və bütün vətəndaş hüquqlarından istifadə etmələrinə tam təminat veririk. Dediyim kimi, vaxtilə Dağlıq Qarabağ Muxtar Vilayət idi və biz indi də orada erməni milli azlığı üçün muxtariyyət verilməsinin mümkünlüyü prinsipini inkar etmirik. Azərbaycan rəhbərliyi bu məsələlərdə məlum beynəlxalq prinsipləri əsas tutur. Belə hesab edirəm ki, Azərbaycan haqqında, onun bugünkü vəziyyəti,

gənc müstəqil Azərbaycan dövlətinin qarşısında duran problemlər barədə verdiyim bu informasiya sizin üçün maraqlıdır. Əgər suallarınız olarsa, məmnuniyyətlə cavab verə bilərəm. Sual: Cənab prezident, maraqlı söhbətinizə görə sağ olun. Mən İctimai Elmlər Akademiyasının Orta Asiya və Şərqi Avropa Elmi Tədqiqat İnstitutunun əməkdaşıyam. Sualım Rusiyanın Zaqafqaziyadakı rolu ilə bağlıdır. Hamıya məlumdur ki, Rusiya Zaqafqaziyada gedən proseslərdə fəal iştirak edir. Siz bu proseslərdə Rusiyanın rolunu necə şərh edərdiniz? İkinci sual. Rusiyadakı ekstremist, millətçi meyllərin inkişafını bütün dünya böyük diqqətlə izləyir, çünki belə hesab edirlər ki, Rusiya keçmiş Sovet İttifaqı respublikalarının müstəqilliyini tanımağa hazır deyildir. Millətçilər və ekstremistlər Rusiyanın roluna nə dərəcədə təsir göstərirlər və bu təsir narahatlıq doğururmu?

**Heydər Əliyev:** Bilirsiniz ki, Zaqafqaziya, mən Azərbaycan, Gürcüstan və Ermənistanı nəzərdə tuturam, təqribən 200 il ərzində əvvəlcə çar Rusiyasının, sonra isə Sovet İttifaqının tərkibində olmuşdur. Təbii ki, ənənə üzrə Rusiyanın Zaqafqaziya regionnunda öz marağı, öz təsiri var. Sizə yəqin məlumdur, Ermənistanın ərazisində Rusiyanın qoşunları və hərbi bazaları yerləşir. Gürcüstan ərazisində də Rusiya qoşunları var, Abxaziya ilə Gürcüstan arasında münaqişənin kəskinləşməsi ilə əlaqədar oraya Rusiya qoşunlarının əlavə kontingenti gətirilmişdir. Bu yaxınlarda Rusiya prezidenti Yeltsin Tbilisidə olarkən hərbi əməkdaşlıq haqqında Gürcüstan ilə Rusiya arasında saziş də imzalanmışdır. Azərbaycanda xarici dövlətlərin, o cümlədən də Rusiyanın qoşunları yoxdur. Mən qeyd etdim ki, Azərbaycan İran, Türkiyə, Rusiya ilə həmsərhəddir, Zaqafqaziyadakı qonşularımız isə Gürcüstan və Ermənistandır. Lakin Ermənistan Respublikası tərəfindən təcavüzə məruz qaldığına görə, Azərbaycan indi çətin vəziyyətdədir.

Ermənistan bu təcavüzü məhz ona görə uğurla həyata keçirə bilir ki, o, ölkənin hüdudlarından kənardakı müxtəlif dairələrdən kömək alır. Rusiya Zaqafqaziyadakı – Gürcüstandakı, Ermənistan ilə Azərbaycan arasındakı münaqişələrin aradan qaldırılmasında fəal iştirak etməyə səy göstərir. Biz istərdik ki, Rusiyanın səyləri, xüsusən Ermənistan ilə Azərbaycan arasındakı müharibəni başa çatdırmaq və respublikamıza qarşı Ermənistanın təcavüzünü dayandırmaq üçün göstərdiyi səylər daha səmərəli, uğurlu olsun. Rusiyadakı millətçilik meyllərinə və ya əhval-ruhiyyəsinə, sizin dediyiniz kimi, keçmiş Sovet İttifaqının sərhədlərinə nəzarət etmək istəyən ekstremist qüvvələrə gəldikdə isə, belə meyllər var və bunlar keçmiş sovet respublikalarının əsasında yaranmış müstəqil dövlətlər üçün təhlükəlidir. Ümid etmək istərdik ki, hər halda Rusiyada sağlam qüvvələr üstün gələcək və bu meyllər yayılmayacaq, Rusiya keçmiş Sovet İttifaqının bütün respublikaları ilə ağıllı münasibətlər yaratmaq yolu ilə gedəcəkdir. Diqqətinizə görə, dostcasına səmimi görüş üçün hamınıza təşəkkür edirəm.

# 1994 年 3 月 9 日阿塞拜疆共和国总统盖达尔·阿利耶夫在北京社会科学院的讲话

尊敬的女士们、先生们，尊敬的朋友们！能在北京有机会与在座的学者、专家、社会科学院的工作人员见面，我感到万分荣幸。能在如此高水平的权威场合发言，我感到十分高兴。我本人以及在我们的国家阿塞拜疆都知道自 1949 年中国革命成功以来中国的社会经济发生了重大的变化，在此期间社会科学也取得了很大的发展，而中国社会科学的中心则正是我们今天有幸前来的科学院。你们不仅为社会科学在中国的发展做出了重大贡献，而且你们所做的新研究、新结论丰富了这一关于人类及社会发展进程的科学。在不久前我们还是其共和国的前苏联，一直以极大的兴趣关注中国学者在社会科学领域所从事的研究，关注你们在贵国发展的各阶段，当然还有整个世界政治社会发展的不同阶段所做的准确而重要的结论。在此我向为世界科学发展做出重大贡献，并在中华人民共和国成立 45 年来发生的重大变革中发挥了不可置疑的重要作用的所有社会科学领域的专家、所有中国学者表达我的敬意。中华民族是一个伟大的民族，中国是一个伟大的国家。我们十分高兴地看到，革命成功后中华人民共和国成立以来中国人民在国际社会中占据了应有的位置，中华人民共和国在整个世界赢得了崇高的国际威望，今天在对世界范围内的政治社会发展进程产生着重大影响。中国和阿塞拜疆建立关系的时间不长，如你们所知，阿塞拜疆曾是苏联的一个共和国，两年前在苏联解体后才获得国家独立。在这段时间我们两国建立了外交关系，经济贸易联系得到发展，我们可以十分肯定地说，在中华人民共和国和独立的阿塞拜疆共和国之间已建立了友好关系。应当说，正因如此才促成了我对中国的正式访问以及我们在此进行的会面和会谈。在与中华人民共和国主席江泽民先生和国务院总理李鹏先生所进行的会见和会谈中，我们探讨了有关两国关系的十分广泛的问题。我们签署了决定中国和阿塞拜疆关系发展前景的重

要文件。中华人民共和国主席和我签署了关于两国合作原则的联合公报，这是我们友好关系进一步发展的规划。还签署了涉及经济、科技和文化合作问题的七项文件。这些都标志着中华人民共和国与阿塞拜疆共和国的关系进入了新的阶段。我们的访问即将结束。今天我们将飞往上海，明天回国。我想表达我们对此次访问取得的成果感到十分满意。我们带回祖国的是好心情，特别想强调的是，在北京以及在中国访问的整个过程中友好热情的氛围都一直伴随着我们。我想在座的专家对前苏联发生的导致苏联解体并在其领土上形成独立国家的过程十分了解，当然也十分了解在阿塞拜疆、外高加索和高加索地区所发生和仍在继续发展的各种进程。尽管如此，我还是想简短地向各位介绍一下我们的国家--阿塞拜疆共和国。前苏联所谓改革时期发生的情况，如大家所知，十分复杂且充满了矛盾，并且没有产生所期望的结果。苏联的解体和新的独立国家的形成是几十年来前苏联以及整个世界社会历史进程的必然结果。阿塞拜疆人们获得了几十年所向往的国家独立 ，阿塞拜疆成为国际社会承认的独立国家，成为联合国及其他国际机构的成员。获得国家独立对阿塞拜疆人民来说是历史性的大事，我们的任务，我们的目的是全面巩固我们的独立，巩固我们的国际地位。我们努力并将努力让阿塞拜疆永远不再成为任何一个国家的附庸国或任何一个国家的一部分。虽然我们的道路上还有不少困难和阻碍，但我们拥有实现这一目标的所有条件和能力 。阿塞拜疆人民永远不会准许再次丧失自己的独立，我希望大家对此也深信不疑。阿塞拜疆拥有足够的经济潜力、丰富的地下和地上资源、强大的智力和科技潜力。我们的共和国处于欧亚交界，有着相当优越的地缘政治和地理位置，相邻国家是俄罗斯、伊朗、土耳其，还有今天也是独立国家的格鲁吉亚以及亚美尼亚。与亚美尼亚我国处于战争状态，以下我会谈到这个问题。这些都为阿塞拜疆作为独立国家创造了条件。还不能忘记的是阿塞拜疆是一个有着丰富历史的古老国家，阿塞拜疆人民为世界文明的发展做出了不小的贡献。阿塞拜疆的文学、艺术和文化自古便

闻名于东方，而且不仅是闻名于东方，也闻名于西方，闻名于欧洲。这些都是我们的今天与未来发展的坚实基础。在古代，中世纪及较晚的时期，阿塞拜疆曾与世界的许多国家有着紧密的经贸和文化往来。从 12-13 世纪开始就与中国发展往来。丝绸之路经过阿塞拜疆，许多中国商人到过这里，所以阿塞拜疆处于欧洲与亚洲道路的交接之处，自古便与东西方紧密相连。这些都见证着我们悠久的历史、丰富的传统和潜力，都见证着阿塞拜疆今天可以作为一个独立的国家而位居世界。今天我国内政的基本方向是建设民主法制国家，在保证个人自由、经营自由、倡仪自由的基础上，在坚决保护人权、保证政治多元化和多党制的基础上建设民主社会。在经济领域是向市场经济转型。当然，所有这些过程都很复杂，要克服许多困难，但我们坚信，阿塞拜疆将依照这些原则建设自己的内政。在对外政策方面阿塞拜疆奉行同世界上所有国家建立友好平等互利关系的原则，但首先是要与邻国以及那些与之合作能够带来具体成果的国家建立这样的关系。从这一点出发 ，阿塞拜疆十分重视与中华人民共和国建立，更准确地说是发展友好关系和经贸、科技以及文化联系。也正是出于这个目的我们接受了访问的邀请并来到中国。这次来访，我们所进行的会面和会谈让我们确信，中国和阿塞拜疆本着各自的民族利益，而且出于加强世界的和平共处，正在发展双方关系的道路上向前迈进。阿塞拜疆两年前才获得独立，但已与世界上很多国家建立了外交关系，参与许多国际组织的活动。但这仅仅是开始。我们当然在努力并将继续努力扩大自己的国际交往，发展与其他国家的联系。在座的社会科学领域的专家都熟知高加索，了解外高加索的悠久历史、民族多样性以及这一地区的特点和存在的众多复杂矛盾。地处外高加索的三个前苏联的加盟共和国今天成为独立国家格鲁吉亚、阿塞拜疆和亚美尼亚。同格鲁吉亚我们有着正常的友好关系，但与亚美尼亚，十分遗憾，由于在近六年的时间里亚美尼亚对阿塞拜疆实行武装入侵，两国处于战争状态。非常重要的是要让所有国家，包括在中国，对这一武装冲突的真相有正确的

了解。而真相在于今天的亚美尼亚企图把阿塞拜疆的一部分--纳戈尔内卡拉巴赫划归己有，纳戈尔内卡拉巴赫是有亚美尼亚人居住，但毫无疑问是与阿塞拜疆人共同居住的地区。自亚美尼亚发动战争以来已有近六年的时间，而这场战争的目的就是要分离纳戈尔内卡拉巴赫并将其纳入亚美尼亚领土，这是阿塞拜疆人民所坚决不能同意的。纳戈尔内卡拉巴赫是阿塞拜疆领土的一部分，由于这一地区的部分居民是亚美尼亚人，1923 年作为阿塞拜疆的组成部分形成了自治区，在那些年这一自治区作为共和国的组成部分，当然也作为全苏联的组成部分得到良好的发展。纳戈尔内卡拉巴赫大约百分之七十的居民是亚美尼亚人，而百分之三十是阿塞拜疆人。这一地区面积不大，约 4 千平方公里。但亚美尼亚的民族主义分子，而继之亚美尼亚共和国的领导人也以有一定数量的亚美尼亚族人口居住于该地区为由，目的是将阿塞拜疆的这部分领土分离出去并合并到亚美尼亚。这一冲突就是这样开始的。自然，在苏联作为统一的国家时这一冲突就可以得到解决。某些势力妨碍了这一冲突的解决。现在，当亚美尼亚和阿塞拜疆都已获得独立，我们应当在国与国的基础上，本着国际法的原则，在国际组织的参与下解决冲突，但亚美尼亚方面利用暂时的军事优势，使用武力和军事力量来达到自己的目的。近几年亚美尼亚方面已经侵占了大约百分之二十的阿塞拜疆领土。阿塞拜疆致力于用和平方式通过谈判解决这一问题，我们在利用并将继续利用联合国、欧安会、欧安会明斯克小组以及其他国际组织所具备的可能性，还有能够在和平解决冲突中发挥作用的世界大国所具备的可能性，但必须是以亚美尼亚占领军无条件撤出阿塞拜疆领土、保证阿塞拜疆领土完整和边境不可侵犯为条件。如果上述举措不能产生效果，阿塞拜疆将有权使用自己的武装力量捍卫国土完整、国家独立和主权，捍卫其边境的不可侵犯。在同中国领导人进行的会面和会谈中我们再次高兴地看到中华人民共和国及其领导人在对待这一冲突问题上所持的原则性的公正的立场。这一立场是本着任何国家的领土，包括阿塞拜疆在内，都神圣不可侵犯，

这是国际法不可动摇的原则 ，决不能允许一个国家对另一个国家领土完整的侵犯。边境不可侵犯以及不可企图用武力来改变边境也是一个不可动摇的原则。在联合国安全理事会上曾申明这一立场，这次在这里，在北京同中国领导人的会面和会谈中再次得到印证。还有一点有着十分重要的意义。阿塞拜疆是一个多民族国家，阿塞拜疆的所有公民，不论是什么民族，都拥有平等的权利。对待居住在纳戈尔内卡拉巴赫的亚美尼亚人我们持有同样的立场--完全保证他们的安全，确保他们行使所有公民权利。我已经提到，在纳戈尔内卡拉巴赫曾建立有自治区，我们仍然坚持在纳戈尔内卡拉巴赫亚美尼亚少数民族可以进行自治的原则 。在这些问题上阿塞拜疆领导层严格遵循众所周知的国际原则。我想，这些有关阿塞拜疆的介绍，这个年轻的独立国家的现状以及面临的问题会引起大家的兴趣。如果各位有什么问题，我将很高兴加以回答。

问题： 谢谢您，总统先生，谢谢您的讲话。我是社会科学院东欧中亚研究所的研究人员。我有一个问题，是关于俄罗斯在外高加索所起的作用。我们知道，俄罗斯积极参与外高加索地区事务。您如何评价俄罗斯在这些事务中起到的作用？

还有一个问题。全世界都十分关注极端主义倾向和民族主义倾向在俄罗斯的发展，因为很多人认为在俄罗斯没有承认前苏联共和国独立的准备。极端主义和民族主义分子对俄罗斯所发挥的作用有多大程度的影响，是否引起不安和关切？

盖达尔·阿利耶夫：大家知道，外高加索，我指的是阿塞拜疆、格鲁吉亚和亚美尼亚，在近 200 年的时间里先是沙皇俄国，然后是苏联的一部分。俄罗斯传统上在外高加索地区自然有自己的利益和影响。您大概知道在亚美尼亚境内部署有俄罗斯军队和军事基地。在格鲁吉亚也驻扎有俄罗斯军队，而由于阿布哈兹和格鲁吉亚之间的冲突加剧还增驻了俄罗斯军队。不久前在俄罗斯总统叶利钦访问第比利斯期间甚至签署了格鲁吉亚和俄罗斯军事合作协议。在阿塞拜疆没有包括俄罗斯军队在内的外国驻军。我已经提到，阿塞拜疆

与伊朗、土耳其和俄罗斯接壤，在外高加索地区的邻国是格鲁吉亚和亚美尼亚。而由于受到亚美尼亚共和国方面的入侵，阿塞拜疆处于十分复杂的局势。亚美尼亚得以实现这一入侵的原因正是在于得到了国外不同势力的帮助。俄罗斯在努力积极参与外高加索地区冲突的解决，包括格鲁吉亚的冲突、亚美尼亚与阿塞拜疆之间的冲突。我们希望俄罗斯所作出的努力，特别是为结束亚美尼亚与阿塞拜疆之间的战事和终止亚美尼亚对我国的入侵所做的努力能更为有效、更为成功。至于俄罗斯国内的民族主义倾向或者极端主义思潮，像您所说的，这些力量希望控制前苏联的边界，这些倾向是存在的，并且对在前苏联共和国基础上形成的独立国家构成危险。我们希望的是俄罗斯的健康力量能够成为主流，使这些倾向得不到发展，而俄罗斯将沿着与前苏联所有共和国发展理性的关系的道路前进。谢谢大家，谢谢你们热情友好的接待。

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasından Bakıya qayıdarkən Almatıda səfərin yekunları barədə jurnalistlər qarşısındakı çıxışı – 10 mart 1994-cü il

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

Çin dünyanın ən böyük dövlətlərindən biridir. Müstəqil dövlət olan Azərbaycan dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq yaratmaq prinsiplərini rəhbər tutaraq Çinlə də bütün istiqamətlərdə sıx əlaqələrə malik olmalıdır. Mənim bu səfərim də həmin zərurətdən irəli gəlmişdir. Çinin özü də Azərbaycanla münasibətlərə böyük maraq göstərir. Çin Xalq Respublikası sədrinin məni rəsmi səfərə dəvət etməsi buna sübutdur. Bilirsiniz ki, Azərbaycanda xarici ölkələrin səfirlikləri o qədər də çox deyildir. Lakin Çin Azərbaycanda öz səfirliyini açmışdır. Deməli, Çinin Azərbaycana marağı böyükdür. Bu, bizim üçün faydalıdır. Çünki dünyanın siyasi və iqtisadi həyatında çox mühüm rol oynayan belə bir böyük dövlətlə mehriban münasibətlərimizin olmasının əhəmiyyəti var. Həm də ona görə ki, Çin BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biridir. Çində, xüsusən onun iqtisadiyyatında çox maraqlı proseslər gedir. Bir tərəfdən bu proseslərin, islahatların ölkəmizdən ötrü nə dərəcədə məqbul olduğunu bilməyimiz, digər tərəfdən isə müəssisələr, konsernlər, assosiasiyalar və sair arasında birbaşa əlaqələr yaratmağımız vacibdir. Bu mənada da Çinə səfərimizin böyük əhəmiyyəti var. Mən səfərdən ümumən tamamilə razı qayıdıram. Nəzərdə tutulmuş proqram bütünlüklə

yerinə yetirilmişdir. Çində bizi yüksək səviyyədə, son dərəcə mehribanlıqla qarşıladılar. Biz hər yerdə Azərbaycana, Azərbaycan xalqına səmimi münasibət gördük. O cümlədən bizi narahat edən problemin – Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü probleminin başa düşüldüyünün şahidi olduq. Səfərimiz qısa olsa da, zənnimcə, ondan istifadə edərək bütün sahələrdə konkret, praktiki fayda əldə edə bildik. Çin Xalq Respublikası sədrinin təklifi ilə Şanxayda olmağımız da bizdən ötrü çox maraqlı keçdi. Sərbəst iqtisadi zona bizdə böyük maraq doğurur. Bütünlükdə Çinin özü, həm də onun Şanxay kimi böyük bir şəhəri dünyanın bütün ölkələri ilə fəal əməkdaşlıq edir. Çinə böyük investisiyalar qoyulur, çoxlu birgə müəssisə var. Bizə bildirdilər ki, təkcə bu ilin iki ayı ərzində Şanxayda 200 birgə müəssisə yaradılmışdır. Bütün bunlar onu göstərir ki, Çin öz iqtisadiyyatında, xüsusən də qarşılıqlı iqtisadi əlaqələri genişləndirmək sahəsində müvəffəqiyyətlə iş aparır və bundan kifayət qədər sanballı nəticələr əldə edir. Bu təcrübə ilə tanışlıq bizdən ötrü də əhəmiyyətlidir. Belə hesab edirəm ki, həmin təcrübə ilə daha yaxından tanış olmaq üçün Çinə öz nümayəndələrimizi göndərəcəyik. Özümüzlə materiallar da götürmüşük və bizdən ötrü məqbul olan şeylərdən istifadə edəcəyik. Ümumən isə belə hesab edirəm ki, Çin Xalq Respublikasına səfərimiz böyük tarixi hadisədir. Çünki Çin ilə Azərbaycan arasında heç vaxt bu səviyyədə əlaqələr olmamışdır. Doğrudur, tarixən müəyyən əlaqələr, "Böyük ipək yolu" və s. olduğunu xatırlayırıq. İndi isə, təkrar edirəm, dövlətlərarası sıx münasibətlərin yaranması böyük siyasi hadisədir. İlk növbədə Azərbaycan Respublikası üçün böyük hadisədir. Azərbaycanda da sərbəst iqtisadi zona barədə çox söhbətlər gedir. Lakin mən əmin oldum ki, bunu həyata keçirməyin prinsiplərini əslində bilən yoxdur. Çində isə iqtisadi sahədə belə bir siyasəti həyata keçirirlər. Çində, başqa ölkələrdə

həyata keçirilən və praktiki nəticələr verən müxtəlif iqtisadi tədbirləri ölkəmizdə tətbiq etmək üçün geniş imkanlarımız və ehtiyatlarımız var. Çinin iqtisadi modelindən Azərbaycanın nə götürə biləcəyinə gəldikdə, hələlik qəti bir söz deyə bilmərəm. Çünki onu təhlil etmək lazımdır. Hər halda dünyanın harasında bizdən ötrü faydalı bir şey varsa, ondan istifadə etməliyik. O ki qaldı Çinə səfərimizin nəticələrinə, Çin Azərbaycanın müstəqilliyini, bütövlüyünü, sərhədlərinin toxunulmazlığını müdafiə edir. Bunlar həm imzaladığımız bəyannamədə, həm də Çin Xalq Respublikası rəhbərlərinin bəyanatlarında öz əksini tapmışdır. Deməli, Çinin nümayəndələri beynəlxalq təşkilatlarda da öz fəaliyyətlərində bunu əsas tutacaqlar. Bunun özü beynəlxalq aləmdə bizim nailiyyətimiz deməkdir.

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasının yaranmasının 46-cı ildönümü münasibətilə rəsmi qəbuldakı nitqi – 29 sentyabr 1995-ci il

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Hörmətli cənab səfir! Hörmətli xanımlar və cənablar! Çin Xalq Respublikasının yaranmasının 46-cı ildönümü münasibətilə, bu bayram münasibətilə mən sizin hamınızı, böyük Çin xalqını ürəkdən təbrik edirəm və Çin xalqına xoşbəxtlik, firavanlıq arzulayıram. Çin Xalq Respublikası yaranandan indiyə qədər – 46 il ərzində öz ölkəsinin inkişafı üçün çox böyük işlər görmüşdür. Görülən işlər Çin xalqının, rifahını yaxşılaşdırıb. ÇXR-in dünya miqyasında mövqelərini möhkəmləndiribdir. Çin böyük bir ölkədir, Çin xalqı böyük bir xalqdır Çin xalqının qədim, zəngin tarixi var. Bu xalq dünya mədəniyyətinə, sivilizasiyasına böyük töhfələr veribdir. Çin xalqının bəşəriyyət qarşısındakı xidmətləri daim yüksək qiymətləndirilib. İndi, yeni şəraitdə-XX əsrin ortalarından, 1949 -cu ildən Çin xalqı yeni bir həyat qurmağa başlayıb. Çin Xalq Respublikası və onun rəhbərləri Çin xalqını tutduqları yol ilə aparırlar. Doğrudan da, bu müddətdə Çin Xalq Respublikasında çox ciddi və səmərəli iqtisadi islahatlar həyata keçirilib. Bunlar Çin xalqının tarixinə, ənənəsinə və ölkənin daxili siyasətinə uyğun olan islahatlardır və Çin xalqına böyük faydalar gətiribdir. Biz bunları keçən il ÇXR-də rəsmi səfərdə olarkən öz gözümüzlə gördük və yaxından tanış olmaq imkanı əldə etdik. Çin Xalq Respublikası ilə Azərbay-

can arasında dostluq əlaqələri yaranibdir. ÇXR BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. ÇXR bu beynəlxalq təşkilatın Təhlükəsizlik Şurasında həmişə ölkələrin, xalqların milli azadlıq və öz dövlət müstəqilliyini əldə etmək səylərinə tərəfdar olubdur. Azərbaycan Respublikası yaranandan ÇXR respublikamızın milli azadlığını, dövlət müstəqilliyini tanıyıb və beynəlxalq təşkilatlarda, xüsusən BMT-də ölkəmizlə sıx əməkdaşlıq edib. Məlumdur ki, Azərbaycan Respublikası Ermənistan tərəfindən təcavüz altındadır və bu təcavüz nəticəsində ölkəmizin həyatında çox faciəli hadisələr baş veribdir. Bu məsələlər, xüsusən Ermənistan Azərbaycan torpaqlarını işğal etməsi ilə əlaqədar məsələlər beynəlxalq təşkilatlarda, o cümlədən BMT Təhlükəsizlik Şurasında müzakirə olunub. Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə ÇXR-in daimi nümayəndəsi həmişə səs verib, tərəfdar olubdur. Ölkələrimiz arasında əlaqələr inkişaf etməkdədir.Çin Xalq Respublikasının Sədri Tszyan Tszeminin dəvəti ilə keçən il mən ÇXR-də rəsmi səfərdə olmuşam. Bu səfər zamanı ÇXR-in Sədri cənab Tszyan Tszemin ilə ÇXR Dövlət Şurasının Baş naziri cənab Li Pen ilə başqa rəhbər şəxslərlə bizim çox səmərəli görüşlərimiz, danışıqlarımız olmuş və dövlətlərimiz ,ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi üçün çox əhəmiyyətli sənədlər imzalanmışdır. Biz bunu yüksək qiymətləndiririk və hesab edirik ki ,müstəqil Azərbaycan Respublikası ilə ÇXR arasında əlaqələrin inkişaf etməsi üçün bu, böyük bir mərhələdir. Mən və ÇXR-də mənimlə səfərdə olmuş Azərbaycan nümayəndələri bu səfərimizdən çox gözəl təəssü-ratlarla qayıtmışıq, görüşlərimizdən və danışıqlarımızdan çox razı qalmışıq. Orada bizə böyük, qonaqpərvərlik hörmət və ehtiram göstərilibdir. Bunlar hamısı bir daha sübut edir ki, ölkələrimiz arasındakı əlaqələr yaxşıdır, ancaq daha da inkişaf etmək imkanına

malikdir. Ölkələrimiz, xalqlarımız arasında olan əlaqələrin inkişaf etməsinə biz öz tərəfimizdən çalışacağıq və səylər göstərəcəyik. Mütəxəssislərimiz ÇXR-də gedən islahatları və onların xarakterini öyrənirlər. ÇXR-də həyata keçirilən işlər bizim üçün şübhəsiz ki, maraqlıdır və iqtisadçılarımız, xüsusən sənaye sahəsində, bazar iqtisadiyyatı yolunda fəaliyyət göstərən orqanlarımız bundan istifadə etməli, bəhrələnməlidir. Bu bayram günündə mən bir daha bəyan edirəm ki, Azərbaycan Respublikası ilə ÇXR arasında olan dostluq və əməkdaşlıq bundan sonra daha sürətli inkişaf edəcək, bu yolla getmək üçün biz öz tərəfimizdən səylər göstərəcəyik. ÇXR-in 46-cı ildönümü münasibətilə, bayram münasibətilə mən sizi bir daha təbrik edirəm. Bundan Pekinə, Çinə Azərbaycan xalqının salamını və xoş arzularını çatdırmağı rica edirəm.

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasının yaranmasının 47-ci ildönümü münasibətilə rəsmi qəbuldakı nitqi – 30 sentyabr 1996-cı il

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Hörmətli cənab səfir! Möhtərəm xanımlar və cənablar! Mən sizi, bütün Çin vətəndaşlarını, Çin xalqını böyük hadisə, bayram – Çin Xalq Respublikası yaranmasının 47-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm və Çin xalqına xoşbəxtlik, tərəqqi və yeni uğurlar arzulayıram. Mən buraya, Çin Xalq Respublikasının yaranması gününə həsr edilmiş bayrama çox böyük hörmət hissi ilə gəldim. Çin Xalq Respublikasının 47 ili ərzində Çin xalqı çox böyük müvəffəqiyyətlərə nail olmuşdur. Çin iqtisadi islahatların həyata keçirildiyi illərdə xüsusilə heyrətamiz uğurlar qazanmışdır. İslahatlar böyük nəticələr vermişdir. Bu müvəffəqiyyətlər Çin iqtisadiyyatını iti sürətlə inkişaf etdirmiş, xalqın rifahını yüksəltmiş, ölkənin iqtisadi potensialını möhkəmlətmiş və Çin Xalq Respublikasının şöhrətini bütün dünyada artırmışdır. Çin xalqının əldə etdiyi uğurlar təbii olaraq sevindirir, çünki dünyanın böyük bir ölkəsi kimi Çin xalqı seçdiyi yolla, müstəqillik yolu ilə, Çinin, Çin xalqının xüsusiyyətinə, tarixi ənənələrinə cavab verən yolla, Çin xalqının yüksək göstəricilərə nail olduğu yolla gedir. Bu müvəffəqiyyətlər sevindirir. Mən Çin xalqını bu müvəffəqiyyətlər münasibətilə təbrik edirəm və əminəm ki, Çin xalqı bu islahatlar yolu ilə gedərək, Çin hökumətinin müəyyənləşdirdiyi digər tədbirləri

həyata keçirərək yeni uğurlara nail olacaqdır. Cənab səfirin gətirdiyi rəqəmlər Çinin iqtisadi inkişafını səciyyələndirir və təbii olaraq böyük hörmət hissləri oyadır. Çin bəzi mühüm iqtisadi göstəricilər üzrə dünyada birinci yeri tutur. Lakin Çin əhalisinin sayına görə də dünyada birinci yeri tutur, məncə, ərazisinə görə də dünyada ilk yerlərdən birini tutur, bəzi digər göstəricilərə görə də dünyada birinci yeri tutur. Buna görə də burada təbii olaraq daha çox kömür də, daha çox polad da, daha çox digər məhsul da istehsal edilməlidir. Bunların hamısı çox sevindirir. Biz bunu hörmət hissi ilə qarşılayırıq ki, Çin həm müstəqil daxili, həm də müstəqil xarici siyasət yeridir. Müstəqil bir dövlət kimi Azərbaycan məhz belə bir mövqedə durur ki, hər bir xalq, hər bir dövlət öz məsələlərini başqa dövlətlərdən asılı olmayaraq, müstəqil surətdə həll etsin və xalqın özünün, dövlətin özünün müəyyənləşdirdiyi yolla getsin. Təkrar edirəm, bununla əlaqədar olaraq biz Çində həyata keçirilən bütün tədbirlərə hörmətlə yanaşırıq. Çin ilə Azərbaycan arasında xoş dostluq münasibətləri yaranmışdır. Xatirimizdədir ki, Çin Azərbay-canın dövlət müstəqilliyini Azərbaycan öz dövlət müstəqilliyini elan etdikdən sonra tezliklə tanımışdır. Biz onu da qiymətləndiririk ki, Çin Azərbaycanda öz səfirliyinə və Azərbaycan Çində öz səfirliyinə malikdir. Yəni bizim aramızda heç də sadəcə olaraq diplomatik münasibətlər mövcud deyildir. Ölkələrimizin səfirlikləri Çində də, Azərbaycanda da fəal işləyirlər. Məhz bu Çin ilə Azərbaycan arasında münasibətlərin yüksək səviyyədə olmasına sübutdur. Aramızda məsafə böyükdür, biz bir-birimizdən çox uzağıq, amma bu, bütün sahələrdə, ən əvvəl iqtisadi sahədə əməkdaşlıq etməyimizə mane olmur. İndiyədək edilənlər müsbət qiymətə layiqdir. Lakin belə düşünürəm ki, Çin ilə Azərbaycan arasında əməkdaşlığı inkişaf etdirmək və möhkəmlətmək üçün ehtiyat mənbələri və imkanlar hələ böyükdür. Odur ki, məqsədimiz,

vəzifəmiz bu imkanlardan istifadə etmək və münasibətləri həm Azərbaycanın, həm də maraqları naminə genişləndirməkdir. İki il bundan əvvəl Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszeminin dəvəti ilə mən Çinə rəsmi səfər etdim. Bu, Azərbaycanın həyatında mühüm hadisədir və Çin-Azərbaycan münasibətləri tarixində mühüm hadisədir. Pekində, Şanxayda görüşlər və söhbətlər bizə ikitərəfli münasibətlərimizlə bağlı məsələləri müzakirə etməyə, habelə bu münasibətlərin gələcək inkişafının bünövrəsini qoyan sənədlər imzalamağa imkan verdi. Mən Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszeminlə, Dövlət Şurasının baş naziri cənab Li Penlə, Şanxay əyalətinin rəhbərləri və Çinin digər dövlət xadimləri ilə görüşləri və söhbətləri böyük səmimiliklə xatırlayıram. Elə Çin Dövlət Şurası baş naziri müavininin, xarici işlər nazirinin Azərbaycana səfəri də Çin ilə Azərbaycan arasında münasibətlərin inkişafında yeni addım oldu. Biz münasibətlərimizi bundan sonra da möhkəmlədəcək və inkişaf etdirəcəyik. Biz qəti əminik ki, böyük imkanlar var və onlardan əməkdaşlığımızın inkişaf etməsi və genişlənməsi üçün istifadə etmək olar. Bizim üçün çox əhəmiyyətlidir ki, Çin dövlətlərarası münasibətlərin beynəlxalq aləmdə qəbul olunmuş prinsiplərini, o cümlədən bir-birinin işlərinə qarışmamaq prinsipini, ərazi bütövlüyü prinsipini, dövlət suverenliyi prinsipini daim bəyan edir. Bu prinsip ümumiyyətlə, sözsüz məlumdur və bütün dünya tərəfindən qəbul olunmuşdur, amma təəssüf ki, Azərbaycan barəsində Ermənistan tərəfindən təcavüzlə pozulmuşdur. Azərbaycanın ərazi bütövlüyü onunla pozulmuşdur ki, Azərbaycan ərazisinin bir hissəsini erməni silahlı birləşmələri işğal etmiş və öz yaşayış yerlərindən qovulmuş bir milyondan çox Azərbaycan vətəndaşı köçkün, qaçqın vəziyyətindədir və təbii olaraq sosial-iqtisadi xarakterli olduqca böyük çətinliklər çəkir. Buna görə də Çinlə əməkdaşlığımız, Çinlə münasibət-

lərimiz bu prinsiplərin sarsılmazlığına əsaslanır və müstəsna əhəmiyyətə malikdir. Biz öz xarici siyasətimizdə bunu əsas tuturuq ki, müstəqil bir dövlət kimi Azərbaycan, əlbəttə, öz dövlət müstəqilliyini gözləməklə və öz suverenliyini və ərazi bütövlüyünü gözləməklə dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı münasibətlər yaradır və bu münasibətləri inkişaf etdirir. Təkrar edirəm, bununla əlaqədar dünyada dövlətlərarası qarşılıqlı münasibətlər barəsində baxışlarımız tamamilə uyğun gəlir və bu da münasibətlərimizin daha da inkişaf etməsi və möhkəmlənməsi üçün yaxşı zəmindir. Şübhə yoxdur ki, Çin böyük iqtisadi potensiala və böyük təbii ehtiyatlara, böyük yeraltı sərvətlərə malikdir və konkret surətdə Çin üçün, Çin şəraiti üçün səciyyəvi olan iqtisadi islahatları həyata keçirərək, yeni böyük müvəffəqiyyətlər qazanacaqdır. Biz ürəkdən arzulayırıq ki, həqiqətən uğurlar olsun, Çin iqtisadi sahədə də, öz xalqının rifahının artması sahəsində də daha yüksək sürətlə inkişaf etsin. Mən bayram münasibətilə Çin xalqını, Çin Xalq Respublikasının rəhbərlərini, Çinin Azərbaycandakı səfirliyini bir daha ürəkdən təbrik edirəm. Çin xalqına xoşbəxtlik, tərəqqi, öz həyatını qurmasında yeni-yeni uğurlar arzulayıram. Diqqətinizə görə sağ olun!

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasının yaranmasının 48-ci ildönümü münasibətilə rəsmi qəbuldakı nitqi – 1 oktyabr 1997-ci il

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Hörmətli cənab səfir! Hörmətli xanımlar və cənablar! Mən sizi bu böyük bayram-Çin Xalq Respublikasının yaranmasının 48-ci ildönümü münasibətilə təbrik edirəm. Çin xalqına sülh, əmin-amanlıq və səadət arzulayıram. 48 il ərzində Çin xalqı böyük, möhtəşəm yol keçibdir və böyük nailiyyətlər əldə edibdir. Çin Xalq Respublikasının rəhbərləri xalqını firavanlığa, sülhə, xoşbəxtliyə doğru aparmaqdadırlar. Son günlər Çin Xalq Respublikasında ölkənin gələcək proqramının müəyyən edilməsi və ölkədə bundan sonra da ciddi iqtisadi islahatlar keçirərək iqtisadi həyatın daha da sürətlə inkişaf etdilirməsinə, xalqın rifah halının yaxşıladırılmasına doğru yönəldilmiş qərarlar qəbul olunması, güman edirəm ki, öz müsbət nəticələrini verəcəkdir. Biz Çin Xalq Respublikasında gedən prosesləri daim dostcasına, diqqətlə izləyirik və əldə olunan nailiyyətlərə sizin kimi sevinirik. Çünki Çin xalqı öz torpağının sahibidir, öz taleyinin sahibidir, öz ölkəsində həyatını istədiyi kimi qurur. Bu yaxınlarda Çin Xalq Respublikasının ərazi bütövlüyünün təmin olunması sahəsində gördüyü işləri və əldə etdiyi nailiyyətləri də biz qiymətləndiririk. Mən bu münasibətlə Çin Xalq Respublikasının hökumətini və dövlətini ürəkdən təbrik edirəm. Şübhə yoxdur ki, indiyə qədər iqtisadi islahatlar sahəsində əldə olunan müsbət nəticələr Çin Xalq Respublikasının hökuməti tərə-

findən qəbul edilmiş qərarlar əsasında daha da sürətlə inkişaf edəcəkdir. Biz buna şübhə etmirik və gələcək işlərinizə çox maraqla diqqət yetirəcəyik. Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında yaranmış dostluq, əməkdaşlıq əlaqələrini də yüksək qiymətləndiririk. Məmnuniyyətlə qeyd edirəm ki, son zamanlar bu əlaqələr daha da canlanır, daha da inkişaf edir. Biz həmişə Çin Xalq Respublikası ilə bütün sahələrdə əməkdaşlıq etmək istəyirik. Əlaqələrimizi həm siyasi, həm iqtisadi, həm də mədəniyyət sahəsində genişləndirmək istəyirik. Ölkələrimiz arasında indiyə qədər yaranmış əlaqələr, hesab edirəm ki, gələcəkdə bu əlaqələri daha da genişləndirmək üçün yaxşı əsas yaradır. Son illər Azərbaycanın nümayəndə heyətlərinin Çin Xalq Respublikasına səfərləri və Çin Xalq Respublikasının hökumət, dövlət nümayəndələrinin Azərbaycana səfərləri və başqa işgüzar əlaqələr ölkələrimiz arasında mövcud olan münasibətləri həqiqətən daha da genişləndirmiş, daha da inkişaf etdirmişdir. Biz bunların hamısını yüksək qiymətləndiririk və öz tərəfimizdən çalışacağıq ki, bundan sonra da bu əlaqələr daha da genişlənsin, inkişaf etsin. Çin Xalq Respublikası dünyanın böyük dövlətlərindən biridir, böyük iqtisadi potensiala malikdir, dünya siyasətində özünəməxsus yer tutur. Şübhəsiz ki, bunların hamısı dünyanın ictimai-siyasi həyatına təsir edir. Biz bunları Çin Xalq Respublikası ilə əlaqələrimizdə, görəcəyimiz işlərdə həmişə nəzərə alırıq. Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinin və Azərbaycanın Çindəki səfirliyinin mövcudluğu bu əlaqələrin yüksək səviyyədə olduğunu sübut edir. Biz bundan sonra da bu əlaqələri inkişaf etdirəcəyik. Mən Çin xalqına səadət arzulayıram. Çin Xalq Respublikasının hökumətinə bu yaxınlarda qəbul edilmiş proqramların müvəffəqiyyətlə həyata keçirilməsini arzulayıram. Sizi bir daha ürəkdən təbrik edirəm, sizə və ölkənizin bütün vətəndaşlarına səadət, xoşbəxtlik arzulayıram. Sağ olun.

# Tarixi İpək Yolunun Bərpası üzrə Bakıda keçirilmiş beynəlxalq konfransda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin giriş və yekun nitqi 8-9 sentyabr 1998-ci il

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN GİRİŞ NİTQİ

Hörmətli dövlət və hökumət başçıları, nümayəndə heyətlərinin rəhbərləri! Xanımlar və cənablar! Sizi, tarixi Böyük İpək yolunun bərpası üzrə beynəlxalq konfransın iştirakçılarını səmimi salamlayıram. Avropa Birliyi Komissiyası ilə birlikdə belə mötəbər məclisin təşkilatçısı olmaq Azərbaycan Respublikası üçün böyük şərəfdir. Konfransımız yeni müstəqil dövlətlərə kömək edilməsi sahəsində Avropa Birliyinin göstərdiyi səmərəli səylərin nəticəsidir. Həmin köməyin bünövrəsini 1991-ci ildə təsis edilmiş TASİS proqramı qoymuşdur. TASİS-in milli və dövlətlərarası proqramları çərçivəsində bir çox mühüm layihələr həyata keçirilir və bunlar yeni müstəqil dövlətlərdə demokratik islahatlar, bazar islahatları aparılmasına kömək göstərir. Belə layihələrdən biri də 1993-cü ilin mayında qəbul olunmuş "Avropa-Qafqaz-Asiya Transqafqaz nəqliyyat dəhlizi (TRASEKA)" proqramıdır. Avropa Birliyi Komissiyanın təklifi ilə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Ermənistan, Tacikistan Türkmənistan, Özbəkistan nümayəndələrinin Brüsseldə görüşü olmuş və bu görüşdə regionun nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı məsələlər müzakirə edilmişdir. Brüssel bəyannaməsi Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin

əhəmiyyətini, onun inkişaf etdirilməsi sahəsində əməkdaşlığın konkret istiqamətlərini, forma və mexanizmlərini müəyyənləşdirmiş ilk beynəlxalq sənəd olmuşdur. O vaxtdan bəri TRASEKA-nın işçi qruplarının Almatıda, Vyanada, Venesiyada, Afinada və Tbilisidə beş iclası keçirilmiş və bu iclaslarda mövcud nəqliyyat strukturlarının modernləşdirilməsinə və yeni obyektlərin tikilməsinə dair bir çox layihələr qəbul edilmiş və artıq qismən yerinə yetirilmişdir. Ukrayna və Monqolustan TRASEKA proqramının tam hüquqlu iştirakçıları olmuşlar. TRASEKA proqramının uğurla həyata keçirilməsi, Avropa Birliyi Komissiyasının və iştirakçı ölkələrin gördükləri böyük iş, əməkdaşlığımızın konkret müsbət nəticələri daha genişmiqyaslı layihələr işlənib hazırlanmasına təkan vermişdir. Tarixi Böyük İpək yolunun bərpası bu layihələr arasında başlıca yer tutur. Bununla əlaqədar olaraq, Avropa Birliyi Komissiyası və TRASEKA proqramının iştirakçısı olan ölkələr bu gün açdığımız Bakı Beynəlxalq konfransının keçirilməsi haqqında qərar qəbul etmişlər. Konfransda 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndə heyətləri iştirak edirlər. Əminəm ki, tarixi Böyük İpək yolunun bərpası məsələlərinin müzakirəsi, konfransımızın nəticələri və yekunları milli və regional nəqliyyat strukturlarının, beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, Avrasiya məkanında sülhün, sabitliyin və tərəqqinin möhkəmləndirilməsi üçün böyük əhəmiyyət kəsb edəcəkdir. İcazə verin, konfransımızın hazırlanması, imzalanmağa təqdim olunmuş sənədlərin işlənib hazırlanması və razılaşdırılması üçün gördüyü böyük işə görə TRASEKA-nın işçi qrupuna təşəkkür edim. Konfransın təşkilində köməyinə görə, demokratik islahatların, bazar islahatlarının aparılmasında, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsində yeni müstəqil döv-

lətlərə böyük maliyyə yardımı və texniki yardım göstərdiyinə görə Avropa Birliyi Komissiyasına təşəkkür edirəm. Dəvətimizi qəbul edib, Bakı şəhərinə gəlmiş bütün konfrans iştirakçılarına təşəkkürümü bildirirəm, onlara qonaqpərvər Azərbaycan torpağında uğurlu iş arzulayıram. Tarixi Böyük İpək yolunun bərpası üzrə beynəlxalq konfransı açıq elan edirəm.

# 1998 年 9 月 8 日盖达尔阿利耶夫总统在巴库国际会议上复兴历史性的丝绸之路的开幕词和结束语

## 盖达尔阿利耶夫总统开幕词

尊敬的各位国家元首,政府首脑，代表团的团长们！女士们和先生们！衷心的问候你们，复兴历史性的伟大丝绸之路国际会议的参与会者们。对于阿塞拜疆共和国来说与欧洲联盟委员会一起成为这样有代表性的大会的组织者是一项项很大的荣誉。我们的会议是欧洲联盟在帮助新独立的国家方面上有效努力的结果，而 1991 年制定的 TACIS 大纲为此奠定了基础。在国家和国家间的 TACISA 大纲范围内实现了许多重要的方案，这些方案有助于在新独立的国家内实现民主改革，市场改革。其中的一个方案就是在 1993 年五月通过的《横越高加索的欧洲高加索亚洲运输走廊的大纲》（TPACEKA）。在欧洲联盟委员会的建议下亚美尼亚，阿塞拜疆，格鲁吉亚，哈萨克斯坦，吉尔吉斯斯坦，塔吉克斯坦，土库曼斯坦和乌兹别克斯坦的代表们在布鲁塞尔进行了会见，在这次会见上讨论了这一地区交通基础设施发展的相关问题。布鲁塞尔宣言是第一个国际文件，这一文件确定了在发展欧洲高加索亚洲的交通走廊方面进行合作的意义 ，具体方向，形式与机构。从那个时候起 TPACEKA 工作组在阿拉木图，维也纳，威尼斯，雅典和第比利斯进行了五次会议，在这些会议上通过了并且局部上已经实现了在使现有的交通结构现代化和建设新工程的建设方面的许多方案。乌克兰和蒙古成为了 TPACEKA 大纲的享有充分权利的参与者。TPACEKA 大纲的成功实现，欧洲联盟委员会和参与国实所进行的出色的工作，我们合作的具体而正面的成果对于深入研究更大范围的方案提供了动力，在这些方案中间主要的是复兴历史性的伟大丝绸之路。因此欧洲联盟委员会与 TPACEKA 大纲的参与国通过了召开我们今天所开幕的巴库国际会议的决议。32 个国家和 13 个国际组织的代表团接受参加会议。我坚信，在复兴历史性的丝绸之路方面上的问题讨论，我们会议所

作的结论和结果对于在欧亚空间加强民族和区域的交通结构，对于国际经济合作，对于巩固和平，稳定与进步都将拥有重要的意义。请允许我感谢 TPACEKA 大纲的工作组，感谢他们为准备我们的会议，为深入研究和协调交付签署的文件所做的出色工作。我感谢欧洲联盟委员会在会议组织上的帮助，帮助我们向新独立的国家提供大的财政和技术上的支持，实现民族改革与市场改革，发展国际合作。我对所应邀前来巴库市与会的人表示感谢，希望你们在好客的阿塞拜疆土地上工作顺利。我宣布复兴历史性的伟大丝绸之路国际会议开幕。

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN YEKUN NİTQİ

Hörmətli dövlət başçıları, nümayəndə heyətlərinin rəhbərləri, konfrans iştirakçıları! Tarixi Böyük İpək yolunun bərpası üzrə Bakı beynəlxalq konfransı öz işini başa çatdırdı. Konfransın işinin başa çatması və əsas sənədlərin – əsas sazişin, Bakı Bəyannaməsinin və ümumi rəsmi məlumatın imzalanması münasibətilə sizi təbrik edirəm. Hesab edirəm, tarixi Böyük İpək yolunun bərpası üzrə Bakı beynəlxalq konfransının çox böyük tarixi əhəmiyyəti olan hadisəyə çevrildiyini desəm, yanılmaram. Konfransda bütün nümayəndə heyətləri çıxış etdilər – 45 çıxış oldu. Bu çıxışlarda çox mühüm fikirlər söyləndi və təkliflər irəli sürüldü. Şübhəsiz ki, bunlar gələcək birgə işimizə kömək göstərəcəkdir. Konfransın hazırlanması və onun uğurla başa çatması bizim birgə səylərimiz nəticəsində mümkün olmuşdur. Ancaq eyni zamanda Avropa komissiyasının gördüyü böyük işi konfransın bütün iştirakçıları adından vurğulamağı zəruri hesab edirəm. Beş il bundan öncə 1993-cü ilin may ayında Qafqaz və Mərkəzi Asiyanın səkkiz dövlətinin nümayəndələri Avropa Birliyi Komissiyasının təşəbbüsü ilə Brüsseldə görüşdülər və nəqliyyatın, Avropanı, Qafqazı və Asiyanı birləşdirən bütün kommunikasiya növlərinin inkişaf etdirilməsinə dair əməkdaşlığın başlanğıcını qoydular.O vaxtdan beş il keçmişdir. Bu gün biz şahidi oluruq ki, həmin zəmin çox dəyərli, etibarlı olmuş və böyük beynəlxalq təşkilata çevrilmişdir. Biz bu konfransda da gördük ki, konfrans iştirakçılarının hamısı gördüyümüz işin vacibliyi, əhəmiyyəti və böyük gələcəyi haqqında necə maraqla danışdılar. Ötən beş il ərzində Avropa Birliyi Komissiyası böyük iş görmüşdür. O, bu konfransın hazırlanması sahəsində də böyük iş

görmüşdür. Ümidvarıq ki, indi, mühüm sənədlər imzalandıqdan sonra biz hamımız gələcəkdə də Avropa Birliyinin, Avropa Birliyi Komissiyasının dəstəyindən və yardımından bəhrələnəcəyik. Konfransda dövlət başçılarının, ölkə prezidentlərinin iştirak etməsi onun işinə xüsusi əhəmiyyət verir. Konfransın hazırlanmasında da maraqla iştirak etdiklərinə görə, çox dəyərli, mühüm çıxışlarına və bizim birgə gördüyümüz böyük işə görə dövlət başçılarına, prezidentlərə minnətdarlığımı bildirmək istəyirəm. Gün ərzində konfransın bütün iştirakçıları öz səylərini birləşdirdilər və bu salonda qarşılıqlı hörmət, dostluq və əməkdaşlıq mühiti hökm sürürdü. Bu onu göstərir ki, tarixi Böyük İpək yolunun bərpa və inkişafının zəruriliyi məsələsində biz hamımız yekdilik. Zənnimcə, konfransın səciyyəvi xüsusiyyəti odur ki, Avropa-Qafqaz-Asiya transqafqaz magistralı əsasında Avropa ilə Asiya arasında sıx əməkdaşlıq, əlaqə son dövrdə ilk dəfə olaraq bu konfransda xüsusi xarakter kəsb edir. Avrasiya məkanı nümayəndələrinin burada iştirakı da Avropa və Asiyanın sıx inteqrasiyasını səciyyələndirən çox ciddi dəyişikliklərdən xəbər verir. Bu konfrans bizim üçün, Azərbaycan üçün xüsusi əhəmiyyətə malikdir. Azərbaycana belə böyük şərəf göstərildiyinə və belə mühüm beynəlxalq konfransın Azərbaycanda, Bakıda keçirilməsinə görə Avropa Birliyi Komissiyasına, konfransın işində iştirak edən dövlətlərin prezidentlərinə, başçılarına, bütün ölkələrə təşəkkür etmək istəyirəm. Hamınızı əmin etmək istəyirəm ki, sizin bu etimadınızı biz yüksək qiymətləndiririk və Avropa ilə Asiya arasında körpünün həqiqətən çox səmərəli olması üçün, tarixi Böyük İpək yolunun bərpası proqramının həyata keçirilməsində öz borcumuzu yerinə yetirmək üçün hər şeyi edəcəyik. İqamətgahı Azərbaycanda olmaqla tarixi Böyük İpək yolunun bərpası üzrə təşkilatımızın katibliyinin təsis olunması haqqında qəbul edilmiş qərara görə hamınıza təşəkkür edi-

rəm. Hesab edirəm ki, biz bu gün imzalanmış sənədləri ümumi səylərimizlə reallaşdıracağıq və şübhəsiz, katiblik ümumi vahid orqanımızı təmsil edəcək, öz vəzifələrini layiqincə yerinə yetirəcəkdir. Bu gün Azərbaycanda, bəlkə də, onun tarixində, daha dəqiq desək, dövlət müstəqilliyi qazandıqdan sonra ilk dəfə olaraq belə bir beynəlxalq konfrans keçirilmiş, 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndələri burada, Bakıda toplaşmışlar. Biz bunu müstəqil, suveren Azərbaycana, ölkəmizə böyük hörmət kimi qəbul edirik və bu etimada, hörmətə layiq olmaq üçün bütün tədbirləri görəcəyik. Bugünkü konfrans bizim hamımızı daha da yaxınlaşdırdı, bizi daha çox əməkdaşlığa, qarşılıqlı anlaşmaya, dostluğa çağırır. İnanıram ki, daha fəal əməkdaşlıq edə bilməyimiz, hər bir ölkədə və bütün Avrasiya məkanında sülhü, firavanlığı və əmin-amanlığı təmin edə bilməyimiz üçün bu konfrans öz rolunu oynayacaqdır. Hörmətli dövlət başçıları, indi isə sizi xatirə şəkli çəkdirməyə dəvət edirəm. Tarixi Böyük İpək yolunun bərpası üzrə Bakı beynəlxalq konfransını bağlı elan edirəm.

# 盖达尔阿利耶夫总统结束语

尊敬的国家领导们，代表团的领导们，会议的参与者！复兴历史性的伟大丝绸之路巴库国际会议完成了自己的工作。祝贺你们成功的完成了会议的工作和签订了主要文件基本的协定，巴库宣言和全部的公报。我认为没有什么错误，如果我讲复兴历史性的伟大丝绸之路巴库国际会议成为了有重大历史意义的事件。在会议上所有的代表进行了发言有 45 个发言。在他们发言当中阐述了许多重要的想法，建议，这些想法与建议毫无疑问，将促进我们进一步的共同工作。由于我们共同的努力，会议的筹备和胜利的结束成为可能。但是同时我认为必须以会议的全部参与者的名义来表扬欧洲联盟委员会的优秀工作。5 年前，在 1993 年的 5 月份在欧洲联盟委员会的倡议下高加索和中亚的 8 个国家代表们在布鲁塞尔会见并且为在交通的发展，各种交通线方面连接欧洲，高加索和亚洲的各种交通线的合作打下基础。5 年过去了 。今天我们成为了见证人，看到这个基础原来是非常有价值的，牢固的并且形成了一个很大的国际组织。在这次会议上我们成为了见证人，看到会议的所有参与者以多大的兴趣讲述了我们所进行的工作的重要性，意义与美好未来。欧洲联盟委员会在这五年期间实施了大量工作。在筹备这次会议方面上她也实施了大量的工作。并且我们相信，现在，在签订了重要的文件之后，我们大家将会享受到欧洲联盟，欧洲联盟委员会方面进一步的支持和帮助。会议工作使国家领导们，国家总统们参与会议有了特别重要的意义。我想对国家领导们，总统们为他们有兴趣参加会议和筹备会议，为他们非常有价值 ，重要的讲话以及我们共同实行的那个出色工作表示感谢。在今天这一天当中全部与会者团结自己的力量并且这个大厅笼罩着相互尊重，友谊和合作的气氛。这说明了我们大家在必须复兴和发展伟大的历史性的丝绸之路发面的意见是一致的。按我的意见，我们会议的特点是在这次会议上最近第一次获得在欧洲和亚洲之间在欧洲高加索亚洲的横越高加索的

主要管线基础上的特殊性质的紧密合作关系。以及在这里参加的欧亚空间的代表们印证了欧洲和亚洲紧密的一体化特征这一很重要的转变 。对于我们，对于阿塞拜疆这次会议拥有特殊的意义。我想感谢的是欧洲联盟委员会，各国家总统们，元首们，所有参加会议工作的国家，感谢他们给阿塞拜疆这样高的荣誉和这样重要的国际会议在阿塞拜疆，在巴库举行。我想让你们相信，我们高度评价你们的这种信任，并竭尽全力，为的是在欧洲和亚洲之间能真的建立起有效的桥梁，在贯彻复兴历史性的伟大的丝绸之路计划方面上履行自己的义务。我感谢你们大家通过设立我们这个复兴历史性的伟大的丝绸之路组织的秘书处和当权政府机关的决议。我认为，我们将共同努力来实现今天签订的文件，并且毫无疑问将代表我们共同的统一机关的秘书处，当之无愧的履行自己的职责。今天在阿塞拜疆，在所有历史时期内，而如果更准确点说，是在获得国家独立之后，可能是第一次，进行了这样的国际会议并且在这里，在巴库聚集了 32 个国家和 13 个国际组织的代表。我们认为这是对独立的有自主权的阿塞拜疆，对我们的国家很大的尊重，我们将采取一切措施，以便无愧于这肿信任和尊重。今天的会议让我们大家的关系更加密切，号召我们更多的联合工作，相互理解与友谊，并且我相信这次会议起到了自己的作用，使我们能够更积极的联合工作和保障在每个国家以及在整个欧亚空间的和平，顺邃和安宁。现在我邀请你们，尊敬的国家领导们，让我们合影留念吧。我宣布复兴历史性的伟大丝绸之路巴库国际会议闭幕。

# Tarixi İpək Yolunun bərpası üzrə Bakıda keçirilmiş beynəlxalq konfransda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı – 8 sentyabr 1998-ci il

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

Hörmətli dövlət başçıları və nümayəndə heyətlərinin rəhbərləri, xanımlar və cənablar! Bəşər sivilizasiyasının tarixində yollar, nəqliyyat xətləri həmişə çox böyük rol oynayaraq, həyatın bütün sahələrinə – siyasətə, iqtisadiyyata, mədəniyyətə təsir göstərmişdir. Bunun parlaq nümunələrindən və rəmzlərindən biri də bir çox ölkələrin və xalqların minillik tarixini, Çinin qədim mədəniyyətini, avropalıların böyük coğrafi kəşflərini, orta əsr müsəlman intibahının nailiyyətlərini və bir sıra digər cəhətləri ehtiva etmiş qlobal, nadir hadisə olan Böyük İpək yoludur. Azərbaycan əzəldən Böyük İpək yolunda mühüm məntəqə olmuş, Avropa ilə Asiya arasında özünəməxsus körpü rolu oynamışdır. Qafqaz, Xəzər dənizi və Qara dəniz hövzələri ölkələri inkişaf etmiş ticarət, qarşılıqlı mədəni zənginləşmə, dini dözümlülük zonasını təşkil edərək, Böyük İpək yolunun özgür tərkib hissələrindən biri olmuşlar. Bəşər tarixinin ayrılmaz tərkib hissəsi kimi Böyük İpək yolu yüksəliş və tənəzzül dövrləri keçirmişdir. Müharibələr, ideoloji və coğrafi-siyasi qarşıdurmalar, ayırıcı xətlər dövrləri başlandıqdan sonra bu yol həyatımızdan yox olaraq, gözəl bir əfsanəyə çevrilmişdi. Lakin "soyuq müharibə" qurtardı, xalqlar müstəqillik əldə etdilər, ümumbəşəri dəyərlər, demokratik normalar, inteqra-

siya prosesləri dünya siyasətində üstün yer tutdu və Böyük İpək yolu ideyasını tarixin gedişinin özü yenidən zəruri etdi. Avropa Birliyi Komissiyasının uzaqgörən qərarını lazımınca qiymətləndirmək gərəkdir. Bu komissiyanın təşəbbüsü ilə 1993-cü ilin mayında Brüsseldə Qafqaz və Mərkəzi Asiya dövlətlərinin milli və beynəlxalq nəqliyyat, ticarət kommunikasiyalarının inkişafı strategiyasının müzakirəsinə həsr edilmiş xüsusi görüşü oldu. Həmin görüşdə təsis edilmiş "Avropa-Qafqaz-Asiya (TRASEKA) nəqliyyat dəhlizi" proqramı Avrasiya məkanında həyata keçirilən ən dinamik, iqtisadi cəhətdən ən səmərəli layihələrdən biri oldu. Proqramın iştirakçısı olan ölkələrin sıx əməkdaşlığı, Avropa Birliyi Komissiyasının fəal köməyi sayəsində ötən beş ildə kommunikasiya obyektlərinin modernləşdirilməsi və tikintisi müvafiq qanunların və məcəllələrin işlənib hazırlanması, kadrlar hazırlanması, gömrük və tarif siyasətlərinin təkmilləşdirilməsi sahəsində böyük iş görülmüşdür. Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan arasında tranzit daşımaların tənzimlənməsi haqqında 1996-cı ilin mayında Türkmənistanın Sərəxs şəhərində saziş imzalanması bu proqramın inkişafı üçün mühüm hadisə oldu. Sonralar bu sazişə başqa dövlətlər də qoşuldular. Həmin saziş sayəsində tariflər 50 faiz azaldılmış, gömrük qaydaları sadələşdirilmiş, daşımaların təhlükəsizliyi və qorunması təmin edilmişdir. Bunun nəticəsində son illərdə Transqafqaz dəhlizi vasitəsilə Avropa və Asiya arasında mal mübadiləsinin həcmi, demək olar, on dəfə artmışdır. TRASEKA proqramının uğurla həyata keçirilməsi əməkdaşlığımızı daha yüksək səviyyəyə qaldırmaq üçün, yəni tarixi Böyük İpək yolunun bərpasına dair proqram qəbul etmək üçün zəmin yaratmışdır və konfransımız da buna həsr olunmuşdur. TRASEKA-nın işçi qrupunun hazırladığı "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş", onun texniki əlavə-

ləri, Bakı bəyannaməsi çox böyük iqtisadi, siyasi, tarixi əhəmiyyətə malikdir. Onların qəbul olunması Avropa, Qara dəniz, Qafqaz, Xəzər dənizi və Asiya regionlarında ticarətin inkişafına, təbii ehtiyatlardan istifadəyə və onların nəqlinə, qarşılıqlı surətdə faydalı əməkdaşlığa kömək edəcəkdir. Tarixi İpək yolunun bərpası, yeni-yeni ölkələrin və regionların ona cəlb edilməsi xalqlarımızın yaxınlaşması və qarşılıqlı surətdə zənginləşməsi, yeni müstəqil dövlətlərin istiqlaliyyətinin və suverenliyinin möhkəmlənməsi, bu dövlətlərdə demokratik islahatların, bazar islahatlarının uğurla aparılması üçün güclü təkan verəcək, hamı üçün sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunmasına kömək göstərəcəkdir. Böyük İpək yolu keçmişdə başlansa da, gələcəyə doğru gedən yoldur. Mən inanıram ki, əgər biz əməkdaşlıq edə-edə, bir-birimizə hörmət bəsləyərək və bir-birimizi dəstəkləyərək bu yolla birlikdə getsək, o, xalqlarımızı firavanlığa və tərəqqiyə gətirib çıxaracaqdır. Diqqətinizə görə təşəkkür edirəm.

# 1998 年 9 月 8 日阿塞拜疆共和国总统盖达尔阿利耶夫在巴库国际会议复兴历史性的丝绸之路上的讲话

尊敬的国家首脑们和代表团的领导们！女士们和先生们 ！在人类文明的历史道路上，运输的道路永远起到了举足轻重的作用，对生活的各个方面都产生影响政治，经济，文化。最明显的一个例子和象征是这个伟大的丝绸之路全球独一无二的现象，它本身吸收了许多国家和民族的千年的历史，中国的古老文化，伟大欧洲人的地理开辟，中世纪穆斯林的文艺复兴的成就和许多其他方面 。自古以来阿塞拜疆是丝绸之路的重要枢纽，在欧洲和亚洲之间起到一个独特桥梁的作用。高加索，里海和黑海的国家是商业发展，文化交流，宗教思想传播的地带，这些是组成伟大丝绸之路的独特之一。作为人类历史不可分割的一部分，伟大的丝绸之路度过了繁荣和衰落的时期。从战争的开始时期，思想体系和地理政治的对抗，划分的路线使他从我们生活中消逝了，成为了一个美丽的传说。但是《冷战》结束后，民族获得了独立，全人类的价值，民主制的形成，整体化的进步在世界经济里占据了主导地位，并且伟大丝绸之路的思想重新来到提取本身的历史进程中。欧洲联盟委员会需要制定应有的有远见的决议，在这个倡议下 1993 年的五月在布鲁塞尔进行了高加索国家和中亚国家的专门会晤，讨论民族和国际间的交通，贸易交际的战略发展贡献。在这次会晤中制定的欧洲高加索亚洲交通走廊的大纲(TPACEKA)，成为了在欧亚地区实行的最积极，最有经济成效的方案之一。在过去的五年里，由于大纲参与国的密切合作，欧洲联盟委员会的积极支持，在现代化和建设交通线的工程，深入研究有关的法律和准则，培养干部，改善海关和税率的政治家方面完成了一项巨大的工作。在 1996 年五月，在土库曼斯坦的谢拉禾谢城开始签署对这个大纲的发展是一个重大事件，在阿塞拜疆 ，格鲁吉亚，土库曼斯坦和乌滋别克斯坦之间关于中转交通的运输调整协议，对于这份协议后来联合了别的其它一些国家。由于这份协议

使税率降低了 50%，海关手续的简单化，保障运输的安全性和完整无缺。这个结果在最近几年里在欧洲和亚洲之间横越高加索的走廊里商品交换的规模几乎增长了十倍。TPACEKA 大纲的成功实现对于我们的合作向更高水平的提高奠定了基础复兴伟大的丝绸之路大纲的通过与我们的会议是紧密联系的。培养 TPACEKA 大纲的工作组《在发展欧洲高加索亚洲的交通走廊方面上关于国际交通基本的多方面协议》，它的技术应用，巴库宣言拥有重要的经济，政治，历史的意义。它们的通过将促进商业的发展，自然资源的开发和运输，在欧洲，黑海，高加索，里海和亚洲的地区内彼此有益的经济合作。复兴历史性的伟大丝绸之路，在它那里吸引新的国家和地区对于缩短彼此间的距离和我们民族的相互致富，巩固我们独立的国家的自主和主权，将是有力的动机，在它们那里成功的实现民主制改革，市场改革，对于所有一切将会促进世界的保障，稳定性和安全性。伟大丝绸之路是从过去开始，但是在未来是贵重的。并且我相信，如果我们按照它的道路一起走下去，相互合作，相互尊重和相互支持，这条道路将引导我们的民族走向富足安康和繁荣昌盛。

**Azərbaycan Prezidenti Heydər Əliyevin Bakıda keçirilmiş Tarixi Böyük İpək Yolunun bərpası üzrə beynəlxalq konfransın yekunları ilə əlaqədar geniş müşavirədəki nitqi 10 sentyabr 1998-ci il**

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Hörmətli xanımlar və cənablar! Bu gün mən sizi buraya sentyabrın 7-8-də Bakıda, Azərbaycanda keçirilmiş beynəlxalq konfransın yekunları ilə əlaqədar dəvət etmişəm. Şübhəsiz ki, beynəlxalq konfransın yekunları bundan sonra çox ətraflı və geniş müzakirə olunmalıdır. Xüsusən onun qəbul etdiyi qərarlar, yəni imzalanmış müqavilələr həyata keçirilməlidir. Amma bu gün mən, sadəcə, bu konfransla bağlı görülmüş hazırlıq işində və konfransın keçirilməsində iştirak edənləri buraya dəvət etmişəm ki, konfransın hazırlanması, gedişi və onun işinin sona çatması ilə əlaqədar öz müşahidələrimi bildirim. İndi respublika və dünya ictimaiyyətinə də artıq məlumdur ki, Bakıda keçirilmiş, qədim tarixi İpək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans nə qədər böyük əhəmiyyətə malikdir. Vaxtilə biz belə bir konfransın keçirilməsi ilə əlaqədar Avropa Birliyinin Komissiyası ilə danışıqlar aparmışdıq. Hələ xeyli vaxt bundan əvvəl belə bir konfransın keçirilməsi zərurəti meydana çıxmışdı. Ancaq bu konfransın keçirilməsi və ya keçirilməməsi, harada keçirilməsi məsələləri xeyli müzakirə olunmuşdur. Çünki məlumdur ki, Avropa Birliyi Komissiyası və ümumiyyətlə, Avropa Birliyi həm 1991-ci ildə TASİS proqramını qəbul

edərkən, həm də 1993-cü ildə TRASEKA proqramını qəbul edərkən birinci növbədə, yeni müstəqillik qazanmış ölkələrlə əlaqələr yaratmaq və inkişaf etdirmək, həm də Avropa-Qafqaz-Asiya nəqliyyat xətlərinin yaradılması və inkişaf etdirilməsi məqsədi daşımışdır. Bu gün tam əsasla demək olar ki, Avropa Birliyi hələ Sovetlər İttifaqı dağılmamışdan, yəni həmin ittifaqın dağılmasını görərək və artıq bunu proqnozlaşdıraraq bu məsələyə həm münasibətini bildirmiş, həm də bu barədə tədbirlər görmüşdür. 1991-ci ildə, hələ Sovetlər İttifaqı mövcud olduğu bir zaman TASİS proqramının – müstəqillik əldə edən ölkələrə iqtisadi yardım göstərilməsi ilə əlaqədar proqramın qəbul olunması buna əyani sübutdur. SSRİ dağılandan – Şərqi Avropa ölkələrində böyük dəyişikliklər baş verəndən, keçmiş Sovetlər İttifaqına mənsub olmuş ölkələr dövlət müstəqilliyini əldə edəndən sonra Avropa ilə Asiya arasında iqtisadi əlaqələri inkişaf etdirmək üçün, şübhəsiz ki, iqtisadi əlaqələr vasitəsilə başqa əlaqələri də inkişaf etdirmək üçün TASİS proqramının qəbul olunması zərurəti meydana çıxmışdır. Avropa Birliyinin İqtisadi Komissiyası bu proqrama Qafqaz və Mərkəzi Asiya ölkələrini cəlb etmiş, 1993-cü ilin may ayında TRASEKA proqramı qəbul olunmuşdur. O illər, bəlkə də son vaxtlara qədər həmin TRASEKA proqramının yerinə yetirilməsi ilə əlaqədar ayrı-ayrı ölkələrdə tədbirlər keçirilibdir. O cümlədən biz Avropa Birliyi ilə daim əməkdaşlıq etmişik. Ancaq bu TRASEKA proqramının belə böyük gələcəyə malik olduğu hələ hamı tərəfindən o qədər də dərk edilmirdi. Nəhayət, 1996-cı ildə, xüsusən 1997-ci ildə qədim, Böyük İpək Yolunun bərpa olunması məsələsi ümumi, dünyəvi, qlobal bir məsələ kimi meydana çıxmışdır. Bu, yeni kommunikasiya, nəqliyyat xətləri yaratmaq, Avropanı Asiya ilə daha yaxın, əlverişli, təhlükəsiz və daha ucuz yollarla bağlamaq və bu vasitə ilə də ölkələr arasında iqtisadi əməkdaşlıq yaratmaq,

onu inkişaf etdirmək və Avropa Birliyinin bu ölkələrə təsirini artırmaq məqsədi daşımışdır. Tarixi İpək Yolunun bərpa edilməsi məsələsi həm elmi tədqiqat, həm də praktiki nöqteyi-nəzərdən böyük maraq doğurmuşdur. Ayrı-ayrı ölkələrdə bu mövzu həm dövri mətbuatda, həm də elmi kitablarda, junallarda, konfranslarda, simpoziumlarda müzakirə olunmuşdur. Böyük tarixi İpək yoluna diqqət və maraq get-gedə artmışdır. Təsadüfı deyildir ki, hətta Böyük İpək Yolundan çox uzaqda olan Amerika Birləşmiş Ştatlarında qədim İpək yolunun bərpasına ciddi maraq göstərilmişdir və bu barədə indiyə qədər də müzakirələr gedir. Yaxud, Yer kürəsinin tamamilə başqa bir uzaq hissəsində yerləşən Yaponiyada Böyük İpək Yoluna maraq göstərilmiş və bu İpək yolunun bərpası ilə əlaqədar təkliflər irəli sürülmüşdür. Məlumdur ki, keçən ilin əvvəlində Yaponiyanın baş naziri Haşimoto Böyük İpək Yolu haqqında öz hökumətinin konsepsiyasını, bu məsələyə baxışını, təklifini irəli sürmüşdür və bu məsələ Yaponiyanın da ardıcıl surətdə diqqət mərkəzində olmuşdur. Böyük İpək Yolu üzərində yerləşən ölkələrin əksəriyyəti tərəfindən qədim İpək yolunun bərpası, yəni bu İpək Yolu əsasında yeni, müasir nəqliyyat xəttinin yaranması məsələsi zəruri hal kimi tədricən irəliyə sürülmüşdür. Azərbaycan bu proseslərdə daim iştirak etmiş, Avropa Birliyi ilə sıx əməkdaşlıq etmişdir. Biz Avropa Birliyinin İqtisadi Komissiyası ilə Azərbaycanın bir çox sahələr üzrə əməkdaşlığını çox əhəmiyyətli hesab etmişik və bunun müsbət nəticələrini də görmüşük. Bilirsiniz ki, ümumiyyətlə, Avropa Birliyi çox mütəşəkkil beynəlxalq bir təşkilatdır. Avropanın böyük olmasına baxmayaraq, bu təşkilatda ancaq 15 ölkə təmsil edilibdir. Bu təşkilata daxil olan ölkələr arasında yüksək səviyyəli, müasir tələblərə uyğun iqtisadi əməkdaşlıq prosesi gedir. Bu əməkdaşlığın çox səmərəli olduğu aydın görünür. Çünki Avropa Birliyinə daxil olan

ölkələr bu təşkilatın fəaliyyətinə və işinə, bu təşkilata məxsus olduqlarına yüksək qiymət verirlər. Ona görə də bu təşkilat böyük nüfuza malikdir. Avropa Birliyi əşkilatı Avropa və Asiya ölkələri ilə öz əlaqələrini genişləndirir. Bildiyiniz kimi, biz 1996-cı ilin aprel ayında Lüksemburqda Avropa Birliyi ilə Azərbaycan arasında tərəfdaşlıq haqqında saziş imzalamışıq və Avropa Birliyinin strukturlarında iştirak etməyə çalışırıq. Biz keçən illərdə Avropa Birliyindən müəyyən maliyyə və maddi yardımlar almışıq və indi də bəzi proqramların həyata keçirilməsində Avropa Birliyi Komissiyasının yardımlarından istifadə edirik. Avropa Birliyi Komissiyası ilə əməkdaşlığımız uğurludur və biz bu əməkdaşlıqda özümüzü çox etibarlı tərəfdaş kimi göstərmişik. Bir faktı qeyd etmək istəyirəm. Biz 1994-cü ildə, doğrusu, Avropa Birliyinin Komissiyası ilə əməkdaşlığımızın detallarını o qədər də dərindən bilmədiyimiz bir zaman Azərbaycanla Avropa Birliyi arasında müqavilələr imzalanmışdı. Avropa Birliyi Azərbaycana müəyyən yardımlar etmişdi. O vaxt Azərbaycanda qıtlıq olduğu zaman biz Avropa Birliyindən xeyli miqdarda taxıl alıb respublikamızın əhalisini çörəklə təmin etmək məsələlərini həll edirdik. Avropa Birliyi o vaxt Azərbaycana bununla bərabər kredit də vermişdir. Mən bu gün etiraf etməliyəm ki, o vaxt həmin kreditin verilməsi şəxsən mənə o qədər də dəqiq məlum olmamışdır. Nazirlər Kabineti mənimlə razılaşmamış, həmin kreditlərin alınması ilə əlaqədar sazişlər imzalamışdı. Mən bu məsələni biləndən sonra həm Nazirlər Kabineti, həm də bizim maliyyə orqanlarımız mənə belə bildirdilər ki, bu kredit elə kredit adı ilə verilir, amma bu, Avropa Birliyi Komissiyasının Azərbaycana olan yardımıdır. Sonra da dedilər ki, biz onsuz da bu kreditləri hələ üç ildən sonra qaytaracağıq, ona görə də bunun üçün narahat olmaq lazım deyildir. Bilirsiniz, təəssüf ki, həmin illərdə Azərbaycanın rəhbərliyində vəziyyət gərgin

idi. 1994-cü ildə Nazirlər Kabinetinə kim tərəfindən rəhbərlik edildiyi də sizə məlumdur. Bütün bunlara görə bu gün mən hesab edirəm ki, o vaxt səhvlər buraxılmışdır. Doğrudur, o vaxt Azərbaycanın həm maliyyə kreditinə, həm də maddi yardıma ehtiyacı böyük idi. Ancaq biz həmişə bilməliyik ki, krediti nə üçün alırıq və bunu necə qaytaracağıq. Amma o vaxt çoxları, o cümlədən həmin kreditin alınmasına imza atanlar da bu haqda düşünməmişdilər. Kreditlər Azərbaycana guya ərzaq gətirilməsi və həmin ərzağın da ancaq Avropa ölkələrindən alınması üçün bağlanıbdır. İndi məlum olur ki, həmin kreditlərdən istifadə olunmasında da səhvlərə yol verilmişdir. Nəhayət, vaxt gəldi çatdı və alınmış həmin kreditlərin qaytarılması keçən il – 1997-ci ildə bizdən tələb olundu. Həmin kreditlər təkcə bizə yox, Gürcüstana da verilmişdi. Hətta Gürcüstana Azərbaycandan da çox verilmişdi. Ermənistana da, başqa ölkələrə də verilmişdi. Ancaq Avropa Birliyi və xüsusən İqtisadi Komissiya bu kreditlərin qaytarılmasını Azərbaycandan qətiyyətlə tələb etdi. Biz onun vaxtının artırılmasına çalışdıq. Çalışdıq sübut edək ki, biz bu krediti alanda səhvlər olubdur və bəziləri bunun qaytarılacağını anlamayıblar. Ancaq bunlar heç bir nəticə vermədi. Biz keçən il həmin bu kreditlərin əvəzinə Avropa Birliyinin İqtisadi Komissiyasına 57 milyon dollar qaytarmağa məcbur olduq. Olan-olub, keçən-keçib, 1993-cü, 1994-cü illərdə hətta 1995-ci ildə Azərbaycanda iqtisadiyyata rəhbərlik edən və xüsusən də iqtisadiyyatla məşğul olan Nazirlər Kabinetində normal bir rəhbərlik yox idi. Ona görə də belə bir səhv buraxılmışdı. Bu məsələni mənə məruzə edərkən dəfələrlə təkidlə soruşurdum ki, bəs nə üçün, niyə belə olubdur? Ola bilərdi ki, o vaxt biz həmin kreditləri almayaydıq. Onsuz da çətin yaşayırdıq. Yaşayacaqdıq. Amma indi biz 57 milyon dollar dəyərində məbləği qaytardıq. Yəni Avropa Birliyi ilə bizim belə bir münasibətimiz də

olubdur. Doğrudur, Avropa Birliyi bizim vəziyyətimizi anlayaraq və verilən həmin krediti qaytardığımıza görə qərar qəbul edibdir ki, belə saf əməkdaşlıq etdiyimiz üçün Azərbaycana 30 milyon ekyu məbləğində yardım göstərsinlər. Bu da 1998, 1999 və 2000-ci illərdə olacaqdır. Şübhəsiz ki, bu, 57 milyon dolların yerini vermir. Ancaq hesab edirəm ki, biz bunu da qiymətləndirməliyik. Avropa Birliyi Azərbaycana xoş münasibət göstərir, Azərbaycanın həmin krediti qaytarması ilə əlaqədar atdığı addımı qiymətləndiribdir. Amma onu da bilirik ki, bizə qonşu olan ölkələr aldıqları kreditləri qaytarmayıblar, həmin kreditlərin vaxtları uzadılıbdır. Bizə izah edirlər ki, krediti qaytarmağa Azərbaycanın iqtisadi imkanları var, amma o biri ölkələrin iqtisadi imkanları yoxdur. Bu da bir tərəfdən Azərbaycanın həqiqətən öz iqtisadiyyatını öz imkanları ilə idarə etməsini göstərir. Çünki 907-ci düzəlişə görə Amerika Birləşmiş Ştatları müstəqil dövlətlərə göstərdiyi yardımdan Azərbaycanı məhrum edibdir. Məsələn, qonşu ölkələr - Ermənistan, Gürcüstan və başqaları Amerika Birləşmiş Ştatlarından ildə 100 milyon dollar birbaşa yardım alırlar. Biz bu yardımdan məhrumuq. 1994-cü ildə Avropa Birliyi bizə ayırdığı kreditdən də çox o biri ölkələrə yardım etmişdi. Biz bu krediti qaytardıq, amma onlara güzəşt ediblər, vaxtını uzadıblar. Mən bunu sadəcə bir məlumat kimi bildirmək istədim. Çünki lazımdır ki, Siz də, ictimaiyyətimiz də hər bir şeyi bilsin. Bizim iqtisadiyyatımızda görülən hər bir iş və aparılan tədbirlərin hamısı göz qabağındadır. Hesab edirəm, gördüyümüz işləri də çox peşəkar səviyyədə aparırıq. Bu, Avropa Birliyi və İqtisadi Komissiya ilə bizim əməkdaşlığımızın bir hissəsidir. Ancaq TRASEKA proqramı əsasında Avropa Birliyinin yardımı ilə Azərbaycanda bir çox işlər görülübdür və bundan sonra da görülür. Bu, təkcə Azərbaycan üçün deyildir. Bu, Azərbaycandan keçən nəqliyyat xəttinin TRASEKA proqramının həyata keçirilməsindən

ötrü lazımi səviyyəyə gətirilməsi üçündür. Məsələn, Poylu körpüsü Avropa Birliyindən alınmış 2 milyon dollar vəsait hesabına bərpa olundu. Dəmir yolunda da müəyyən işlər görülür. Yəni bunlar kredit deyildir, bu işlərin görülməsi üçündür. İşğaldan azad olunmuş ərazilərdə, – Füzuli rayonunun işğaldan azad edilmiş qəsəbə və kəndlərində bərpa işləri aparılmasına da Avropa Birliyi yardım edir. Baş nazirin müavini Abid Şərifov buradadır. Avropa Birliyi nə qədər yardım edir?

**Abid Şərifov:** 7 milyon ekyu məbləğində. Onun 4 milyonunu veriblər, 3 milyonunu da ayıracaqlar. Bu, Ağdam və Füzuli rayonlarında işğaldan azad olunmuş kəndlərin bərpasına sərf edilir.

**Artur Rasizadə:** Ümumiyyətlə, Avropa Birliyi tərəfindən indiyə qədər Azərbaycana 225 milyon dollar yardım edilibdir.

Heydər Əliyev: Qaytarılan kredit də buraya daxildir?

**Artur Rasizadə:** Xeyr. Bunlar Azərbaycana birbaşa edilmiş yardımdır.

**Abbas Abbasov:** Avropa Birliyi respublikamızın təkcə aqrar sahəsinə 16 milyon dollar yardım edibdir.

**Artur Rasizadə:** Bəli, bütün bunlar hamısı 225 milyon dollardır.

**Abid Şərifov:** Cənab prezident, Avropa Birliyi TRASEKA proqramı çərçivəsində Azərbaycana qrant şəklində 7 milyon 650 min ekyu məbləğində investisiya qoymuşdur. Bu vəsaitin 6 milyondan çoxu respublikamızda körpülərin, sərhəd postlarının tikilməsinə, bərpasına və Bakı limanında bir sıra yenidənqurma işləri aparılmasına xərclənibdir.

**Heydər Əliyev:** Beləliklə, yenə də deyirəm, Avropa Birliyi ilə bizim əməkdaşlığımız uğurludur və bu yardımlar Azərbaycanın problemlərinin həll edilməsinə sərf olunur və bundan sonra da sərf olunacaqdır. Bizim əməkdaşlığımızın məhz belə – həm səmimi, həm də uğurlu olması nəticəsində də TRASEKA proqramının

inkişaf etdirilməsi və Böyük İpək Yolunun bərpa edilməsi mövzusu Avropa Birliyinin İqtisadi Komissiyasında bir neçə dəfə müzakirə olunmuş və belə bir konfransın keçirilməsinin zəruriliyi bildirilmişdir. Mən bunu konfransda demişəm. TRASEKA proqramı qəbul ediləndən sonra işçi qrupları bir neçə dəfə görüşüblər və bu proqramın həyata keçirilməsi hər dəfə müzakirə olunubdur. Ancaq bu konfrans TRASEKA proqramının təkcə həyata keçirilməsi yox, onun yeni bir proqrama çevrilməsi, yəni TRASEKA proqramı əsasında yeni böyük bir proqramın qəbul olunması zərurətindən meydana çıxmışdır. Bunun üçün də bir çox hazırlıq işləri görülmüşdür və belə bir konfransın harada keçirilməsi də müzakirə olunmuşdur. Bütün bu hazırlıq işlərində Azərbaycan çox fəal iştirak etmişdir. İmzalanan əsas sənəd, saziş – "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxətraflı saziş" və onun texniki əlavələri bir neçə ay, bəlkə də bir il müddətində hazırlanmışdır. Belə bir konfransın keçirilməsi zərurəti meydana gəldiyi zaman onun harada keçirilməsi də müzakirə olunmuşdur. TRASEKA proqramında iştirak edən ölkələrin, şübhəsiz ki, hər biri belə bir konfransın öz ölkəsində keçirilməsinin arzusunda olmuş və namizədliyini vermişdi. Biz də belə bir konfransın Azərbaycanda keçirilməsi təklifini irəli sürmüşdük. Şübhəsiz, biz belə bir təklif irəli sürərkən dərk edirdik ki, bu, çox məsuliyyətli, çətin işdir. İndi, Azərbaycan problemlərlə rastlaşdığı, Ermənistan-Azərbaycan münaqişəsi mövcud olduğu bir zaman belə böyük beynəlxalq konfransın Azərbaycanda keçirilməsi bizim üzərimizə həm çox vəzifələr və həm də böyük məsuliyyət qoyur. Biz bunları dərk edərək Azərbaycanın namizədliyini irəli sürdük. Başqa ölkələr də öz namizədliklərini irəli sürmüşdülər. Bu məsələlər bir neçə dəfə müzakirə olunmuşdu, ancaq həm Avropa Birliyinin Komissiyası, həm də TRASEKA proqra-

mında fəal iştirak edən ölkələrin əksəriyyəti bu konfransın Azərbaycanda keçirilməsinə razılıq vermişdilər. Yenə də deyirəm, qərar qəbul olunanadək hələ mübahisələr gedirdi ki, bu beynəlxalq konfrans Azərbaycanda, Bakıda, yaxud Qafqazın, Asiyanın başqa bir ölkəsində keçirilsin. Nəhayət, bizim təklifimiz qəbul olundu və beynəlxalq konfransın Azərbaycanda, Bakıda keçirilməsi qərara alındı. Bununla əlaqədar biz əməli işə başladıq. Bu əməli iş xeyli zaman idi ki, gedirdi. Ancaq bu işi daha da mütəşəkkil aparmaq üçün mən iyun ayında xüsusi sərəncam qəbul etdim və konfransın hazırlanması, keçirilməsi üçün komissiya təşkil etdim. Bu komissiyaya Baş nazir Artur Rasizadə başçılıq edirdi və axıra qədər də başçılıq etdi. Komissiyanın tərkibində bugünkü müşavirədə iştirak edənlərin bir çoxu vardır. Qeyd etməliyəm ki, komissiya çox iş görmüşdür və beynəlxalq konfrans yaxşı hazırlanmışdır. Konfransı keçirmək üçün Avropa Birliyinin Komissiyası ilə məsləhətləşərək mən, Azərbaycanın prezidenti bu konfransda iştirak etmələri zəruri olan ölkələrin dövlət və hökumət başçılarına xüsusi məktublar göndərdim və bu ölkələri konfransda iştirak etməyə dəvət etdim. Şübhəsiz ki, həmin ölkələr Böyük İpək Yolunun bərpası ilə əlaqədar olan ölkələrdir. Bu ölkələrin tərkibi Avropa Birliyinin Komissiyası ilə razılaşdırılmışdır. Ancaq dəvəti Azərbaycan prezidenti göndərmişdir. İndi artıq görünür ki, bizim dəvətimiz qəbul olunmuşdur və 32 dövlət, ölkə beynəlxalq konfransda iştirak etmişdir. Biz dövlətlərlə, ölkələrlə bərabər, beynəlxalq təşkilatlara da dəvətlər göndərmişdik. Dəvət olunan beynəlxalq təşkilatların – 13 beynəlxalq təşkilatın hamısının nümayəndə heyətləri konfransda iştirak etmişdir. Beləliklə, konfrans həqiqətən böyük beynəlxalq bir konfrans oldu. Konfransın iştirakçıları həm İpək yolunun bilavasitə xətti üzərində yerləşən, həm də bu İpək yoluna böyük maraq göstərən ölkələrin nümayəndələri idilər. Konfransda

Amerika Birləşmiş Ştatlarından, Yaponiyadan, Çindən, Avropa ölkələrinin demək olar ki, əksəriyyətindən nümayəndə heyətləri, Qafqaz, Mərkəzi Asiya, Monqolustan və Asiyanı təmsil edən digər ölkələr iştirak edirdilər. Siz bilirsiniz, nümayəndə heyətləri yüksək səviyyəli idi. Konfransda 9 ölkə dövlət başçıları – prezidentlərlə təmsil olunmuşdu, bir ölkədən nümayəndə heyətinə Baş nazir rəhbərlik edirdi. Digər nümayəndə heyətlərinə nazirlər, Baş nazirin müavini və başqa yüksək vəzifəli şəxslər rəhbərlik edirdilər. Təkcə nümayəndə heyətləri üzvlərinin sayı 180 nəfər idi. Ancaq bilirsiniz ki, hər ölkədən gələn nümayəndə heyətini müşayiət edən çoxsaylı şəxslər də var idi. Konfransda 20 ölkədən 210 mətbuat nümayəndəsi – junalistlər, kütləvi informasiya orqanlarının nümayəndələri iştirak etmişlər. Bu konfransda dünyanın böyük agentliklərinin, televiziyalarının nümayəndələri iştirak etmişlər. Beynəlxalq təşkilatların demək olar ki, hamısı konfransda təmsil olunmuşdur. Birləşmiş Millətlər Təşkilatının, ATƏT in, Avropa Birliyinin, müstəqil Dövlətlər Birliyinin, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatının nümayəndə heyətləri, dünyanın böyük banklarının – Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, İslam Bankının, bir çox beynəlxalq nəqliyyat təşkilatlarının nümayəndələri, yəni dünyanın əsas beynəlxalq təşkilatlarının hamısı bu konfransda təmsil olunmuşdur. Həmin nümayəndə heyətlərinin konfransda təkcə təmsil edilməsi deyil, hər bir nümayəndə heyəti beynəlxalq konfransın işində fəal iştirak etmişdir. Çünki 32 ölkəni, dövləti təmsil edən nümayəndə heyətləri başçılarının hamısı konfransda nitq söyləmişdir. 13 beynəlxalq təşkilatı təmsil edən nümayəndə heyətlərinin başçıları konfransda çıxış etmişlər. Bütün bu danışıqların, nitqlərin, konfransın işinin məzmunu sizə məlumdur. Konfransın işi əvvəldən axıradək Azərbaycan televiziyası vasitəsilə canlı yayılıbdır. Güman edirəm ki, siz bunla-

rı seyr etmisiniz, dinləmisiniz, bilirsiniz. Bizim qəzetlər də konfransın demək olar ki, stenoqramını dərc edirlər. Ancaq qısaca olaraq onu deyə bilərəm ki, konfransda gedən bütün danışıqların məzmunu ondan ibarət olmuşdur ki, hamı eyni fikirdədir. Tarixi Böyük İpək Yolunu bərpa etmək lazımdır. Bunu bərpa etmək üçün hər bir ölkə lazımi kommunikasiya xətləri yaratmalıdır. Avropa Birliyi Komissiyasının bunu indiyədək himayə etdiyi kimi, bundan sonra da himayə edəcəkdir. Yəni konfransın bütün iştirakçıları həm Avropa Birliyi ilə Azərbaycanın təşəbbüsünü – bizim bu təşəbbüsümüzə Gürcüstan prezidenti Eduard Şevardnadze də qoşulmuşdur – yüksək qiymətləndirmişlər, həm də konfransın əhəmiyyətini və orada müzakirə olunan məsələlərin gələcək üçün çox böyük əhəmiyyətini qeyd etmişlər. Bilirsiniz ki, bəzi ölkə və dövlət başçıları konfransla əlaqədar mənim ünvanıma xüsusi məktublar göndərmişlər. Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszemin, Yaponiyanın Baş naziri cənab Obuti, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri cənab Toni Bleyer, Qazaxıstanın prezidenti cənab Nazarbayev özləri iştirak edə bilmədiklərinə görə məktublar göndərmişlər. Bu məktublar mənə təqdim olunubdur. Onlar mətbuatda dərc ediləcəkdir. Başqa nümayəndə heyətləri, hansılar ki, dövlət, hökumət başçıları tərəfindən təmsil olunmurdular, onların da hər biri çıxışlarında öz dövlət və hökumət başçılarının konfransa münasibətini, fikrini və təkliflərini bəyan etdilər. Beləliklə, mən hesab edirəm ki, konfrans qarşıya qoyulan vəzifəni layiqincə həyata keçirdi və beynəlxalq aləmdə tarixi bir hadisəyə çevrildi. Konfransda çıxış edən natiqlərin demək olar ki, hamısı bunu qeyd etdilər. Məlumdur ki, bu konfransda üç sənəd imzalandı. Birincisi – "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş" və onun texniki əlavələri, ikincisi – Bakı bəyannaməsi, üçün-

cüsü – tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransın yekun rəsmi məlumatıdır. Bildirmək istəyirəm ki, bu sənədlər cürbəcür imzalanıbdır. Birinci sənəd 14 dövlət tərəfindən imzalanıbdır. Bakı bəyannaməsi çox dövlətlər tərəfindən imzalanıbdır. Üçüncü sənəd – yekun rəsmi məlumatı 29 dövlətin və Avropa Birliyinin nümayəndə heyətləri tərəfindən imzalanıbdır. Beləliklə, bu sənədlər artıq böyük əhəmiyyət kəsb edir. Biz bu sənədlərin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görəcəyik. Konfransın yekunları, Azərbaycan Respublikasının üzərinə düşən vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar mənim fərmanım artıq hazırlanır. Həmin fərmanda respublikamızın, ölkəmizin hökumət, dövlət orqanları tərəfindən görüləcək işlərin hamısı müəyyən ediləcəkdir. Mən bu fərmanı yaxın günlərdə imzalayacağam. Mən bu gün iftixar hissi ilə deyə bilərəm ki, biz, Azərbaycan müstəqil dövlət kimi böyük bir beynəlxalq konfransın təşkilatçısı olduq, belə bir konfransın Azərbaycanda, Bakıda yüksək səviyyədə keçirilməsini təmin etdik. Mən konfransın işini yekunlaşdırarkən bunu bəyan etmişdim. Bu gün bir də bəyan edirəm ki, konfransın Bakıda keçirilməsi Avropa Birliyi və TRASEKA proqramının iştirakçıları tərəfindən Azərbaycana göstərilən etimaddır və böyük diqqətdir. Biz bunu yüksək qiymətləndirməliyik. Bunun əhəmiyyəti ondan ibarətdir ki, Avropa Birliyi kimi yüksək səviyyəli beynəlxalq təşkilat Azərbaycan ilə ötən illər etdiyi əməkdaşlığın nəticəsində Azərbaycanın bir müstəqil, demokratik, azad ölkə kimi böyük beynəlxalq konfrans keçirmək hüququna malik olduğunu nümayiş etdirib və belə bir konfransın Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edibdir. Konfransın iştirakçıları da bu konfransın birinci Azərbaycanda keçirilməsinin zəruri olduğunu qəbul ediblər və bu konfransda fəal iştirak ediblər. Dediyim kimi, konfransda Azərbaycan da daxil olmaqla 9 ölkə dövlət başçıları ilə, bir ölkə isə Baş

nazirlə təmsil olunmuşdu. Beləliklə, 32 nümayəndə heyətindən 10-u dövlət və hökumət başçıları tərəfindən təmsil edilmişdi. Bunun özü də böyük hadisədir və konfransa bu ölkələr tərəfindən çox yüksək əhəmiyyət verilməsinin təzahürüdür, eyni zamanda bu ölkələrin dövlət başçılarının Azərbaycana göstərdikləri münasibətin təzahürüdür. Biz çalışırdıq ki, konfransın keçirilməsi bütün parametrlərinə görə beynəlxalq standartlar səviyyəsində olsun. Bu gün məmnuniyyət hissi ilə deyə bilərəm ki, biz buna nail olduq. Çünki mən və mənimlə bərabər Azərbaycanın bir neçə rəhbər vəzifəli şəxsləri son illər, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra bir çox beynəlxalq toplantılarda, sammitlərdə, konfranslarda iştirak etmişik. Bu konfransı hazırlayarkən biz birinci növbədə çalışmışdıq ki, gördüklərimizdən və bu beynəlxalq konfransların hazırlanması, xüsusən həyata keçirilməsi təcrübəsindən səmərəli istifadə edək və Bakıda keçirilən konfrans da gördüyümüz konfranslar səviyyəsində olsun. Mən bu gün deyə bilərəm ki, biz buna nail olmuşuq. Həqiqətən, nümayəndə heyətlərinin Bakıya endikləri vaxtdan Bakı hava limanından ayrıldıqları zamana qədər onların səmərəli işinin təmin olunması və ümumiyyətlə, konfransın mütəşəkkil aparılması hamının gözü qabağındadır. Demək olar ki, bütün nümayəndə heyətləri, onların başçıları, üzvləri konfransın işinin təşkilinə, gələn qonaqların yerləşdirilməsinə, onlara göstərilən xidmətə və konfransın çox mütəşəkkil aparılmasına, müasir texniki vasitələrdən istifadə olunmasına yüksək qiymət verdilər. Təbiidir, bu, asanlıqla olmamışdır. Biz çox hazırlıq işləri gördük və birincisi, gələn nümayəndə heyətlərinin münasib şəraitdə yerləşdirilməsi, onların burada olduqları müddətdə fəaliyyətlərinə lazımi şərait yaradılması üçün, ikincisi də konfransın keçiriləcəyi yerdə beynəlxalq standartlara uyğun şəraitin yaradılması üçün çox iş gördük. Bu baxımdan bizim "Gülüstan" sarayı

Azərbaycanın bu günü üçün də çox gərəkli oldu. "Gülüstan" sarayı 1980-ci ildə tikilib istifadəyə verilibdir, 18 ildir ki, Azərbaycana xidmət edir. Ancaq mən, bu "Gülüstan" sarayının tikilməsinin, inşa edilməsinin, yaranmasının təşəbbüskarı kimi və bu işi o illər bilavasitə həyata keçirən adam kimi, böyük iftixar hissi keçirirəm ki, bu saray Azərbaycanın dövlət müstəqilliyinə çox dəyərli xidmətlər göstərir. Tək bu konfransda yox, ona qədər də. Ancaq bu konfransın keçirilməsi üçün "Gülüstan" sarayı əsaslı təmir olundu. Bu da lazım idi, çünki 18 il bundan öncə tikilmiş binanın təmirə ehtiyacı var idi. Təmir olundu və müasir səviyyəyə çatdırıldı. Bununla bərabər, konfransın keçirilməsi üçün orada əlavə ayrı-ayrı otaqlar, bölmələr yaradıldı. Bunların da sayəsində həm konfrans iştirakçılarının, yəni nümayəndə heyətlərinin, onların üzvlərinin orada normal şəraitdə fəaliyyət göstərməsi üçün, həm nümayəndə heyətlərini müşayiət edənlər üçün, həm də çoxsaylı jurnalistlər üçün bütün imkanlar yaradıldı. Mən bu gün tam əsasla deyə bilərəm ki, "Gülüstan" sarayının o böyük salonu dünyanın bir çox ölkələrində keçirilmiş konfransların salonlarından nəinki fərqlənmirdi, bəlkə də bəzilərinə nisbətən daha da görkəmli, daha da münasib görünürdü. Bu, tarixi bir hadisədir. Ancaq bir "Gülüstan" sarayı deyildir. Artıq bizim Bakıda çoxsaylı qonaqların yerləşdirilməsi üçün müasir tələblərə uyğun otel imkanlarımız vardır. Bunlar da çox xeyirli oldu. Bilirsiniz ki, bu konfransın keçirilməsi ilə əlaqədar biz bir çox avtonəqliyyat vasitələri-avtobuslar, müasir tələblərə cavab verən minik avtomobilləri aldıq və bunlardan da istifadə olundu. Bütün bunların hamısı Azərbaycanın bu gününü nümayiş etdirirdi. Hətta bizim hava limanının binasındakı, Azərbaycan dilində desək, o şərab salonu – və yaxud beynəlxalq termində bir "vip" sözü vardır, – müasirləşdirildiyinə görə o da çox böyük təəccüb doğurdu ki, bu necə də yaxşıdır. Baxmaya-

raq ki, mənim özüm istərdim ondan da yaxşı olsun. Bizim dostumuz, Türkiyənin prezidenti cənab Süleyman Dəmirəl mən onu yola salarkən çox şeydən razılığını bildirdi və dedi ki, buranı da çox gözəl etmisiniz. Mən əvvəllər buranı belə görməmişdim, indi müasir tələblərə uyğun olan şərab salonudur. Mən ona dedim ki, biz başqa bir hava limanı tikirik və onu gələn il istifadəyə verəcəyik. Dedim ki, açılışa sizi dəvət edəcəyəm və orada hər şey, o cümlədən şərab salonu bundan da yaxşı olacaqdır. Orada tikilən hava limanını hamı görür. Mən ona dedim ki, 1981-ci ildə biz o hava limanının əsasını qoyduq. Mən o illər Azərbaycanda müasir tələblərə uyğun yeni bir hava limanının tikilməsinə çalışırdım və mənim qərarım əsasında Moskvada layihələr hazırlandı, bizim memarlar işlədilər. O layihələrə bir neçə dəfə baxdıq. 1981-ci ildə onun əsasını qoyduq. Ancaq baxın, neçə illər keçdi, o tikilmədi. Görünür ki, onun əsasını mən qoyduğuma görə, böyük bir fasilədən sonar onu mən də axıra çatdırmalıyam. 1999-cu ildə biz onu mütləq istifadəyə verəcəyik. İndi Azərbaycan bütün dünya ilə hava xətləri ilə birləşibdir. Lazımdır ki, bu hava xətlərindən, hava yollarından istifadə edən hər bir şəxs – Azərbaycan vətəndaşı, ya başqa hər bir ölkənin vətəndaşı bizim hava limanında yaxşı, müasir şəraitə uyğun olan imkanlardan istifadə edə bilsin. Ancaq bu gün üçün də bizim o şərab salonunun təmir olunması və müasirləşdirilməsi qonaqlara müsbət təsir bağışladı. Siz nümayəndə heyətlərinin çıxışlarını televiziya ilə izləyirdiniz, dinləyirdiniz. Sizə məlumdur ki, çıxış edənlərin əksəriyyəti həm Azərbaycanın bu konfransın keçirilməsi barədə təşəbbüsünü çox yüksək qiymətləndirmişlər, həm də konfransın işinin yaxşı təşkil olunmasını dəyərləndirmişlər. Bu, onların rəsmi bəyanatları idi. Ancaq şəxsi, mənimlə olan danışıqlarda, Azərbaycanın konfransda iştirak edən başqa nümayəndələri ilə danışıqlarda, o cümlədən nümayəndə

heyətlərinə təhkim olunmuş Azərbaycan Nazirlər Kabinetinin, Prezident Aparatının, nazirliklərin işçiləri ilə danışıqlarda hamısı çox böyük razılıq hissi ilə konfransın yaxşı təşkil olunmasını və keçirilməsini qeyd edirdilər. Bu da özü-özlüyündə bizim üçün çox əhəmiyyətlidir. Beləliklə, biz böyük bir imtahan verdik. Azərbaycanda 1998-ci ilin sentyabr ayında yüksək səviyyəli beynəlxalq konfrans keçirildi. Burada iştirak edənlər və iştirak etməyənlərin çoxu, bütün bu işlərə cəlb olunmuş insanlar – kiçik işçidən başlayaraq ayrı-ayrı məmurlara qədər hamı, şübhəsiz ki, Azərbaycanda belə bir konfransın keçirilməsi üçün səylərini qoymuşlar, hərə öz xidmətini, vətənpərvərliyini göstərmişdir, beləliklə də konfrans uğurla keçmiş, başa çatmışdır. Şübhəsiz ki, bu işlərin bilavasitə rəhbərləri var idi. Mən qeyd etdim ki, komissiya təşkil olunmuşdu. Mənim sərəncamımla hələ iyun ayında yaradılmış komissiyaya Baş nazir Artur Rasizadə rəhbərlik edirdi. Komissiya sədrinin başçılığı ilə komissiya üzvlərinin hamısı çox iş görüblər. Ona görə də mən komissiyanın sədri, Baş nazir Artur Rasizadəyə və komissiyanın bütün üzvlərinə təşəkkür edirəm. Komissiyanın üzvlərindən Abid Şərifovun da xidmətini xüsusi qeyd edirəm. Çünki Baş nazirdən əlavə, TRASEKA proqramı ilə bizim Nazirlər Kabinetində o məşğul olmuşdur, bütün işçi qrupunun keçən görüşlərində iştirak etmişdir və Avropa Birliyi ilə bilavasitə əlaqələr saxlamışdır. Mən Abid Şərifovun xidmətini xüsusi qeyd edirəm. Təbiidir, bu komissiyanın üzvlərinin hərəsi öz sahəsini təmin edibdir və hər biri mənim təşəkkürümü alır. Amma komissiyanın üzvlərindən başqa, Prezident Aparatının işçiləri də çox işlər görmüşlər. Komissiyanın üzvü olaraq şəhər icra hakimiyyəti aparatı çox işlər görmüşdür. Bizim hüquq-mühafizə orqanları bu konfransın işinin təhlükəsizliyini və ictimai asayişi təmin etmək üçün çox işlər görmüşlər. Nümayəndə heyətlərinə təhkim olunmuş şəxslər

də öz vəzifəsini yerinə yetirmişlər. Bu gün buraya dəvət olunanların hər biri bu və ya digər miqdarda, səviyyədə bu işlərdə iştirak etmişdir. Ona görə də mən konfransın hazırlanmasında, keçirilməsində iştirak etmiş bütün şəxslərə təşəkkür edirəm və hamını bu konfransın uğurlu keçməsi münasibətilə təbrik edirəm. Konfransın Azərbaycanda keçirilməsi ölkəmiz üçün tarixi bir hadisədir. Biz tariximizi yaxşı bilirik və ona görə də cəsarətlə demək olar ki, Azərbaycanın çoxəsrlik tarixində belə böyük beynəlxalq konfransın keçirilməsi ilk hadisədir. Doğrudur, keçmiş illərdə, xüsusən 60-70-80-ci illərdə Azərbaycanda bir çox böyük tədbirlər keçirilibdir. Onların əksəriyyəti Sovet İttifaqı respublikaları çərçivəsində olubdur. Respublikamızda bəzi beynəlxalq tədbirlər də keçirilibdir. Onlar da ya bəzi sosialist ölkələrinin iştirakı ilə, ya da bəzi beynəlxalq fəhlə hərəkatı, yaxud kommunist hərəkatı təşkilatlarının iştirakı ilə keçirilibdir. Onların heç biri yüksək dövlət səviyyəsində olmayıbdır. Mən bir də deyirəm və qətiyyətlə, cəsarətlə deyirəm ki, tarixə nəzər salarkən Azərbaycan Respublikasının, dövlətinin, ölkəsinin tarixində bu, ilk böyük beynəlxalq konfransdır. Biz bunu yüksək qiymətləndirməliyik və bu, Azərbaycan xalqının, dövlətinin böyük nailiyyəti kimi qiymətləndirilməlidir. Beynəlxalq konfransın Azərbaycanda keçirilməsi Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsini, inkişaf etməsini və beynəlxalq aləmdə tamamilə tanınmasını nümayiş etdirir. Bu bizim müstəqilliyimizin, suverenliyimizin rəmzidir. Biz müstəqil dövlət kimi Bakıda 32 dövlətin nümayəndə heyətlərini qəbul etdik və dünyanın böyük bir hissəsini əhatə edən əraziyə məxsus böyük bir proqramın – tarixi İpək yolunun bərpası proqramının əsasını qoyduq. Bu, böyük tarixi hadisədir. Vətənini, torpağını, millətini, ölkəsini sevən hər bir azərbaycanlının, Azərbaycan vətəndaşının bu hadisə ilə fəxr etməyə əsası vardır və bununla hər bir adam fəxr edə bilər.

Çünki bu, bizim millətimizin, ölkəmizin, dövlətimizin adıdır. Biz Azərbaycanda dövlət müstəqilliyi əldə edəndən sonar ağır yollar keçmişik və yolumuz bu gün də asan deyildir. Bizim ən birinci vəzifəmiz o olubdur ki, Azərbaycanı dünyada olduğu kimi tanıdaq. Bu, müstəqilliyini əldə edən hər bir ölkə üçün əsas vəzifədir. Amma bu, bizim üçün qat-qat mühüm vəzifə idi. Ona görə ki, Azərbaycan dövlət müstəqilliyini əldə edərkən artıq Ermənistanla Azərbaycan arasında üç ildən artıq idi münaqişə gedirdi. Ermənistan və ermənilərin dünyadakı diasporu, lobbisi bu münaqişədə Azərbaycanı günahlandırmışdı. Azərbaycan haqqında demək olar ki, dünyanın bütün ölkələrində çox mənfi fikir yaranmışdı. Təkcə bütün ölkələrdə deyil, Sovetlər İttifaqında da, Moskvada da, yəni biz o vaxtlar tərkibində olduğumuz ölkədə də belə bir əhval-ruhiyyə var idi ki, guya Qarabağ münaqişəsinin yaranmasında günahkar Azərbaycandır. Xatırlayın, hətta bizim özümüzün içimizdə olan bəzi azərbaycanlılar da ermənilərin bu fikrini gücləndirirdilər. 1988-ci ildə Moskvada nə yazılar gedirdi? Bu münaqişə nə üçün başlandı? Çünki Azərbaycan rəhbərliyi və xüsusən, o vaxtlar təqib altında olan, təcrid vəziyyətində yaşayan Heydər Əliyev, Azərbaycanın keçmiş rəhbəri guya erməniləri Azərbaycanda əzibdir və Dağlıq Qarabağa ögey münasibət göstərilibdir. Guya Dağlıq Qarabağ Azərbaycanın tərkibində olarkən inkişaf edə bilməyibdir, ona görə də ermənilər boğaza yığılıblar və indi Azərbaycanın tərkibindən çıxıb Ermənistanın tərkibinə keçmək istəyirlər. Guya bunların da əsası var, çünki bunlara ögey münasibət göstərilibdir, guya bunun da günahkarı Heydər Əliyevdir. Siz bu yazıları, sözləri xatırlayırsınız. Bunu Moskvada təkcə Azərbaycana düşmən olan adamlar demirdilər, bunu burada bəzi azərbaycanlılar da deyirdilər. Azərbaycanın o vaxtkı rəhbərləri bunu Moskvada tribunalardan deyirdilər. Onlar kimə xidmət ediblər? Öz şəxsi ambis-

siyalarını həyata keçirmək üçün, şəxsi mənfur məqsədlərinə nail olmaq üçün xalqı, milləti ləkələyirdilər. Mən o vaxt bir neçə yerə məlumat verdim ki, bunlar yalandır. Sənədlər çıxardım ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində ümumazərbaycan səviyyəsindən üç dəfə artıq inkişaf edibdir. Bütün illərdə, elə 20-ci illərdən başlayaraq, o cümlədən 70-ci illərdə. Rəqəmlər var idi, statistika var idi. Amma o statistikaya baxan yox idi. Həmin vaxt onlara lazım idi ki, Azərbaycanı günahlandırsınlar və Azərbaycanı günahlandırdılar, ləkələdilər. Beləliklə, həm Sovetlər İttifaqında, Moskvada belə bir fikir yarandı və həm də erməni diasporu bütün dünyada bu fikri yaratdı ki, guya bu münaqişədə Azərbaycan günahkardır. Ona görə də mən deyirəm ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən biz çalışmışıq, məqsədimiz ondan ibarət olub ki, bax, bu mənfi fikri dağıdaq, Azərbaycanı azad, müstəqil, sivilizasiyalı bir ölkə kimi göstərək. Erməni diasporunun dediyi kimi yox. Onlar deyirlər ki, "Azərbaycanlılar vəhşidirlər, köçəridirlər, bu, millət deyil" və sairə. Siz bunları unutmusunuzmu? Bu yazılar hər yerdə yazılırdı. Bizi, azərbaycanlıları təhqir edirdilər. Bu fikir beynəlxalq aləmdə çoxlarının beyninə girmişdi. Son beş ildə bizim apardığımız siyasət, görülən işlər, saysızhesabsız görüşlər, xarici ölkələrə səfərlər, Azərbaycana gələn nümayəndələrlə görüşlər, beynəlxalq təşkilatlarda gur sözlər deməyimiz nəticəsində Azərbaycan haqqında fikir dəyişilmişdir. Mən konfransdan sonra, sentyabrın 8-də qonaqları yola salandan sonra axşam saat təxminən 8-9 idi. Gəldim Prezident sarayında Yaponiyanın nümayəndəsini qəbul etdim. O, çox xahiş edirdi ki, mən onu qəbul edim, çünki o, gecə vətəninə yola düşəcəkdi. Yaponiyanın Baş naziri cənab Obutinin məktubunu mənə təqdim etmək istəyirdi. O, fevral ayında mən Yaponiyada rəsmi səfərdə olduğum zaman keçirilən görüşlərdə iştirak etmişdi. Öz təəssüratlarını söyləyir və

Yaponiya ictimaiyyətinin Azərbaycan haqqında fikirləri barəsində danışırdı. Deyirdi siz Yaponiyada olduğunuz zaman o qədər görüşlər keçirdiniz, danışıqlar apardınız ki, ölkəmizdə belə təəssürat yarandı ki, Yaponiyaya gəlmiş heç bir dövlət başçısı öz ölkəsini bu qədər geniş açmamış, təbliğ etməmişdir. Bu, onun dediyi sözlərdir. Siz məni düzgün başa düşün, mən bunu deyirəm ona görə yox ki, sizə özüm haqqımda bir şey çatdırım. Mənim buna ehtiyacım yoxdur. Bilirsiniz, ona görə ki, bəli, Yaponiyada bizi tanımırdılar. Biz Azərbaycanı Yaponiyada da tanıtdıq və çox yaxşı tanıtdıq. İndi nə qədər Yaponiya şirkətləri gəlib Azərbaycanda işləyirlər və nə qədəri də gəlmək istəyir. Sentyabrın 8-də axşam həmin nümayəndə heyətinin başçısı bu sözləri mənə dedi. Beləliklə, bu beynəlxalq konfrans indiyə qədər görülən işlərə demək olar ki, yekun vurdu. O mənada ki, ayrı-ayrı ölkələrə səfərlər zamanı gördüyümüz işlərlə, yaxud ayrı-ayrı ölkə başçılarının, nümayəndələrin Azərbaycana gəldiyi zaman gördüyümüz işlərlə, bizim nümayəndələrin ayrı-ayrı ölkələrə, beynəlxalq təşkilatlara getdiyi zaman gördüyümüz işlərlə bərabər və onların məntiqi nəticəsi olaraq indi 32 dövlətin nümayəndələri, 13 beynəlxalq təşkilatın nümayəndələri bir gündə, bir zamanda, bir yerdə Azərbaycanda toplaşıb respublikamızın bu gününü gördülər. Bu, Azərbaycanı tanıtmaq, müstəqil dövlət kimi göstərmək üçün ən gözəl bir vasitə idi və biz bunu göstərdik, bu, Azərbaycanın müstəqilliyinə xidmət edən və onu daha da təsdiq edən bir tədbir idi və biz bu tədbiri həyata keçirməyə nail olduq. Şübhəsiz ki, hər bir təəssürat yayılır və yayılacaqdır. Mən dedim, – konfransda 20 ölkənin kütləvi informasiya orqanlarının 210 nümayəndəsi iştirak etmişdir. Yazılar yazılacaqdır. Bunlar artıq yazılır. Bir çox ölkələrin qəzetlərində məqalələr dərc olunur. Bunlar davam edəcəkdir. Beləliklə, Azərbaycan dünyaya müstəqil dövlət, azad, demokratik ölkə kimi göstərilir. Mən bir faktı da sizə demək

istəyirəm. Biz bazar iqtisadiyyatını inkişaf etdiririk. Bakıya gələn prezidentlər şəhərin mərkəzində tikilmiş ofis-otel kompleksində yaşadılar. Biz Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Süleyman Dəmirəl ilə bərabər həmin ofis-otel kompleksinin açılış mərasimini keçirdik. Bu şəxsi biznesin meydana gətirdiyi bir kompleksdir. Bu bazar iqtisadiyyatının real nəticəsidir, Azərbaycanda azad sahibkarlığın real nəticəsidir. Sentyabrın 7-də mən dövlət başçılarına və nümayəndə heyətlərinin rəhbərlərinə qəbul verdim. O qəbul yenə də özəl sektor tərəfindən "Ramstor"un yanında tikilmiş Bakı Əyləncə Mərkəzində verildi. O da özəl sektorun, sahibkarlığın Azərbaycanda verdiyi nəticədir. Siz bunu bilirsiniz. Ancaq mən sizə deməliyəm ki, məsələn, Bakıya gələn ölkə prezidentləri ilə birlikdə idim. Onlar bu oteldə qaldılar. Onlara deyəndə ki, bu otel dövlətin deyildir, özəl sektora məxsusdur, həmin o qəbul verdiyim yer də dövlətin, hökumətin deyildir, özəl sektora məxsusdur, onlar məəttəl qaldılar. Yəni mən Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin prezidentlərini deyirəm. Şübhəsiz ki, bizim dostumuz Süleyman Dəmirəl də buna çox sevindi ki, burada həm özəl sektor yaranır və artıq yaranıbdır, həm də bu özəl sektorun yaranmasında Türkiyənin inşaat şirkətləri də iştirak edirlər. Bunun özü də böyük bir təsir bağışlayır ki, həqiqətən Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir. Bilirsiniz, bu, adi bir hal deyildir. Şəhərin mərkəzində 17 mərtəbəli ofis-otel kompleksi tikilibdir. Bunu da özəl sektor yaradıbdır. Demək, bu, bazar iqtisadiyyatının əməli nəticəsidir və bunun dönməzliyidir. Bəli, bu, xarici sərmayə üçün inandırıcı bir haldır ki, Azərbaycanda şərait yaranıbdır. Hər bir sahibkar, sərmayədar gəlib sərmayə qoyub, iş görüb onun nəticəsini görə bilər. Bu da nümayiş olundu. Ən nəhayət, Bakının bugünkü görünüşü, əhval-ruhiyyəsi, insanların vəziyyəti. Mən yenə də dostum Süleyman Dəmirəlin sözlərini xatırlatmaq istəyi-

rəm. Deyəsən o, 16-cı mərtbədə yaşayırdı. Bakı, Xəzər dənizi oradan çox gözəl görünür. Deyir, mən səhər durub baxdım ki, insanlar gedirlər. Hələ səhər erkən adamlar az idi. Sonra yavaş-yavaş insanlar, uşaqlar çoxaldı və oradakı parka gəlib, oturub istirahət edirdilər. Deyir ki, mən yanımda olan adamlara söylədim ki, baxın, Heydər Əliyevin Azərbaycanda yaratdığı sakitlik, sabitlik budur, – insanlar rahat gəzirlər, istirahət edirlər. O, oradan bunların hamısını müşahidə etmişdi, görmüşdü, öz təəssüratlarını mənə deyirdi. Amma bu, yeganə təəssürat deyildir. Belə bir təəssürat hamısında var idi. Yəni bu gün Azərbaycan demokratik yolla, sərbəst iqtisadiyyat yolu ilə gedən azad bir ölkə kimi göz qabağındadır və Azərbaycanın, Bakının bugünkü mənzərəsi, görünüşü respublikamıza gələn həm dövlət başçıları, həm başqa nümayəndələr, həm də nümayəndə heyətlərinin üzvləri üçün açıq-aydındır. Beləliklə, biz Azərbaycanı göstərdik. Yəni beş-altı il bundan öncə Azərbaycan haqqında olan fikri və bu gün Azərbaycan haqqında olan fikri göstərdik. Əgər o fikir kənarda Azərbaycan haqqında cürbəcür böhtanlar əsasında yaranmışdısa, bu fikir isə Azərbaycanın bugünkü gerçəkliyi və görünüşü əsasında yaranır. Həm ictimai-siyasi vəziyyət, sabitlik, həm də qurulmuş infrastruktur zəminində yaranır. Bilirsiniz ki, Bakı həmişə gözəl şəhər olubdur. Mən yenə də Süleyman Dəmirəlin sözünə qayıdıram. O deyir ki, nümayəndə heyətimizə bildirdim ki, xatirinizdədirmi, mən 1991-ci ildə Bakıya gələndə nələr var idi. İndi görün, Azərbaycan nə yerdədir, nə vəziyyətdədir. Bəli, 1991-ci ildə buraya gələn adam o vaxt gördüyü ilə indi gördüyü arasında nə qədər fərq olduğunu söyləyir. Bunu dərhal görmək mümkün olur. Beləliklə, bu konfrans bizə belə bir böyük imkan da verdi və biz bundan istifadə edərək bundan sonra da Azərbaycanın həqiqətlərini, bugünkü reallığını, gerçəkliyini hər yerdə, hər ölkədə göstərməliyik, yaymalıyıq, təbliğ

etməliyik. Bu, ona görə lazımdır ki, bizi daha da tanısınlar. Bir də ona görə lazımdır ki, Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar Azərbaycan haqqında yaranmış mənfi fikirləri biz gərək tamamilə ləğv edək və konfransın keçirilməsi bunun üçün çox böyük vasitə olmuşdur. Konfransın işi, onun nəticələri, hesab edirəm ki, bundan sonra da təhlil və təbliğ olunmalıdır. Konfransa hazırlığın Azərbaycan ictimaiyyəti üçün bir əhəmiyyəti də ondan ibarətdir ki, Azərbaycanda ictimaiyyət tarixi İpək yolunun nə olduğunu bildi. Bəlkə də ayrı-ayrı insanlarda İpək yolu haqqında çox az məlumat var idi, amma indi İpək yolu ictimaiyyətimiz üçün açıldı. Məsələn, təsəvvür edin, bu konfransın hazırlanması Azərbaycanda İpək yoluna həsr olunmuş nə qədər elmi konfransların keçirilməsinə səbəb oldu. Elmi araşdırmalar aparılır, kitablar yazılır. Artıq "İpək yolu" jumalı çıxır, gərək ki, onun iki nömrəsi çıxıbdır. Qəzet nəşr olunur. Onlar ingilis dilində də çap olundu, nümayəndə heyətlərinə də verildi. Yaxud, bizim Prezident Aparatının humanitar siyasət şöbəsi İpək yoluna həsr olunmuş bir yaxşı kitab hazırladı. Orada çox gözəl tarixi xəritələr, materiallar toplandı və gələn nümayəndələrin hamısına verildi. Mən sizə demişdim, o kitabın tirajını artırmaq lazımdır və ümumiyyətlə, yaymaq lazımdır. Çünki o kitabda Azərbaycanın və İpək yolunun keçmiş, tarixi xəritələri vardır. Onları, ola bilsin ki, ayrı-ayrı alimlər, tədqiqatçılar bilirlər. Amma bizim ictimaiyyət bilmir. Ancaq bunu bilmək lazımdır. Çünkı artıq yeni proqram meydana çıxıbdır və o proqram da bundan sonar illər boyu həyata keçiriləcəkdir. Yəni konfransa qədər çox işlər görülmüşdür. Amma hesab edirəm ki, indi, konfransdan sonra bizim alimlərimiz, tədqiqatçılarımız bu sahədə daha çox işlər görə bilərlər, kitablar, elmi əsərlər yaza bilərlər, bu məsələni dərindən tədqiq edə bilərlər və konfransın nəticələrini təhlil edə bilərlər. Ona görə də konfransın nəticələri, imza-

lanmış sənədlər geniş təbliğ olunmalıdır, onun mahiyyəti, mənası ictimaiyyətə çatdırılmalıdır və bu barədə mütəmadi iş aparılmalıdır. Güman edirəm ki, bu tədbirlər hazırlanan sənədlərdə öz əksini tapacaqdır. Ancaq mən indidən bunu deyirəm ki, bizim müvafiq elmi təşkilatlar, dövlət orqanları bu məsələlərlə ciddi məşğul olsunlar. Tarixi İpək yolunun bərpası ilə əlaqədar keçirilmiş Bakı Beynəlxalq konfransı XXI əsr üçün yeni böyük bir proqram açdı. İndi dünyada son 10 ildə baş vermiş dəyişikliklərlə əlaqədar bir neçə proqram yaranıbdır. Bu proqramların bəzisi regional xarakter daşıyır, bəzisi bir neçə regionu birləşdirir. Hər birinin özünəməxsus əhəmiyyəti vardır. Biz Avropa Birliyi ilə birgə yeni böyük bir proqram irəli sürdük. Bu proqram isə Avropanın Asiya ilə birləşməsi və burada Qafqazın, o cümlədən xüsusən Azərbaycanın rolu və əhəmiyyətidir. Güman edirəm ki, XXI əsrdə bu proqram genişlənəcək, inkişaf edəcəkdir. Ancaq biz XXI əsrə doğru gedərək həm ölkəmiz, həm regionumuz, həm də bəşəriyyət üçün yeni bir proqramın irəli sürülməsinin iştirakçısıyıq və bununla əlaqədar keçirilən konfransın təşkilatçısıyıq. Biz çalışmalıyıq ki, bundan sonra da öz rolumuzu göstərə bilək. Konfransın yekunlarından biri də ondan ibarətdir ki, proqramın həyata keçirilməsi üçün daimi katiblik yaradılıb və daimi katibliyin də Bakıda yerləşməsi qərara alınıbdır. Mən deməliyəm ki, bu qərar da asanlıqla qəbul olunmayıbdır. Çünki bu proqramda iştirak edən bir neçə başqa ölkələr də arzu edirdilər ki, katiblik onların ölkəsində yerləşsin. Bu qərarın da əhəmiyyətinin nədən ibarət olduğunu izah etməyə ehtiyac yoxdur. Ancaq bizim gördüyümüz işə qiymət verildiyinə görə və bizim səylərimiz nəticəsində sazişi imzalayan əsas ölkələrin hamısı razı oldular ki, birincisi, katiblik təsis olunsun, ikincisi də bu katiblik Bakıda, Azərbaycanda yerləşsin. Bu, konfransın yekunu olaraq bizə göstərilən böyük etimaddır, qayğıdır. Beləliklə, biz bu

proqramın həyata keçirilməsi barəsində öz üzərimizə böyük məsuliyyət götürmüşük. Təsəvvür edin, indi dünyada belə proqramlar çoxdur. Məsələn, Qara dəniz hövzəsi dövlətlərinin İqtisadi Əməkdaşlıq Təşkilatı vardır, onun katibliyi İstanbulda yerləşir. Bu da təbiidir. Çünki vaxtilə, 1992-ci ildə Türkiyənin Baş naziri Süleyman Dəmirəlin təşəbbüsü ilə belə bir təşkilat yaranıbdır. Yaxud İqtisadi Əməkdaşlıq təşkilatı vardır, onun katibliyi Tehranda yerləşir. Bu da məlumdur. Başqa belə təşkilatlar vardır və onların katibliyi ayrı-ayrı ölkələrdə yerləşir. Ancaq Böyük İpək yolu, Avropanı və Asiyanı bir-birinə bağlayan, birləşdirən proqramı həyata keçirən təşkilatın katibliyi Azərbaycanda yerləşir. Bir də qeyd edirəm, bu, bizə göstərilən böyük etimaddır və bizə bu proqramın həyata keçirilməsi sahəsində səy göstərmək üçün imkanlar yaradıbdır. Biz bunu da qiymətləndirməliyik və bu etimadı doğrultmağa çalışmalıyıq. Beləliklə, bizim Avropa Birliyi ilə uğurlu əməkdaşlığımızın nəticəsində, TRASEKA proqramına qəbul olunmuş ölkələrlə əməkdaşlığımızın nəticəsində və bu sahədə göstərdiyimiz təşəbbüslərin nəticəsində Azərbaycanda böyük beynəlxalq konfrans keçirildi və biz də bu gün bunun nəticələrini görürük. Mən sizi və bütün Azərbaycan xalqını, vətəndaşlarını bu böyük və tarixi hadisə münasibətilə bir daha təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, biz bu proqramın həyata keçirilməsi üçün dəyərli işlər görəcəyik və bu vasitə ilə Avropa ilə Asiya arasında olan inteqrasiya prosesinə öz xidmətimizi göstərəcəyik, Azərbaycanın Avropa-Asiya əməkdaşlığında daha da əhəmiyyətli rolunu təsdiq edəcəyik. Mən əminəm ki, biz bundan sonra da beynəlxalq aləmdə Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin əhəmiyyətini nümayiş etdirəcək və respublikamızı azad, sərbəst, müstəqil ölkə, dövlət kimi bundan sonra da irəliyə

aparacağıq. Mənim sizə çatdıracağım sözlər bundan ibarətdir. Bugünkü müşavirənin də məqsədi beynəlxalq konfransın yekunları haqqında mülahizələrimi sizə çatdırmaqdan ibarətdir. Sizin mənə bir sözünüz varmı? Varsa, buyurun. Sualınız, başa düşülməyən heç bir məsələ yoxdur ki, hər şey aydındırmı?

**Artur Rasizadə:** Cənab prezident, komissiyanın ünvanına dediyiniz xoş sözlərə görə Sizə təşəkkür edirəm. Əsas həqiqət ondan ibarətdir ki, beynəlxalq konfransın hazırlanması, keçirilməsi, orada qəbul olunmuş sənədlər ilk növbədə Sizin uğurunuzdur. Bu beynəlxalq konfrans Sizin adınızla bağlıdır. Səkkiz ölkənin prezidentlərinin də Azərbaycana gəlməsi onların Sizə olan hörmətinin və apardığınız siyasətin nəticəsidir. Cənab prezident, bütün bunlara görə Sizi bir daha ürəkdən təbrik edirik. Sizi əmin edirik ki, qarşımızda qoyduğunuz vəzifələrin yerinə yetirilməsi üçün gecə-gündüz çalışacağıq. Cənab prezident, bugünkü müşavirədə iştirak edənlərin hamısının adından Sizə minnətdarlığımı bildirirəm. Yenə də təkrar edirəm, bu beynəlxalq konfrans Sizin adınızla bağlıdır. Möhtərəm prezident, Siz bu konfransın hazırlanmasında və keçirilməsində bizim rastlaşdığımız çətinliklər haqqında danışdınız. Doğrudan da, bu beynəlxalq konfransın başqa ölkələrdə keçirilməsi məsələsi qarşıya çıxmışdı. Cənab prezident, məhz Siz konfransın Bakıda keçirilməsinə nail oldunuz. Hər bir xırda və böyük məsələ cənab prezidentin nəzarəti altında idi. Bunun nəticəsində konfrans həqiqətən də çox böyük uğurla başa çatdı. Cənab prezident, Sizə təşəkkür edirəm və minnətdarlığımızı bildirirəm. Bir daha deyirəm ki, bu beynəlxalq konfransın Bakıda keçirilməsi Sizin adınızla, şəxsiyyətinizlə bağlıdır. Çox sağ olun.

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasının yaranmasının 50-ci ildönümü münasibətilə rəsmi qəbuldakı nitqi – 30 sentyabr 1999-cu il

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Hörmətli cənab səfir! Hörmətli xanımlar və cənablar! Sizi Çin Xalq Respublikasının milli bayramı – Çin Xalq Respublikası yaradılmasının 50 illiyi münasibətilə ürəkdən təbrik edirəm. Böyük Çin xalqına sülh, əmin-amanlıq və xoşbəxtlik arzulayıram. Təəssüflənirəm ki, tərcüməçimiz yoxdur və buna görə də möhtərəm səfir rus dilində çıxış etdi. Çin Xalq Respublikasına və onun Azərbaycandakı möhtərəm səfirinə hörmət edərək, mən öz sözümü rus dilində davam etdirəcəyəm. 50 il öncə Çin torpağında olduqca böyük tarixi əhəmiyyətə malik hadisə baş vermişdir. Çinin çox zəngin, çox qədim tarixi var. Bunların hamısı bütün dünyaya, o cümlədən bizə, azərbaycanlılara yaxşı məlumdur. Amma 1949-cu ildə baş vermiş hadisə hər şeyi köklü surətdə dəyişdirmiş və Çin xalqı özünün seçdiyi yol ilə, yəni müstəqil, qeyri-asılı siyasət yeritmək, öz ölkəsinin inkişafı ilə məşğul olmaq, öz xalqı üçün daha yaxşı şəraiti təmin etmək yolu ilə getmişdir. Cənab səfir öz nitqində Çin xalqının ötən 50 ildə və xüsusən son 20 ildə qazandığı böyük nailiyyətlərə dair çox inandırıcı, təsirli rəqəmlər və faktlar gətirdi. Biz hər bir xalqın seçdiyi yola böyük hörmətlə yanaşırıq. Xalqın seçdiyi yol onun işidir. Biz hesab edirik ki, buna heç kim və heç vaxt kənardan qarışmamalıdır. Buna görə də Çin xalqının

seçdiyi yol Çinin milli maraqlarına və ənənələrinə tam uyğundur və təbii ki, bütün dünyada, o cümlədən Azərbaycanda hörmət və təqdirə malikdir. Son illərdə Çin xalqı iqtisadi və sosial islahatları həyata keçirərək böyük uğurlara nail olmuşdur. Hazırda bütün dünyada yenidənqurma, inkişaf prosesi gedir. Geridə qalan ölkələr başqa ölkələrlə ayaqlaşmaq istəyirlər. İqtisadi cəhətdən inkişaf etmiş ölkələr digər kiçik ölkələrə kömək və dəstək göstərməyə çalışırlar. Dövlət müstəqilliyini bu yaxınlarda əldə etmiş ölkələr öz inkişaf yolunu – məşəqqətli, çətin, amma bununla bərabər, düzgün olan yolu keçirlər. 50 ildə Çin xalqı özünün, bu ölkənin seçdiyi sistemin ideoloji prinsiplərə əsaslanaraq, öz həyat quruculuğunun çoxsaylı formalarını sınamışdır. Çinin son onillikdə apardığı islahatlar Çin üçün, məhz Çin üçün həqiqətən çox uğurlu, çox bəhrəli olmuşdur. Buna görə də çalışmaq lazım deyil ki, bütün ölkələrdə hər şey vahid model əsasında getsin. Çalışmaq lazım deyil ki, kiçik ölkələr böyük ölkələrin malik olduqları hər şeyi onlardan götürüb təqlid etsinlər. Çalışmaq lazım deyil ki, inkişaf etmiş ölkələrdə uğurlu idarəçiliyin, iqtisadi fəaliyyətin uğurlu nəticələr vermiş ayrı-ayrı formaları başqa ölkələrdə də elə bu cür tətbiq olunsun. Öz inkişafının müxtəlif mərhələlərində, səviyyələrində olan ölkələr dünyada çoxdur. Təbiidir ki, hər bir ölkə öz inkişaf yolunu buna uyğun olaraq qurur və qurmalıdır. Buna heç kim qarışmamalıdır. Bax, bu baxımdan Çin öz müstəqilliyinə nail olmuşdur. Mən bu sözü daha geniş anlamda deyirəm. Yəni, Çin həmişə böyük dövlət olmuşdur. Lakin 1949-cu ildən sonra Çinin suverenliyi və müstəqilliyi Çin xalqının müasir maraqlarına cavab verən yeni forma kəsb etmişdir. Ancaq Çin oraya ixrac olunanları təqlid etməyə başlamamışdır, öz yolu – milli maraqlara, üstünlük verilən milli cəhətlərə uyğun gələn islahatlar yolu ilə getmiş və nəticələrə nail olmuşdur. Çin Xalq Respublikasının 50 illiyi günündə Çin

xalqını bu böyük uğurlar münasibətilə ürəkdən təbrik edirəm və Çin Xalq Respublikasının rəhbərliyinə, Çin Xalq Respublikasının sədri hörmətli Tszyan Tszeminə bu yolda yeni-yeni uğurlar arzulayıram. Böyük məmnunluqla demək olar ki, Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra Çin Xalq Respublikası ilə ölkəmiz arasında dostluq münasibətləri yaranmışdır. Biz bunu çox qiymətləndirir, buna böyük əhəmiyyət veririk. Biz bunu istəyirdik və indi buna malikik. Bəli, ölkələrimiz coğrafi baxımdan bir-birindən uzaqdır. Lakin orta əsrlərdə və daha əvvəllər İpək Yolu Çindən, Yaponiyadan tutmuş Avropanın ən ucqar nöqtəsinədək bu yolun üstündə yerləşən bütün ölkələri birləşdirirdisə, indi - XX əsrin sona yetdiyi, bəşəriyyətin texnika sahəsində çox böyük tərəqqiyə nail olduğu dövrdə bu məsafənin heç bir əhəmiyyəti yoxdur. Əməkdaşlığımızı uğurlu hesab edirəm. Əlbəttə, biz istərdik ki, əməkdaşlığımız daha səmərəli olsun. Biz buna çalışırıq. Deyə bilərəm ki, Çin Xalq Respublikası tərəfindən də bu cür istək olduğunu hiss edirik. Amma razılaşmaq lazımdır ki, hər şey birdənbirə hasil olmur. Bundan ötrü vaxt gərəkdir. Belə düşünürəm ki, zaman, şübhəsiz, bizim əməkdaşlığımızın daha sıx və yaxın olmasına xidmət edəcəkdir. Çində, Pekində artıq çoxdan Azərbaycan səfirliyinin olması sübut edir ki, Azərbaycan Çin Xalq Respublikası ilə dostluq münasibətləri saxlamaq istəyir. Məlumdur ki, gənc dövlət olan Azərbaycanın bütün ölkələrdə, dünya ölkələrinin əksəriyyətində səfirliyə malik olmaq üçün böyük vəsaiti və imkanları yoxdur. Biz bunu çox istəyirik, amma imkanlar yol vermir. Ancaq belə bir şəraitdə biz hələ beş il, hətta altı il əvvəl Çində Azərbaycanın səfirliyini açmaq haqqında qərar qəbul etdik, nəzərə alırdıq ki, bu, uğurlu əməkdaşlığımıza təkan verəcəkdir. Xoşdur ki, Çin Xalq Respublikası da Azərbaycana diqqət göstərərək, burada öz səfirliyini açmışdır. Bu səfirlik çoxdan və müvəffəqiyyətlə

fəaliyyət göstərir. Bütün bunlar bir daha və bir daha onu göstərir ki, biz əməkdaşlıq edirik və edəcəyik. Cənab səfir, sizin kimi, biz də hesab edirik ki, hər bir ölkə – həm çox böyük, həm də kiçik ölkə öz yolu ilə getməli, bütün digər ölkələrin, o cümlədən Çinin yoluna hörmət etməlidir. Buna görə də arzu edirik ki, bizə də bu cür hörmətlə yanaşsınlar. Ərazi bütövlüyü prinsipi ən mühüm məsələdir və siz, cənab səfir, onu xatırlatdınız. Bu, bizim məsələmiz deyildir, sizin məsələniz deyildir. Bu, beynəlxalq hüququn məsələsidir, Birləşmiş Millətlər Təşkilatının əsas prinsiplərindən biridir. Ona görə də biz istəyirik ki, hər bir ölkənin, – bizim ona münasibətimizdən asılı olmayaraq, – öz ərazi bütövlüyünü, ərazi toxunulmazlığını saxlamağa imkanı olsun. Biz bunu Çinə də arzulayırıq və çalışırıq ki, Azərbaycanın da ərazi bütövlüyü saxlanılsın və möhkəmlənsin. Erməni silahlı birləşmələri tərəfindən Azərbaycanın bəzi rayonlarının işğal olunması ilə əlaqədar 1992-1993-cü illərdə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr bizim yadımızdadır. Çin Xalq Respublikasının da daimi üzvü olduğu Təhlükəsizlik Şurasının bütün daimi üzvlərinin yekdilliklə qəbul etdikləri həmin qətnamələrdə Azərbaycanın işğal edilmiş ərazilərindən Ermənistan silahlı birləşmələrinin qeyd-şərtsiz çıxarılması nəzərdə tutulurdu. Amma təəssüf ki, bu qətnamələr yerinə yetirilməmiş qaldı. Bu gün biz Çinə minnətdarıq ki, o dövrdə Ermənistan silahlı birləşmələri tərəfindən Azərbaycan ərazisinin işğalı məsələsinin müzakirəsi zamanı Çin işğalçı qüvvələrin oradan qeyd-şərtsiz çıxarılmasının lehinə səs vermişdi. Bununla yanaşı, biz arzu edərdik ki, Çinin daimi üzvü və həlledici səsə malik olduğu Təhlükəsizlik Şurası öz qətnamələrinin, öz qərarlarının yerinə yetirilməsinə nail olsun. Təəssüflə demək olar ki, bu baxımdan Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında, görünür, çox şey çatışmır. İndiki halda mən bunu Təhlükəsizlik Şurasının bu və ya

digər üzvünə aid etmirəm, ümumən Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına öz münasibətimizi deyirəm. Biz hesab edirik ki, Çin də öz ərazi bütövlüyünü tamamilə bərpa etməlidir, eləcə də, zənnimcə, Çin Xalq Respublikası Azərbaycanın ərazi bütövlüyünün tamamilə bərpa olunması mövqelərində durur və durmalıdır. Mən 1994-cü ildə Çinə rəsmi səfərimi, çoxsaylı görüşləri və danışıqları, xüsusən də Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszemin ilə olan görüşümü və danışıqlarımı, imzaladığımız dövlətlərarası sənədləri, Şanxaya getməyimizi, islahatların gedişi ilə tanışlığı böyük səmimiyyətlə xatırlayıram. Bütün bunlar mənə çox böyük təsir bağışladı. Əlbəttə, Çinin tarixi, gedib görmək imkanına malik olduğum böyük Çin səddi güclü təsir bağışlayır. Bir sözlə, hesab edirəm ki, 1994-cü ildən sonra bizim aramızda daha sıx münasibətlər yaranmışdır. Mən bu münasibətləri qiymətləndirirəm. ÇXR sədri cənab Tszyan Tszeminlə mənim aramda yaranmış şəxsi münasibətləri qiymətləndirirəm və bu münasibətlərin müvəffəqiyyətlə inkişafı üçün hər şeyi edəcəyəm. Sizi bayram münasibətilə bir daha təbrik edirəm! Böyük Çin xalqına bir daha uğurlar, səadət, sülh və firavanlıq arzulayıram!

# 1999 年 9 月 30 日阿塞拜疆共和国总统盖达尔·阿利耶夫为庆祝中华人民共和国成立 50 周年国庆招待会上的演讲

尊敬的大使先生：尊敬的女士们，先生们：真诚的祝愿中华人民共和国成立 50 周年，祝愿伟大的中国人民和睦，安康，幸福。很遗憾我们没有翻译，所以尊敬的大使先生用俄语进行了演讲，尊敬的中华人民共和国和尊敬的中华人民共和国驻阿塞拜疆大使，我将用俄语来继续我的演讲。50 年前在中国的土地上发生了具有重大历史意义的事件。中国拥有非常丰富和古老的历史。全世界的人们特别是阿塞拜疆人更加明白这一点。在 1949 年发生的重大历史事件彻底改变了中国人民的一切和中国人民从此开始沿着自己选择的道路，开始了引导独立，自主政治，发展自己的国家，保障和改善人民的生活水平。在大使先生的演说词中引出了大量的很有说服力的数据和实例，来证明了关于中华人民共和国过去 50 年以来的，特别是近 20 年以来的重大成就。我们怀着极大的敬意来对待每一个人民的选择。人民的选择是人民的事情。我们认为无论是谁在任何时候都不应该从外界受到干涉。所以中国人民的选择完全符合中国民族利益和国家传统，自然的享有特别是阿塞拜疆和全世界人民的尊重和承认。最近这些年中国人民取得了极大的成就，实现了自己在经济和社会方面的改革。现在全世界处于变革和发展的过程当中。落后的国家想要和其他国家相比，国家经济的发展有待于其他国家的给予的支持和帮助，一些刚独立不久的国家正在走自己的发展道路这是不容易的，困难的事情，但是是值得信任的。中国人民在改善自己生活方面经过 50 年的很多改革，形成了在国家选择方面的意识形态的基础，成为了人民的制度。中国通过实现最近几十年的改革，的确显示了这些改革对中国来说是很成功的和富有成效的。所以，所有的国家不能按照一种模式发展。小国不能完全照搬大国所拥有的一切。管理委员会的单个改革，经济活动，在发展中国家得到成功的发展，直接的说这样是可以在一些国家被采用的。

在世界上有很多国家处于不同的阶段和自己发展的程度中。当然，根据这些每个国家的建设必须沿着自己的发展道路。这一点无论是谁都不能干涉 。在这个规划中中国就取得了独立。我说的这句话具有很宽泛的理解，中国一直是伟大的强国，一直在独立的国家之列。但是自从 1949 年之后中国获得了国家主权和独立的新形式，肩负着中国人民现代利益的责任。但是中国没有照搬和输出自己的道路思想，而是沿着自己的道路沿着改革之路，肩负着民族利益，民族优先的权利，取得了很多成果。在中华人民共和国 50 周年国庆日真心的祝愿中国人民取得巨大的成绩和祝愿中华人民共和国领导，尊敬的中华人民共和国主席江泽民在这条路上谱写新的篇章。可以很满意的说，在阿塞拜疆获得国家独立之后中国和阿塞拜疆之间建立了友好的关系。这个我们将给予很高的评价，赋予极大的意义。我们想要这个并且我们现在正在拥有这种友好关系。是，在地缘上我们的国家之间相距很远。但是如果在中世纪或者说更久远的丝绸之路说起，丝绸之路连接了所有的国家 ，这条路发源于中国和日本到欧洲最边缘的地方，直到 20 世纪末时，当人类在科技领域取得了辉煌的成绩之时，这种遥远的距离不具有任何意义。我认为，我们的合作很成功。当然，我们还想要使我们的合作更有成效。我们期待这样。我可以说，我们和中华人民共和国都有同样的期望。但是需要在一起协商，所有的方面都不一定马上取得成果。对于这个需要必要的时间。我想，时间，毫无疑问的都将会证明我们将会拥有更加紧密和亲近的合作。在中国的北京不久之前设立了阿塞拜疆驻华大使馆证明了阿塞拜疆想要和中国拥有友好的关系。众所周知，阿塞拜疆作为一个年轻的国家，由于国家经费的问题，不具有在全世界或者在世界上大多数国家都设立大使馆的可能性。我们非常想要这样但是不具有这样的可能性。但是就是在这样的条件下，我们早在 5/6 年前就通过了在中国设立大使馆的决议，我想指出的是，这将帮助我们取得更好的合作。让人愉悦的是，中华人民共和国对阿塞拜疆给予了关注，在这里早就设立了大使馆并且很好的在

履行自己的职能。所有的这一切还想再强调一遍的就是：″我们在合作和我们将要合作″。就这样和您大使先生，我们认为，每一个国家伟大的国家 ，强国，甚至弱国都必须走自己的道路，应该尊重其他国家所走的道路。我们祝愿我们的国家也能受到这样的尊重。领土完整的原则是重要的问题，大使先生提到： ″这不是我们的问题，也不是你们的问题，这是国际法的问题，这是联合国一项重要的基础性原则″。因此我们想要每个国家独立自主的处理我们和他们之间的关系，具有捍卫自己领土完整的可能性，领土不容侵犯。我们祝愿中国能取得领土的完整和我们阿塞拜疆捍卫和巩固了自己的领土。我们记得安全理事会决议，在 1992/1993 年通过了涉及亚美尼亚武力侵占阿塞拜疆一些区域领土的问题。在这些决议中所有安全理事国成员都已经达成一致，中国也是常任理事国，无条件的预见得出了亚美尼亚武力侵占阿塞拜疆领土的结论。但是，很遗憾，这些决议被没有被执行。今天我们因为在讨论亚美尼亚侵占阿塞拜疆领土的问题上，中国投了无条件军事占领的结论而向中国表示感谢。我们一起想要祝愿，安全理事会，作为常任理事国之一的中国，具有决定性的一票，取得执行自己的决议，自己的决定。很遗憾，可以说，在这个关系上联合国安全理事会，想必，在很多方面表现的还不足。在这种情况下我不认为那个或者别的安全理事会成员，讲关于我们在整体上和联合国安全理事会的关系。富有极大热情的回忆，在 1994 年去正式访问中国的情景，很多次的会面和谈判，特别是和中华人民共和国主席江泽民先生的会谈，签署了我们政府间的文件，访问了上海，了解了改革开放的进程。所有的这些都给我留下了极大的印象。当然，印象最深的是中国的历史，伟大的中国长城也让我十分的乐意的去到访。因此，我认为，自 1994 年我们之间建立紧密联系之后。我将对这些关系给予很好的肯定，肯定我和中华人民共和国主席江泽民先生的个人关系，我将为我们之间这些关系的成功发展尽其所能。再次祝您节日快乐！再次祝愿伟大的中华人民共和国取得巨大的成就，幸福，和平，安康！

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikasının nümayəndə heyəti ilə Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin Sədri Li Penin başçılıq etdiyi Çin Xalq Respublikasının nümayəndə heyəti arasında danışıqlardakı çıxışı – 23 iyun 2000-ci il

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

**Heydər Əliyev:** Cənab sədr, Çin Xalq Respublikasından gəlmiş hörmətli qonaqlar, dostlar! Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin sədri cənab Li Penin dünən Azərbaycana rəsmi səfəri başlanmışdır. Bu səfər mənim dəvətimlə həyata keçirilir və şadam ki, cənab Li Pen hələ 1994-cü ildə etdiyim dəvəti gerçəkləşdirməyə imkan tapmışdır və indi Azərbaycandadır, biz onunla ünsiyyətdə olmaq fürsətinə malikik. Cənab Li Pen, mən Sizi, nümayəndə heyətinizin üzvlərini Azərbaycanda səmimi salamlayıram və burada olmağımızdan böyük məmnunluq duyduğumu bildirirəm. Bilirəm ki, dünən parlamentimizdə görüşləriniz olubdur, Siz şəhərimizlə biraz tanış ola bilmisiniz. Bu gün bizim məhdud heyətdə çox maraqlı söhbətimiz oldu. Söhbət əsasən Çin-Azərbaycan münasibətlərinə aid idi, amma bununla yanaşı, biz tarixlə və müasir beynəlxalq vəziyyətlə bağlı bəzi məsələlərə də toxunduq. Çin dünyanın böyük ölkəsidir, onun zəngin tarixi mədəniyyəti, zəngin tarixi var və İndi iri bir dövlət olaraq çox böyük intellektual və iqtisadi potensiala malikdir, beynəlxalq həyatda

mühüm rol oynayır. Çin Xalq Respublikasının yaranması dünya miqyasında olduqca böyük tarixi əhəmiyyətə malik hadisə idi. Çin Xalq Respublikası 50 ildən çoxdur yaşayır, inkişaf edir və Çin getdikcə daha böyük uğurlar qazanır. Azərbaycan gənc müstəqil dövlətdir. Biz dövlət müstəqilliyini Sovetlər İttifaqının süqutu ilə əlaqədar 1991-ci ildə əldə etmişik və bunu öz xalqımız üçün tarixi hadisə bilirik. Biz həm Sovetlər İttifaqının süqutunu, həm də onun tərkibinə daxil olmuş bir çox xalqların, o cümlədən də Azərbaycan xalqının qazandığı azadlığı, müstəqilliyi tarixi hadisə hesab edirik. Biz müstəqil dövlətin təşəkkülü mərhələsini yaşayırıq, öz yolumuzla – demokratiya yolu ilə, iqtisadi islahatlar aparılması, dövlətçiliyimizin möhkəmləndirilməsi yolu ilə gedirik. İndi biz artıq inanırıq ki, Azərbaycan həmişə müstəqil dövlət olacaqdır. Biz dövlət müstəqilliyini həmişə qoruyacağıq və onun bir daha itirilməsinə heç zaman yol verməyəcəyik. Müstəqil dövlət olaraq Azərbaycan dünyanın bütün ölkələri ilə öz münasibətlərini sülhsevərlik, qarşılıqlı surətdə faydalılıq, əməkdaşlıq, dostluq şərtləri əsasında qurmağa çalışır. Həm də biz bu siyasətdə Çin Xalq Respublikası ilə münasibətlərimizə çox böyük əhəmiyyət veririk. Biz şadiq ki, Çin Azərbaycanın dövlət müstəqilliyi elan edilən kimi onu birincilər sırasında tanımış ölkələrdən biridir. O vaxtdan bəri bizim aramızda diplomatik münasibətlər yaradılmışdır. İndi Azərbaycanın Çində səfirliyi və Çinin Azərbaycanda səfirliyi var. Bu gün biz Çinin Azərbaycandakı səfirliyinin yeni daha doğrusu, ilk binasının bünövrəsini birlikdə qoyacağıq. Son illər münasibətlərimiz yüksələn xətt üzrə inkişaf edir. Mən 1994-cü ildə Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszemin dəvəti ilə Çinə rəsmi səfərə getdim. Cənab Tszyan Tszeminlə də, o vaxtlar Nazirlər Şurasının sədri, sadəcə desək, Baş nazir vəzifəsini tutan bizim hörmətli qonağımız cənab Li Penlə də yaxşı görüşlər, söhbətlər oldu. Bu

görüşlər, söhbətlər məndə dərin təəssürat doğurdu. Lakin Çinə səfərin özü, Çinin müasir həyatı ilə, xüsusən iqtisadiyyatın sürətli inkişafı ilə, Çinin özünün milli mənafelərini, özünün milli spesifikasını əsas tutaraq həyata keçirdiyi islahatlarla tanışlıq mənə böyük təsir bağışladı. Biz Şanxaya da getdik. Ən başlıcası isə, Çin səddində olduq və mən onun ən yüksək nöqtəsinə qalxdım. Deyirlər ki, onun ən yüksək nöqtəsinə qalxmaq heç də hamıya müyəssər olmur. Elə mənim bəzi yol yoldaşlarım da yarı yolda qaldılar. Amma mən qarşıma məqsəd qoydum və ona nail oldum. O vaxtdan, 1994-cü ildən bəri bizim münasibətlərimiz daha fəal olmuşdur. Bu gün biz hərtərəfli əməkdaşlıq, xüsusən iqtisadi əməkdaşlıq mövqeyində dururuq. Ancaq bununla bərabər, biz şübhəsiz ki, beynəlxalq hüquqa aid prinsipial məsələlərdə də bir-birimizi dəstəkləyirik. Belə prinsiplərdən biri hər hansı dövlətin ərazi bütövlüyü və onun sərhədlərinin pozulmazlığı prinsipidir. Məhz bu mühüm beynəlxalq prinsipdə Çinin də, Azərbaycanın da ciddi problemləri var. Bu, Çində Tayvan problemidir, cənab Li Pen, sizə ətraflı izah etdiyim kimi, Azərbaycan isə 1988-ci ildən Ermənistanın təcavüzündən – ölkəmizin ərazisinin bir hissəsi olan Dağlıq Qarabağı qoparmaq məqsədi ilə başladığı təcavüzdən əziyyət çəkir. Bu təcavüz müharibəyə gətirib çıxarıb və Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur, Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahli qüvvələrinin işğali altındadır və bir milyon azərbaycanlı öz yaşayış yerlərindən qovulub və onlar bütün Azərbaycan ərazisində məskunlaşıblar, böyük əksəriyyəti çadırlarda çox ağır şəraitdə yaşayır. Biz bütün beynəlxalq təşkilatlarda, beynəlxalq xarakterli bütün sənədlərdə Çin Xalq Respublikasının ərazi bütövlüyünü daim dəstəkləyirik, Tayvanın Çin Xalq Respublikasına tamamilə məxsus olduğunu və Çin Xalq Respublikasının öz torpağına olan hüququnu tanıyırıq. Mən sizə böyük minnətdarlıq hissi ilə bir

daha deyirəm ki, Çin, Çin Xalq Respublikası Azərbaycanın öz ərazi bütövlüyünə, sərhədlərinin pozulmazlığına olan hüququnu, yəni Ermənistanla Azərbaycan arasında münaqişədə Azərbaycanı tamamilə dəstəkləyir. Biz minnətdarıq ki, siz bu prinsipi daim müdafiə edirsiniz və bununla da öz ərazi bütövlüyümüzü bərpa etməkdə, işğal olunmuş ərazilərimizi Ermənistan silahli qüvvələrindən azad etməkdə, qaçqınları öz yaşayış yerlərinə qaytarmaqda və müstəqil Azərbaycanın Birləşmiş Millətər Təşkilatı tərəfindən müəyyənləşdirilmiş sərhədlərinin pozulmazlığına nail olmaqda bizə kömək göstərirsiniz. Mən Sizi bir daha salamlayır və sözü sizə verirəm.

**Li Pen:** Cənab Prezident, dəvətinizə görə, Azərbaycan Respublikasına gəlmək barədə sizin şəxsi dəvətinizə və Azərbaycan Respublikası parlamentinin dəvətinə görə çox sağ olun. Biz həmkarlarımızla çox razıyıq ki, buraya gələ və yeni Azərbaycana baxa bildik. 1991-ci ildə Sovet İttifaqı dağıldıqdan sonra Çin Azərbaycanın müstəqilliyini dərhal tanıdı və onunla diplomatik əlaqələr yaratdı. O vaxtdan bəri ikitərəfli münasibətlər kifayət qədər uğurla inkişaf edir. 1994-cü ildə cənab Əliyev Çinə rəsmi səfərə gəldi, ÇXR-in sədri Tszyan Tszeminlə bir sıra mühüm sənədlər imzaladı və bundan sonra ikitərəfli münasibətlərimiz daha yaxşı inkişaf edir. Məhdud dairədə yenicə basa çatan danışıqlarda biz Sizinlə bir çox məsələlər barəsində fikir mübadiləsi apardıq və indi mən aşağıdakı üç bənd üzərində dayanmaq istərdim. Əvvəla, Çin Azərbaycanla bütün sahələrdə – siyasi, iqtisadi, mədəni və digər sahələrdə dostcasına əməkdaşlıq münasibətlərini bundan sonra da inkişaf etdirməyə hazırdır. Biz hesab edirik ki, Azərbaycan nəinki mühüm coğrafi mövqeyə, həm də zəngin neft-qaz ehtiyatlarına malikdir. Buna görə də Azərbaycanın, Azərbaycan iqtisadiyyatının olduqca böyük perspeklivləri var. İkincisi, Çin beynəlxalq

aləmdə birqütblü dünya əvəzinə, çoxqütblü dünya formalaşdırılması ugrunda çıxış edir. Hesab edirik ki, bu bütün dünyada sülhün inkişafı üçün daha faydalı və sərfəlidir. Üçüncüsü, Çin hesab edir ki, hər bir xalqın, hər bir dövlətin özü üçün inkişaf yolu, ideologiya və din seçmək haqqı var. Başqa ölkələrin buna qarışmağa haqqı yoxdur. İndi müasir dünyada iddia edirlər ki, insan hüquqları dövlətin suverenliyindən üstündür. Biz hesab edirik ki, bu olduqca səhv iddiadır. Çünki bu bəzi dövlətlərin digər ölkələrin daxili işlərinə qarışması üçün bəhanə olardı. Hər bir dövlətin ərazisi müqəddəs və toxunulmazdır. Biz bu mövqeyi əsas tutaraq, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik. Bu Yaxınlarda Çin Xarici İşlər Nazirliyinin bəyanatı yayılmışdır. Bəyanatda deyilir ki, Çin Dağlıq Qarabağda keçirilmiş qanunsuz seçkiləri tanımır. Əlbəttə, biz həmçinin ümid edirik ki, Dağlıq Qarabağ münaqişəsi BMT Təhlükəsizlik Şurasının qətnamələrinə müvafiq surətdə həll oluna bilər. Siz indicə dediniz ki, BMT Təhlükəsizlik Şurasının bir çox qətnamələri yerinə yetirilmir. Bu gün biz Sizinlə Çinin Azərbaycandakı səfirliyi üçün binanın bünövrəsinin qoyulması şənliklərində iştirak edəcəyik. Bu, ikitərəfli münasibətlərimizin gələcək inkişafının daha bir rəmzidir. Bir daha çox sağ olun. İndicə mən ÇXR sədri Tszyan Tszeminin çox böyük salamını Sizə yetirdim.

**Heydər Əliyev:** Sağ olun, hörmətli cənab Li Pen. Dəyərli sözlərinizə görə Sizə təşəkkür edirəm. Bir çox məqamlarda bizim mövqelərimiz uyğun gəlir. Mən onların üzərində dayanmaq istəmirəm. Çin Xalq Respublikasının Sədri cənab Tszyan Tszemindən mənə salam yetirdiyinizə görə sizə təşəkkür edirəm. Xahiş edirəm, mənim atəşin, səmimi salamımı da cənab Tszyan Tszeminə yetirəsiniz və ona bildirəsiniz ki, artıq indi mən onun Azərbaycana səfərini gözləyirəm. Siz sözünüzün üstündə durdunuz və gəldiniz, o isə hələlik borclu qalır. O öz borcunu yerinə yetirməlidir. Sizinlə

Azərbaycanda görüşümüz, Pekində sizin hamınızla mənim görüşlərim və cənab sədr Tszyan Tszemının buraya səfəri Azərbaycan-Çin münasibətlərinin daha da genişlənməsinə kömək edəcəkdir. Siz tamamilə haqlısınız ki, dövlətlərin bir-birinin daxili işlərinə qarışmaması beynəlxalq hüququn ən başlıca prinsipidir və heç kimin bir-birinin daxili işlərinə qarışmağa ixtiyarı yoxdur. Siz tamamilə haqlısınız ki, hər bir xalq, hər bir ölkə xalqın getməli olduğu yolu özü seçir və heç kəs bu xalqa onun hansı yolla getməli olduğunu kənardan zorla qəbul etdirməməlidir. Bizim bu cür uyğun gələn bir çox ümumi baxışlarımız var və biz bir-birimizi hər cəhətdən dəstəkləməli, münasibətlərimizi inkişaf etdirməliyik. İqtisadi münasibətlərimizin inkişafı üçün böyük imkanlar var. Siz Azərbaycanda böyük neft və qaz ehtiyatları olduğunu dediniz, bu ehtiyatlar həqiqətən var. Amma dostluğumuzun daha da inkişaf etdirilməsinin çox mühüm vasitəsi tarixi Böyük İpək yolunun bərpasından ibarətdir. Böyük İpək yolunun bərpası XXI əsrin nəhəng proqramıdır və bu proqram Çinin iştirakı olmadan həyata keçirilə bilməz. Çünki biz İpək yolundan danışarkən bilirik ki, ipək çox qədim zamanlardan Çindən gətirilirdi, deməli, bu yolu Şərqdən Qərbə məhz Çin açmışdı. Çin ipək istehsal edərək, onu həmin uzun yol ilə Avropaya aparırdı. Beləliklə, İpək yolu yaranmışdı. Bir sözlə, biz o qədim zamanlara qayıdacağıq və İndi münasibətlərimizi yeni şəraitdə inkişaf etdirəcək, bu proqramı birlikdə həyata keçirəcəyik. Cənab Li Pen, sözümün sonunda demək istəyirəm ki, Siz Azərbaycanda ilk dəfə deyilsiniz. Siz hələ tələbə olarkən respublikamıza gəlmiş, Mingəçevirdə su elektrik stansiyasının tikintisində iştirak etmisiniz, sizin gözəl xatirələriniz var. İndi Sizin buraya səfərinizi mingəçevirlilər böyük maraqla izləyir, Sizə salam göndərirlər. Hesab edirəm ki, sizin onların nümayəndələri ilə gö-

rüşməyə və bu mövzuda daha ətraflı danışmağa imkanımız olacaqdır. Li Pen: Bu gün nahardan sonra biz onlarla görüşəcəyik.

**Heydər Əliyev:** Sağ olun. Çində görüşlərimiz haqqında kitabı – "Azərbaycan-Çin: dostluq sərhədlər aşır" kitabını təntənəli surətdə sizə təqdim etmək istəyirəm. Kitab Azərbaycan dilindədir. Burada olduqca çox materiallar, o cümlədən Sizinlə bizim Pekində görüşümüz barədə material var. Mən bu kitabı Sizə təqdim edirəm. Etiraziniz yoxdursa, kitabdan nümayəndə heyətinizin üzvlərinə də paylayardım.

**Li Pen:** Sağ olun. Biz də sizin üçün hədiyyə gətirmişik.

# 2000 年 6 月 23 日阿塞拜疆共和国总统盖达尔•阿利耶夫与由全国人民代表大会常务委会委员长李鹏率领的中华人民共和国代表团会谈

盖达尔•阿利耶夫： 委员长先生，尊敬的中华人民共和国来宾、朋友们！

昨天开始了全国人民代表大会常务委会李鹏委员长对阿塞拜疆的正式访问。这次访问是应我的邀请，我很高兴李鹏先生能应我在 1994 年发出的的邀请来到阿塞拜疆 ，我们又能够进行交流了。李鹏先生，我诚挚地欢迎您和您所率领的代表团访问阿塞拜疆，对你们的到来我感到由衷的高兴。我已得知昨天在我们的议会举行了会晤，您和代表团看了看我们的城市。现在我们进行了小范围会谈，会谈主要是关于中国和阿塞拜疆关系，但我们也涉及了一些有关国际形势历史和现状的问题。中国是世界上一个伟大的国家，有着丰富的文化和悠久的历史，今天作为世界大国，拥有强大的智力和经济潜力，在国际生活中起到重要作用。中华人民共和国的成立对整个世界都有着极为重要的历史意义。中华人民共和国从成立起已发展了 50 多年，并且在不断取得更大的成就 。阿塞拜疆是一个年轻的独立国家，1991 年苏联解体后我们获得了国家独立，我们认为这对我们的人民来说是一个历史性事件。我们认为苏联的解体以及包括阿塞拜疆人民在内的许多民族获得自由和独立是历史性事件。我们在经历独立国家的成长阶段，我们坚持走自己的路推行民主、进行经济改革和巩固国家政权的道路。现在我们已坚信阿塞拜疆将永远是一个独立的国家。我们将始终维护国家的独立，再也不允许国家独立的再次丧失 。阿塞拜疆作为独立的国家正积极在和平、互利、合作和友谊的基础上与世界各国建立关系。在这方面我们认 为与中华人民共和国的关系有着极为重大的意义。我们很高兴中国是阿塞拜疆获得独立后率先承认阿塞拜疆国家独立的国家之一。从那时起我们两国建立了外交关系 ，现在在中国设有阿塞拜疆大使馆，而

在阿塞拜疆设有中国大使馆。今天我们将一道为新的，更准确的说是为第一座中国驻阿塞拜疆大使馆奠基。近年来我们两国的关系保持着良好的发展势头。1994 年应中华人民共和国江泽民主席邀请我对中国进行了正式访问，同江泽民主席，也同当时任国务院总理职务的李鹏先生进行了多次会见和会谈。这些会面和会谈给我留下了很好的印象，而对中国访问本身，现代中国的面貌，特别是经济的迅猛发展，中国坚持的民族立场以及依照中国特色进行的改革给我留下的印象都特别深刻。我们到了上海。还有很重要的是到了长城，我还登上了长城的至高点，据说远不是每个人都能登上长城的至高点。我的很多随行人员都停在了中途，而我给自己定了目标，而且达到了这个目标。从那时起，也就是从 1994 年起，两国的关系开始迅速发展。今天我们坚持全面合作，特别是发展经济合作的立场。同时在涉及国际法的原则问题上我们，毫无疑问，是相互支持的。这些原则之一是任何一个国家的领土完整和其边境的不可侵犯。正是与这条重要原则相关，中国和阿塞拜疆都存在重要问题。在中国这是台湾问题，而阿塞拜疆，李鹏先生，我已详细介绍过，自 1988 年起遭受亚美尼亚的侵略，以夺取我国领土的一部分--纳戈尔诺卡拉巴赫为目的的侵略。这一侵略导致了战争，而阿塞拜疆的领土完整遭到破坏。阿塞拜疆百分之二十的领土被亚美尼亚武装力量占领，一百万阿塞拜疆人被迫离开家园，迁往阿塞拜疆各地，大部分人住在帐篷里，条件很艰苦。我们始终在所有国际组织和所有国际文件中支持中华人民共和国的领土完整，承认台湾完全属于中华人民共和国以及中华人民共和国对其领土的权利。我十分感谢中国，感谢中华人民共和国支持阿塞拜疆共和国对其领土完整和边境不可侵犯的权利 ，即在亚美尼亚和阿塞拜疆的冲突中完全支持阿塞拜疆 。我们感谢您始终捍卫这一原则，并且在恢复领土完整 、解放被亚美尼亚武装力量占领的领土，难民重返家园以及获取由联合国规定的独立阿塞拜疆共和国的边境不可侵犯性方面提供帮助。我再次对您们表示欢迎，现在请您讲话。

李鹏：总统先生，感谢您的邀请，感谢您个人以及阿塞拜疆共和国议会发出的访问阿塞拜疆共和国的邀请。我和我的同事们对能够来到这里，看到新的阿塞拜疆而感到十分满意。1991 年苏联解体后中国马上承认了阿塞拜疆的独立并与之建立了外交关系。1994 年阿利耶夫先生对中国进行了正式访问，与中华人民共和国主席江泽民签署了一系列重要文件，这之后我们两国的关系得到了更好的发展。在刚刚结束的小范围会谈中我们同您就许多问题交换了意见，现在我想说以下三点。首先，中国愿意继续与阿塞拜疆在政治、经济、文化等各个领域进行合作。我们认为阿塞拜疆不仅占据重要的地理位置，而且拥有丰富的石油天然气资源，因此阿塞拜疆的经济有着十分广阔的前景。第二，中国主张在国际舞台上形成多极世界，而非单极世界。我们认为这更有助于，也更有利于整个地球的和平发展。第三，中国认为每一个国家和民族有权利选择自己的发展道路、意识形态和宗教，其他国家无权加以干涉。当今世界上宣称人权高于国家主权。我们认为这是极为错误的论点，因为这一论点可以作为某些国家干涉别国内政的借口。任何一个国家的领土都神圣不可侵犯。我们支持阿塞拜疆的领土完整遵循的正是这一原则。日前公布了中国外交部的声明，声明中说中国不承认在纳戈尔诺卡拉巴赫非法举行的选举。当然，我们也希望纳戈尔诺卡拉巴赫冲突将依照联合国安理会的决议得到解决。您刚才也谈到，联合国安理会的很多决议没有得到执行。

今天我们将和您参加中国驻阿塞拜疆大使馆奠基仪式。这又是我们双边关系发展未来的一个象征。再次表示感谢。我刚才已转达了中华人民共和国主席江泽民对您的热情问候。

盖达尔•阿利耶夫：谢谢，尊敬的李鹏先生。感谢您珍贵的话语。我们的立场在很多方面是一致的，我就不再多提。感谢您向我转达了中华人民共和国主席江泽民的热情问候。也请您向江泽民先生转达我诚挚热情的问候 ，并转告他我在等待他对阿塞拜疆的访问。您已经兑现了您的来访许诺，而江泽民先生还没有，他也要完成自

己的许诺。我与您在阿塞拜疆的会晤，我们与中国领导人在北京的会面和江泽民先生的来访都将促进阿塞拜疆和中国两国联系的进一步扩大。您说的完全正确，互不干涉内政是国际法的基本准则，任何人都没有权利干涉他国内政。您完全正确地指出，每一个民族，每一个国家应自己选择民族前进的道路，任何人不应从旁将发展道路强加于另一个民族。我们有很多共同的、相吻合的观点，我们应当互相全面支持，发展我们的关系。发展我们之间的经济关系有着很大的潜力。您指出阿塞拜疆有着丰富的石油和天然气资源，确实有这样的资源。但大大发展我们之间的友谊最重要的方式是恢复伟大的丝绸之路。恢复伟大的丝绸之路是 XXI 世纪的一项旷世工程，没有中国的参与是无法实现的。因为当我们谈到丝绸之路时，我们知道自古以来丝绸产自中国，也就是说这条自东向西的商路是中国开辟的。中国出产丝绸并利用这条漫长的道路将丝绸运往欧洲。这样产生的丝绸之路。一句话，我们将回到那久远的年代，将在新的条件下发展我们今天的关系，一道将这项工程付诸实现。在结束我的讲话时，李鹏先生，我想说，您不是第一次到阿塞拜疆。还在读大学时您就曾来过我们共和国，参加了米格查乌勒水电站的建设，您有着美好的回忆。米格查乌勒人十分关注您今天的访问，向您致以问候。我想您会有机会接见他们的代表，详细攀谈。

李鹏： 今天午后我们会见到他们。

盖达尔•阿利耶夫：谢谢。我想把《阿塞拜疆中国：友谊无疆》这本书隆重地赠送给您。书是阿塞拜疆文的。这里面材料很丰富，包括我们访问北京的内容。我把这本书送给您。如果您不反对，我想把书分发给代表团的成员。

李鹏：谢谢。我们也给您带来了一件礼物。

# Bakıda Çin Xalq Respublikası səfirliyinin yeni binasının təməl qoyulması mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi – 24 iyun 2000-ci il

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin sədri hörmətli cənab Li Pen! Hörmətli qonaqlar, Çin Xalq Respublikası nümayəndə heyətinin üzvləri! Hörmətli səfir! Hörmətli xanımlar və cənablar!Cənab Li Penin və onu müşayiət edən şəxslərin dünən Azərbaycana rəsmi səfərinin başlanması Azərbaycanın həyatında böyük hadisədir. Dünən və bu gün çoxsaylı danışıqlar aparılmış və xüsusən cənab Li Penlə mənim aramda söhbət, cənab Li Penin Azərbaycan parlamentinin sədri Murtuz Ələsgərovla və digər şəxslərlə söhbətləri olmuşdur. Bu danışıqlar və söhbətlər zamanı biz səmimi münasibətlərimizə sadiqliyi, 1994-cü ildə mənim Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszeminlə imzaladığımız sənədlərə sadiqliyi bir daha və yenidən təsdiq etdik, ümidvar və əmin olduğumuzu bildirdik ki, səmərəli əməkdaşlığımız artacaq və davam edəcəkdir. 1991-ci ilin axırlarında Azərbaycan öz dövlət müstəqilliyini elan etdikdən dərhal sonra Çin Azərbaycanın dövlət müstəqilliyini tanıdı və tezliklə ölkələrimiz arasında diplomatik münasibətlər yaradıldı. Çin Xalq Respublikasının Azərbaycanda səfirliyi, Azərbaycanın Çin Xalq Respublikasında səfirliyi var. Bu müddət ərzində biz bir-birimizə dəfələrlə nümayəndə heyətləri göndərmişik, 1994-cü ildə mənim Çinə rəsmi səfərim və cənab Li Penin Azərbaycana dünən başlanmış rəsmi səfəri olubdur. Bütün bunlar sübut edir ki, qısa müddət ərzində ölkələri-

miz arasında səmimi, dostcasına münasibətlər və çox yaxşı, səmərəli əməkdaşlıq yaranmışdır. Azərbaycan Çin Xalq Respublikası ilə yaranmış münasibətləri yüksək qiymətləndirir. Biz gənc müstəqil dövlət olaraq bunu özümüz üçün mühüm amil bilirik və dostluq münasibətlərimizin, əməkdaşlığımızın dərinləşməsi və inkişaf etməsi üçün bundan sonra da bütün tədbirləri görəcəyik. Buna mühüm sübut odur ki, Bakıda – Azərbaycanın paytaxtında Çin Xalq Respublikasının Azərbaycanda səfirliyinin daimi binasının tikintisi üçün yer ayrılmışdır və bu gün cənab Li Pen və Çin Xalq Respublikasının nümayəndə heyətinin üzvləri və biz sizinlə birlikdə bu binanın bünövrəsini qoyduq. Çin Xalq Respublikasının Azərbaycanda səfirliyinin binasının özülünü qoymağımız Çin ilə Azərbaycan arasında diplomatik münasibətlər yaradılan zaman qoyulmuş bünövrənin davamıdır. Həmin bünövrə möhkəm olmuşdur və buna görə də ötən illərdən bəri münasibətlərimiz yüksələn xətt üzrə inkişaf edir. Mən əminəm ki, bu gün əsasını qoyduğumuz bu bünövrə üzərində çox tezliklə Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinin binası ucalacaq, o, Çin Xalq Respublikası ilə Azərbaycan arasında münasibətlərin genişlənməsinə və möhkəmlənməsinə xidmət edəcəkdir. Mən bu gün, bu tarixi gündə Çin xalqına, Çin Xalq Respublikasına, Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszeminə, Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin sədri cənab Li Penə, bütün çinli dostlarımıza bir daha səmimi hisslərimi ifadə etmək və Çin Xalq Respublikasına bu ölkənin getdiyi yolda yeni-yeni uğurlar arzulamaq istəyirəm. Cənab Li Pen, sizi bu hadisə münasibətilə ürəkdən təbrik edirəm və əmin ola bilərsiniz ki, Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinin binası və səfirliyin özü əbədi mövcud olacaqdır. Yaşasın Çin Xalq Respublikası! Yaşasın Çin-Azərbaycan dostluğu! Çin Xalq Respublikasının bütün vətəndaşlarına səadət və firavanlıq arzulayıram!

# 2000 年 6 月 24 日阿塞拜疆共和国总统盖达尔•阿利耶夫在中国驻阿使馆馆舍奠基仪上的讲话

尊敬的全国人大常委会委员长李鹏先生！尊敬的中华人民共和国代表团各位嘉宾！尊敬的大使!尊敬的女士们 、先生们！李鹏先生及其随行人员昨天开始的对阿正式访问，是阿塞拜疆生活中的一件大事。这两天进行了许多会谈，特别是进行了李鹏先生与我的会谈，李鹏先生与阿塞拜疆议会议长穆尔图兹・阿列斯克罗维等人的会谈。会谈期间，我们再三强调，我们忠实于我们之间的亲密关系，忠实于 1994 年我对中华人民共和国进行正式访问期间与江泽民主席签订的文件。我们还表达了对我们的良好合作扩展开来并延续下去的期望与信心。 1991 年末阿塞拜疆宣布国家独立之后，中国立即予以承认。不久，我们两国建立外交关系。中华人民共和国与阿塞拜疆在对方互设使馆。在此期间，许多代表团互访 ，我于 1994 年正式访问中国，李鹏先生从昨天开始正式访阿.所有这一切都说明，我们两国之间在短时间内形成了亲密友好的关系，进行了良好的、卓有成效的合作。阿塞拜疆高度评价中阿之间业已形成的关系。我们认为，这对我们而言，对一个年轻的独立国家而言，是一个重要的因素。今后，我们将采取一切措施，深化并发展我们的友好关系与合作。在阿塞拜疆首都巴库，为建设中华人民共和国驻阿使馆固定馆舍划定了地点，就鲜明地见证了这一点。今天，李鹏先生、中华人民共和国代表团各位团员以及我们大家为这一馆舍奠基，也鲜明地见证了这一点。中国驻阿使馆馆舍的基石，就是两国建立外交关系时的基石的延续。这块基石厚重坚实。所以，近年来我们两国的关系沿上升路线发展。我相信 ，在我们今天所奠的基石之上，中华人民共和国驻阿使馆馆舍将会拔地而起，将为进一步发展与巩固中阿关系服务。今天，在此历史性的时刻，我愿再次表达

我对中国人民、对中华人民共和国、对中华人民共和国主席江泽民先生、对全国人大常委会委员长李鹏先生、对我们的所有中国朋友的友好感情。我要祝愿中华人民共和国在其行进途中再创佳绩。我衷心地祝贺您，李鹏先生，参加此项工作。您可以相信，使馆馆舍及中华人民共和国驻阿使馆都将永存。中华人民共和国万岁！中阿友谊万岁！祝中华人民共和国全体公民幸福安康！

## Azərbaycan Prezidenti adından Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin sədri Li Penin şərəfinə təşkil edilmiş rəsmi qəbulda Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi – 23 iyun 2000-ci il

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Zati-aliləri, Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin sədri, hörmətli cənab Li Pen! Hörmətli xanım Li Pen! Çin Xalq Respublikası nümayəndə heyətinin hörmətli üzvləri! Mən sizi Azərbaycanda səmimi salamlayıram. Cənab Li Pen, biz də şadıq, Azərbaycan xalqı da şaddır ki, siz respublikamıza rəsmi səfərə gəldiniz. Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsi sədrinin və Çin Xalq Respublikası nümayəndə heyətinin Azərbaycana səfəri tarixi əhəmiyyətli hadisədir. Çin dünyanın böyük ölkəsidir. Çin çox qədim mədəniyyətə, zəngin tarixə malik ölkədir. Çin xalqı dünya sivilizasiyasına misilsiz dəyərlər vermişdir. İkinci dünya müharibəsi dövründə və İkinci dünya müharibəsindən sonra Çin xalqının mübarizəsi böyük qələbəyə gətirib çıxarmış və 1949-cu ildə Çin Xalq Respublikası yaranmışdır. Çin xalqı öz torpağının sahibi, öz taleyinin sahibi, öz iradəsinin sahibi olmuşdur. Tarixin qısa bir dövrü ərzində – 50 ildə Çin xalqı öz inkişafında böyük yol keçmişdir. Çinin tarixi keçmişi və Çin Xalq Respublikası dövründə qazanılmış uğurlar Çini dünyada aparıcı, qabaqcıl ölkələr sırasına çıxarmışdır. Təkcə ona görə yox ki, Çində bir milyarddan artıq əhali var, təkcə ona görə yox ki, Çin ərazisinə görə ən

böyük ölkələrdən biridir, həm də ona görə ki, Çin xalqı tərəqqi yolu ilə, inkişaf yolu ilə gedir və sosial-iqtisadi inkişafda böyük uğurlara nail olmuşdur. İkinci dünya müharibəsindən sonra dünyanın xəritəsi əhəmiyyətli dərəcədə dəyişmiş, müstəmləkə sistemi dağılmış, bir çox müstəqil dövlətlər meydana gəlmişdir və bu dövlətlər inkişafın müxtəlif yolları ilə gedirlər. Çin xalqı, Çin Xalq Respublikası öz inkişaf yolunu, onun milli mənafelərinə, ənənələrinə və ölkənin bütün vətəndaşlarının arzusuna uyğun olan yol seçmişdir. Biz Çin xalqının bütün uğurlarına sevinir və hesab edirik ki, Çin özü üçün seçdiyi yolla, öz inkişafının Çin yolu ilə gedərək daha çox və daha böyük uğurlar qazanacaqdır. Çin beynəlxalq siyasətdə və dünya həyatında mühüm yer tutur. Çin Xalq Respublikası Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvüdür və bir çox beynəlxalq və regional təşkilatlarda fəal iştirak edir. Ona görə də Azərbaycanla Çin arasında münasibətlərin bizim üçün son dərəcə böyük əhəmiyyəti var. Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra – bu, təxminən 9 il əvvəl olmuşdur – təbii ki, bu müstəqilliyin dünya ölkələri, Dünya Birliyi tərəfindən tanınmasını gözləyirdi. Çin Xalq Respublikası Azərbaycanın dövlət müstəqilliyini dünyanın ilk ölkələri sırasında tanıdı, Çin Xalq Respublikası ilə Azərbaycan arasında diplomatik münasibətlər quruldu. Bundan tezliklə sonra Çin Xalq Respublikasının Azərbaycanda səfirliyi və Azərbaycanın Çində səfirliyi fəaliyyət göstərməyə başladı. O vaxtdan sonra ötən illər ərzində Çin Xalq Respublikası ilə müstəqil Azərbaycan arasında münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Azərbaycanda biz Çin Xalq Respublikası ilə münasibətlərimizə son dərəcə böyük əhəmiyyət veririk və bu münasibətlərin həyatın bütün sahələrində və dünya siyasətinin bütün sahələrində inkişaf etməsi, möhkəmlənməsi üçün bütün tədbirləri görürük və görəcəyik. Çin Xalq Respublikasının sədri cə-

nab Tszyan Tszeminin dəvəti ilə 1994-cü ildə Çin Xalq Respublikasına rəsmi səfərim zamanı bizim çox səmərəli söhbətlərimiz, danışıqlarımız oldu və nəticədə Çin Xalq Respublikası ilə Azərbaycan arasında mühüm sənədlər imzalandı və bunlar münasibətlərimizin müqavilə-hüquq əsasını müəyyənləş-dirdi. Mən 1994-cü ildə etdiyim səfərimi, Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszeminlə görüşləri, söhbətləri, Dövlət Şurasının sədri, indi Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin sədri cənab Li Penlə və Çinin digər rəhbərləri ilə görüşləri və söhbətləri dərin minnətdarlıq və böyük səmimiyyət hissləri ilə xatırlayıram. 1994-cü ildə bütün nümayəndə heyətimiz əyani şəkildə görüb inandı ki, Çin yüksək sürətlə inkişaf edir. Çində siyasi, iqtisadi islahatlar uğurla aparılır, Çin xalqının həyat səviyyəsi daim yüksəlir və bu, parlaq şəkildə sübut edir ki, hər bir xalqın öz inkişaf yolu olmalıdır. Bu baxımdan Çin layiqli nümunə göstərir. Biz tarixdən bilirik və özümüz də şahid olmuşuq ki, Çin Xalq Respublikası yarandıqdan sonra Çin beynəlxalq aləmdə öz yerini tutmaq üçün olduqca çox çətinliklərlə üzləşmişdir. Amma Çin xalqının, Çin Xalq Respublikası rəhbərliyinin iradəsi uğurları təmin etdi və indi Çin bütün dünyada tanınmış ölkədir. Azərbaycan da zəngin və qədim tarixə malikdir. Azərbaycan xalqının görkəmli şəxsiyyətləri dünya sivilizasiyasına misilsiz töhfə vermişlər. Amma bir çox yüzilliklər ərzində Azərbaycan xalqının müstəqilliyi, azadlığı olmamışdır. 1991-ci ilin axırlarında Sovetlər İttifaqının dağılması ilə əlaqədar Azərbaycan xalqı azadlıq əldə etdi, öz dövlətçiliyini əldə etdi, Azərbaycan müstəqil ölkə, müstəqil dövlət oldu. Bəzən sual yaranır – necə oldu ki, Sovetlər İttifaqı kimi belə böyük dövlət, fövqəldövlət birdən hansısa qısa müddət ərzində süquta uğradı? Bu suala müxtəlif cür cavab vermək olar. Mən, hər halda, vaxtilə Sovetlər İttifaqının rəhbərliyində olmuş bir insan kimi, hesab edi-

rəm ki, bu sualın daha dəqiq cavabını bilirəm. Sovetlər İttifaqı 1922-ci ildə təşkil edilmişdi və son onilliklərdə 15 müttəfiq respublikadan ibarət idi. Konstitusiyaya görə, 15 respublikanın hamısı bərabərhüquqlu idi, lakin real həyatda bu hüquq bərabərliyi yox idi. Sistemin özündə də, Sovetlər İttifaqının, xüsusən 80-ci illərdə–90-cı illərin əvvəlində sovet rəhbərliyinin əməli fəaliyyətində də bir çox digər nöqsanlar vardı. Bu, Sovetlər İttifaqının dağılmasının səbəblərindən biridir. Amma səbəblər təkcə bundan ibarət deyildir. Başlıcası budur ki, İkinci dünya müharibəsindən sonra dünyada baş vermiş ictimai-siyasi proseslər – sosialist düşərgəsinin, sosialist sisteminin yaranmasına gətirib çıxartdı və sonralar həmin ölkələr arasındakı müxtəlif ziddiyyətlər bu sistemi tədricən deformasiyaya uğratdı, Sovetlər İttifaqının özündə aparılan və Sovetlər İttifaqında birləşmiş bütün millət və xalqların mənafelərinə cavab verməyən siyasət Sovetlər İttifaqının parçalanmasına səbəb oldu. Daim milli azadlığa, müstəqilliyə can atan və öz dövlətçiliyinə nail olmağa çalışan Azərbaycan xalqı, təbii ki, Sovetlər İttifaqının dağılması ilə əlaqədar çox böyük imkanlar qazandı və öz dövlət müstəqilliyini elan etdi. Bu, Azərbaycan xalqının həyatında görkəmli tarixi hadisədir və dövlət müstəqilliyindən ötən az illər ərzində xalqımız azadlığın qədir-qiymətini, müstəqilliyin qədir-qiymətini bilmişdir və Azərbaycanın dövlət müstəqilliyi dönməz olmuşdur. Mən artıq dedim ki, Sovetlər İttifaqının dağılmasının səbəblərindən biri müttəfiq respublikaların hüquqca bərabər vəziyyətdə olmaması və hökumətin, dövlətin, Sovet İttifaqı Kommunist Partiyasının bütün xalqlara, bütün respublikalara eyni münasibət göstərməməsi idi. Azərbaycan xalqı bu ədalətsizliyi öz həyatında hiss edirdi. 1988-ci ildə, Sovetlər İttifaqının hələ mövcud olduğu və onun üç ildən sonra süquta uğrayacağına çox az adamın inana biləcəyi dövrdə Ermənistanla Azərbaycan arasında mü-

naqişə yarandı. Bu münaqişə Ermənistanın Azərbaycana qarşı qanunsuz ərazi iddiaları nəticəsində, Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistanın özünə birləşdirməyə cəhd göstərməsi və bununla əlaqədar Azərbaycana qarşı əslində hərbi təcavüzü nəticəsində başlandı. Sovetlər İttifaqının rəhbərliyi bu münaqişəni nizama salmaq iqtidarında olmadı, daha doğrusu, sadəcə olaraq, bunu istəmədi, bu münaqişədə birtərəfli mövqe, Azərbaycan barəsində ədalətsiz mövqe və bununla yanaşı, Ermənistan barəsində havadarlıq mövqeyi tutdu. Bu münaqişə indiyədək davam edir. Bu münaqişə nəticəsində Ermənistana daha çox yardım göstərməyə başladıqlarına və bəzi subyektiv səbəblərə görə Ermənistan silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizini işğal etmişdir. İşğal olunmuş torpaqlardan bir milyondan çox azərbaycanlı didərgin salınmışdır, onlar 7–8 ildən çoxdur ki, Azərbaycanın müxtəlif bölgələrində və əksəriyyəti də çadırlarda yaşayır, böyük çətinliklər çəkirlər. Beləliklə, beynəlxalq hüququn əsas tələbi – Azərbaycanın ərazi bütövlüyü və Birləşmiş Millətlər Təşkilatına daxil olan suveren Azərbaycanın sərhədlərinin toxunulmazlığı pozulmuşdur. Altı il əvvəl biz bu problemin sülh yolu ilə nizama salınması üçün Ermənistanla atəşkəs haqqında sazişə nail olduq. Bu məsələ ilə əsasən ATƏT və onun yaratdığı Minsk qrupu məşğul olur. Minsk qrupuna Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa rəhbərlik edirlər. Bu illər ərzində intensiv danışıqlar aparılmış, çoxlu görüşlər olmuşdur, amma Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən biz məsələnin həllinə nail ola bilməmişik. Ermənistan silahlı birləşmələrinin 1992–1993-cü illərdə Azərbaycan ərazisini işğal etməsi məsələsi Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında bir neçə dəfə müzakirə olunmuşdur. Biz Çin Xalq Respublikasına minnətdarıq ki, hər dəfə bu məsələnin müzakirəsi zamanı BMT Təhlükəsizlik Şurasının üzvü kimi, Çinin nümayəndəsi

Azərbaycanın ədalətli tələblərini dəstəkləmiş və Ermənistan silahlı birləşmələrinin Azərbaycan ərazisindən qeyd-şərtsiz çıxarılması haqqında Təhlükəsizlik Şurasının bir neçə qətnaməsi və Təhlükəsizlik Şurası sədrinin bir neçə bəyanatı qəbul edilmişdir. Ancaq təəssüf ki, bu qətnamələr indiyədək yerinə yetirilməmiş qalır. Biz XX əsrin sonuna yaxınlaşırıq. XX əsr çox böyük hadisələrlə, həm faciəli hadisələrlə, həm də, təbii ki, elmi-texniki tərəqqi ilə bağlı və bəzi digər hadisələrlə zəngindir. Bütün ölkələr ədalətdən, beynəlxalq hüququn pozulmazlığından və beynəlxalq hüquq prinsiplərindən danışırlar. Amma bir sıra hallarda bu bəyanatlar əslində əməli işlərlə uyuşmur. Respublika yarandıqdan sonra böyük uğurlar qazanan Çin Xalq Respublikası eyni zamanda özünün ərazi bütövlüyü məsələsinin həlli ilə də məşğul olur. Biz əminik ki, Çin Xalq Respublikası bu məsələni həll edəcəkdir. Çünki bunu beynəlxalq hüquq prinsipləri tələb edir. Bu prinsiplər isə hamı üçün müqəddəs olmalıdır. Azərbaycanı ərazi bütövlüyünün bərpası uğrunda ədalətli mübarizəsində daim dəstəklədiklərinə görə Çin Xalq Respublikasına, onun rəhbərliyinə minnətdarıq. Biz Çini vahid, bütöv bir dövlət kimi tanıyırıq, dünyada iki Çin yoxdur. Şübhə etmirik ki, Tayvan məsələsi məhz beynəlxalq hüquq əsasında həll ediləcək və Çin öz ərazi bütövlüyünə tam nail olacaqdır. Mən bir də ona görə təşəkkürümü bildirmək istəyirəm ki, bu yaxınlarda Çin Xalq Respublikası qondarma "Dağlıq Qarabağ Respublikası"nın üzdəniraq "parlamentinə" keçirilmiş "seçkilər" haqqında özünün Xarici İşlər Nazirliyinin simasında bəyanat vermişdir. Bu bəyanat Azərbaycanın ərazi bütövlüyü barəsində Çin Xalq Respublikasının siyasətinin dəyişməz olduğunu bir daha təsdiqləyir. Cənab Li Pen, çox şadam ki, siz mənim dəvətimi və Azərbaycan parlamenti sədrinin dəvətini qəbul edərək gəlmisiniz və biz bir çox məsələləri sizinlə müzakirə etmək imkanı qazandıq, bütün

məsələlər barəsində baxışlarımızın eyni olduğunu gördük. Mən şadam ki, burada olduğunuz qısa müddətdə siz müstəqil Azərbaycanı gördünüz, problemlərimizi, qaçqınlarımızı da gördünüz, amma onu da gördünüz ki, Azərbaycan müstəqillik şəraitində uğurla inkişaf edir. Biz hesab edirik ki, sizin səfəriniz və bütün nümayəndə heyətinizin Azərbaycanda olması, aparılmış çox faydalı söhbətlər və danışıqlar Çin Xalq Respublikası ilə Azərbaycan arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə və inkişafına, bütün sahələrdə əməkdaşlığımızın inkişafına mühüm töhfə olacaqdır. Xahiş edirəm, mənim atəşin salamımı Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszeminə və ən xoş arzularımı bütün Çin xalqına yetirəsiniz. Mən indi artıq sizin də köməyinizlə Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszeminin Azərbaycana rəsmi səfərini gözləyəcəyəm. Çin Xalq Respublikasının şərəfinə! Çin xalqının şərəfinə!Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszeminin şərəfinə! Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin sədri cənab Li Penin şərəfinə, xanım Li Penin şərəfinə! Çin Xalq Respublikası nümayəndə heyətinin bütün üzvlərinin şərəfinə! Çin–Azərbaycan dostluğu şərəfinə! Sizin sağlığınıza badə qaldırmağı təklif edirəm!

## 阿塞拜疆共和国总统阿利耶夫 2000 年 6 月 23 日晚举行盛大宴会款待李鹏委员长和夫人朱琳一行

晚宴开始时，阿利耶夫总统和李鹏委员长先后发表热情洋溢的讲话。阿利耶夫总统说，李鹏委员长是我和阿列斯克罗夫议长邀请的尊贵客人。对这次来访，我们感到非常高兴。阿利耶夫指出，中国是联合国安理会 5 个常任理事国之一，积极参与国际和亚洲地区事务，发挥着越来越大的作用。因此，对我们来说，与中国建立和发展友好关系具有十分重要的意义。阿利耶夫总统在回顾了 1994 年应江泽民主席的邀请访华取得的重大成果后表示，他至今仍怀着十分感激的心情回忆起那次访问和与中国领导人的会晤。在对地区局势作了说明之后，他对中国始终不渝地支持阿维护独立、主权和领土完整的事业给予高度赞赏。他重申，阿塞拜疆坚持一个中国的原则，指出世界上只有一个中国，而没有第二个中国。中华人民共和国政府是代表全中国的唯一合法政府。阿利耶夫总统说，中国人民经过长期的艰苦奋斗，经过第二次世界大战反法西斯斗争和解放战争，终于建立了中华人民共和国，获得了独立和自由。从此，中国人民成为自己命运的真正主人，根据自己的意志、愿望和利益 ，选择了一条正确的道路，并因此而取得了越来越大的成就。阿利耶夫指出，中国是联合国安理会五个常任理事国之一，积极参与国际和亚洲地区的事务，发挥着越来越大的作用。因此，对我们来说，与中国建立和发展友好关系具有十分重要的意义。阿塞拜疆 1991 年获得独立后，期待着国际社会的承认，而中国则是最早承认阿塞拜疆独立的国家之一，并且双方很快就建交并互设了大使馆。此后阿中两国关系发展得很好。阿利耶夫总统说，我们亲眼看到了中国实行政治体制改革和经济体制改革取得的丰硕成果，看到人民生活水平大幅度提高 。这充分证明，每个国家都应当选择适合自己国情的发展道路。中国为此提供了很好的例证。阿利耶夫总统说 ，我们

知道这段历史，新中国成立后遇到了巨大的困难 ，并为克服这些困难而付出了巨大的代价。但中国领导人的坚强意志保证了中国不断取得新的成就，中国也因此确立了自己在国际社会当之无愧的地位。阿利耶夫总统说，李鹏委员长的这次访问对于推动阿中两国关系的发展作出了重大贡献。他请李鹏委员长转达他对江泽民主席的热情问候，并期待着江泽民主席能够早日正式访问阿塞拜疆。

## BMT-nin minilliyin sammiti çərçivəsində İpək yolu üzərində yerləşən ölkələrin regional əməkdaşlığının zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı – 8 sentyabr 2000-ci il

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

**Hörmətli senator Sem Braunbək!**

**Hörmətli həmkarlar! Xanımlar və cənablar!**

Bu gün biz möhtəşəm bir proqramın – Böyük İpək yolunun bərpası proqramının əməli surətdə gerçəkləşdirilməsindən söhbət gedən çox mühüm bir hadisədə iştirak edirik. Biz, dövlət xadimləri, siyasətçilər, şübhəsiz, o cümlədən də mən, yəqin ki, bu problemin daha çox siyasi-iqtisadi cəhətindən danışa bilərik, nəinki elmi-texniki cəhətindən. Bu barədə burada kifayət qədər danışıldı və yəqin ki, başqa natiqlər də danışacaqlar. Böyük İpək yolu keçmişdə bəşər sivilizasiyasının inkişafında, həqiqətən, çox böyük rol oynamışdır. Bizim əsrimizdə, artıq XX əsrin sonunda isə bəşəriyyət Böyük İpək yolu ideyasına, yəni, Qərblə Şərq arasında çox mühüm nəqliyyat kommunikasiyası kimi Böyük İpək yolunun bərpası ideyasına yenidən müraciət etmişdir. Bununla əlaqədar mən mübaliğəsiz bildirməliyəm ki, biz – Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri bu işdə, necə deyərlər, əvvəldən çox fəal iştirak etmişik. Ona görə ki, Cənubi Qafqazda və Mərkəzi Asiyada Sovetlər İttifaqının süqutundan sonra müstəqilliyə qovuşan ölkələrdə, bir tərəfdən, çox ciddi problemlər meydana çıxmış, digər tərəfdən isə

onlar üçün son dərəcə böyük imkanlar açılmışdır. Məsələn, bizim üçün bu, Xəzər dənizinin enerji ehtiyatlarından fəal istifadə etməkdən və karbohidrogen xammalını Xəzər hövzəsindən başqa ölkələrə, beynəlxalq bazarlara nəql etməkdən ibarətdir. Xəzər hövzəsindəki çox zəngin neft və qaz ehtiyatlarının mənimsənilməsinin təşəbbüsçüsü məhz Azərbaycan olub və hələ 1994-cü ildə "Əsrin müqaviləsi" adlandırılan çox iri müqavilə imzalanmışdır. İndi Xəzər dənizinin Azərbaycan sektorundakı işlərə 30-dək iri neft şirkəti cəlb edilmişdir. Bağlanmış müqavilələrə əsasən onlar 30 il ərzində 60 milyard Amerika dollarından artıq məbləğdə sərmayə qoymalıdırlar. Biz artıq iki neft kəməri – Rusiya ərazisi ilə Qara dəniz sahilinədək Bakı-Novorossiysk və Gürcüstanın Qara dəniz limanına qədər Bakı-Supsa kəmərlərini çəkmişik və onlarla neft ixrac edirik. Lakin indi biz çox iri Bakı-Tbilisi-Ceyhan boru kəmərini yaratmaq haqqında qərar qəbul etmişik və bu kəmərlə gələcəkdə hər il azı 50-60 milyon ton neft ixrac ediləcəkdir. Ancaq təbii ki, gələcəkdə başqa marşrutlar da tələb olunacaqdır. Bu, özlüyündə Böyük İpək yolu proqramının bir hissəsidir. Amma biz təkcə bununla kifayətlənmirik. Mən mübaliğəsiz deyə bilərəm ki, Gürcüstanın prezidenti, dostum cənab Eduard Şevardnadze və Azərbaycanın prezidenti Böyük İpək yolunun bərpası haqqında 1998-ci ilin sentyabrında Bakıda mötəbər beynəlxalq konfrans çağırılmasının təşəbbüsçüləri olmuşlar. Bu konfransda Yaponiyadan başlayaraq, Avropanın ən ucqar ölkəsinədək dünyanın 32 dövlətinin nümayəndələri və 14 beynəlxalq təşkilatın təmsilçiləri iştirak edirdilər. Biz bu məsələni ətraflı müzakirədən keçirib sənəd qəbul etdik. Sənədi 12 ölkə – bu İpək yolunun mərkəzi hissəsində, yəni, Mərkəzi Asiyada, Cənubi Qafqazda yerləşən ölkələr, Rumıniyadan başlayaraq, Avropa ölkələri və digər ölkələr imzaladılar. Bu konfrans öz rolunu oynadı. Mən hesab edirəm ki, bu konfransın nəticələrinə əsasən gələ-

cəkdə çox işlər görüləcəkdir. Ancaq qeyd etmək xoş idi ki, Amerika Birləşmiş Ştatlarında senator cənab Sem Braunbək bu mövzuya çox fəal qoşuldu və deməliyəm, çox çətinlikləri dəf edərək, Böyük İpək yolu proqramını irəli sürdü və layihə hazırladı ki, Amerika Senatı bu məsələyə – ümumiyyətlə, xüsusən də haqqında burada çox yaxşı danışılan sistemin yaradılması üçün, şübhəsiz, böyük əhəmiyyəti olan məsələyə dair qanun qəbul etsin. Biz bu məsələdə senator cənab Sem Braunbəki fəal dəstəkləyirdik və qanun hazırlandı, çox şadıq ki, Amerika Senatı onu nəhayət, qəbul etdi. İndi bu qanun əsasında özü də ilk növbədə, telekommunikasiyalar və "Silk sat" proqramı sahəsində işlər genişlənir. Mən köhnə dostum, görkəmli alim, bu çox böyük layihənin müəllifi cənab Saqdeyevi alqışlayıram. Xatirimdədir, bir neçə il öncə o, Azərbaycanda, eləcə də başqa ölkələrdə olmuş və zənnimcə, bu ideyanı irəli sürmüşdü. İndi bu ideya artıq qəbul edilmişdir və biz fəal surətdə onun həyata keçirilməsinə başlayırıq. Əlbəttə, mən Amerika Senatının qəbul etdiyi qanunu alqışlayıram. Amma təəssüfləndiyimi deməyə bilmərəm ki, Konqresdə məhz bu qanun layihəsi haqqında məsələnin müzakirəsi zamanı Azərbaycan barəsində yenə ədalətsizlik göstərilmişdir. Axı, paradoksal haldır ki, Böyük İpək yolunun bərpasının təşəbbüskarlarından biri olan Azərbaycan Konqresin 1992-ci ildə qəbul etdiyi 907-ci maddəyə əsasən bu layihənin və ya digər layihələrin həyata keçirilməsi üçün yardımdan yenidən, növbəti dəfə məhrum edilmişdir. Amerika Birləşmiş Ştatları Konqresinin Azərbaycan barəsində bu ayrı-seçkilik aktı bəzi konqresmenlərin ən subyektiv mülahizələrinə əsasən, guya Azərbaycanın Ermənistanı blokadaya alması ilə əlaqədar qəbul edilmişdir. Halbuki, Amerika Birləşmiş Ştatlarının hökuməti dəfələrlə bəyan etmişdir ki, bu ayrı-seçkilik aktı – 907-ci maddə ləğv olunmalıdır. Amma, təəssüflər olsun ki, bunun üçün əməli tədbirlər görülməmişdir. Senator cənab Sem Braunbəkin təq-

dim etdiyi qanunda nəzərdə tutulan müddəalar Böyük İpək yolu haqqında qanun layihəsinin, Amerika Birləşmiş Ştatları Senatının qanun layihəsinin həyata keçirilməsi Azərbaycan üçün 907-ci maddədən yan keçməyə imkan verirdi, o mənada ki, Azərbaycan bu proqramın gerçəkləşdirilməsində hüquqlardan istifadə edəcəkdi. Amma senatorlar, konqresmenlər Azərbaycan barəsində yenə də ədalətsizlik etdilər, ayrı-seçkiliyə yol verdilər. Azərbaycan həmin layihədə yeganə respublikadır ki, bu qanun layihəsinə əsasən Böyük İpək yolunun üstündə yerləşən ölkələrə Amerika Birləşmiş Ştatlarının göstərməli olduğu yardımdan məhrum edilmişdir. Əlbəttə, bu, məni məyus edir, kədərləndirir. Buna baxmayaraq, biz ruhdan düşmürük. Biz senator Sem Braunbəkin bu barədə təşəbbüsünü və dünyanın görkəmli alimlərinin burada təqdim etdikləri layihəni indi də fəal dəstəkləyirik. Hər halda, ümidvaram ki, senator Sem Braunbək haqq-ədalət uğrunda və 907-ci maddənin Azərbaycan barəsində ayrı-seçkilik salan müddəasının aradan qaldırılması uğrunda mübarizəsini davam etdirəcəkdir. Azərbaycan mərkəzi mövqedə yerləşir. Burada bəzi slaydlar nümayiş etdirildi. Hər şeydən göründüyü kimi, Xəzər dənizi bu layihəni əhatə edən Böyük İpək yolunun mərkəzindədir. Azərbaycan isə məhz Qafqazın da, Xəzər dənizinin də ən mühüm strateji regionunda yerləşərək, Avropanı Asiya ilə, Qərbi Şərqlə birləşdirir. Ona görə də bu çox mühüm layihənin həyata keçirilməsində Azərbaycanın rolu, şübhəsiz, olduqca böyükdür. Biz üzərimizə düşən missiyanı yerinə yetirmək üçün hər şeyi edəcəyik. Bu gün mən Amerika Birləşmiş Ştatlarının Konqresini və Amerika Birləşmiş Ştatlarının hökumətini bir daha Azərbaycan barəsində ayrı-seçkilyi aradan qaldırmağa və ədalətsiz 907-ci maddənin ləğvinə nail olmağa çağırıram. Mən bugünkü müzakirədə iştirak etməyimə şadam. Sizin hamınızı salamlayıram və bu layihəyə uğurlar arzulayıram. Diqqətinizə görə təşəkkür edirəm.

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasının yaranmasının 52-ci ildönümü münasibətilə rəsmi qəbuldakı nitqi – 1 oktyabr 2001-ci il

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Hörmətli cənab səfir! Hörmətli xanımlar və cənablar! Mən sizi bayram – Çin Xalq Respublikasının yaranması günü münasibətilə ürəkdən təbrik edirəm və bütün Azərbaycan xalqı adından böyük Çin xalqına sülh, əmin-amanlıq və rifah arzulayıram. Bu gün cənab səfir məni qarşılayarkən dedi ki, o, çıxışının birinci abzasını Azərbaycan dilində oxuyacaq, qalanını isə xahiş etdi ki, – onu başa düşmək lazımdır, – rus dilində oxusun. Mən ona dedim ki, etirazım yoxdur. Lakin bu halda mən bütün nitqimi Çin dilində söyləyəcəyəm. O dedi ki, Allah xatirinə, lazım deyil, çünki Siz məni pis vəziyyətə salmış olarsınız. Gəlin, növbəti bayramadək gözləyək, o vaxtadək mən Azərbaycan dilini tamamilə öyrənəcəyəm. Onda o, Azərbaycan dilində danışacaq, mən isə Çin dilində danışacağam. Ona dedim ki, mən artıq Çin dilini öyrənmişəm, bu dildə danışa bilirəm. Bir halda ki, o, məndən xahiş etmişdir, mən onun xahişini yerinə yetirməliyəm və hamıya aydın olsun deyə, rus dilində danışıram. 1949-cu il oktyabrın 1-də Çin Xalq Respublikasının yaranması bəşəriyyət tarixində çox mühüm hadisə olmuşdur. O vaxtlar çox mürəkkəb, çətin dövr idi. İkinci Dünya müharibəsi yenicə qurtarmışdı. Bizim hamımız böyük itkilər vermişdik. Çin xalqı öz azadlığı və müstəqilliyi uğrunda mərdliklə mübarizə aparmış və

1949-cu il oktyabrın 1-də buna nail olmuşdur. Həqiqətən, indi, artıq aradan çox vaxt keçəndən sonra – 2001-ci ildə biz Çin Xalq Respublikasının yaranmasının necə mühüm tarixi hadisə olduğunu, bütün bunların dünya xəritəsində və beynəlxalq həyatda necə böyük dəyişikliklərə gətirib çıxardığını aydın görürük. Biz dost olaraq şadıq ki, bütün bu illər ərzində Çin Xalq Respublikası xalqın seçdiyi siyasəti ardıcıl surətdə həyata keçirir və özünün milli mənafelərini əsas tutaraq öz dövlətini, iqtisadiyyatını, öz həyatını qurur. Bir şey demək olar ki, dünyada çox xalqlar, çox ölkələr, çox dövlətlər var. Onların hamısının bir yolla, bir xətlə getməli olduğunu, onların hamısının vahid standarta tərəfdar olmalı olduğunu təsəvvür etmək mümkün deyildir. Hər xalqın öz tarixi, öz mənəvi və əxlaqi dəyərləri, adətləri var. Təbii ki, müasir dövrdə hər bir ölkə bunu əsas tutaraq, öz xalqının mənafelərini əsas tutaraq, özünün uğurlu inkişafını təmin edən yolu seçir. Çin Xalq Respublikasının seçdiyi yol, həqiqətən, böyük uğurlar gətirir. Çin əhalisinin sayına görə dünyada ən böyük ölkədir, eyni zamanda, öz iqtisadi potensialına və intellektual potensialına görə dünyanın ən iri dövlətlərindən birinə çevrilmişdir. O, beynəlxalq həyatda fəal rol oynayır. Çin Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvlərindən biridir. Deməli, BMT Təhlükəsizlik Şurası mühüm məsələləri Çinin iştirakı və iradəsi olmadan həll edə bilməz. Burada cənab səfir Çin Xalq Respublikasının son vaxtlar əldə etdiyi iqtisadi nəticələr barədə çox inandırıcı məlumat verdi. Bəli, bu belədir. Çin yüksək sürətlə inkişaf edir. Çin öz xalqının, öz ölkəsinin mənafelərinə uyğun olan, özünəməxsus daxili və xarici siyasətini həyata keçirir. Çin milli xüsusiyyətləri, ənənələri əsas tutaraq, öz xalqının, öz ölkəsinin tarixi xüsusiyyətlərini əsas tutaraq iqtisadi islahatlar aparır. Mənə elə gəlir ki, Çin Xalq Respublikasının uğurlarının əsasını məhz bunlar təşkil edir. ÇXR-in Azərbaycan-

dakı səfiri bu uğurlar barədə konkret rəqəmlər gətirərək danışdı. Biz bu uğurlara sevinirik. Çin bizim üçün dost ölkədir. Biz Çinlə dostluq münasibətləri, iqtisadi, mədəni, elmi əlaqələr, təhsil sahəsində və bir çox digər sahələrdə əlaqələr saxlayırıq. Mən 1994-cü ildə Çinə rəsmi səfərimi xatırlayıram. Orada, xüsusən Pekində, Şanxayda gördüklərimin hamısı məni çox heyran etdi. Onunla heyran etdi ki, Çin iqtisadi islahatı, bazar iqtisadiyyatını öz prinsipləri əsasında apararaq böyük uğurlara nail olmuşdur. Ona görə də bu gün cənab səfir Çinin açıqlığından danışır, deyir ki, Çinə Dünya Ticarət Təşkilatı gərəkdir və eyni zamanda, Dünya Ticarət Təşkilatının da ehtiyacı var ki, Çin bu təşkilatın üzvü olsun. Artıq bu, mühüm nəticədir. Çinin həyata keçirdiyi iqtisadi islahatlar nəticəsində nail olduğu iqtisadi qüdrətin tanınması deməkdir. Çin çox zəngin tarixə malikdir. Mən nümayəndə heyətimizin üzvləri ilə Böyük Çin səddinə getdim və biz getdikcə daha yüksəyə qalxmağa başladıq. Doğrudur, nümayəndə heyətimizin yarısından çoxu tab gətirmədi, dayandı, çünki getdikcə daha hündürə qalxmaq çətin idi. Ancaq mən qarşıma ən uca zirvəyədək qalxmaq məqsədi qoymuşdum. Qalxdım və mənimlə bir neçə adam da vardı. Bilirsinizmi, biz böyük Çin səddi haqqında çox oxumuşuq, bunu filmlərdə də görmüşdük. Amma onu insanın özünün görməsi heç nə ilə müqayisə edilə bilməz. Bütün bunlar məni ona görə heyran etdi ki, hələ çox qədim zamanlarda Çin xalqı igidlik, mətanət göstərərək, öz ölkəsinin müdafiəsi üçün indiyədək möhkəm və sarsılmaz qalan belə böyük sədd çəkmişdir. Çin xalqının qədim dövrlərdən indiyədək istedadından xəbər verir və Çin keçmişin qalıqlarından xilas olduqdan, xalq öz demokratik respublikalarını yaratdıqdan sonra bu istedad daha dolğun şəkildə parlamışdır və həmin vaxtdan bəri Çin Xalq Respublikasının coşqun inkişafının yeni mərhələsi başlanmışdır. Mən şadam ki, Çin ilə Azərbaycan

arasında ən səmimi dostluq münasibətləri yaranmışdır. Biz Azərbaycanın ədalətli mənafelərinin müdafiəsində, xüsusən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması məsələsində bütün beynəlxalq təşkilatlarda Çinin dəstəyinə ümid bəsləmişik və bəsləyirik. Mən minnətdaram ki, Çin 1992-1993-cü illərdə Birləşmiş Millətlər Təşkilatında məlum qətnamələrə – Ermənistan silahlı qüvvələrinin işğal olunmuş əraziləri heç bir şərt irəli sürmədən azad etməsini tələb edən qətnamələrə səs vermişdir. Ona görə də dostluğumuzun konkret nəticələri də var. Ancaq bununla yanaşı, mən hesab edə bilmərəm ki, Çin Xalq Respublikası ilə hərtərəfli əlaqələrin daha da genişləndirilməsi üçün bizim tərəfimizdən bütün işlər görülmüşdür. Bu, artıq gələcək üçün vəzifədir və düşünürəm ki, biz bu vəzifəni yerinə yetirmək və Çin Xalq Respublikası ilə xüsusən iqtisadiyyat, elm və mədəniyyət sahələrində daha sıx münasibətlər yaratmaq üçün dönmədən irəliləyəcəyik. İndi Çin bizim üçün təsəvvür edə bildiyimiz xəyal deyil və Azərbaycan da Çinə artıq yaxşı məlumdur. Hesab edirəm ki, 20-30-40 il bundan əvvəl Çində Azərbaycanı çox az tanıyırdılar. İndi isə tanıyırlar, özü də müstəqil, suveren Azərbaycan ilə Çin Xalq Respublikası arasındakı bərabər hüquqlu, səmimi münasibətlər sayəsində tanıyırlar. Artıq bu, bizim üçün böyük işdir. Zənnimcə, elə Çin Xalq Respublikası üçün də. Ona görə də bu gün biz bayramı qeyd edərək, Çin xalqı ilə birlikdəyik, onun uğurlarına sevinirik. Mən sizi, bütün Çin xalqını bu bayram münasibətilə bir daha təbrik etmək və Çin xalqına, Çin Xalq Respublikasına daha böyük tərəqqi arzulamaq istəyirəm. Sağ olun.

# 2001 年 10 月 1 日阿塞拜疆共和国总统在中国国庆招待会上的讲话

尊敬的大使先生！尊敬的女士们，先生们！我以所有阿塞拜疆人民的名义真诚的祝愿中华人民共和国国庆节快乐，祝愿伟大的中国人民和平，幸福和安康！今天，当大使先生和我会面的时候，他说："这是他第一次用阿塞拜疆语发表演讲，另外他还请求希望大家能够理解他他将用俄语演讲"。我告诉了他，我反对。如果是那样，那么我将要用汉语的发音来演讲。他告诉了我，为了上帝请不要那样做，因为您会让我很尴尬。请让我们等到下一个节日，到那个时间我会完全用阿塞拜疆语来演讲。到那时我们将说："他用阿塞拜疆语演讲，而我用汉语来演讲"。我告诉了他，我已经学会了汉语，我可以用汉语讲话了。但是，既然他请求了我，我必须满足他的请求，为了让我们大家都明白，我说可以用俄语。 1949 年 10 月 1 日中华人民共和国的成立是人类历史上出现的重要事件。那个时刻是非常复杂和困难的时候，刚刚结束了第二次世界大战，我们大家都蒙受了重大的损失。中国人民为了自己的自由，独立，在 1949 年 10 月 1 日的这个时刻英勇的奋斗了。事实上，现在时光已经过去了很久，现在已经是 2001 年了。我们清楚的看到，那是一个宣布中华人民共和国成立重要的历史事件 。并且我们可以看到在世界地图上和国际生活中发生了哪些重大的变化。我们，像朋友一样，很高兴这些年中华人民共和国根据自己特有的民族利益逐步的实现人民选择的政治和建设自己的国家，经济和自己的生活。可以说一句话，在世界上有很多民族，很多国家，很多政府。不可能代表自己，让他们都走一条相同的路，或者说沿着另外一条路走，他们必须依靠在统一的标准下。每一个人民都有自己特殊的历史，自己的道德和精神的价值，风俗。并且，自然的，根据这个情况，根据自己人民的利益，在现代这一时期，每一个国家选择那条路，

都是为了保障自己成功的发展。中国是世界上人口最多的国家，与此同时他也成为了在经济，人力资源和在国际社会中扮演重要角色的世界大国。中国是联合国安全理事会常任理事国之一。可见，没有中国的参与和认可联合国安全理事会的重要问题是无法解决的。大使先生在这里引用了这些年中华人民共和国在经济领域取得重大发展的数据。这是很令人信服的。是的，就是这样，中国在高速发展。中国实现着自己独特的，对自己人民有利的，内政和外交政策。根据自己民族的特性，传统，人民自己特有的历史和自己的国家情况，中国在实行经济改革。于是在这里，正好，我似乎引用中华人民共和国成功的那些原则，在这里，有中华人民共和国驻阿塞拜疆大使馆大使先生具体的数据。我们为这些成绩而高兴。中国对于我们来说是友好国家，我们支持与中国的友好关系，在经济，文化，科学、教育和其他领域之间的联系。我记得自己在 1994 年正式访问中国的情形。大家都看到了，在那里，特别是在北京，上海，使我大吃一惊。使我吃惊的是中国正在实现着的经济改革，在自己原则下的市场经济改革，在自己的原则下取得了巨大的成就。因此，今天大使先生讲到了关于中国的开放的问题，其中提到，中国需要世界贸易组织，而且世界贸易组织也期望中国成为这个组织的成员。这已经是个重要的结果，这已经是对中国经济在实现中国经济改革中取得在经济方面巨大成绩的认可。中国具有非常悠久和丰富的历史。当我和我的代表团成员们一起到访伟大而古老的长城的时候，我们都想要爬的更高更高，真的，我们代表团的大多数成员没有受得了，而是停留在了那里，因为要爬的越来越高是很困难的事情，而我给自己定了一个目标那就是爬到最高的地方。有几个人和我一起爬到了最高的地方。众所周知，我们读了很多关于伟大长城的书籍，在很多电影中看见了很多次长城 。但是，当一个人自己站在长城顶上，自己亲眼目睹的时候，这个感觉无与伦比。这一切使我很惊讶，在还是很久远的时候，中国人民为了保卫自己的国家修

建了这样伟大的长城，直到现在还保留的几乎完整无损，显示了中国人民的英勇，坚强。这是中国人民从古至今的智慧，这个智慧还被完全的开启，当中国人民摆脱过去，人民建立了自己的民主人民共和国，这就是从那个时候开始急剧发展的中华人民共和国。我很高兴，在中国和阿塞拜疆之间形成了最友好，最亲近的关系。我们期望过现在也正在期望中国在所有国际组织范围内给予阿塞拜疆公平利益的支持，特别是在亚美尼亚和阿塞拜疆在纳戈尔诺卡拉巴赫停战和冲突问题上的支持。我感谢中国在 1992/1993 年联合国大会期间重要问题的表决上给予的投票，主要是责成亚美尼亚军队无条件的从被侵占的阿塞拜疆领土上撤离。所以我们的友谊具有具体的结果。但是，我可以认为，我方能做的是，特别是为了更好的全方位的和中华人民共和国联系。这个已经是在将来的任务，我想，我们将不遗余力的完成这个任务，与中华人民共和国建立更紧密的联系，特别是在经济、科学、文化领域的合作。目前，中国对于我们来说已经不是幻想，我们可以介绍给大家，中国和阿塞拜疆也可以成为众所周知的好朋友。我想，20 年，30 年，或 40 年以前中国很少有人知道阿塞拜疆。而现在很多人都知道 ，因为在阿塞拜疆和中华人民共和国主权独立之间拥有 、平等的、友好的关系。这对我们来说已经是很大的事情了。我想，对于中华人民共和国而言也是。因此，今天，我们庆祝这个节日，我们一起和中国人民为他们的成绩而感到高兴。我还要再一次祝愿你们，全中国人民节日快乐，祝福中国人民，中华人民共和国更加繁荣昌盛，谢谢！

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çinin Azərbaycandakı səfirliyinin yeni binasının açılış mərasimindəki nitqi – 7 dekabr 2001-ci il

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Hörmətli cənab səfir! Hörmətli xanımlar və cənablar! Çin-Azərbaycan münasibətlərində mühüm hadisə – Çin Xalq Respublikasının Bakıda, Azərbaycanda səfirliyinin yeni binasının tikintisinin başa çatması, təbii olaraq, səfirliyin fəaliyyətinin yeni mərhələsinin başlanması münasibəti ilə sizi ürəkdən təbrik edirəm. Xatirimdədir ki, bir ildən bir qədər əvvəl cənab Li Penin Azərbaycana rəsmi səfəri zamanı biz onunla bu binanın bünövrəsini qoyduq. O vaxt mən soruşdum ki, onu tikməyə nə qədər vaxt lazımdır. Mənə dedilər ki, tez tikəcəklər, ancaq bilməzdim ki, bu, belə tezliklə baş verəcəkdir. Çin və Azərbaycan inşaatçıları əl-ələ verib, tikintini necə tez və yaxşı keyfiyyətlə aparmaq və belə gözəl bina tikmək nümunəsi göstərdilər. Mən ona baxdım və sonra necə bir bina olduğu barədə məlumat aldım. O, Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyi üçün və təbii olaraq, bütövlükdə Çin Xalq Respublikası üçün həqiqətən layiqli binadır. Bu binanın tikilməsi və onun bugünkü açılış mərasimi daha bir sübutdur ki, Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasındakı dostluq münasibətləri və sıx əməkdaşlıq uğurla inkişaf edir və böyük gələcəyə malikdir. Çin Xalq Respublikası müstəqil Azərbaycanda öz səfirliyini açmaqla, şübhəsiz, belə düşünür ki, onların burada işi və Çin

Xalq Respublikası ilə Azərbaycan arasında münasibətlər əbədi olacaqdır, o mənada ki, Azərbaycan müstəqilliyinin 10-cu ildönümünü qeyd edərək bəyan etmişdir ki, Azərbaycanın müstəqilliyi, dövlətçiliyi əbədi olacaqdır. Bu bina, həqiqətən Çin Xalq Respublikası ilə Azərbaycan arasında dostluğun rəmzidir. Biz bunu qiymətləndirir və hesab edirik ki, bu, bizə dost digər ölkələrin həm səfirlik kimi, həm də başqa nümayəndəliklər kimi Azərbaycanda akkreditə olunmuş nümayəndəlikləri üçün yaxşı nümunə olmalıdır. Əvvəla, bu, hər hansı ölkənin istənilən nümayəndəliyinin işi üçün daha yaxşı şərait yaradır. İndiki halda Çin Xalq Respublikası öz səfirliyinin fəaliyyəti üçün yaxşı şərait yaratmışdır və deməli, öz səfirliyinə böyük əhəmiyyət verir. Bu, həm də o deməkdir ki, Azərbaycan-Çin münasibətlərinə böyük əhəmiyyət verir. Əminəm ki, səmərəli fəaliyyət üçün belə gözəl imkanlara malik olan Çin səfirliyi, əvvəla, öz vəzifələrini daha uğurla yerinə yetirəcək, ikincisi, – bu isə bizim üçün təbii olaraq çox vacibdir, – Çin Xalq Respublikası ilə Azərbaycan arasında bütün sahələrdə münasibətlərin bundan sonra da inkişaf etdirilməsi və möhkəmləndirilməsi naminə daha fəal işləyəcəkdir. Bu gün mən bir daha bəyan etmək istəyirəm ki, biz ölkəmizin – Azərbaycanın Çin Xalq Respublikası ilə münasibətlərini öz xarici siyasətimizdə mühüm bir istiqamət kimi qiymətləndiririk və çalışacağıq ki, bu münasibətlər dostluğun daha da möhkəmlənməsi naminə, həm Azərbaycan Respublikasının, həm də Çin Xalq Respublikasının mənafeyi naminə inkişaf etsin və təkmilləşsin. Xahiş edirəm, mənim salamımı və ən xoş arzularımı cənab Li Penə yetirəsiniz və ona bildirəsiniz ki, onun indi burada olmamasına təəssüflənirəm, çünki bu binanın bünövrəsini biz birlikdə qoymuşuq. Əgər bunun açılışında biz birlikdə iştirak etsəydik, bu, daha yaxşı olardı. Buna baxmayaraq, mən burada onu da təmsil edirəm. Bunu ona yetirin. Mənim salamımı və

ən xoş arzularımı, Çin Xalq Respublikasının inkişafında yeni-yeni uğurlar, Çin xalqına əmin-amanlıq və tərəqqi dilədiyimizi Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszeminə yetirin. Cənab səfir, bu əlamətdar hadisə münasibətilə mən Sizi təbrik edirəm, səfirliyin bütün əməkdaşlarını təbrik edirəm və inanıram ki, binanızın imkanlarından münasibətlərimizin daha da genişlənməsi üçün səmərəli istifadə edəcəksiniz. Məmnunam ki, bu bina bizim gözəl Bakımızın, kiçik olsa da, daha bir guşəsinə yaraşıq verir. Şəhərimizin bir çox əsrlər boyu təşəkkül tapıb formalaşmış özünəməxsus arxitekturası var. XX əsr ərzində şəhərsalma fəaliyyətinin inkişafı üçün çox işlər görülmüş və Bakı şəhərində çox binalar tikilmişdir. İndi isə Azərbaycanın müstəqilliyi illərində, böyük İqtisadi və sosial çətinliklərə baxmayaraq, Bakı şəhəri tikilir. Əsasən özəl biznes hesabına, eyni zamanda dövlət vəsaiti hesabına da tikilir. Bunlar yeni binalardır –yaşayış binaları, inzibati binalardır. Təbii ki, onlar özünün yeni arxitektura görkəmi ilə Bakı şəhərini bəzəyir, hərçənd biz hesab edirik ki, şəhər özlüyündə çox gözəldir. Odur ki, hər bir belə tikinti, – əlbəttə, mən xarici və daxili memarlıq baxımından yaxşı olan hər hansı bir binanın tikintisini nəzərdə tuturam, – təbii olaraq, Bakı şəhərinin imkanlarını genişləndirir və ona yaraşıq verir. Biz bu binanın tikilməsinə sadiq, ona görə ki, səfirlik özü üçün yaxşı şərait yaratmışdır, ancaq bununla yanaşı, Bakı şəhərinin bu guşəsini də abadlaşdırmışdır. Bu, sizin üçün də yaxşıdır, bizim üçün də. Sizi bir daha təbrik edirəm və Sizə burada uğurlu iş, səfirliyin əməkdaşlarına cansağlığı və firavanlıq, Çin xalqına sülh, əminamanlıq və gözəl gələcək arzulayıram.

## 2001 年 12 月 7 日阿塞拜疆共和国总统盖达尔．阿利耶夫在中华人民共和国大使馆新馆大楼启用仪式上的讲话

尊敬的大使！尊敬的女士们，先生们！诚挚的祝愿中国阿塞拜疆关系史的重要事件中华人民共和国大使馆新馆大楼在阿塞拜疆首都巴库竣工，这理所当然的，即将开启新馆外交活动的征程。我还记得，1 年多之前，我们和李鹏先生在他正式访问阿塞拜疆期间一起参加了中华人民共和国驻阿塞拜疆大使馆新官邸大楼奠基仪式。当时我就问了建成这个新官邸需要多长时间。当时有人给我说：“很快就建成”，但我没想到有这么快会建成。中阿两国的建设者一起证明了这一点，我们怎么样能很快的建成这样质量满意的漂亮的大楼。我察看了整个大楼，然后我得到了一个信号，就是这个大楼代表着中国自己。这是真正的中华人民共和国驻阿塞拜疆大使馆，理所当然的，它就是中华人民共和国整体的一部分。这个大楼的修建和今天在这里的大楼启用仪式是中华人民共和国与阿塞拜疆友好关系和紧密合作发展和未来重要意义的最好见证之一。中华人民共和国在独立后的阿塞拜疆设立大使馆，毫无疑问，这个馆的工作在阿塞拜疆共和国和中华人民共和国之间的将是长期性的，我要指出的是，阿塞拜疆已经在自己独立的道路上走了 10 年，我要声明，阿塞拜疆的独立，和他的国家将会永存。这的确是阿塞拜疆共和国与中华人民共和国之间友谊的象征，我们坚定认为和高度的肯定这将是其他国家在阿塞拜疆共和国友好代表处的最好典范。首先，这为任何一个国家的工作人员和任何一个国家的代表创造了很好的工作环境。与此同时，中华人民共和国为自己使馆的工作人员创造了很好的工作条件，逐渐的，她将赋予大使馆新的重要意义。这意味着，她在中国与阿塞拜疆的关系上将扮演着重要的意义。我相信，我们带着这样美好提议的可能性，为了中国大使馆更有成效的工作，首先，将会更有成效的完成自己的使命。其次，理所当然的，这

对于我们来讲也十分重要，对于我们将来更积极的工作，特别是在中华人民共和国和阿塞拜疆共和国全方位的利益上合作上更利于加深友谊。今天我想要再一次声明，我们再一次审视如何加强和实现我们和中华人民共和国之间的关系，如何使这些关系在中华人民共和国与阿塞拜疆共和国各个领域的利益中能更好的发展，更好的实现和加强，这将是我们外交关系中的重要方向 。我请你们转达我对李鹏先生的问候，带给他最好的祝愿并转达给他我的遗憾，就是，此时此刻他不在巴库，因为我们一起参与了这个使馆大楼的奠基仪式，，如果我们一起再次出席了这个大楼的竣工仪式这会更好。但是，我在这里也代表他，请转告给他，并向中华人民共和国主席江泽民转达我最美好的问候，祝愿中华人民共和国继续取得更好的发展成绩，中国人民和平繁荣。大使先生，我祝愿您，也祝愿所有使馆的工作人员，在这个重要时刻，我相信，你们将在未来更有效的为中国与阿塞拜疆之间的关系发展作出和完成更有成效的工作。我更满意的是这个大楼也为巴库的美丽增添了色彩。我们的城市有自己独有风格的建筑特点，在很多世纪的发展过程中形成。在 20 世纪期间，完成和发展了很多城市建设工程，很多工程形成了今天巴库城市的特色。如今，在阿塞拜疆独立的这些年，尽管巴库在经历着很多经济和社会的困难，巴库城市依然在建设。建设主要依赖于私人资金的投资，但与此同时也有一些国家拨款项目的建设。这些新的大楼中有，居民小区，行政大楼，他们，理所当然的，按照建筑设计师们的新的设计在不断装点着巴库，尽管城市在按照自己的需要发展，我们认为，我们的城市很漂亮。每一个这样的建筑，当然 ，每一个大楼不仅仅要有漂亮的外表设计而且还要有美丽的内在装饰，理所当然的，在尽可能不断的装饰着巴库，拓展着巴库的区域。我们为此感到高兴，因为大使馆为自己创造了更好的办公环境，但与此同时，这也装饰着巴库的美丽一角。这不仅仅对中国是好事，对我们也是好事。再一次祝贺你们，祝愿你们在这里的工作中取得更好的成绩，祝愿使馆的工作人员–健康，顺遂。祝愿中国人民–和平，安详，美好未来。

## 1994 年 3 月 7 日阿塞拜疆共和国总统盖达尔 .阿利耶夫正式访问中华人民共和国中华人民共和国主席江泽民 在与阿塞拜疆共和国总统盖达尔 .阿利耶夫会谈中声明摘要

«在与阿塞拜疆的关系发展方面中国扮演着重要的角色 ，中方已经准备好与与阿塞拜疆一道努力继续发展和拓宽全方位的友好合作发展。»

盖达尔 .阿利耶夫在自己的立场上强调了，中国在国际政治和经济事务中的作用。阿塞拜疆对学习中国改革的经验十分感兴趣。

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çinə rəsmi səfər zamanı Böyük Çin Səddi haqqında söylədiyi nitqin tabloya həkk olunması – 8 mart 1994-cü il

"Azərbaycan artıq bir müstəqil dövlət kimi bütün dünyada tanınır və qəbul edilmişdir. Çin kimi böyük bir dövlətdə Azərbaycan nümayəndə heyətini, Azərbaycan prezidentini yüksək səviyyədə qarşılamaq və qəbul etmək Azərbaycan xalqına, Azərbaycan dövlətinə böyük hörmətdir. Bizim dövlət müstəqilliyimiz bütün dünyada məşhur olan böyük Çin səddi kimi yaşayacaq, Çin səddi kimi duracaq və bundan sonra yüksək nöqtələrə qalxacaqdır".

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Ley İnçenin etimadnaməsinin təqdim edilməsi mərasimindən sonrakı söhbətindən – 8 sentyabr 1995-ci il

"Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq münasibətləri mövcuddur və biz bu münasibətlərin daha da inkişaf etməsi və möhkəmlənməsi üçün hər şey edirik. Dünya siyasətində Çinin oynadığı rolu, dünya birliyində onun mövqeyini nəzərə alaraq biz bu münasibətə böyük əhəmiyyət veririk."

“Azərbaycan xalqı və respublikamızın hökuməti Çin Xalq Respublikasına mehriban münasibət bəsləyirlər. Biz istəyirik ki, böyük Çinin qüdrəti bundan sonra da möhkəmlənsin, Çin xalqı daha da tərəqqi etsin.”

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dəvəti ilə Bakıya gəlmiş 11 yaşlı Çin rəssamı Dzen Yanq Yanq ilə qəbul söhbətindən 15 may 1996-cı il

“Sən öz rəsmlərinlə, habelə mənim cavab verdiyim məktublarla Çin və Azərbaycan uşaqları arasında ünsiyyət üçün yaxşı şərait yaradırsan.”

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyində olmuş, Çinin görkəmli dövlət xadimi Den Syaopinin vəfatı ilə əlaqədar başsağlığı verdiyi hüzn kitabındakı sözləri 25 fevral 1997-ci il

“Çin xalqının qarşısında böyük xidmətlər göstərmiş görkəmli ictimai-siyasi xadim, dövlət xadimi Den Syaopinin vəfatı münasibətilə Çin Xalq Respublikasına və bütün Çin xalqına dərin hüznlə başsağlığı verirəm.”

## Çin Xalq Respublikasının, İspaniya Krallığının, Polşanın və Finlandiyanın Azərbaycana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbuletmə mərasimindəki çıxışından – 4 sentyabr 1998-ci il

"Hörmətli, səfirlər mən sizin etimadnamələrinizi məmnuniyyətlə qəbul edirəm. Azərbaycanda öz ölkələrinizin səfiri kimi nizin səfiri kimi göstərəcəyini uğurlar arzulayıramuğurlar arzulayıram. Çin Xalq Respublik və Finlandiyanın Azərbaycanda yeni təyin olunmuş səfirləri bu gün işə başlayırlar. Mən bu hadisəni Çin Xalq Respublikası, İspaniya, Polşa və Finlandiya ilə Azərbaycan arasındakı diplomatik, dostluq əlaqələrinin inkişaf etdirilməsi istiqamətində mühüm addım hesab edirəm. Hörmətli səfirlər, sizin təmsil etdiyiniz ölkələrlə Azərbaycan arasında olan əlaqələr bizi məmnun edir və biz bu əməkdaşlığın inkişaf etməsinin, genişlənməsinin tərəfdarıyıq. Biz bunun üçün öz tərəfimizdən bundan sonra da lazımi təbdirlər görəcəyik. Güman edirəm ki, yeni təyin olunmuş səfirlər kimi siz Azərbaycanın dövlət və hökumət orqanları, ictimai təşkilatları ilə və bütün ictimaiyyətlə sıx əlaqə saxlayacaqsınız və ölkələrimiz arasındakı əlaqələrin inkişaf etməsinə xidmət göstərəcəksiniz. Mən Çin Xalq Respublikasının sədri Tszyan Tszeminin, İspaniya kralı birinci Xuan Karlosun, Polşa prezidenti Aleksandr Kvasnevskinin, Finlandiya prezidenti Marti Ahtisaarinin salamlarını və xoş arzularını böyük məmnuniyyətlə qəbul edirəm. Rica edirəm ki, mənim səmimi salamlarımı və xoş arzularımı ölkələrinizin başçılarına çatdırasınız. Çin Xalq Respublikasına rəsmi səfərimi, cənab Tszyan Tszeminlə apardığımız danışıqları və ölkələri-

miz arasında əlaqələrin inkişaf etdirilməsi üçün imzaladığımız sənədləri böyük məmnuniyyətlə xatırlayıram.”

“Azərbaycan ilə sizin təmsil etdiyiniz ölkələr arasındakı əlaqələr yaxşı səviyyədədir. Mən bunu yüksək qiymətləndirirəm. Ancaq qarşıda hələ çox işlər durur. Ümidvar olduğumu bildirmək istəyirəm ki, sizin səfirlik fəaliyyətiniz qarşıda duran işlərin həyata keçirilməsinə kömək edəcəkdir, biz əməkdaşlığımızı genişləndirəcək və inkişaf etdirəcəyik. Azərbaycan ilə Çin Xalq Respublikası, İspaniya, Polşa və Finlandiya arasındakı əlaqələr daha da yüksəklərə qalxacaqdır. bunun üçün sizə fəaliyyətinizdə uğurlar arzulayıram. Hər birinizə cansağlığı, səadət diləyirəm.”

Azərbaycan Prezidenti Heydər Əliyev ÇXR Ali Xalq Prokurorluğu Baş prokurorunun müavini Çjao Xun başda olmaqla Çin Ali Xalq Prokurorluğunun nümayəndə heyətini qəbul müraciətindən

9 avqust 1999-cu il

“Azərbaycan müstəqillik qazandıqdan sonra Çin Xalq Respublikası ilə bizim sıx dostluq münasibətimiz yaranmışdır, bu münasibətlər inkişaf edir və biz buna böyük əhəmiyyət veririk. Bu baxımdan Çin Xalq Respublikası prokrorluq orqanlarının mötəbər nümayəndə heyətinin ölkəmizə gəlməsi dövlətlərimiz arasında dostluq münasibətlərinin inkişafına mühüm töhfədir. Mənə məlumat verdilər ki, Azərbaycan Prokurorluğunda, bizim digər baş idarələrimizdə sizin səmərəli söhbətləriniz olmuşdur. Siz xalqımızın həyatı ilə, ölkəmizin həyatı ilə müəyyən dərəcədə tanış olmusunuz ki, bu da bizim üçün xoşdur. Hesab edirəm ki, sizin görüşləriniz, danışıqlarınız, söhbətləriniz Çinin və Azərbaycanın ədalət məhkəməsi, prokurorluq orqanları arasında, hüquq-mühafizə orqanları arasında münasibətlərin inkişafına kömək edəcəkdir. Ümidvaram ki, siz buradan xoş təəssüratlarla gedəcəksiniz.”

"Ölkəmizin ünvanına xalqımızın ünvanına, şəxsən mənim ünvanıma söylədiyniz səmimi sözlərə görə təşəkkür edirəm. Təşəkkür edirəm ki, qarşılıqlı fəaliyyətimizin daha da güclənməsi naminə Çin Prokurorluğu ilə Azərbaycan Prokurorluğu arasında yaxşı, sıx münasibətlər yaratmaq üçün ölkəmizdə kifayət qədər olmusuz.

Mən 1994-cü ildə Çin Xalq Respublikasına öz rəsmi səfərimi, Çin Xalq Respublikasının Sədri hörmətli cənab Tszyan Tszeminlə, Çinin digər rəhbərləri ilə görüşlərmi və danışıqlarımı, Pekində bir sıra yerlərə, Aanxaya getməyimi həmişə böyük məmnunluqla və böyük səmimiyyətlə xatırlayıram. Ən başlıcası budur ki, bu səfər zamanı, sizin düzgün dediyiniz kimi, biz Çin Xalq Respublikası ilə Azərbaycan arasında dostluğun və əməkdaşlığın möhkəm bünövrəsini qoyduq. O vaxt biz Çin ilə Azərbaycan arasında çox mühüm sazişlər imzaladıq. O vaxtdan bəri Çin də, Azərbaycan da əldə etdiyimiz razılaşmaları, sazişlərimizi həyata keçirməyə çalışirlar. Sizin Azərbaycana səfəriniz də buna sübutdur."

"Xoşdur ki, bu günlər ərzində siz Azərbaycanın Prokurorluq orqanlarının iş təcrübəsi ilə tanış ola bilmisiniz. Azərbaycanda cinayətkarlıqla, mütəşəkkil cinayətkarlıqla mübarizə, qanunçuluğun bərqərar edilməsi barədə, prokurorluq orqanlarının fəaliyyəti haqqında sizin müsbət fikirlərinizi eşitmək mənə xoş oldu. Hesab edirəm ki, bu müddət ərzində Azərbaycanın Prokurorluq orqanlarının işçiləri də sizdən çox şey öyrəniblər. Bir sözlə, fikir mübadiləsi prosesi gedir. Siz ölkəmizdə görülən işlərlə tanış oldunuz. Bilirəm ki, sizdə işlərin necə qurulduğu prokurorluq orqanlarınızın necə işlədiyi barədə siz çox şey danışmısınız. Bu, qarşılıqlı sürətdə çox faydalıdır."

"Cinayətkarlıqla mübarizə mürəkkəb işdir. Cəmiyyət mövcuddur, cəmiyyətdə mənfi hallar var, hər bir cəmiyyətdə cinayətkarlar və cinayətlər var. Əlbəttə, mütəşəkkil cinayətkarlığa qarşı

mübarizə son illər dünyanın bir çox ölkələrində xüsusi əhəmiyyət kəsb edir. Mən belə başa düşdüm ki, bu, Çində də mövcuddur. Şübhəsiz, bütün dünyada çalışırlar ki, artıq transkontinental xarakter almaqda olan beynəlxalq terrorizmə, narkobiznesə, digər cinayətlərə qarşı daha fəal mübarizə aparsınlar. Bununla əlaqədar, Çinlə Azərbaycan arasında əməkdaşlıq çox mühümdür. Azərbaycanda cinayətkarlığa qarşı mübarizəyə verdiyiniz qiyməti eşitmək mənə xoşdur. Ancaq hesab edirəm ki, sizdə bu iş heç də pis təşkil olunmayıbdır. Qonaq kimi siz uğurlarımızı müəyyən dərəcədə şişirdirsiniz. Lakin, həqiqətən, hüquq mühafizə orqanlarımızın son illər cinayətkarlığa qarşı, o cümlədən və xüsusən mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə böyük müvəffəqiyyətlər qazanmışlar. Bununla yanaşı, biz işimizin bu hissəsini, əldə edilmiş uğurları ideallaşdıra bilmərik. Nöqsanlar hələ də var. Odur ki, cinayətkarlığa qarşı mübarizə daha da gücləndirilməli, gücləndirilməli və gücləndirilməlidir. Bizim mövqeyimiz belədir."

"Sizin Azərbaycana səfər etmək təşəbbüsünüz və respublikamızın həyatı ilə belə ətraflı tanış olmağınız, Azərbaycanın Prokurorluğu ilə, digər hüquq-mühafizə orqanları ilə səmərəli fəaliyyətiniz, şübhəsiz, gələcək əməkdaşlığımız üçün yaxşı zəmin yaradır. Əminəm ki, bu əməkdaşlıq baş tutacaqdır. Bir daha nəzərə çatdırmaq istəyirəm ki, biz Çin Xalq Respublikası ilə bütün sahələrdə əməkdaşlığı genişləndirmək və dərinləşdirmək istəyirik. Biz Çin Xalq Respublikasını özümüzə dost ölkə bilirik və bu dostluğun möhkəmlənməsi üçün hər şeyi edirik. Xahiş edirəm mənim salamımı və ən xoş arzularımı Çin Xalq Respublikasının Sədri cənab Tszyan Tszeminə yetirəsiniz. Mən Pekində apardığımız çox yaxşı söhbəti, habelə müxtəlif beynəlxalq təşkilatlarda onunla olan görüşlərimizi xatırlayıram. Sizə və böyük Çin xalqına səadət, firavanlıq və yeni həyat quruculuğunuzda yeni-yeni uğurlar arzulayıram."

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zhang Hotsyanla qəbul söhbətindən 19 iyun 2000-ci il

"Cənab səfir, mən sizi salamlayıram. Biz sizinlə böyük bir hadisə – Ümumçin Xalq Nümayəndələr Məclisi Daimi Komitəsinin sədri hörmətli Li Penin Azərbaycana rəsmi səfəri ərəfəsində görüşürük. Hesab edirəm ki, bu səfər Çin-Azərbaycan münasibətlərində mühüm səhifə olacaqdır. Düşünürəm ki, onun və onunla birlikdə bütün müşayiət edən şəxslərin ölkəmizə gəlməsi Azərbaycanın bu gün nə demək olduğu, burada vəziyyət və həyatın necə davam etməsi barədə daha dolğun təsəvvvür əldə etməyə imkan verəcəkdir".

"...biz Çin Xalq Respublikası ilə münasibətlərimizə çox böyük əhəmiyyət veririk. Məhz belə əhəmiyyət verərək, mən burada, Azərbaycanda prezident kimi fəaliyyətimin hələ ilk illərində, 1994-cü ildə Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszeminin dəvəti ilə ölkənizə səfər etdim. Bizim çox görüşlərimiz, danışıqlarımız oldu, biz mühüm sənədlər imzaladıq və bizə böyük diqqət yetirdilər. Görüşlər də, danışıqlar da ilk öncə sədr cənab Tszyan Tszeminlə oldu, cənab Li Penlə və Çinin digər rəhbərləri ilə yaxşı söhbət və çox yaxşı danışıqlar oldu".

"Mən bunu müstəqil Azərbaycanın tarixində mühüm hadisələrdən biri hesab edirəm. Çin dünyada böyük dövlətdir, hər cəhətdən – əhalisinin sayına görə də, ərazisinə görə də, iqtisadi potensialına görə də böyükdür. Ən başlıcası isə, çox qədim və zəngin

tarixinə, mədəniyyətinə görə böyükdür. Çinin, belə demək mümkünsə, müstəqillik əldə etməsi və Çin Xalq Respublikası yaranması çox ağır şəraitdə baş vermişdir, mən o illəri yaxşı xatırlayıram. Çin xalqı bunun uğrunda mübarizə aparmış, güclü mübarizə aparmış, vuruşmuşdur. Tökülmüş qanlar bahasına Çinin müasir dünyanın qüdrətli dövlətinə çevrilməsinə nail oldu və Çin Xalq Respublikası yarandı. İndi Çin xalqı yeni quruluş, yeni dövlət sistemi şəraitində uğurla yaşayır, dünyanın bütün dövlətləri ilə əməkdaşlıq edir".

"Çinin böyük gələcəyi var. Yeri gəlmişkən, bunu hamı yaxşı dərk edir. Çünki qısa tarixi müddətdə – 50 ildə Çin elmin, texnikanın, iqtisadiyyatın inkişafında böyük sıçrayış etmişdir və artıq özünün bugünkü imkanlarını və böyük perspektivlərini dünyanın bir çox ölkələrinə göstərir. Şadam ki, öz səfərim zamanı mən Çin xalqının nailiyyətləri ilə Pekində də, Şanxayda da tanış ola bildim. Mən şadam ki, Çinin nəinki müasir həyatı ilə tanış oldum, həm də tarixlə təmasda oldum. Biz hamımız Çin tarixini məktəbdə öyrənmişik. Özü də biz kitabları oxuduqca həmişə təəccüblənirdik ki, gör, necə maraqlı və necə zəngin tarixdir. Çin xalqının bu cür çox parlaq, görkəmli mədəniyyət abidələrindən biri də bütün dünyada məşhur olan Böyük Çin Səddidir".

"Şadam ki, mən nəinki Böyük Çin Səddini görə bildim, həm də onun ən çətin yerinə qalxa bildim. Məlum oldu ki, bu heç də asan deyilmiş. Nümayəndə heyətimizdə çoxlu adam vardı, müşayiət edənlər də çox idi. Biz hey gedirdik və məndən daim xahiş edib deyirdilər ki, cənab prezident daha bəsdir, artıq gördük, bundan o yana getmək lazım deyil, çətindir. Amma mən onlara deyirdim ki, kimə çətinidisə, qoy dayansın, biz isə yolumuzu davam etdirəcəyik. Biz bir xeyli adamla Çin səddinə, onun ən hündür yerinə qalxmağa başladıq, zirvəyə isə çox az adam gəlib çatdı. Amma

mən qətiyyət göstərərək, əlbəttə, ən yüksək zirvəyə qalxdım. ... Bilirsinizmi, elə-belə, sadəcə baxanda Çin səddi yüksək, böyük səddir, amma görün, o, nə vaxt tikilmişdir....

... üç yüz il ərzində tikmişlər. Bütün bunlar da eramızdan əvvəl olmuşdur. Görün, Çin xalqı necə bir xalqdır, nəyə qadirdir! Görün, Çin xalqı hələ o zamanlar nə kimi möcüzələr yarada bilmişdir. Buna görə də təkrar edirəm, bu təkcə, tarixi abidə, mədəniyyət abidəsi, memarlıq abidəsi deyil, həm də Çin xalqının olduqca böyük intellektual və insani potensialını, olduqca böyük mətanətini, qəhrəmanlığını nümayiş etdirən abidədir. Əks halda bunu etmək, nəsildən-nəslə ötürmək mümkün olmazdı. Axı, insan orta hesabla uzağı 100 il yaşayır, yəqin ki, çinlilərdə...

... bir görün, neçə-neçə nəsillər dəyişibdir və hər bir yeni nəsil də bu yolla getmişdir, yəni öz atalarının, öz əcdadlarının işini davam etdirmişdir. Özü də davam etdirmiş və bu tikintini axıra çatdırmışdır. Özü də davam etdirmiş və bu tikintini axıra çatdırmışdır. Bu, əlbəttə, bütün dünyada məlumdur, bütün insanlar böyük Çin səddinin nə demək olduğunu bilirlər. Çinin çox zəngin mədəniyyəti təkcə Çin səddindən deyil, həm də çoxsaylı nadir memarlıq abidələrindən, sənət abidələrindən, tarix abidələrindən ibarətdir."

"...biz Çinlə çox mehriban münasibətlər saxlayırıq və saxlayacağıq. Bax, bizim Çində səfirliyimiz var, siz də artıq neçə illərdir burada işləyirsiniz. Çin çox böyük ölkədir, ona görə də sizin dünyanın bütün ölkələrində səfirlikləriniz ola bilər. Azərbaycan isə imkanları məhdud olan gənc müstəqil dövlətdir. Əlbəttə, biz istərdik ki, daha bir çox ölkələrdə səfirliklərimiz olsun. Sadəcə maliyyə imkanlarımız buna yol vermir. Buna baxmayaraq, biz Çində səfirliyimizi çoxdan açmışıq. Elə bunun özü sübut edir ki, biz, həqiqətən, münasibətlərimizi, dostluğumuzu qiymətləndirir və onların böyük perspektivi olduğunu görürük. Əlbəttə bununla əlaqədar

cənab Li Penin Azərbaycana səfəri münasibətlərimizin, dostluğumuzun əhəmiyyətini qat-qat artırır. Biz onunla Pekində görüşərkən Moskvada Energetika İnstitutunda oxuduğu vaxtları xatırladıq. O vaxtlar bu tikinti, necə deyərlər, ümumittifaq, Sovetlər İttifaqının tikintisi idi. Bu su elektrik stansiyasının tikintisi, demək olar ki, bütün Sovetlər İttifaqının diqqətini cəlb etmişdi və orada nəinki bizim, həm də Sovetlər İttifaqının başqa regionlarından gəlmiş mütəxəssislər işlədirlər. Təbii ki, əgər Moskva Energetika İnstitutu öz tələbələrini bu su elektrik stansiyasının tikintisində işləməyə göndərdisə ,bu, o vaxtlar Mingəçevir Su elektrik stansiyasının necə əhəmiyyətli olduğu barədə düşünməyə əsas verir. O mənə danışırdı ki, orada olmuş, yaşamış, işləmişdir, bu işi orada öyrənmişdir. Bizi bu da bağlayır. Ümumiyyətlə, o, Azərbaycanda təcrübə keçmiş, Azərbaycanda olmuş, burada işləmiş yeganə adam deyildir. Amma indi o, Çin Xalq Respublikasına başçılıq edir, ona görə də bu, xüsusilə qiymətlidir. O, çox böyük siyasi xadim, dövlət xadimidir. Mən onun həyat yolunu, bunun tarixini yaxşı bilirəm. Bir sözlə, Çində dövlət vəzifəsində təsadüfi adamlar olmur. Yeri gəlmişkən, bu da qiymətlidir. Yüksək dövlət vəzifəsində olmaq üçün dövlət fəaliyyətində, siyasi fəaliyyətdə çox böyük yol keçmək və bu zirvəyə qalxmaq lazımdır. Əgər cənab Li Pen belə yüksək vəzifəyə çatmışdırsa, deməli, hələ gənclik illərindən məhz bu cür yol keçmişdir və öz istedadını, öz bacarığını nümayiş etdirir. Mən orada olarkən o, Dövlət Şurasının, sizdə deyildiyi kimi, Nazirlər Şurasının sədri idi. Mən Çində Xalq Respublikası yaradılarkən mövcud olan strukturu xatırlayıram. İndi cənab Li Penin tutduğu vəzifəni mərhum Mao Tszedun, mərhum Zhoju Enlai tutmuşlar. Lyu Shaotszi, məncə, Çin Kommunist Partiyasının sədri, Den Syaopin isə baş katibi idi. Mən bütün bunları yaxşı xatırlayıram”.

"Çində çox səmərəli islahatlar həyata keçirilir, mən bunu gördüm. Bunu Pekində və Şanxayda da gördüm. Sizin xüsusiyyətiniz ondan ibarətdir ki, heç bir ölkəni təqlid etmirsiniz, heç nəyi təkrarlamırsınız, özünüz demişkən, öz yolunuzla – Çin yolu ilə gedirsiniz. Bu düzgündür. Məsələn, mən hesab edirəm ki, dünyada bütün ölkələr müxtəlifdir, bütün xalqlar müxtəlifdir, onların müxtəlif tarixləri, müxtəlif ənənələri, müxtəlif xarakterləri, müxtəlif imkanları var. Əgər bütün ölkələr eyni bir yola getsələr, onda bəzi ölkələr bu yolu keçə bilər, digərləri isə keçə bilməz. Çin isə öz yolunu seçmişdir, hərçənd bu, bir vaxtlar, Sovetlər İttifaqının mövcud olduğu dövrdə xoşa gəlmirdi. Sovetlər İttifaqı ilə Çin arasında münasibətlər çox da yaxşı deyildi. Əvvəlcə, böyük dostluq, sonra kin-küdürət olmuş, nəhayət, münasibətlər bərpa edilmişdi. Çin isə öz dediyində qalmış, öz dediyindən dönməmişdir. Xatirimdədir, Sovetlər İttifaqında Stalinin şəxsiyyətinə pərəstişin ifşa olunması prosesləri getdiyi vaxtlarda Çin çox düşünülmüş təkliflərlə çıxış etdi. Yadımdadır, o vaxtlar bu təkliflər sovet mətbuatında dərc olunmuşdu. "Pravda" qəzetində " Bir daha proletariatın diktaturası haqqında" məqalə oxudum. Çin siyasətini əks etdirən bu məşhur məqalə məhz ona səbəb oldu ki, münasibətlər inkişaf etməyə başladı. Ümumiyyətlə, o vaxtlar Stalinin şəxsiyyətinə pərəstişi ifşa edirdilər, bu proses bütün sosialist ölkələrində Macarıstanda da, Ruminiyada da, Almaniyada da, Polşada da, Çexoslovakiyada da getdi. Çinlilər isə dedilər ki, yox, biz özümüz aydınlaşdırarıq. Mən bütün bu əhvalatı yaxşı xatırlayır, bilirəm və buna görə də şadam ki, Çin öz yolu ilə gedərək böyük uğurlara nail olmuşdur. Sizin uğurlarınız hələ öndədir. Mən buna inanıram."

"Azərbaycanı, xüsusən Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyiniz, Ermənistanla Azərbaycan arasında münaqişədə haqq işimizi dəstəklədiyiniz barədə bəyanatınız bizim üçün çox

qiymətlidir. Axı, Çin Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının daimi üzvlərindən biridir. Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı təcavüzü haqqında 1992-1993-cü illərdə Təhlükəsizlik Şurasının 4 qətnaməsi və Təhlükəsizlik Şurası sədrinin bir neçə bəyanatı qəbul olunmuşdur. Özü də bütün bu sə-nədlər Çin Xalq Respublikası nümayəndəsinin tam dəstəyi ilə qəbul edilmişdir. Sağ olun."

"Bu gün mənə Dağlıq Qarabağda "seçkilərlə" əlaqədar Çinin verdiyi bəyanatı çatdırdılar, bu seçkilər qanunsuzdur, mənə bu barədə məlumat verdilər. Mən onu mətbuatda dərc etmək göstərişi vermişəm. Bizim televiziya ilə də verəcəklər. Sabah mətbuatda dərc olunacaqdır. Bir sözlə, siz buradada ədalətsizlilik hissi göstərirsiniz, yəni siz Azərbaycanın ərazi bütövlüyünü təkcə sözlə dəstəkləmirsiniz, həm də indi "parlamentə" "seçkilərini' keçirən qondarma "Dağlıq Qarabağ Respublikası"nın qanunsuz sürətdə mövcud olduğunu pisləyirsiniz. Siz öz möqveyinizi bütün dünya qarşısında konkret, açıq şəkildə ifadə edirsiniz. Mən sizin bəyanatınızı oxudum. Buna görə də sağ olun."

"Bir baxın, bizim münasibətlərimizdə nə qədər çox, yaxşı cəhətlər var. Cənab Li Penin Azərbaycana səfəri də belə xoş şəraitdə keçəcəkdir. Şadam ki, o, gəlir, mən onu 1994-cü ildə dəvət etmişdim, cənab Tszyan Tszemin də, cənab Li Peni də dəvət etmişdim. İndi ilk addım atılmışdır. Biz cənab Li Peni qəbul edirik və növbəti addım cənab Tszyan Tszemin səfəri olacaqdır."

"Bilirsiniz, beynəlxalq hüquq hər bir dövlət tərəfindən, bütün beynəlxalq təşkilatlarda hökmən yerinə yetirilməlidir. Üstəlik, axırıncı dəfə 1975-ci ildə Helsinkidə Helsinki aktı qəbul edilmişsə, bu akt ən çox Avropaya, əlbəttə, bütün dünyaya da aiddir, eləcə də Birləşmiş Millətlər Təşkilatının sənədləri, hər bir dövlətin ərazi bütövlüyü pozulmazdır, hər bir dövlətin sərhədlərinin toxunulmaz-

lığı təmin edilməlidir, ikili mövqeyə, ikili standarta yer ola bilməz. Biz gənc müstəqil dövlət olaraq bu beynəlxalq hüquq mövqelərində möhkəm dayanmışıq. Bu, təkcə Çin barəsində deyil, eləcə də bütün ölkələr barəsindədir. Bu yalnız ona görə deyil ki, biz Azərbaycanda çox ciddi zərərə məruz qalmışıq, ərazi bütövlüyümüz pozulmuşdur və buna görə də biz Çin Xalq Respublikasının ərazi bütövlüyünü dəstəkləyirik. Biz beynəlxalq hüquq mövqelərində, Birləşmiş Millətlər Təşkilatının sənədlərində ifadə edilmiş mövqelərdə möhkəm dayanmışıq. Siz əmin ola bilərsiniz ki, biz bu mövqelərdə axıradək duracağıq, bu mövqeni heç zaman dəyişməyəcəyik."

# 2000 年 06 月 19 日阿塞拜疆共和国总统盖达尔 ·阿利耶夫 与中华人民共和国驻阿塞拜疆共和国特命全权大使张国强谈话摘要

«大使先生，欢迎您。我们同您的会面是在中国全国人民代表大会常委会委员长、尊敬的李鹏先生即将对阿塞拜疆进行正式访问这样一个重大事件的前夕，我认为这将是中国-阿塞拜疆关系的重要一页，而且，李鹏先生以及所有随行人员访问阿塞拜疆，会更全面地了解到今天的阿塞拜疆，了解到这里的状况和生活。我欢迎您。 »

«您知道我们非常重视同中华人民共和国的关系。就是因为非常重视，我还在任阿塞拜疆总统的头几年，就应中华人民共和国主席江泽民先生的邀请访问了你们的国家。我们进行了很多会见和会谈，我们签署了许多重要文件，对我们表现出了很大的兴趣。会见和会谈主要是同江泽民主席，也同李鹏先生和其他中国领导人有过良好的交谈，有过非常好的会谈。»

«我认为这是独立的阿塞拜疆历史上的重大事件之一。中国是世界上一个伟大的国家，从各个方面讲都是伟大的--从人口数量，从国土面积，从经济潜力，更主要的是中国拥有极为古老、丰富的历史和文化。中国是如何获得--如果可以这样表达的话--独立，中华人民共和国是如何成立的，这是个怎样的过程，我对那些年记得很清楚，条件是非常艰苦的。中国人民为此进行了艰苦的奋斗和战斗，以鲜血的代价换来了中华人民共和国的成立。中国成了当今世界强国。现在中国人民在新的制度下，在新的国家体系中成功地发展，与世界所有国家开展合作。»

«中国有着广阔的未来。应该说所有人都已很清楚地意识到了这一点。因为在五十年这样很短的历史时期里中国实现了科学、技术、经济发展的飞跃，已经向世界上很多国家展示着今天的成就和广阔的发展前景。我很高兴在我访问期间在北京和上海看到了中国人

民所取得的成就。我很高兴我不仅了解到了中国的现代生活，而且感受到了它的历史。我们上学的时候都学过中国历史，而且读有关书籍的时候总是为如此有趣、如此丰富的历史而感到惊奇。中国人民创造的文化中最耀眼、最伟大的成就之一就是举世皆知的万里长城。»

«我很高兴我参观了长城，还登上了很难上去的一个至高点。这原来不是很容易的一件事。我们代表团有很多成员，随行人员也不少。我们一边走一边不断有人问我 ，尊敬的总统先生，已经可以了吧，已经看到了，不要再往前走了，太累了。但我对他们说，谁觉得累就让他留在这里，我们继续。开始登长城时我们人很多，但到达最高点的人很少。但我坚持下来了，结果登上了最高点。我很高兴您记住了我在那里说的话，还把它记录下来写在画上。这幅画对我来说很珍贵。要知道长城，如果这么想一想，很高，很长，而且是在什么时候建成……»

«就是说用了 300 年的时间。而且都是在公元前。这就是中国人，能创造什么奇迹！还在那么古远的年代中国人民就创造了这样的奇迹。所以我一再说这不仅是历史遗产、文化遗产和建筑遗产，这是彰显人类智慧以及中国人英勇无畏的伟大丰碑。不这样是不可能建成的。一代接一代。要知道人最多也就能活一百岁，中国人大概也是这样……»

«我希望这样，希望上帝能让我长寿。»

«更换了多少代人，新的一代继承前人的道路，继续自

己父辈、祖辈的事业，不懈努力，终于修成了这一伟大建筑。万里长城当然闻名于世的，人们都知道。但不只是这座万里长城，还有众多独特的建筑、文化和历史遗产构成了丰富的中国文化。»

«所以我们同中国保持着，以后还将保持最友好的关系 。我们在中国设立了大使馆，而您在我们这里工作大概也已经不止一年了。您要知道，中国是一个大国，所以你们可以在世界上所有的国家

设立大使馆。而阿塞拜疆作为独立国家，还很年轻，力量有限。我们当然还想在许多国家设立大使馆，只是我们的财政不准许。但在中国我们设立了大使馆，很早就设立了。»

«我觉得比中国在这里设立大使馆早。»

«这就已经证明我们确实重视我们的关系、我们的友谊 ，看到两国关系有广阔的前景。 在这方面，李鹏先生对阿塞拜疆的访问将对两国关系产生重大意义。我和李鹏先生在北京见面的时候，曾回忆起他在莫斯科动力学院学习以及后来到米格查乌勒水电站建设工地的那段时光。» «那时候这个建设项目被称作是全苏维埃、全苏联的建设项目。这个水电站的建设引起了几乎整个苏联的重视 ，来工作的不仅有我们的技术人员，还有苏联其他地区派来的技术人员。如果那时候莫斯科动力学院都派自己的学生来参加这个水电站的建设，这自然说明米格查乌勒水电站那时是有着多么重要的意义。李鹏先生对我说 ，他在那里生活过、工作过，在那里研究了水电站建设 。这也是联系我们的一个纽带。李鹏先生当然不是唯一到过阿塞拜疆，不是唯一在这里实习工作过的人，但他现在是中华人民共和国的领导人，所以这很重要。他是一位大政治家，国务活动家，我对他的生平和经历很了解。所以说在中国，国家要职不会由偶然的人来担任，这也是很珍贵的一点。担任国家要职需要走过一条很长的国务、政治活动道路，才能达到这样的高位。»

«李鹏先生走到这样高的领导岗位，正是经历了这样一条道路，从年轻时就勤奋工作，显示了自己的才华和能力。我到中国的时候 ，他是国务院总理，我们叫部长会议。我记得中国成立人民共和国时的体制，去世的毛泽东、周恩来都曾担任过李鹏先生现在担任的职务。刘少奇，我记得是主席，邓小平是中国共产党秘书长。这些我都记得很清楚。»

«中国在进行卓有成效的改革，我在北京和上海都看到了。你们的特点在于你们不效仿任何国家，不重复，而是象你们说的那样，

自己走自己的道路--走中国的道路 。这是正确的。我认为，世界上所有的国家都各不相同 ，人民也不同，有着不同的历史、传统和民族性格，机会也不同。如果所有的国家都去走一样的道路，那么有些国家能走通，有些国家就不能。而中国选择了自己的道路，虽然在苏联时期有一段时间对此很不欣赏。苏联和中国之间的关系并不是很好。开始是友谊，后来是不愉快，再后来是恢复关系。而中国没有动摇，坚持了自己的立场。我记得当苏联对斯大林个人崇拜进行揭露时 ，中国提出了很成熟的建议。我记得这些建议发表在苏联的刊物上。在 ″真理″ 报我读过一篇文章--″ 再论无产阶级专政″ 。这是一篇非常好的文章，体现了中国的政治，也恰恰成了促使关系开始发展的原因。那个时候到处都在批判斯大林个人崇拜，在很多社会主义国家都开始了这个过程--匈牙利、罗马尼亚、德国、波兰，还有捷克斯洛伐克。而中国人说不，我们自己会弄清楚。这段历史我记得很清楚，很了解，所以我很高兴中国在走自己的路，而且在取得很大的成就。你们更大的成就还在前面，我相信这一点。»

«你们所作的关于支持阿塞拜疆，特别是支持阿塞拜疆的领土完整，支持在阿塞拜疆和亚美尼亚冲突中我们的正义事业的声明，对我们来说非常重要。要知道中国是联合国安理会常任理事国之一，1992-1993 年期间安理会就亚美尼亚武装力量侵犯阿塞拜疆通过了 4 项决议和安理会主席的几个声明，所有这些文件都是在中华人民共和国主席的全面支持下通过的。

«今天我收到了中国就纳戈尔诺-卡拉巴赫进行的 ″选举 ″ 所发表的声明--这是不合法的选举。已经向我汇报了 ，我已指示在刊物上发表这个声明。我们的电视台会播送，明天会在刊物上发表。»

«所以说你们在这个问题上也表现出正义的立场，就是说你们不仅仅是言论上支持阿塞拜疆的领土完整，而且谴责现在在举行 ″议会选举″ 的所谓 ″纳戈尔诺-卡拉巴赫共和国″ 非法存在。你们具体

、公开地在全世界面前表明自己的立场。我看了你们的声明。为此也向你们表示感谢。»

«您看，我们的关系中有多少令人愉快、好的事情。李鹏先生对阿塞拜疆的访问将在这个愉快的氛围中进行。我很高兴他来，1994 年我邀请了他。我邀请了江泽民先生，也邀请了李鹏先生。现在已经有了第一步，我们将接待李鹏先生，下一步就是江泽民先生来访问了。»

«您知道，国际法应由每个国家、每个国际组织必须执行。特别是最近一次 1975 年在赫尔辛基签署了 ″赫尔辛基最后文件″，这个文件大部分涉及的是欧洲，但也关系到全世界，还有联合国的文件。 每个国家的领土主权不可破坏，每个国家边境的不可侵犯应当得到保证 。不应当有双重立场，双重标准。 我们作为年轻的独立国家，坚决坚持这一国际法的原则。这不仅是对中国 ，也是对所有国家的立场。这不只是因为我们阿塞拜疆遭受了严重的损失，我们的领土完整遭到了破坏，所以我们支持中华人民共和国的领土完整。我们坚决坚持国际法的原则，坚决坚持联合国的原则和文件。你们可以坚信，我们会把这些立场坚持到底，任何时候我们都不会改变这一立场。»

«我从莫斯科回来后进行我们计划的会面。»

«您别在意，早上、白天、晚上都是工作时间。我没有什么固定的作息，所以您不要担心。日程就是日程。今天早上 11 点我在医科大学一起庆祝了大学成立 70 周年，然后是很多其他的事情，现在是和您会面。今天我还

有很多其他的事情，而明天 11 点要飞往莫斯科。»

# Azərbaycan Prezidenti Heydər Əliyev «Azərneftyağ» istehsalat birliyinin işçiləri üçün tikilmiş yeni yaşayış binalarının istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdəki nitqindən – 3 iyun 2000-ci il

"Bu tikintilərdə Çin Xalq Respublikasının inşaatçıları da iştirak ediblər. Bu gün burada Çin Xalq Respublikasının səfiri çox gözəl bir nitq söylədi. Çin böyük bir dövlətdir, dünyanın ən böyük dövlətlərindən biridir. İkinci dünya müharibəsindən sonra Çində böyük proseslər gedir, Çin Xalq Respublikası inkişaf edir, müxtəlif mərhələlərdən keçibdir. İndi onun iqtisadiyyatı yüksəkliklərə inkişaf edir. Əhalisi bir milyarddan artıqdır və iqtisadiyyatı da dünyanın ən böyük iqtisadi potensialı olan qüvvələri ilə rəqabət aparmaqdadır. Ona görə də Çin ilə Azərbaycan arasındakı əlaqələr həmişə dostluq xarakteri, əməkdaşlıq xarakteri daşıyıbdır və bundan sonra da belə olacaqdır. Çin Xalq Respublikası səfirinin dediyi kimi, 1994-cü ildə Çinə, Pekinə öz səfərimi çox məmnunluqla xatırlayıram. Bəli, o vaxt məhz mənim o səfərim zamanı Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszemin ilə oranın hökumətinin başçısı – indi parlamentin sədri cənab Li Pen ilə və başqaları ilə görüşüb bir çox sənədlər imzaladıq. Ondan sonrakı dövr müstəqil Azərbaycan və Çin Xalq Respublikası arasında əlaqələrin inkişaf dövrü olubdur. Biz bu ayın 22-də Çin Xalq Respublikası parlamentinin – o, keçmiş hökumətin başçısı idi, çox hörmətli insandır – başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana rəsmi səfərə gəlməsini gözləyirik. Danışıqlar aparacağıq. Çox məmnunam ki, – mən hələ 1994-cü ildə onu dəvət etdim – indi o, Azərbaycana gəlir və biz bu əlaqələrimizi inkişaf etdirəcəyik. Bu əlaqələrin inkişaf etdirilməsi burada da öz təzahürünü tapıbdır. Çin Xalq Respubli-

kası inşaatçılarının bu binaların tikintisində iştirak etməsi inşaatçıların və Çin Xalq Respublikası inşaatçılarının Çin–Azərbaycan dostluğunun, əməkdaşlığının inkişaf etdirilməsinə verdiyiniz töhfələrdir. Çin Xalq Respublikasının inşaatçılarına burada gördükləri işlərə görə təşəkkürümü bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bundan sonra bu nümunədən istifadə edərək, Çin ilə Azərbaycan arasında olan iqtisadi əlaqələr daha da inkişaf edəcək və bütün sahələrdə bizim münasibətlərimiz, əməkdaşlığımız daha da yüksək səviyyələrə qalxacaqdır."

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin sədri Li Pen ilə təkbətək görüşdəki söhbətindən –23 iyun 2000-ci il

"Azərbaycan ilə ÇXR arasında qarşılıqlı surətdə faydalı əlaqələrin daha da inkişaf etdirilməsi hər iki tərəf üçün çox əhəmiyyətlidir. Dünyanın zəngin tarixə, böyük intellektual və iqtisadi potensiala malik iri ölkəsi olan Çinə 1994-cü ildə rəsmi səfərimi məmnunluqla xatırlayıram. Beynəlxalq həyatda mühüm rol oynayan, respublikamızın dövlət müstəqilliyini birincilər sırasında tanımış və onunla diplomatik münasibətlər yaratmış bu ölkə ilə əlaqələrin sıxlaşdırılmasına Azərbaycan həmişə xüsusi maraq göstərir. Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra ölkələrimizin əməkdaşlığı ardıcıl surətdə möhkəmlənir. Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin sədri olan Sizin respublikamıza rəsmi səfəriniz dövlətlərimiz arasında münasibətlərin inkişafında yeni mühüm hadisədir. Bazar münasibətləri, demokratik inkişaf yolunu seçmiş müstəqil Azərbaycan Respublikasında hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində həyata keçirilən tədbirlərdən, islahatların müvəffəqiyyətlə aparılması nəticəsində uğurlar əldə olunmuşdur. Azərbaycan dünyanın bütün ölkələri ilə öz münasibətlərini suverenlik, qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri əsasında, dostluq zəminində qurur, öz iqtisadiyyatının dünya iqtisadiyyatı ilə bağlanmasına xüsusi əhəmiyyət verir. Ermənistanın Azərbaycana təcavüzü on iki ildən bəri davam edir. Ermənistan silahlı qüvvələri tərəfindən ölkəmizin ərazisinin 20 faizi işğal olunmuş, bir milyondan çox vətəndaşımız yerindən-yurdundan zorla çıxarılaraq çadırlarda ağır vəziyyətdə

yaşayır. 1994-cü ildə atəşkəs rejimi əldə olunmuşdur. Bu münaqişənin sülh yolu ilə aradan qaldırılması sahəsində ATƏT-in Minsk qrupu böyük fəaliyyət göstərir. Ermənistan prezidenti ilə apardığım birbaşa danışıqlar hələ ki, müsbət nəticə verməmişdir."

"Biz sizin dostluğunuza əminik. Mən həmçinin əminəm ki, Azərbaycan ilə Çin arasında siyasət, iqtisadiyyat, mədəniyyət və digər sahələrdə əlaqələr daha da inkişaf etdiriləcək, beynəlxalq təşkilatlarda ölkələrimizin əməkdaşlığı genişləndiriləcəkdir."

# 2000 年 6 月 23 日 阿塞拜疆共和国总统盖达尔•阿利耶夫与由全国人民代表大会常务委会委员长李鹏率领的中华人民共和国代表团会谈摘要

«我和议长共同邀请您来访，这表明，阿塞拜疆政府、议会和人民珍视同中国的友谊。坦率地讲，即使是在原苏联时期，阿塞拜疆人民就始终同情你们。当年在中苏关系恶化时，中国受到了不公正的待遇，阿人民仍认为真理在中国一边。阿独立后，阿中两国人民的友谊有了更大的发展。我们两国都珍视自己的独立、主权和领土完整，都平等相待，相互尊重，在国际舞台上相互同情 、相互支持。1994 年访华时，我同江泽民主席达成的广泛共识以及双方签署的各项合作文件，是我们两国进一步发展关系的基础。我们两国应该并完全有可能使发展关系的步伐更快一些，范围更大一些，水平更高一些» 。

«我邀请并期待着江泽民主席访问阿塞拜疆» 。

«不干涉内政的原则应该成为国际法最重要的原则。各国的民族问题千差万别，但都应该在尊重主权和领土完整的前提下加以解决。李鹏委员长关于多极化的看法符合实际。多极有利于和平，单极带来严重后果。阿利耶夫重申，阿塞拜疆过去、现在和将来都坚持一个中国的原则»。

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin Sədri Li Penlə birgə mətbuat konfransında Prezident Heydər Əliyevin çıxışından – 23 iyun 2000-ci il

**Sual:** Cənab prezident, biz çox yaxşı bilirik ki, Siz yeni İpək yolunun yaradılması haqqında təklif irəli sürmüsünüz. Böyük İpək yolunun dirçəldilməsi sahəsində Çin ilə Azərbaycan arasında əməkdaşlığın konkret layihələrindən danışa bilərdinizmi? Siz bu yolun dirçəldilməsinin perspektivlərini qısaca təsvir edə bilərdinizmi?

**Heydər Əliyev:** Yaxşı sualdır. Sağ olun. Bəli, həqiqətən, son illər Böyük İpək yolunun dirçəldilməsi bütün dünya ictimaiyyəti üçün aktual hadisə olmuşdur. Mən məsuliyyəti üzərimə götürüb demək istəmirəm ki, bunun təşəbbüsçüsü Azərbaycan, yaxud kimsə başqa birisidir. Böyük İpək yolunu dirçəltmək ideyası Böyük İpək yolunun marşrutunda yerləşən bütün ölkələrdə müxtəlif vaxtlarda meydana gəlmişdir və biz də bu ölkələr sırasındayıq. 1998-ci ilin sentyabrında Bakıda Böyük İpək yolunun bərpasına dair beynəlxalq konfrans keçirildi. Bu konfransda 32 ölkənin, 14 beynəlxalq təşkilatın nümayəndələri, o cümlədən də Çinin nümayəndələri iştirak edirdilər. Hesab edirəm ki, Böyük İpək yolunun bərpası proqramı, diplomatiyası XXI əsrin möhtəşəm proqramıdır. Azərbaycan öz coğrafi, coğrafi-strateji mövqeyini nəzərə alaraq, iqtisadi tələbatımızı nəzərə alaraq, bu proqramın həyata keçirilməsində fəal iştirak etmək niyyətindədir. Qədim zamanlarda Böyük İpək yolu təkcə Şərqlə Qərb arasında ticarət vasitəsi deyil, eyni zamanda, xalqların, xüsusən Şərqlə Qərbin bir-birini öz mədəni də-

yərləri ilə zənginləşdirilməsinin mühüm vasitəsi olmuşdur. Hesab edirəm ki, Böyük İpək yolu, yəni Böyük İpək yolunun dirçəldilməsi proqramı bu məqsədləri qarşıdakı XXI əsrdə də həyata keçirə bilər. Böyük İpək yolunu Çinsiz, təsəvvür etmək mümkün deyil. Əgər Azərbaycan bu yolun ortasında yerləşirsə, Çin Şərqdən onun başlanğıcındadır. Amma Çinlə qonşuluqda olan Yaponiya da Böyük İpək yolu proqramına çox maraq göstərir. Məlumdur ki, Yaponiyanın sabiq baş naziri cənab Haşimoto da bir neçə il əvvəl bunu çox fəal dəstəkləyirdi və 1998-ci ildə Yaponiyaya səfərim zamanı biz bu məsələni onunla və Yaponiyanın bütün rəhbərləri ilə müzakirə etmişdik. Bir sözlə, bu proqram ona maraq göstərən bütün dövlətlərin yaxından iştirakını tələb edir. Hesab edirəm ki, Yaponiya ilə Azərbaycan arasında fəal əməkdaşlıq Böyük İpək yolu proqramının həyata keçirilməsinə sanballı töhfə verə bilər.

**Sual:** Bu yaxınlarda Cənubi Koreya ilə Şimali Koreya arasında dialoq başlanmışdır. Bu model üzrə belə bir dialoq Tayvan ilə Çin arasında da mümkündürmü?

**Heydər Əliyev:** Bəli, biz vahid Çin prinsipini bu gün də müdafiə edirik.

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Çjan Siyunun etimadnaməsinin təqdim edilməsi mərasimindən sonrakı söhbətindən – 30 mart 2002-ci il

“Çin ilə Azərbaycan arasında dostluq münasibətləri, demək olar, bütün sahələrdə geniş əməkdaşlıq mövcuddur və biz bunu özümüz üçün çox vacib hesab edirik. Biz Çin Xalq Respublikasını özümüzə dost ölkə bilirik və münasibətlərimizi inkişaf etdirmək niyyətindəyik.”

“Çin Xalq Respublikası ilə müstəqil Azərbaycan arasında diplomatik münasibətlər yaradılmasının bu günlər 10 ili tamam olur. Sizin bəxtiniz gətirmişdir ki, Çin Xalq Retpublikasının səfiri kimi öz vəzifələrinizin yerinə yetirilməsinə bu münasibətlərin 10-cu ildönümünü qeyd etdiyimiz günlərdə başlayırsınız. Keçdiyimiz bütün dövr sizin üçün də, bizim üçün də böyük əhəmiyyətə malikdir, çünki biz onillik yolu keçərək, bir-birimizi yaxşı tanıdıq və təbii ki, münasibətlərimizi daha geniş inkişaf etdirməyə imkanımız var.”

“Çin Xalq Respublikasının Sədri cənab Tszyan Tszeminin salamını mənə yetirdiyinizə görə Sizə təşəkkür edirəm. Xahiş edirəm, mənim dostluq salamımı, ən xoş arzularımı və yüksək dövləti fəaliyyətində uğurlar dilədiyimi ona yetirəsiniz.”

“İndi Çin Xalq Respublikası ilə Azərbaycan arasında bütün sahələrdə münasibətlər artıq qəti təşəkkül tapmışdır. Çin Xalq Respublikasının buradakı səfirliyi möhkəmlənmişdir, onun üçün yaxşı bina tikilmişdir. Yeri gəlmişkən, mən cənab Li Pen ilə birlikdə səfir-

liyin binasının bünövrəsinin qoyulması mərasimində iştirak etmişdim. Sonra isə onun açılışı olanda səfirin xahişi ilə təntənəli mərasimdə iştirak etdim. Hər halda, biz Çin Xalq Respublikası səfirliyinin burada, Azərbaycanda fəaliyyətindən çox razıyıq. Burada dövlət hakimiyyəti orqanları ilə, ictimai təşkilatlarla yaxşı münasibətlər yaranmışdır, ona görə də fəaliyyət üçün yaxşı zəmin var. Görürəm, Siz də təcrübəli diplomatsınız, bir çox illər Moskvada işləmisiniz, keçmiş Sovetlər İttifaqına, keçmiş İttifaqın respublikalarına, o cümlədən Azərbaycana da bələdsiniz. Ona görə də, zənnimcə, burada işləmək də, dövlət hakimiyyəti orqanları, ictimai təşkilatlar, ayrı-ayrı vətəndaşlar ilə ünsiyyət saxlamaq da Sizin üçün çox asan olacaqdır. Bir sözlə, burada fəaliyyətiniz üçün çox əlverişli şərait olacaqdır. Həqiqətən, o zaman Sovetlər İttifaqı ilə Çin arasında münasibətlərdə heç də hər şey qaydasında deyildi. Belə görüşlər də az-az olurdu və ona görə də Siyasi Büro üzvünün, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavininin səfirliyə gəlməsi sizin üçün də, bizim üçün də hadisə idi. Çünki o zaman dövlətimizin siyasəti mövcud münasibətlərlə müəyyənləşdirilirdi. Lakin bunlar artıq keçmişdə qalmışdır. İndi Siz müstəqil Azərbaycandasınız, münasibətlər də bambaşqadır və hesab edirəm ki, Sovetlər İttifaqı və Çin arasındakı kimi deyildir. O zaman bu münasibətlər gah səmimi, gah da soyuq, hətta bəzən çox gərgin olurdu. Bizim isə diplomatik münasibətlərimiz elə qurulan andan yaxşıdır və belə də qalacaqdır. Çünki Azərbaycanın Çinlə mübahisə etməli bir məsələsi yoxdur, aramızda da heç bir problem mövcud deyildir. O vaxt isə Sovetlər İttifaqı ilə mübahisələr vardı, bəziləri bəlkə hələ bu günədək qalır. Bir sözlə, burada sizin probleminiz olmayacaqdır, çünki ölkələrimiz arasında dostluq münasibətləri yaranmışdır və bu münasibətlər davam və inkişaf edəcəkdir. Buna şübhə etməyə bilərsiniz. Burada Sizin uğurla işləməyiniz üçün hər cür şərait yaradılacaqdır."

# MƏKTUBLAR

## ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ

Hörmətli cənab Sədr!

Sinszyan-Uyğur muxtar rayonunda baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntı xəbəri məni ürəkdən kədərləndirdi. Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

Hörmətlə,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 25 fevral 2003-cü il

# ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XU SZİNTAOYA

Hörmətli cənab Sədr!

Çin Xalq Respublikasının Sədri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Azərbaycan ilə Çin arasında dostluq və əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət verirəm. Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın iradəsinə uyğun olaraq daim genişlənəcək və inkişaf edəcəkdir. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Çin xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətlə,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 15 mart 2003-cü il

# ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XU SZİNTAOYA

Hörmətli cənab Sədr!

Çin Xalq Respublikasının Dəniz Donanmasına məxsus sualtı qayığın qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi. Bu faciə ilə əlaqədar sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Çin xalqına dərin hüznlə başsağlığı verirəm.

Hörmətlə,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 8 may 2003-cü il

## ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XU SZİNTAOYA

Hörmətli cənab Sədr!

Cənub-Şərqi Asiyada yayılmış atipik pnevmoniya xəstəliyi nəticəsində Çin Xalq Respublikasında insanların tələf olması xəbəri məni ürəkdən kədərləndirir. Bu faciə ilə əlaqədar Sizə, vəfat edənlərin ailələrinə, bütün Çin xalqına dərin hüznlə başsağlığı verirəm.

Hörmətlə,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 13 may 2003-cü il

## ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XU SZİNTAOYA

Hörmətli cənab Sədr!

Çin Xalq Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi və xalqınızı səmimi qəlbdən təbrik edirəm. Azərbaycan ilə Çin arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm. Əminəm ki, əlaqələrimizi bütün sahələrdə genişləndirmək və dərinləşdirmək üçün qarşılıqlı səylərimizi bundan sonra da əzmlə davam etdirəcəyik. Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

Heydər Əliyev,

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 sentyabr 2003-cü il

# ÇİN XALQ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB VEN ZYABAOYA

Hörmətli cənab Baş nazir!

Çin Xalq Respublikasının "Şençou-5" kosmik gəmisinin kosmosa uçuşunun uğurla başa çatması münasibətilə sizi və bütün Çin xalqını ürəkdən təbrik edirəm.Əminəm ki, ölkələrimiz və xalqlarımız arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı naminə səylərimizi bundan sonra da davam etdirəcəyik. Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti.
Bakı şəhəri, 16 oktyabr 2003-cü il

# ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ

Hörmətli cənab Sədr!

Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında dövlətlərimiz və xalqlarımız üçün böyük əhəmiyyət kəsb edən diplomatik əlaqələrin yaradılmasının 10 illiyi münasibətilə Zati-alilərinizə və dost Çin xalqına ən səmimi arzularımı çatdırmaqdan məmnunluq duyuram. On il tarixi baxımdan uzun bir müddət olmasa da, Azərbaycan Respublikasının dövlət quruculuğunda olduqca mühüm mərhələdir. Bu illərdə Çin Xalq Respublikası ilə əməkdaşlığın qurulması və inkişaf etdirilməsi Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri olmuşdur. Razılıq hissi ilə qeyd edirəm ki, keçən on il ərzində yüksək səviyyəli nümayəndə heyətlərinin ölkələrimizə qarşılıqlı səfərləri olmuş, dövlətlərimiz arasında həm Birləşmiş Millətlər Təşkilatı çərçivəsində, həm də ikitərəfli səmimi dostluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq əlaqələri təşəkkül tapmış, bu əlaqələrin əhatə dairəsi genişlənmiş və səviyyəsi yüksəlmişdir. Mən xalqlarımız arasında tarixi-mədəni əlaqələrin, eləcə də Şərq-Qərb iqtisadi əməkdaşlığının möhkəmləndirilməsinə xidmət edən, Çin Xalq Respublikası ilə Avropa arasında körpü rolunu oynayan "Böyük İpək yolu"nun reallığa çevriləcəyinə və tarixi statusunu özünə qaytaracağına əminəm. 1994-cü ilin mart ayında ölkənizə etdiyim rəsmi səfəri, Zati-alilərinizlə, digər yüksək vəzifəli dövlət adamları

ilə səmimi görüşlərimi məmnuniyyətlə xatırlayıram. Bu səfər zamanı aparılan danışıqlar və imzalanan sənədlər ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün möhkəm hüquqi baza yaratdı və geniş perspektivlər açdı. Əmin olduğumu bildirmək istəyirəm ki, dövlətlərimiz arasında dostluq münasibətləri və səmərəli əməkdaşlıq Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında imzalanmış müqavilələr əsasında bütün sahələrdə bundan sonra da xalqlarımızın rifahı naminə dinamik surətdə inkişaf edəcək və genişlənəcəkdir. Sizi Azərbaycan Respublikasına rəsmi səfərə dəvət edirəm və inanıram ki, bu səfəriniz dövlətlərimiz və xalqlarımız arasında hərtərəfli əməkdaşlığın inkişafına öz töhfəsini verəcəkdir. Hörmətli cənab Sədr, Sizə cansağlığı və səadət, xalqınıza sülh, firavan həyat, ölkənizə isə daim çiçəklənmə və tərəqqi arzulayıram.

Dərin hörmətlə, Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 1 aprel 2002-ci il

# ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ

Hörmətli cənab Sədr!

Koreyanın cənubunda Çin hava yollarına məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbərini dərin kədər hissi ilə qarşıladım. Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə və həlak olanların ailə üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

Hörmətlə,

Heydər Əliyev,

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 aprel 2002-ci il

# ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ

Hörmətli cənab Sədr!

Dalyan şəhəri yaxınlığında sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi. Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

Hörmətlə,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 8 may 2002-ci il

# ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm. Əminəm ki, xalqlarımız arasında dostluq və əməkdaşlığın tarixi ənənələrini qoruyub saxlamaqla dövlətlərarası münasibətlərimizi daim inkişaf etdirəcəyik. Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 27 sentyabr 2002-ci il

# ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ

Hörmətli cənab Sədr!

Sizi anadan olmağınızın 75 illiyi münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan ilə Çin arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət verirəm. Əminəm ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir. Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 avqust 2001-ci il

# ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ

Hörmətli cənab Sədr!

Çin Xalq Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi və dost Çin xalqını ürəkdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ardıcıl olaraq genişlənən dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın rifahı naminə daha da möhkəmlənəcəkdir. Sizə möhkəm cansağlığı və uğurlar, dost Çin xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 25 sentyabr 2001-ci il

# ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ

Hörmətli cənab Sədr!

Ölkənizdə baş vermiş nəqliyyat qəzaları nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi. Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

Hörmətlə,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 23 iyun 2000-ci il

# ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ

Hörmətli cənab Sədr!

Çin Xalq Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə sizi və dost Çin xalqını ürəkdən salamlayır və təbrik edirəm.Böyük intellektual və iqtisadi potensialı olan Çin Xalq Respublikasının Dünya Birliyində sanballı yeri vardır və o, beynəlxalq həyatda mühüm rol oynayır. Dövlət müstəqilliyi əldə etdikdən sonra Azərbaycan Respublikası Çin Xalq Respublikası ilə münasibətlərinin hərtərəfli inkişafına böyük əhəmiyyət verir. Əminəm ki, son illərdə ardıcıl surətdə genişlənən əməkdaşlığımız xalqlarımızın mənafeyi naminə getdikcə möhkəmlənəcəkdir. Hörmətli cənab sədr, fürsətdən istifadə edib sizə cansağlığı və uğurlar, Çinin bütün vətəndaşlarına sülh, tərəqqi və firavanlıq arzulayıram.

Dərin hörmət və ehtiramla,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 sentyabr 2000-ci il

# ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ

Hörmətli cənab Sədr!

Xenan vilayətinin Loyan şəhərində baş vermiş yanğın nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi. Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, yaxın adamlarına və bütün Çin xalqına dərin hüznlə başsağlığı verirəm.

Hörmətlə,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 27 dekabr 2000-ci il

# ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ

Hörmətli cənab Sədr!

Sizi yeni müddətə Çin Xalq Respublikasının sədri seçilməyiniz münasibətilə ürəkdən təbrik edir, sizə uzun ömür, möhkəm can-sağlığı, yüksək və məsul vəzifənizdə böyük uğurlar arzulayıram. Əminəm ki, sizin rəhbərliyinizlə Çin xalqı, böyük ölkəniz həyatın bütün sahələrində bundan sonra da uğurlar qazanacaqdır. Pekinə səfərim zamanı sizinlə olan görüşlərimi məmnuniyyətlə xatırlayıram. Sizi bir daha münasib bildiyiniz vaxtda Azərbaycana səfərə dəvət edirəm. İnanıram ki, birgə səylərimiz sayəsində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın əmin-amanlığı və çiçəklənməsi naminə inkişaf edəcək və dərinləşəcəkdir. Sizə və bütün Çin xalqına sülh, səadət və çiçəklənmə arzulayıram.

Hörmətlə,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 21 mart 1998-ci il

# ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ

Hörmətli cənab Sədr!

Çin xalqına üz vermiş ağır itki, dünya miqyaslı siyasətçi, görkəmli dövlət xadimi, böyük islahatçı Den Syaopinin vəfatı ilə əlaqədar Sizə və Çin xalqına dərin hüznlə başsağlığı verirəm. Mənim başsağlığımı Den Syaopinin ailə üzvlərinə və yaxınlarına çatdırmağınızı xahiş edirəm.

Hörmətlə,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 20 fevral 1997-ci il

# ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ

Zati-aliləri!

Çin Xalq Respublikasının Syanqan üzərində hakimiyyətinin bərpa edilməsi münasibətilə Sizi və bütün dost Çin xalqını bu əlamətdar tarixi hadisə ilə əlaqədar səmimi qəlbdən təbrik edirəm. Əminəm ki, dövlətlərimiz və xalqlarımız arasında mövcud olan dostluq münasibətləri bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.

Hörmətlə,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 iyun 1997-ci il

## ZATİ-ALİLƏRİ DEN SYAOPİN CƏNABLARINA

Zati-aliləri!

Sizi şərəfli doxsan illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm. Sizə möhkəm cansağlığı və səadət, dost Çin xalqına isə tərəqqi və çiçəklənmə arzulayıram. Biz Sizin bütün dünyada sabitlik və sülhün möhkəmlənməsinə verdiyiniz töhfələri yüksək qiymətləndiririk.

Hörmətlə,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 22 avqust 1994-cü il

# ÜMUMÇİN XALQ NÜMAYƏNDƏLƏRİ MƏCLİSİ DAİMİ KOMİTƏSİNİN SƏDRİ TSYAO Şİ CƏNABLARINA

Hörmətli cənab Tsyao Şi!

Azərbaycan xalqı və rəhbərliyi adından Sizi və Sizin şəxsinizdə dost Çin xalqını ÇXR-in təşkil olunması günü münasibətilə təbrik edirəm. Ötən illər ərzində Çin çətin, lakin heyrətamiz tərəqqi yolu keçmiş sosial və iqtisadi həyatın yenidən qurulmasında, elm və mədəniyyətin inkişafında nəzərəçarpacaq müvəffəqiyyətlər qazanmışdır. Bütün bu müvəffəqiyyətlər Çin xalqına xas müdriklik və əməksevərlik, ənənələrlə modernizmin, milli-dini xüsusiyyətlərin və müasir dövrün tələblərinin ahəngdar sintezinə nail olmaq üçün göstərilmiş hörmətəlayiq səylər sayəsində mümkün olmuşdur. Fürsətdən istifadə edib, bildirmək istəyirəm ki, Azərbaycan ölkələrimiz arasında əməkdaşlığın genişlənməsinə və dərinləşməsinə, bu əməkdaşlığın daha yüksək keyfiyyət səviyyəsinə qaldırılmasına çalışacaqdır. Sizin dost ölkənizlə öz münasibətlərimizdə biz onun suverenliyinə və ərazi bütövlüyünə, Çin xalqının öz sosial-iqtisadi və ideoloji istiqamətlərini sərbəst seçməsinə hörmət etməyi əsas tutmaq niyyətindəyik. Ümidvaram ki, Sizin dövlətiniz tərəfindən müdafiə edilən səmimi niyyətlərimiz Azərbaycanla Çin arasında uzunmüddətli səmərəli qarşılıqlı fəaliyyət üçün əsas olacaqdır. Sizə uğurlar, bütün Çin xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

Heydər Əliyev,

Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirən, Azərbaycan Respublikası Ali Sovetinin sədri.

Bakı şəhəri, 1 oktyabr 1993-cü il

# KİTABIN İÇİNDƏKİLƏR

ÖN SÖZ ....................................................................................................3

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çinə rəsmi səfər zamanı Pekində mətbuat konfransındakı bəyanatı
– 8 mart 1994-cü il.....................................................................................28
1994 年 3 月 8 日阿塞拜疆共和国总统盖达尔. 阿利耶夫在北京正式访问 中国记者招待会上的声明 .......................................................................40
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çinə rəsmi səfər zamanı Çin Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsindəki çıxışı 9 mart 1994-cü il...............................................................................48
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çinə rəsmi səfər zamanı İctimai Elmlər Akademiyasındakı çıxışı
– 9 mart 1994-cü il.....................................................................................53
1994 年 3 月 9 日阿塞拜疆共和国总统盖达尔·阿利耶夫 在北京社会科学院的讲话.....................................................................................................62
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasından Bakıya qayıdarkən Almatıda səfərin yekunları barədə jurnalistlər qarşısındakı çıxışı – 10 mart 1994-cü il ....................................68
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasının yaranmasının 46-cı ildönümü münasibətilə rəsmi qəbuldakı nitqi 29 sentyabr 1995-ci il ..........................................................71
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasının yaranmasının 47-ci ildönümü münasibətilə rəsmi qəbuldakı nitqi 30 sentyabr 1996-cı il ..........................................................74

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasının yaranmasının 48-ci ildönümü münasibətilə rəsmi qəbuldakı nitqi 1 oktyabr 1997-ci il........78
Tarixi İpək Yolunun Bərpası üzrə Bakıda keçirilmiş beynəlxalq konfransda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin giriş və yekun nitqi 8-9 sentyabr 1998-ci il........80
1998 年 9 月 8 日盖达尔阿利耶夫总统在巴库国际会议上复兴历史性的丝绸之路的开幕词和结束语 盖达尔阿利耶夫总统开幕词........83
AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN YEKUN NİTQİ ....85
**盖达**尔**阿利耶夫**总统结**束**语........88
Tarixi İpək Yolunun bərpası üzrə Bakıda keçirilmiş beynəlxalq konfransda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı – 8 sentyabr 1998-ci il........90
1998 年 9 月 8 日阿塞拜疆共和国总统盖达尔阿利耶夫在巴库国际会议复兴历史性的丝绸之路上的讲话........93
Azərbaycan Prezidenti Heydər Əliyevin Bakıda keçirilmiş Tarixi Böyük İpək Yolunun bərpası üzrə beynəlxalq konfransın yekunları ilə əlaqədar geniş müşavirədəki nitqi 10 sentyabr 1998-ci il........95
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasının yaranmasının 50-ci ildönümü münasibətilə rəsmi qəbuldakı nitqi – 30 sentyabr 1999-cu il........121
1999 年 9 月 30 日阿塞拜疆共和国总统盖达尔·阿利耶夫 为庆祝中华人民共和国成立 50 周年国庆招待会上的演讲........126
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikasının nümayəndə heyəti ilə Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin Sədri Li Penin başçılıq etdiyi Çin Xalq Respublikasının nümayəndə heyəti arasında danışıqlardakı çıxışı – 23 iyun 2000-ci il........129

2000 年 6 月 23 日阿塞拜疆共和国总统盖达尔•阿利耶夫 与由全国人民代表大会常务委会委员长李鹏率领的 中华人民共和国代表团会谈.............136
Bakıda Çin Xalq Respublikası səfirliyinin yeni binasının təməl qoyulması mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi – 24 iyun 2000-ci il ........................................................................140
2000 年 6 月 24 日阿塞拜疆共和国总统盖达尔•阿利耶夫 在中国驻阿使馆馆舍奠基仪上的讲话 ........................................................................142
Azərbaycan Prezidenti adından Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin sədri Li Penin şərəfinə təşkil edilmiş rəsmi qəbulda Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi – 23 iyun 2000-ci il .........144
阿塞拜疆共和国总统阿利耶夫 2000 年 6 月 23 日晚举行盛大宴会款待李鹏委员长和夫人朱琳一行 ........................................................................151
BMT-nin minilliyin sammiti çərçivəsində İpək yolu üzərində yerləşən ölkələrin regional əməkdaşlığının zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı – 8 sentyabr 2000-ci il ........................................................................153
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasının yaranmasının 52-ci ildönümü münasibətilə rəsmi qəbuldakı nitqi 1 oktyabr 2001-ci il..........................................................157
2001 年 10 月 1 日阿塞拜疆共和国总统在中国国庆招待会上的讲话.........161
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çinin Azərbaycandakı səfirliyinin yeni binasının açılış mərasimindəki nitqi – 7 dekabr 2001-ci il ........................................................................164
2001 年 12 月 7 日阿塞拜疆共和国总统盖达尔．阿利耶夫 在中华人民共和国大使馆新馆大楼启用仪式上的讲话 ..........................................................167
1994 年 3 月 7 日阿塞拜疆共和国总统盖达尔 ．阿利耶夫 正式访问中华人民共和国中华人民共和国主席江泽民 在与阿塞拜疆共和国总统盖达尔 ．阿利耶夫会谈中声明摘要 .....................................................169

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çinə rəsmi səfər zamanı Böyük Çin Səddi haqqında söylədiyi nitqin tabloya həkk olunması 8 mart 1994-cü il ....................170
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Ley İnçenin etimadnaməsinin təqdim edilməsi mərasimindən sonrakı söhbətindən 8 sentyabr 1995-ci il ....................170
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dəvəti ilə Bakıya gəlmiş 11 yaşlı Çin rəssamı Dzen Yanq Yanq ilə qəbul söhbətindən – 15 may 1996-cı il ....................171
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyində olmuş, Çinin görkəmli dövlət xadimi Den Syaopinin vəfatı ilə əlaqədar başsağlığı verdiyi hüzn kitabındakı sözləri 25 fevral 1997-ci il ....................171
Çin Xalq Respublikasının, İspaniya Krallığının, Polşanın və Finlandiyanın Azərbaycana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbuletmə mərasimindəki çıxışından – 4 sentyabr 1998-ci il ....................172
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zhang Hotsyanla qəbul söhbətindən 19 iyun 2000-ci il ....................176
2000 年 06 月 19 日阿塞拜疆共和国总统盖达尔 ·阿利耶夫 与中华人民共和国驻阿塞拜疆共和国特命全权大使张国强谈话摘要 ....................183
Azərbaycan Prezidenti Heydər Əliyev «Azərneftyağ» istehsalat birliyinin işçiləri üçün tikilmiş yeni yaşayış binalarının istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdəki nitqindən – 3 iyun 2000-ci il ....................188

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin sədri Li Pen ilə təkbətək görüşdəki söhbətindən –23 iyun 2000-ci il ................................................190
2000 年 6 月 23 日 阿塞拜疆共和国总统盖达尔•阿利耶夫 与由全国人民代表大会常务委会委员长李鹏率领的 中华人民共和国代表团会谈摘要......192
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin Sədri Li Penlə birgə mətbuat konfransında Prezident Heydər Əliyevin çıxışından – 23 iyun 2000-ci il ........................................................................193
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Çjan Siyunun etimadnaməsinin təqdim edilməsi mərasimindən sonrakı söhbətindən – 30 mart 2002-ci il........................................................................195

**MƏKTUBLAR**

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ.......................................................................197
ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XU SZİNTAOYA ......................................................................198
ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XU SZİNTAOYA ......................................................................199
ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XU SZİNTAOYA ......................................................................200
ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XU SZİNTAOYA ......................................................................201
ÇİN XALQ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB VEN ZYABAOYA........................................................................202

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ ........ 203
ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ ........ 205
ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ ........ 206
ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ ........ 207
ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ ........ 208
ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ ........ 209
ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ ........ 210
ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ ........ 211
ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ ........ 212
ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ ........ 213
ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ ........ 214
ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ ........ 215
ZATİ-ALİLƏRİ DEN SYAOPİN CƏNABLARINA ........ 216
ÜMUMÇİN XALQ NÜMAYƏNDƏLƏRİ MƏCLİSİ DAİMİ KOMİTƏSİNİN SƏDRİ TSYAO Şİ CƏNABLARINA ........ 217

*Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.*

Çapa imzalanıb: 21.06.2021.
Format: 60x84 1/16. Qarnitur: Palatino Linotype.
Həcmi: 14 ç.v. Tiraj: 500. Sifariş № 100.

MÜTƏRCİM
1993

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

---

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44
*e-mail: mutarjim@mail.ru*
www.mutercim.az